# AZƏRBAYCAN

**4'2021**

**1923-cü ildən çıxır**

**AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN
AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI**



| | |
|---|---|
| **Baş redaktor:** | **İntiqam QASIMZADƏ** |
| **Baş redaktor müavini:** | **Südabə AĞABALAYEVA** |
| **Məsul katib:** | **Vüsal NURU** |

***REDAKSİYA HEYƏTİ:*** **Ağasəfa, Elçin, Musa Yaqub, Vilayət Quliyev, Firuzə Məmmədli, Məmməd Oruc, Əli Əmirli, Vaqif Bəhmənli, Vahid Əziz, Seyran Səxavət, Saday Budaqlı, Yaşar, Afaq Məsud, Paşa Əlioğlu, Asim Yadigar, Rüstəm Kamal, Ənvər Əhməd, Kamil Əfsəroğlu, Əjdər Ol, Vaqif Yusifli, Fəxri Uğurlu**



**Redaksiyanın ünvanı:**
Bakı - Az1000
Xaqani küçəsi, 25

**Telefonlar:**
*Redaksiya –*
498-78-10
493-28-32
493-2834
*Mühasibat –*
493-29-41

**Çapa imzalanıb:**
19.04.2021
**Sifariş 542**
Tiraj 500
**Kağız formatı**
70x108 1/16 - 6,5
kağız vərəqi
11 çap vərəqi
16,8 şərti çap vərəqi

**E-mail:**
intigam.gasimzade@gmail.com
sudabe334@mail.ru

**Qiyməti**
**1 manat 50 qəpik**

**Bakı şəhəri,
"Azərbaycan"
nəşriyyatının mətbəəsində
ofset üsulu ilə çap olunur**


**Dərc olunmuş yazılar qəbul edilmir.
Əlyazmalara rəy verilmir və qaytarılmır.
Müəllifin fikirləri redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.**

## BU SAYIMIZDA:

### NİZAMİ GƏNCƏVİ – 880

NİZAMİ GƏNCƏVİ – Qəzəllər.....................................................................3
Nizami söhbətləri (Fərid Hüseynin həmsöhbəti Seyfəddin Rzasoydur) .............5

### POEZİYA

AĞASƏFA – Şeirlər..................................................................................19
AĞACƏFƏR HƏSƏNLİ – Şeirlər...........................................................54
GÜLNARƏ CƏMALƏDDİN – Şeirlər...................................................69
ADİL ŞİRİN – Şeirlər...........................................................................126
KAMALƏ ABİYEVA – Şeirlər............................................................133
XƏQANİ HƏBİBOĞLU – Şeirlər........................................................139
İSA SEVƏR – Gedir xərəkdə dünyam... (poema).................................150

### NƏSR

ELÇİN HÜSEYNBƏYLİ – "Kənddə bir gün", "Güllə səsləri qulağımda", "Özünü atan adamın ayaqları", "Dostumun papaqları", "Kimsə ağlayırdı..." (hekayələr)................................................30
ƏYYUB QİYAS – Ölənə qədər (kino-roman, sonu)...............................73
QƏŞƏM NƏCƏFZADƏ - Hündürlüyə tullananlar (hekayə).................143

### ŞAİR ŞAİR HAQQINDA

RİZVAN NƏSİBOĞLU – İsa Sevərin şeirində ana obrazı....................162

### ESSE

VÜSAL NURU – Ağdam olmaq...........................................................165
FƏRİD HÜSEYN – Belə demək mümkünsə........................................168

### ƏDƏBİ FRAQMENTLƏR

VAQİF YUSİFLİ – Yaşar Rzayev.........................................................172

### KİTAB RƏFİ

KİTAB RƏFİ ..............................175



*Nizami GƏNCƏVİ*

Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz,
Hər nəfəs çəkdim, hədər getdi o saət sənsiz!

Sənin ol cəlb eyləyən vəslinə and içdim, inan,
Hicrinə yandı canım, yox daha taqət sənsiz!

Başqa bir yarı necə axtarım, ey nazlı sənəm?
Bilirəm sən də dedin:"Yox yarə hacət sənsiz!"

Sən mənim qəlbimə hakim, sənə qul oldu könül,
Sən əzizsən, mən ucuz, mən heçəm, afət, sənsiz!

Nə gözüm var arayım mən səni, bəxtim də ki yox,
Nə də bir qaçmağa var məndə cəsarət sənsiz!

Sən Nizamidən əgər arxayın olsan da, gülüm,
Gecə-gündüz arayıb olmadı rahət sənsiz!

* * *

Hüsnün gözəl ayətləri, ey sevgili canan!
Olmuş bütün aləmdə sənin şəninə şayan.

Gəl eylə inayət, mənə ver busə ləbindən,
Çünki gözəlin busəsidir aşiqə ehsan.

Sordum ki, "könül hardadır", aldım bu cavabı;
"Heç sorma, tapılmaz, onu axtarsa da insan".

Rəhm eylə, deyib, sel kimi göz yaşımı tökdüm
Kim, qanım ilə əl yuma, ey afəti-dövran!

İnsafın əgər varsa, açıq de, bu Nizami,
Sənlə necə rəftar eləsin, ey mahi-taban?

Gəl söylə, cavabın nə olar, sorğu zamanı,
Əhvalımı səndən soruşarsa Qızıl Arslan?

* * *

Yenə tövbə evimi eşq xərab etmədədir,
Aşiq iftarını sevda meyi-nab etmədədir.

Könlümə bir mələyin sevgisi od saldı, adı,
Günü də Zöhrəni də göydə sərab etmədədir.

Onun eşq atəşi hər qəlbə girər, amma nədən,
Tək mənim qəlbimi atəşdə kəbab etmədədir?

Gözlərin baxdı mənə, söylədi: səbr et, səninəm.
Doğrusu, səbr edərəm, ömr şitab etmədədir.

Ahu gözlüləri yatmış zaman ovlar ovçu,
Əmr röyadə şikar olmağa tab etmədədir.

Məsləhətdir, məni qovmaqdan isə versin əzab,
Yar bunu yaxşı düşünmüşdür, əzab etmədədir.

Gər Nizamini xəta isə həlak etdirmək,
Aşiqəm, yar məni öldürsə səvab etmədədir.

## *Nizami söhbətləri*

# Nizami Gəncəvi yaradıcılığında mifoloji və tarixi şüur vəhdəti

***Seyfəddin Rzasoy: "Avropa renessansı ilə Şərq intibahı mahiyyəti, ideologiyası, fəlsəfi-estetik əsasları və poetikası baxımından tamamilə fərqli hadisələrdir".***

**Nizami İli çərçivəsində "Nizami söhbətləri" ədəbi layihəsi davam edir. Əvvəlki sayımızda qeyd etdiyimiz kimi, ədəbi layihədə hər ay bir nizamişünasın ədəbi söhbəti dərc olunacaq. Sonda isə bütün ədəbi söhbətlər bir kitabda toplanacaq.**

**Budəfəki qonağımız filologiya elmləri doktoru, professor *Seyfəddin RZASOYDUR.* O, 1996-cı ildən Azərbaycan Milli Elmlər Akademiyasında çalışır. Hazırda AMEA Folklor İnstitutunda Mifologiya şöbəsinin müdiridir. 1997-ci ildən filologiya üzrə fəlsəfə doktoru, 2013-cü ildən filologiya elmləri doktorudur. 2010-cu ildə dosent, 2019-cu ildə professor elmi adlarını almışdır. O, eyni zamanda, dahi ədibin yaradıcılığı haqqında "Nizaminin "Yeddi gözəl" poemasında mif, folklor və təsəvvüf" adlı kitab yazmışdır. Müsahibəmizdə həmin kitabdan doğan suallara cavab axtardıq...**

**– Nizami Gəncəvi yaradıcılığında mifoloji və tarixi şüur vəhdətini ümumi olaraq necə şərh edərdiniz?**

– Bəşəriyyətin şüur tarixi ümumən iki mərhələni əhatə edir: mifoloji şüur və tarixi şüur. Mifoloji şüurda məkan-zaman qapalı-təkrarlanan struktura, tarixi şüurda düzxətli struktura malikdir. Mifoloji şüura görə, məkan da, zaman da daim ölüb-dirilərək, qapalı dövrə üzrə özü özünü təkrarlayır. Məsələn, "Kitabi-Dədə Qorqud"da Şöklü Məlik dörd dəfə öldürülür və hər dəfə öldürüldükcə biz onun başqa bir boyda diri olduğunu görürük. Tarixi şüurda isə məkan-zaman təkrarlanmır, bir-birinin ardınca gəlir: məs., 1, 2. 3... və s. Biz müasir insanlar tarixi şüurun daşıyıcılarıyıq. Ancaq mifoloji şüur bizi heç vaxt tərk etməmişdir: o, əbədi olaraq müasir insanın psixikasının bir parçası olaraq qalır. Mifologiya yuxularımız, psixoloji sarsıntılar və s. vasitəsilə özünü göstərməkdə davam edir. Bu, məsələnin ümumi aspektidir. Təbii ki, öz dövrünün tarixi şüurunun daşıyıcısı olan Nizami Gəncəvinin də psixikasında mifoloji şüurla tarixi şüur müəyyən tənasübdə vahid sistem şəklində mövcud olmuşdur. Lakin Nizami Gəncəvinin yaradıcılığında mifoloji və tarixi şüur vəhdətinə gəlincə, bu, artıq məsələnin xüsusi aspektini təşkil edir.

Nizami yaradıcılığında mif problemi, əslində, şüur və gerçəklik, insan və dünya, cəmiyyət və təbiət, sosium və reallıq münasibət səviyyələrini əhatə edən problemdir. Sənətkarın poeziyasında mifologiya və tarixi şüur bir-biri ilə ayrılmaz şəkildə bağlı olan iki struktur səviyyəsini təşkil edir. Bu struktur qatları həm diaxron, həm də sinxron aspektlərdə bir-biri ilə bağlıdır. Tarixi şüur diaxron

baxımdan mifoloji şüurun davamı olmaqla mifin strukturunu yeni təkamül mərhələsində “davam etdirir”. Digər tərəfdən, mifologiya Nizami düşüncəsində tarixi şüurla eyni sinxron cərgəni təşkil edən arxeşüur potensiyasıdır.

Bütün bunları Nizami yaradıcılığına tətbiq etmək istəsək, *mif-ədəbiyyat* dixotomik modeli alınır. Lakin bu ikili model daxili quruluşu etibarilə üçüzvlü struktura malikdir: *mif-folklor-ədəbiyyat*. Gerçəkliyin strukturalist modelinə görə, iki qarşı duran elementlərdən birindən növbəti element ayrılır, doğulur və həmin element qarşı duran tərəflər arasında mediator-əlaqəçi-araçı rolunu oynayır. Folklor da mifologiya ilə ədəbiyyat arasında aralıq mərhələni təşkil edir. Bu cəhətdən, Nizaminin yaratdığı bədii mətnlərdə aşkarlana bilən bütün mifoloji strukturlar onun mətnlərinə folklor statusunda, yəni folklor mətnlərinin vasitəsilə daxil olmuşdur.

İbtidai insan bu harmoniya əsasında yaşamışdır. Lakin müasir insan miflərdəki bu motivlərə sosial-ekoloji düşüncə modelindən yanaşır. Nizaminin də diqqətini mifik mətnlərdə cəlb edən məhz bu sosial-təbii harmoniya ideyaları olmuşdur. Məsələn, “Sirlər xəzinəsi” poemasında Firidun şahla ceyrandan bəhs edən hekayətdə məhz mifik ideya paradiqmatik planda öz əksini tapmışdır. Firidun ovda olarkən qarşısına gözəl bir ceyran balası çıxır. Şah onu ovlamaq istəyir. Lakin nə iti qaçışlı atı ceyrana çata bilir, nə də atdığı sərrast ox ceyrana dəymir. Şah atından və oxundan bunun səbəbini soruşur. Şahın yayı ona başa salır ki, o yavru ceyranın qoruyucusu sənsən, sənin qorxundan ona bir ox sancıla bilərmi?

***Məgər elə indicə, ey şah, – dil açdı kaman,***
***Qarşında deyildimi dilsiz-ağızsız heyvan?***
***Gəzirdi zirehinin himayəsində yazıq,***
***Kimin həddi var ki, de, zirehinə sanca ox?***

Nizami yayın dili ilə şahı həmin ceyran balasının “zirehi” qoruyucusu adlandırır. Nizami kimliyi həmin laylarda gizlənib. Bu, artıq mifik ideyanın Nizami tərəfindən bədii-fəlsəfi kontekstdə mənalandırılmasıdır. Lakin həmin bədii ideyanın nüvəsində mifik ideya durur. Poemada sözü gedən hekayətin mifik əsasını *hami-ovçu* motivi təşkil edir. Azərbaycan folklorunda, Ovçu Pirim obrazı da daxil olmaqla, mifik ovçu obrazları var. Onlar ov hamiləri – qoruyucularıdır. Onlardan icazəsiz ov etmək olmaz. Məsələn, “Kitabi-Dədə Qorqud”da Bəkil keyiklərin hamisidir. O, müəyyən yaş həddinə gəlib çatmamış keyiklərə damğa vurur ki, onları icazəsiz ovlamasınlar. Yasağı pozan cəzalanır. Azərbaycan əfsanələrində qarnında balası olan heyvana güllə atan ovçuların magik-mistik şəkildə cəzalanması, qollarının quruması, müəyyən müddətdən sonra həlak olmaları və s. motivi var. Nizaminin yaratdığı Firidun obrazının da əsasında mifdən gələn ov hamisi arxetipi durur. Firidun şahın atı da, silahı da ovçuluq kultunu təmsil edir. Onun ovlamaq istədiyi ceyran hələ körpədir: ovlanma həddinə gəlib çatmayıb. Firidun həm sosial-siyasi planda bir şah, həm də mifik planda bir ov hamisi kimi ilahi harmoniyanı özü pozduğu üçün ona ceyrandan iti qaçan atı və şimşək kimi sürətli uçan oxu cəza verirlər: şah bir bala ceyranı ovlaya bilmədiyi üçün öz qoşununun və adi ovçuların qabağında pərt vəziyyətə düşür.

Nizaminin bədii mətnlərində mifoloji düşüncə mətnləri sintaqmatik deyil, paradiqmatik planda təcəssüm olunur. Yəni Nizami “Xəmsə”də, sadəcə, maraqlı əhvalatlar və hekayətləri nəzmə çəkmək – sintaqmatik sxemlə bir-

birinin ardınca düzmək məqsədini qoymamışdır. Mifologiya onun yaradıcılığında humanitar ideyalar kimi paradiqmatik-bədii məna layları şəklində təcəssüm olunmuşdur. Bu məqam "Nizami və folklor və mif" probleminin öyrənilməsi baxımından çox mühüm metodoloji nöqtədir. Nizamidə mif və folklor məsələlərini sintaqmatik planda təqdim etmək *Nizami yaradıcılığını*





*tədris edən bir orta məktəb müəlliminin öz şagirdləri qarşısında görməli olduğu işdir: o, mətni oxuyur və onun məzmunundakı tarixi-mədəni faktları, bədii lövhələri və s. sintaqmatik ardıcıllıqla şagirdlərinə izah edir. Lakin nizamişünasın qarşısında duran məsələ Nizaminin yaratdığı mürəkkəb bədii struktur sistemində həmin sistemi təşkil edən elementləri müxtəlif məna sütunlarında birləşdirən mifik ideyaların paradiqmatik təcəssüm səviyyələrini aşkarlamaqdır.* Yəni mifoloji şüur tarixi şüurun məhsulu olan bədii mətndə hansı statusda, hansı məna paradiqmasında və necə təcəssüm olunur? Mif bədii ideya kimi Nizami mətnində öz avtonomluğunu saxlaya bilir, ya müəllif ideyasının təcəssüm olunduğu qəlibə çevrilir? Nizami mifin stixial enerjisini bədii-estetik enerjiyə necə sublimasiya edir? "Nizami Gəncəvi yaradıcılığında mifoloji və tarixi şüur vəhdəti" məsələsinin qoyuluşu ilə bağlı sualları daha da çoxaltmaq, genişləndirmək olar. Ancaq hesab edirəm ki, bu, ayrıca bir söhbətin mövzusudur.

– **Azərbaycan ədəbiyyatşünaslığında intibah dövrünün Nizami Gəncəvinin yaşadığı dövrə uyğun olub-olmaması ilə bağlı mübahisələr var. Ancaq Sizin kitabınızda belə bir məqam var ki, intibah dövründə miflər aktuallaşır, yenidən bədii ədəbiyyatın mövzusuna çevrilir. Avropa ədəbiyyatına münasibətdə bu dedikləriniz həqiqətə uyğundur. Bəs Şərq intibahı kontekstində də bu fikriniz həqiqətdirmi?**

– Şərq intibahı məsələsinə münasibətdə "intibah" və "renessans" terminlərini bir-birindən fərqləndirmək lazımdır. Baxmayaraq ki, "renessans" sözü dilimizdə hərfi mənada elə "intibah", "oyanış", "dirçəliş" mənalarındadır. Lakin Avropa renessansı mənasını nəzərdə tutan "renessans" sözü ilə Şərq intibahı mənasında olan intibah sözü bir-birindən tamamilə fərqli hadisələrdir. Bu mənada, orta əsrlər Avropasında baş vermiş Renessans hadisəsi orta əsrlər Şərqində heç vaxt baş verməyib. Və yenə də bu mənada, Nizaminin də yaradılmasında, baş verməsində mühüm rol oynadığı Şərq intibahı ilə Avropa

renessansı məzmunu, dini-ideoloji, estetik-fəlsəfi əsasları baxımından tamamilə fərqli hadisələrdir.

Avropa renessansı bütün ideoloji mahiyyəti etibarilə antidin – antixristianlıq hadisəsidir. Avropa renessansı xristianlığın, təqribən, min illik tarixini "zülmət epoxası" adlandıraraq, özünün bütün gücü və ideoloji ehtiyatları ilə bu dinə qarşı mübarizə aparmışdır. Həmin mübarizə dini-ideoloji tipologiyası baxımından Bütpərəstliklə Xristianlıq arasında gedən mübarizə idi. Avropa renessansı öz mübarizəsini "humanizm" adı altında aparmış, xristianlığı insanlığın əleyhinə olan ideologiya kimi rədd etmişdir. Bu cəhətdən, Avropa renessansının ideoloji mahiyyəti və simasını iki əsas prinsip müəyyənləşdirir:

1. Təkallahlılıq dini olan xristianlığın inkar olunması;
2. Xristianlıqdan əvvəlki mifoloji ideologiyanın bərpa olunması.

Beləliklə, Avropa renessansı prosessual zaman strukturu baxımından "zülmət epoxası" adlandırdığı xristianlığı aradan qaldıraraq, mifoloji mədəniyyəti yenidən dirçəltməkdən ibarət idi. Yəni Avropa renessansının mahiyyətini mif-din mübarizəsi, başqa sözlə, mifologiyanın özünü bərpa etmək uğrunda dinlə apardığı mübarizə təşkil etmişdir. Birmənalı şəkildə bildirmək istərdik ki, "Şərq intibahı" adlandırılan mədəniyyətin tarixində miflə dinin belə bir qarşıdurması yerli-dibli baş verməmişdir. Mifologiya nə türk, nə hind-Avropa mifologiyasının nümunəsində İslam dininə qarşı durmamışdır.

Əlbəttə, bizə dərhal etiraz oluna bilər ki, Əbülqasim Firdovsinin "Şahnamə"si öz ideoloji mahiyyəti etibarilə fars-sasani mifologiyasının İslam dininə qarşı qoyulmasından ibarətdir. Bəli, "Şahnamə"də, doğrudan da, özünü bütün göstəriciləri səviyyəsində təsdiq edən mifologiya-din qarşıdurması var. Lakin bu cəhət Şərq intibahının mahiyyət etibarilə Avropa renessansı mənasında bir renessans hadisəsi olduğunu qətiyyən təsdiq etmir. Ona görə ki, "Şahnamə"də özünü göstərən mifologiya-din qarşıdurmasının əsasında sasani-ərəb və sasani-türk etnik-milli oppozisiyaları durur. Firdovsi fars-sasani milli şüurunun daşıyıcısı kimi, ərəblərin VII əsrdə Sasani imperiyasının varlığına son qoymasını qəbul etməmiş və öz əsərində həm ərəblərə, həm də XI əsrdə "ərəblərin imperiyasına" son verməklə Sasani tarixinin nə vaxtsa bərpa olunacağına ümidləri də birdəfəlik dəfn etmiş türklərə olan nifrətini açıq şəkildə büruzə vermişdir. Göründüyü kimi, "Şahnamə"dəki mif-din qarşıdurması bütün mahiyyəti etibarilə fars "şüubiyyə" ideologiyasını özündə əks etdirən etnik qarşıdurma idi. Təbii ki, konkret bir etnosun marağına xidmət edən və özünə yalnız həmin etnik kosmos miqyasında rəğbət yaradan intibah-dirçəliş ideologiyası və onu təcəssüm etdirən "Şahnamə" müxtəlif etnosların mədəni xəlitəsindən yaranan Şərq mədəniyyət tarixinin nəinki "renessans", heç "intibah" ideologiyasına da çevrilə bilməzdi və bilmədi də.

Söhbəti çox uzatmayıb, Nizaminin üzərinə gəlsək, heç bir tərəddüd etmədən deməliyik ki, sənətkarın düşüncə və yaradıcılığında mif-din qarşıdurması, dinin inkar olunması, İslam ideologiyasının mifoloji ideologiya ilə əvəz olunması, mifologiya əsasında yeni mədəniyyətin yaradılmasının heç bir təzahürü yoxdur. Və buna nəinki Nizami yaradıcılığında, ümumiyyətlə Şərq intibahını təmsil edən sənətkarların heç birinin yaradıcılığında rast gəlinmir. Nizami bir mütəfəkkir şair və filosof kimi dindar olmuş, Allah onun üçün varlıq aləminin bütün maddi və mənəvi təzahürlərinin yarandığı və "yox" olduğu fövqəlmaddi ideya olmuşdur. Qeyd edim ki, Nizaminin bütün düşüncəsinin, yaradıcılığının hər bir misrasının Allah ideyası ilə necə süsləndiyini görmək üçün nizamişünas Siracəddin Hacının yaradıcılığını oxumaq kifayətdir.

**– Bəs "Şərq renessansı" ideyası necə yarandı?**

– Keçən əsrin 70-80-ci illərində keçmiş SSRİ-nin ədəbi-mədəni məkanında bir “renessans” küləyi əsməyə başladı. Sovet estetikləri, məsələn, məşhur N.Konrad, “renessans”ın təkcə Avropaya məxsus olmadığını, əslində, hər bir mədəni kosmosa məxsus tipoloji hadisə olduğunu əsaslandırmağa çalışırdılar. Nutsubidze, Çaloyan kimi alimlər “renessans” terminini “gürcü renessansı”, “erməni renessansı” adları altında “milliləşdirdilər”. Bu, Azərbaycan alimlərində, xüsusilə nizamişünaslarında möhkəm qıcıq yaratdı. Ona görə ki, Şota Rustaveli nə qədər müqtədir sənətkar olursa-olsun, onun “Pələng dərisi geymiş pəhləvan” əsəri Şərq ədəbiyyatı tarixində nə mif-din qarşıdurması, nə də mifoloji mədəniyyətin bərpası baxımından nəinki “renessans”, heç sönük bir “intibah” da yarada bilməmişdir. Əlbəttə, “Pələng dərisi geymiş pəhləvan” əsəri çox dəyərli və məzmunlu poemadır, ancaq bununla bərabər, vurğulamaq borcumuzdur ki, bu əsərin öz poetik energetikası səviyyəsində yaratdığı ədəbi “intibah” gürcü ədəbiyyatının sərhədlərindən qırağa çıxa bilməmişdir. “Erməni intibahı”na gəlincə isə, bu barədə ümumiyyətlə danışmağa dəyməz. Təbii ki, erməni etnosunun dünən, bu gün və ümumiyyətlə həmişə dünyaya təqdim olunan tarixi və mədəniyyəti mövcud erməni reallığından tam fərqli hadisə olduğu kimi, “erməni renessansı” da saxta makulatura hadisəsidir.

**– Bəs “Şərq renessansı” renessans deyildisə, onda nə idi?**

– Bu, sözün həqiqi mənasında, nəhəng bir “intibah – oyanış” hadisəsi idi. Və ən başlıcası, bu intibahın əsasında məhz din – İslam dini dururdu. Bu haqda təkcə Adam Metsin “Müsəlman renessansı” adlı fundamental kitabına baxmaq kifayətdir. Vəhy hadisəsi olan İslam dini müsəlmanları dini yaymaq vəzifəsi ilə missiyalandırdı. Bu ilahi missiya ərəb etnosunun milli ruhunu passionarlaşdırdı, coşdurdu. İslamın yayılması ilə Cənubi Avropa, Asiya və Şimali Afrika qitələrini əhatə edən nəhəng İslam mədəniyyəti yarandı. “Quran”ın ərəb millətindən olan Məhəmməd peyğəmbərə nazil olunması ərəb dili və mədəniyyətini kultlaşdırdı. Beləliklə, Şərq-İslam mədəniyyəti ərəb dili ilə başlandı. Lakin sonra daha güclü poetik əsaslara və qədim ənənələrə malik olan fars dili tez bir zamanda əruz metrikasını mənimsədi və Şərq-İslam poeziyasının hakim özünüifadə modelinə çevrildi. Nizami ədəbi-bədii planda bu poetik model əsasında yetişdi. Onun yaşadığı dövrdə sənətkarın mənsub olduğu nəhəng mədəni məkanın ən funksional bədii kommunikasiya modeli fars dili idi. Təbii ki, digər dillər də, o cümlədən az sonra Şərq-İslam mədəni məkanında fars dilinin linqvomərkəzçilik funksiyasını arxa plana keçirəcək “türki” də var idi. Ancaq bədii-fəlsəfi təfəkkürü nəinki Şərq, eləcə də dünya ədəbiyyatının fövqünə qalxmağa imkan verəcək psixopoetik enerjiyə sahib olan Nizaminin yaşadığı çağda onun aşıb-daşan poetik energetikasının nəhəng Şərq-İslam poeziya məkanının hər bir nöqtəsinə yayılmasına imkan verən linqvomodel fars dili idi. Bu cəhətdən, “Nizami axı niyə Azərbaycan dilində deyil, fars dilində yazıb?” sualını qoyanlar bu sualın cavabını başqa bir sualla – “Nizami nə üçün müqəddəs “Quran”ın, eyni zamanda Şərq-İslam mədəniyyətinin hakim elmi dili olan ərəb dilində yazmayıb?” sualı ilə tapa bilərlər. Axı farscadan qabaq ərəb dili hakim poeziya dili idi? Ancaq Nizami zamanında ərəb dili bu statusunu itirmiş, yerini fars dilinə vermişdi. Demək, məsələnin bütün mahiyyəti Nizami kimi dühaların öz poetik güclərini hansı bədii-ədəbi məkanda və hansı dil vasitələri reallaşdıra biləcəklərini qabaqcadan hesablaya bilmələri ilə bağlıdır. Bu baxımdan, əgər “türki” Nizami çağında poeziya dili kimi farscanı arxa plana keçirib, Şərq-İslam mədəni məkanının hakim kommunikasiya modelinə çevrilə bilsə idi, Nizami, heç

şübhəsiz, türkidə yazardı. Fikir verin, Füzuli öz qəsidələrini həm türkidə, həm farscada, həm də ərəbcədə yazıb. Məqsəd öz poetik enerjisini mənsub olduğu məkanın bütün səviyyələrinə yaymaq olmuşdur. Çünki Füzuli epoxasında artıq "türki" poeziya dilinə çevrilmişdir və onun bu statusu qazanmasında elə Füzulinin özü də müstəsna rol oynamışdı. Nizami çağında türk dili bu status səviyyəsində deyildi: "türki" həmin dövrdə hələ farsdilli poeziya nümunələrinin modeli əsasında "əruza oturmaq" – uyğunlaşmaq mərhələsində idi.

Beləliklə, Avropa renessansı antidini, Şərq intibahı dini hadisədir. Və bu mənada Şərqdəki "intibah" heç bir halda Avropadakı "renessans"la eyni hadisə deyildir. Siz diqqətlə fikir verin, Məhəmməd peyğəmbərin Aligyeri Dantenin "İlahi komediya"sında cəhənnəmə göndərilməsi ilə onun Nizami Gəncəvinin yaradıcılığında kamil insan modeli kimi tərənnüm olunmasını vahid "renessans" modelində necə eyni məna sırasına qoymaq olar? Bu mənada, Avropa renessansı ilə Şərq intibahı mahiyyəti, ideologiyası, fəlsəfi-estetik əsasları və poetikası baxımından tamamilə fərqli hadisələrdir.

– **Sovet dövrünün konyunkturasını qeyd edərkən bir məqamı vurğulayırsınız ki, "Sovet şərqşünaslığı sosialist Tacikistanına görə dünyanın fars şairi kimi tanıdığı Firdovsinin adının qabağında "fars-tacik şairi" yazdığı kimi, Nizamini də İran, fars, yaxşı halda farsdilli şair hesab edən "burjua" şərqşünaslığının, kapitalist ideologiyasının əksinə olaraq, onun da adının qabağında "Azərbaycan şairi" yazırdı". Onda belə çıxır ki, Nizaminin azərbaycanlı şair hesab edilməsi həmin konyunkturanın davamıdır?**

– Bunu qəbul etmək bizim üçün nə qədər çətin olsa da, etiraf etməliyik ki, Nizaminin keçmiş SSRİ-nin əhatə etdiyi ədəbi-mədəni məkanda Azərbaycan şairi kimi "təsdiq olunmasında" sovet ideologiyasının haqqında danışılan siyasəti çox böyük rol oynamışdır. Halbuki, elə SSRİ-nin özündə də klassik şərqşünaslıq məktəbi rəsmi ideologiyaya qarşı açıq şəkildə çıxmağa cəsarət etməsə də, öz aləmində Nizamini fars-İran şairi kimi qəbul etməkdə davam etmişdir. Taciklər onu bu gün də öz şairləri hesab edirlər. Bu mənada, Nizaminin keçən əsrin 40-cı illərindən məhz Azərbaycan şairi kimi sovet ədəbiyyat ideologiyasının şüarlarından birinə çevrilməsi, əslində, dünya reallıqları fonunda fövqəladə dərəcədə böyük hadisə idi.

– **Sovet ideologiyasının Nizamini Azərbaycan şairi kimi təbliğ etməsində məqsəd nə idi?**

– Keçmiş Rusiya imperiyasının bilavasitə yerində qurulmuş sovet – şura dövləti bütün dünyaya göstərirdi ki, o, kapitalist quruluşu tərəfindən bütün milli və insani hüquqları tapdalanmış xalqların haqlarını özünə qaytarmaqla onları xoşbəxt həyata qovuşdurur. Keçən əsrin 20-si illərində proletkult siyasəti adı altında klassik irsi inkar edən sovet ideologiyası az bir zamandan sonra həmin siyasətin yanlış olduğunu başa düşdü və əksinə siyasət yeridərək, klassikləri sosializm realizmi modelinə uyğunlaşdırmaq yolu ilə mənimsəməyə başladı. Bu siyasət SSRİ xalqlarının həm də inqilaba qədər klassiklərə münasibətdə tapdalanmış, inkar olunmuş, əllərindən alınmış hüquqlarının bərpasını nəzərdə tuturdu. Beləcə, Azərbaycan xalqı – Nizamiyə, taciklər – Firdovsiyə qovuşdular. Bu, məsələnin sovet ideologiyası mövqeyindən görünən mənzərəsidir. Ancaq indi belə bir sual meydana çıxır: Sovet ideologiyası fars dilində yazmış Nizamini niyə taciklərə deyil, Azərbaycan xalqına "bəxş etdi"? Halbuki taciklər buna indinin özündə də iddia edirlər.

Təbii ki, sovet ideoloqları bu addımı ata bilməzdilər. Çünki Nizami Gəncəvi sovet ideologiyasının bu siyasətinə qədər, ən azı, Firudin bəy Köçərlinin yazdığı ədəbiyyat tarixində Azərbaycan şairi kimi təsbit olunmuşdu. Bütün təzkirə ənənələri fars dilində yazmış bu şairin Gəncəli olması, farsdilli Azərbaycan və İran şeirinin tarixində böyük rol oynaması kimi faktları orta əsrlərdən üzə bəri inkarolunmaz ədəbi həqiqət kimi çoxdan təsdiq etmişdilər. Bu cəhətdən, sovet şərqşünaslığı bütün alt ideoloji maraqları ilə birgə Nizaminin Azərbaycan ədəbiyyat tarixinin üzvi hadisəsi olduğunu qəbul etməklə, sadəcə, məlum həqiqəti ortaya qoymuşdu. Unutmaq olmaz ki, sovet ideologiyasının "Nizami Azərbaycan şairidir" tezisi dünya şərqşünaslığının "Nizami fars-İran şairidir" tezisinə qarşı yönəlmişdi. Sovet ideologiyası öz tezisini real həyata tətbiq edərək, Nizamini çoxmillətli keçmiş SSRİ məkanında məhz Azərbaycan şairi kimi geniş şəkildə təbliğ etdi, sənətkarın müxtəlif onilliklərdə yubileyləri keçirildi, ən başlıcası isə, Nizami SSRİ-nin şərqşünaslığa və sovet xalqlarının ədəbiyyat tarixlərinə aid bütün dərsliklərində məhz Azərbaycan şairi kimi ədəbi şüurlara yeridildi. Təkcə bir faktı qeyd edim ki, "Xəmsə"nin son dərəcə fundamental layihə olan sətri-filoloji tərcüməsi keçən əsrdə – sovet epoxasında həyata keçirildi. Həmin əsrin 70-80-ci illərində Azərbaycanda nəhəng bir "Nizami bumu" da yaşandı.

"Nizami Azərbaycan şairidir" tezisinin sovet ideologiyasının Şimali Azərbaycan xalqını Cənubi Azərbaycandan və Türkiyə türklərindən tam şəkildə "fərqlənən" bir "Azərbaycan sovet xalqı" kimi formalaşdırmaq siyasətinin tərkib hissəsi olması isə, elə hesab edirəm ki, başqa bir söhbətin mövzusudur.

Azərbaycan ədəbiyyatşünaslığı "Nizami Azərbaycan şairi deyil" tezisini ədəbi kimlik kontekstində deyil, *milli kimlik* müstəvisində qavrayır. Halbuki milli kimliklə *ədəbi kimlik* fərqli anlayışlardır. Nizaminin milli kimliyinə gəlincə, bir neçə il bundan qabaq akademik Teymur Kərimlinin AMEA-nın Rəyasət Heyətində etdiyi məruzə bunun üçün tamamilə kifayət edir. Həmin məruzədə Nizaminin türk milli kimliyinə dair kifayət qədər sanballı və inkarolunmaz faktlar var. Məsələnin bütün mahiyyəti Nizami türk milli kimliyini onun ədəbi kimliyi səviyyəsində təsdiq edə bilməklə bağlıdır. Çünki dünya farsca yazmış Nizamini türk poetik kimliyinin deyil, fars-İran poetik kimliyinin nümayəndəsi hesab edir. Azərbaycan ədəbiyyatşünaslığı keçən onilliklər ərzində farsca yazmış Nizaminin türk milli kimliyinə əsaslanıb, onun Azərbaycan ədəbiyyatının faktı olması üzərində israr etməklə məşğul olmuşdur. Çox təəssüf ki, biz yalnız israr edə bilirik, ortaya dünyanı fakt qarşısında qoyacaq fundamental yanaşmalar qoya bilmirik.

**– Səbəbi?**

– Səbəblər çoxdur, bu səbəblərin ən əsası, Azərbaycan ədəbiyyatşünaslığının *Azərbaycan ədəbiyyatının tarixi* ilə *Azərbaycanda ədəbiyyatın tarixi* arasında fərq qoya bilməməsidir. Azərbaycan ədəbiyyatı tarixi sovet dövründən başlamaqla konqlomerat prinsipi ilə işləyir. Yəni Manna, Midiya, Atropaten, Albaniya dövlətlərinin ərazilərində şair adına kimi görüblərsə, onu Azərbaycan ədəbiyyatı adı altında "paketləyiblər". Başqa sözlə, heç bir ədəbi-poetik varislik prinsipi gözlənilmədən ərazi prinsipini əsas götürməklə, ədəbi olan hər şey və hər kəs milli Azərbaycan ədəbiyyatı elan olunub. Nəticədə, ədəbiyyat tariximiz Herodot vasitəsilə bizə gəlib çatmış naməlum dilli Midiya əfsanələri ilə başlayır, sonra naməlum dilli "Avesta", daha sonra naməlum dilli Alban ədəbiyyatı Davdağ ilə davam edir və nəhayət, ərəbdilli Azərbaycan ədəbiyyatına keçir. Ardı ilə farsdilli Azərbaycan ədəbiyyatı gəlir və növbə, nəhayət, anadilli ədəbiyyata çatır. Ən başlıcası, ədəbiyyat tarixi kitabları bu müxtəlif dilli ədəbi

faktlar arasında onları vahid Azərbaycan ədəbiyyat tarixi kimi qovuşdura biləcək ədəbi-mədəni, bədii-estetik varislik paradiqmasını aşkarlaya bilməmişdir. Məsələn, sübut edə bilməmişdir ki, “Avesta” bilavasitə Azərbaycan ədəbiyyatıdır, yoxsa Azərbaycan ədəbi düşüncəsinə təsir edən qaynaqlardan biridir. O prinsiplə ki “Avesta” Azərbaycan ədəbiyyatı hesab olunur, həmin prinsipə əsaslanıb, müqəddəs “Qurani-Kərim”in də Azərbaycan ədəbiyyatı olduğunu çox asanlıqla sübut etmək olar. Çünki “Quran” öz məzmun və ideya poetikası ilə orta əsrlər Azərbaycan ədəbiyyatının bütün ruhunu özünə tabe etmişdir. Ancaq “Quran” Azərbaycan ədəbiyyatı yox, milli ədəbiyyatımızın ideya-məzmun qaynaqlarından biridir. Nəticədə, mövcud ədəbiyyat tarixi kitablarımızda bizə təqdim olunan qədim dövr Azərbaycan ədəbiyyatı “Azərbaycan ədəbiyyatı” yox, “Azərbaycan ərazisində ədəbiyyatın tarixi”dir. Nizaminin Azərbaycan ədəbiyyatına aidliyini inkar edənlər də məhz buna əsaslanıb, onun yaradıcılığını, ən yaxşı halda, Azərbaycan ərazisində yaranmış fars-İran ədəbiyyatı kimi qəbul edirlər. Yəni söyləyirlər ki, Nizami milli kimliyi baxımından, bəlkə də, türk ola bilər, ancaq o, ədəbi kimliyi baxımından fars-İran ədəbiyyatının nümayəndəsidir. Biz isə onun yalnız milli kimliyini əsas götürür, ədəbi kimliyi barəsində düşünməyi ağlımıza belə gətirmirik.

**– Nizaminin əsərlərindəki mifoloji sistem, ümumi götürəndə, tanrımərkəzli idi. Yəni insan həm dünyanın işarələrinə, həm də qəzavü-qədərə tabe idi. Eyni zamanda, qəhrəmanların taleyi və tarixin özü də mifoloji sistemə daxildir. Bütün bunlar bir-biri ilə nə dərəcədə ziddiyyətlidir, yaxud əksinə olaraq üzüdür?**

– Nizami dövrünün hakim düşüncə modeli İslam dini idi. “Quran” Nizami üçün bütün həqiqətlərin mənbəyi idi. İstər ortodoks əsaslara malik İslam düşüncəsində, istərsə də heterodoks əsaslara malik təsəvvüfi-irfani düşüncə sistemi Allah-Dünya-İnsan qapalı struktur dövriyyəsidir: hər şey Allahdan başlanır və “O”-na qayıdır. Qaynağı yunan fəlsəfəsi olan Şərq peripatetizmi də bu sistemə tabe etdirilmişdir. Nizami insanın “faili-muxtar” yaradılması haqqında İslam təliminə əsaslanmışdır. “Faili-muxtar” olmaq, hərfi mənada, öz hərəkətlərində seçim hüququna malik olmaq deməkdir. Allah – insana yaxşı və pis əməli bir-birindən tam aydınlığı ilə fərqləndirə biləcək dərəcədə ağıl vermişdir. Nizaminin poetik fəlsəfəsində insanın idrakının hüdudları aydın şəkildə işarələnib. Başqa sözlə, insanın nə vaxt ilahi iradənin qəzavü-qədərin daşıyıcısı olması, nə vaxt isə öz şəxsi iradəsini gerçəkləşdirməsi kimi suallara Nizami yaradıcılığında aydın bədii-fəlsəfi cavablar verilib. Nizami yaradıcılığında mif avtonom düşüncə arxetipləri kimi iştirak etmir. Sənətkarın yaradıcılığına folklor formatında daxil olan miflər onun üçün ilahi həqiqətlərin ilkin-sadəlövh şəkildə öz əksini tapdığı müdriklik qaynaqları idi. Bu cəhətdən, qəhrəmanların mifin poetik məntiqini əks etdirən fəlsəfəsi Nizaminin bədii-fəlsəfi düşüncə sistemində əriyərək, müəllif ideyalarının ifadə vasitəsinə çevrilmişdir.

**– Əsərin ikinci adının “Yeddi ulduz” olması, əsərdə münəccimlərin ulduzların ismarışını şaha çatdırması və sair var. Ulduzlar sanki göylərin əlifbasıdır. İstərdim, ulduzların obraz kimi bu əsərdəki mahiyyətini şərh edəsiniz.**

– Nizaminin “Yeddi gözəl” poeması, sözün həqiqi mənasında, mürəkkəb semiotik sistem, işarə konstruksiyasıdır. Bu əsərdə bütün elementlər işarədir. Bu işarələr sistemində orta çağ kosmosunun ən mühüm fiquru kimi 7 ulduz çıxış edir. Əsərdə 7 ulduz və 7 fələk fiquru memar Şidənin tikdiyi sarayda 7 günbəz-qübbə simvolu şəklində təcəssüm olunmuşdur. Ulduzların günbəz

simvolu ilə təqdim olunması isə təsadüfi deyildi. Məscid, kilsə və s. kimi kainatın mikromodeli olan tikililərdə günbəz//qübbə kürəvi kosmosu simvollaşdıran zəruri elementdir. Bu cəhətdən, Şidənin tikdiyi sarayda da 7 günbəz 7 ulduzun simvoludur. Bu cəhətdən, Nizami "Yeddi gözəl"indəki yeddi ulduz saray-modelinin də xüsusi funksiyası var idi. Bu saray insanla Allah arasında mistik-idraki əlaqənin mikrokosmik məkan-zaman modelidir.

– **Kitabınızda Bəhramın mağarada qeyb olma motivini "Kitabi-Dədə Qorqud" eposundakı qeyb dünya məsələsi ilə əlaqələndirirsiniz. "Koroğlu" dastanının da Türkiyədən toplanmış bir variantında Koroğlu sonda yox olur. Sualım bundan ibarətdir ki, Bəhramın qeybini ölüm deyil, ölümsüzlük anlayışı ilə əlaqələndirirsiniz. İstərdim bu məqamı "qaib" aləmi ilə "qeyb" aləminin fərqi kontekstində izah edəsiniz...**

– Fərid bəy, bu sualınızla Azərbaycan epik-mifoloji düşüncə tarixinin ən qaranlıq bir məsələsinə toxundunuz. Elə bir məsələ ki, əslində, "Kitabi-Dədə Qorqud" dastanının, qədim oğuz eposunun və orta əsrlər türk xalq sufizminin "açarını" təşkil edir. Bu baxımdan, "Dədə Qorqud" dastanındakı "Ğaib aləm" semanteminin mənasını "kəşf etmədən" Azərbaycan mədəniyyətinin mif, folklor, təsəvvüf qatlarından ibarət mürəkkəb məna aləminə həmişəki kimi kənardan tamaşa etməli olacağıq.

"Dədə Qorqud" dastanındakı "Ğaib aləm" konsepti transsendent – şüurdan kənar – fenomendir. İstər Azərbaycan, istərsə də dünya qorqudşünaslığında dastana transsendent kontekstdə heç vaxt yanaşılmadığı üçün, demək olar ki, bütün tədqiqatçılar eposun transmediativ energetikası və semantik dəyərlərinin proyeksiyalandığı "Ğaib aləm" konseptinin izahından yayınmışlar. Təbii ki, qorqudşünasları Dədə Qorqudun xəbərlər aldığı "Ğaib" aləmin nə olduğu düşündürmüşdür, lakin "Ğaib" aləmin "Qurani-Kərim"dəki "qeyb" aləmi ilə leksik baxımdan səsləşməsi – "ğaib" və "ğeyb" eyni məna yuvasına aiddir, – onları hələ də çıxa bilmədikləri çətinlik qarşısında qoymuşdur.

Bu, bir aksiomdur ki, gerçəkliyi bu və ya digər tənasübdə inikas edən hər bir mətnin öyrənilməsi həmin gerçəkliyin mahiyyətini özündə əks etdirən metod əsasında aparılmalıdır. Mətn – maddi və qeyri-maddi olmasından asılı olmayaraq, bütün hallarda gerçəkliyin davamıdır: gerçəklik müxtəlif təsvir dillərinin – kodlarının vasitəsilə mətndə proyeksiyalanır. "Dədə Qorqud" dastanı da oğuz epik-mifoloji düşüncə gerçəkliyini proyeksiyalandırır. Onu Azərbaycan və Türkiyə qorqudşünaslığında olduğu kimi, "filoloji mətn" paradiqmasında uzun onilliklər ərzində öyrənməyə davam etmək "Sizif əməyindən" başqa bir şey deyildir. Çünki "filoloji" metodla "Dədə Qorqud" mətninin semantik dərinliklərinə enmək qeyri-mümkündür. Bunun səbəbi onunla bağlıdır ki, "Dədə Qorqud" eposu etnokosmik tipologiyasına görə filoloji mətn yox, ritual-mifoloji mətndir. Ona oğuz ritual-mifoloji düşüncə modeli, oğuzların dünya modelinin struktur elementlərini – insanı, təbiəti, maddi və qeyri-maddi zamanı, ruhları, tanrıları, fiziki və metafizik aləmləri və s., – vahid sistemdə birləşdirən "canlı" funksional mexanizm kimi yanaşmadıqca, "Kitabi-Dədə Qorqud" adlanan abidə haqqında "fantaziyalarımızı" söyləməkdə davam edəcəyik.

"Dədə Qorqud" eposunun bütün metodoloji mahiyyəti onun ilk cümləsində açıq şəkildə ifadə olunub: "Rəsul əleyhissəlam zəmanına yaqın Bayat boyından Qorqut ata diyərlər bir ər qopdı. Oğuzın ol kişi təmam bilicisiydi, – nə diyərsə, olurdı. **Ğaibdən** dürlü xəbər söylərdi. Həq təala anın könlinə ilham edərdi".

Buradan aydın olur ki:

* Qorqud gələcək haqqında xəbərlər verirdi;

* O, həmin xəbərləri “ğaibdən” alırdı;

* “Ğaibdən” aldığı xəbərləri Allah özü onun könlünə vəhy edirdi.

“Ğaib” sözünü hamı “qeyb” aləmi kimi izah edir. Təbii ki, “ğaib” və “qeyb” sözləri fonetik fərqlərlə eyni bir sözdür. “Ğaib” sözünün qeyb aləmi kimi anlanmasının səbəbi həmin anlayışın yuxarıdakı təqdimatda birbaşa Allahla – “Həq təala”, – bağlılığıdır. Bu təqdimatda Qorqudun xəbər söyləməsinin funksional sxemi belədir: Allah Ğaib aləmindəki sirləri Qorqudun könlünə ilham edir, yəni həmin xəbərləri ona vəhy şəklində verir.

İndi gəlin, eposun verdiyi informasiyanı ortodoksal İslam dininin düşüncə kodu ilə “oxumağa” çalışaq. Oxu – alınmayacaq. Çünki “Qurani-Kərim”in “əl-Cinn” surəsinin 26-27-ci ayələrində deyildiyi kimi, Qeybi Allahın özündən başqa heç kəs bilmir: “Qeybi bilən Odur və öz qeybini heç kəsə əyan etməz; Bəyənib seçdiyi peyğəmbərdən başqa”.

Deməк, ortodoksal İslama görə, Allah qeybdəki sirləri ancaq öz seçdiyi peyğəmbərindən başqa heç kəsə bildirməz. Bəs, Qorqud bu baxımdan Qeybdən informasiya ala bilərdimi? Təbii ki – yox. Çünki onun nə ortodoks, nə də heteredokc ənənədə peyğəmbər statusu olmamışdır. O, heterodoks İslami ənənədə övliya dərəcəsinə yüksəldilsə də, həmin ənənə onu heç vaxt peyğəmbər kimi təqdim etməmişdir:

Beləliklə, ziddiyyət alınır:

* Eposa görə, Qorqud qeybdən xəbər verir;

* Qurana görə, Qorqudun qeybdən xəbər verməsi mümkün deyildir.

– **Bəs onda Qorqudun dürlü xəbərlər aldığı Ğaib aləmi, əslində, hansı dünyadır? Və Qorqudun könlünə ilham edən “Həq təala”, əslində, kimdir?**

– Eposun ilk cümləsinin mətnüstü və mətnaltı olmaqla iki səviyyəsi var. Mətnüstü bizə birmənalı şəkildə İslam konseptlərini təqdim edir. Lakin mətnaltına enən kimi Tanrıçılıq ideologiyasının konseptləri ilə qarşılaşırıq. Bu baxımdan, “Kitabi-Dədə Qorqud”un birinci cümləsinin mətnüstü qatındakı Həq-təala – Allah, – mətnaltı qatda Tanrıdır. *Bəs Ğaib?*

Təbii ki, mətnüstündəki Ğaib aləminin də mətnaltında Tanrıçılıq dünya modeli ilə bağlı ekvivalenti, yəni əsli – orijinalı var. *Bəs bu obraz nədir, necə bir aləmdir?*

Qeyd edək ki, “Kitabi-Dədə Qorqud” eposunda Ğaib aləminin məkan işarəsi kimi Tanrıçılıqdakı orijinalının adına rast gəlinmir. Yalnız həmin aləmin zaman işarəsini bildirən “ol zaman” adına rastlaşırıq.

– **Bəs “Kitabi-Dədə Qorqud”dakı Ğaib aləmə ümumtürk epos sistemində ümumiyyətlə rast gəlmək mümkündürmü?**

– Əlbəttə! Özü də çox asanlıqla. Biz Ğaib aləmlə təkcə ümumtürk eposunun deyil, bütün dünya eposlarının şahı olan “Manas” dastanında qarşılaşırıq. Talantaalı Bakçiyev “Qırğız epos söyləyiciləri” adlı əsərində yazır ki, “Manas” dastanında və ümumən müasir qırğızların dünyagörüşündə *“kayıp”* anlayışı vardır. *“Kayıp”* anlayışı qırğızların dünyagörüşündə həm insanlara, həm də heyvanlara, zoomorfik varlıqlara və ruhlara aid edilir. “Kayıp” anlayışı insanlara və heyvanlara o halda aid edilir ki, *onlar ölmür, həlak olmurlar, yalnız yoxa çıxır* və canlılar dünyasını, yaxud orta dünyanı tərk edir və *kayıp* dünyaya, yəni zamanlararası, məkanlararası dünyaya gedirlər. Qırğızlar kayıp dünyasına gedənlərin özlərini də *kayıp* adlandırırlar”.

Vurğulamaq istərdim ki, qırğızların dilində “kayıp” şəklində səslənən söz müasir Azərbaycan türkcəsindəki “qaib”, “Kitabi-Dədə Qorqud”dakı “ğaib”

sözüdür. T.Bakçiyevin verdiyi bilgidən aydın olur ki, kayıp//ğaib//qaib dünyada yaşayanlar ölü yox, diridirlər, çünki onlar ölməmiş, sadəcə, yoxa çıxaraq zamanlararası məkana, yəni o dünya ilə bu dünyanın arasındakı məkana getmişlər. Başqa sözlə, bunlar bu dünyadan qeyb olmuş igidlər – kayıblar//itkinlərdir.

– **Bəs kayıplar, – itkinlər, – qaiblər Kayıp – Ğaib dünyada necə yaşayır, nə işlə məşğul olurlar? Onların həmin dünyadakı varlıqları bu dünyadakı varlıqlarından nə ilə fərqlənir? Onlar nə şəkildə mövcuddurlar?**

– Yenə də T.Bakçiyev yazır ki, "kayıp dünyaya düşənlər üç dünya arasında: yuxarı – tanrıların dünyası, orta – dirilərin dünyası, aşağı – ölülərin dünyası arasında özünəməxsus vasitəçiyə, körpüyə çevrilirlər. "Manas" qəhrəmanlıq dastanının motivlərinə görə, onlar dirilər dünyasını müvəqqəti olaraq tərk edir və kayıp dünyaya çatdıqda *görmə və eşitmədən* məhrum olurlar. Çox istisna vəziyyət və şəraitlərdə, xalqa təhlükə üz verəndə onlar öz xalqına kömək etmək və onu təhlükədən qurtarmaq üçün gözlənilmədən orta dünyaya – insanların dünyasına gəlirlər. Qırğızlar bu səbəbdən onları ölmüşlərin cərgəsinə aid etməyərək, itmiş və gözəgörünməz olmuş qüdrətli ruhlar sayırlar. Belə hesab edirlər ki, xalqın həyatının ağır çağlarında onları çağırmaq mümkündür".

Göründüyü kimi, qayiblər nə ölülər, nə də dirilər dünyasındadırlar, yəni Dədə Qorqud kimi nə ölü, nə də diridirlər. Onlar göyə çəkilmişlər: orada şəkil – ruh kimi yaşayırlar. Lazım olanda ya özləri, ya da xalqın çağırışı ilə insanların köməyinə gəlirlər.

Beləliklə, Manas eposundakı "Kayıb" dünya konsepti "Kitabi-Dədə Qorqud"dakı "Ğaib" dünya konseptinin üzərinə gur işıq salır. Məlum olur ki, Dədə Qorqudun haqqında dürlü xəbərlər söylədiyi Ğaib dünyası İslam dinindəki Qeyb aləmi deyil və ola da bilməz. Kayıp aləmə çəkilmiş baş qəhrəman Manas və onun igidləri orada nə ölü, nə diri olduqları kimi, Ğaib aləmə gedib-gələn Dədə Qorqud da nə ölü, nə də diridir – "Ölü desəm, ölü deyil, // Diri desəm, diri deyil". Oğuz igidlərinin yaşadığı indiki zaman – *dirilərin dünyası,* "əcəl alıb, yer gizlədiyi" igidlərin getdiyi dünya – *ölülərin dünyası,* qeybə çəkilmiş igidlərin dünyası isə – onların həm diri, həm də ölü olduqları Ğaib//Kayıp dünyasıdır. İslam dünya modelində ölmüş insanların *misali bədən şəklində* mövcud olduqları Bərzəx aləmində olduğu kimi, Ğaib aləmindəki igidlər də *şəkil formasında olan* varlıqlar halındadırlar. Bunu yeni tapılmış "Kitabi-Türkman lisani" oğuznaməsinin IX soyunda 40 şagirdlə Ğaib dünyasında yaşayan Oğuz igidlərinin virtual-transmediativ görüşü də sübut edir. Eposda Ğaib dünyada liminal varlıqlar şəklində mövcud olan Oğuz cavanmərdləri insiasiya – ölüb-dirilmə – mərasimindən keçən 40 şagirdlə canlı şəkildə görüşmürlər. Dədə Qorqud trans halında olan 40 şagirdə cavanmərdlərin sanki şəklini göstərir. Başqa sözlə, cavanmərdlər trans halında olan 40 şagirdin gözlərinə görsənir, başqa sözlə, əyan olurlar.

"Kitabi-Dədə Qorqud" eposundakı "Ğaib dünya" türk xalq sufizminin də açarıdır. Məsələn, Azərbaycan məhəbbət dastanlarında qəhrəmana "haqq vergisi" verən ölümsüz "qırx ərən" obrazı – *"Yatmışdım, üstümə gəldi ərənlər, // Səfil, nə yatmısan, oyan, dedilər. // Oyandım, qəflətdən açdım gözümü, // Al, abi kövsərdən, iç, qan, dedilər...",* – birbaşa "Ğaib dünya" konsepti ilə bağlıdır.

Sualın cavabı çox genişləndiyi üçün qısa şəkildə qeyd edim ki, "Koroğlu" dastanının əksər variantlarında qəhrəmanın ölümü motivinə, demək olar ki, təsadüf olunmur. Bu, Ğaib dünyada ölüb-dirilmə mexanizmi ilə bağlıdır. Qəhrəman bu dünyadakı missiyasını başa vurduqdan sonra Ğaib dünyaya

köçərək liminal potensiyaya, başqa sözlə, transmediativ varlığa çevrilir və hər dəfə yeni qəhrəmanların simasında doğulur.

Nizaminin "Yeddi gözəl" məsnəvisində bu dünyada öz missiyasını tamamlamış Bəhramın keyikin "dəvəti" ilə şüurlu olaraq mağarada yox olması da *tipoloji* baxımdan "Ğaib" dünya konsepti ilə bağlıdır.

– **Poemada Bəhram şah üçün tikilmiş üçlük strukturuna malik Xəvərnəq – Günəşli qəsri, belə deyək, bəyənilmir və yeddilik strukturuna malik yeni qəsr tikdirilir və Bəhram gözəlləri məhz bu sarayda ağırlayır. Yeni qəsr, əslində, yeni dünya ideyasıdır, yoxsa makrokosm – böyük dünyadır?**

– Məsnəvidə göstərildiyi kimi, Bəhram üçün ayrıca qala tikdirmək qərarına gələn Neman şah kamil rəssam, astrologiyanı dərindən bilən məşhur bənna Simnarı dəvət edir. Və Simnar 5 ilə Xəvərnəq – Günəşli qəsrini tikir. "Ayaqlarını naz ilə altına yığmış bir fələkə" bənzəyən bu sarayın strukturunda dünyanın *zaman və rəng ahəngi* inikas olunur: saray bir güzgü kimi dünyanın kosmik reallığını əks edir. Xəvərnəqin güzgü keyfiyyəti sarayın kosmik reallığı inikas edən mikromodelə çevrilməsi demək idi. Bu model-qəsrdə dünyanın məkan – rəng, zaman ölçüləri dinamizmi ilə mikroproseslәşir və qəsr bu yolla kainatın ilahi-kosmik har-moniyasını proyeksiyalandırırdı.

Lakin məlum olur ki, Simnar öz imkanları daxilində işləməyib; 1 yox, 7 günbəzli, 3 rəngi yox, bütün rəngləri inikas edən saray tikə bilərmiş. Bu cəhətdən, Nizami "Yeddi gözəl"ində reallaşan dünya modelinin kosmik kamillik universumu 7-likdir. Ulduzların – fələk obrazında simvollaşan Allahın, – hökmü ilə *kosmik başlanğıc//mütləq xeyirin* daşıyıcısı olaraq "proqramlaşdırmış" Bəhram obrazı üçün 3-lük prinsipi ilə tikilmiş Xəvərnəq disfunksional məkan idi: 7-lik universumundan proqramlaşdırılmış obraz bu naqis məkanda funksiyalaşa bilməzdi. Kamilliyin ilahi 7-lik ritmi üzrə döyünən real dünyanı Xəvərnəq məhdud ritmdən – 3-lükdən inikas edirdi. Başqa sözlə, real kosmik harmoniyanı daraldır, məhdudlaşdırırdı. Kamil funksiya üçün "hesablanmış" Bəhram isə, Xəvərnəqdə təhrif olunmuş ritmlər müstəvisində gerçək ilahi harmoniyaya qoşula bilməzdi.

Bəhram üçün belə bir kosmik sarayı Simnarın şagirdi Şidə tikir. O, həm rəssam, həm də mühəndis idi, təbiət, həndəsə, nücum elmlərini kamil bilirdi. Şidə də ulduzlara, göyün sferik qurumuna uyğun saray tikmək istəyir. Bundan ötrü o, 7 göy qatını 7 saraya çevirməli və kainatın rəng, ulduz, insan, gün və s. elementlərindən saray kompleksi yaratmalı idi. Şidə tikdiyi bu sarayda dünyanın kosmik qurumunu memarlıq kodu vasitəsilə təsvir edir. Belə ki, o, 7 sfera və 7 ulduzu 7 günbəd simvoluna çevirir. 7 günbəddən hər birini 7 göy qatlarının uyğun rənginə boyayır. Orta çağ dünya modelində məkan 7 iqlimə bölünürdü və hər iqlim və həmin iqlimdəki ölkə göyün bir qatına uyğun idi. Şidə bu uzlaşmanı təmin etmək üçün hər iqlimin nümayəndəsi olan şahzadəni onun iqliminə uyğun ulduzun simvolu olan saray//günbəddə yerləşdirir. 7 bayraq da burada məkani-etnik simvoldur. Həftənin 7 günü də bu sarayda ulduz, iqlim, rəng və s. elementlərə uyğunlaşdırılır. Əslində, bu sarayda bir-birinə uyğun olmayan element yoxdur və bu elementlər bir tərəfdən həm özləri, digər tərəfdən isə Kosmos, Etnos və Zaman qatlarının simvolları olmaqla orta çağ dünyasının kosmik modelini təqdim edir. Əlahiddə kosmik funksiya ilə çıxış edən Bəhram isə hər ulduza uyğun rəngdə geyinərək uyğun zaman//iqlim//göy sferası və s. pillələrlə hərəkət etməklə bu elementlərin düzülüşündə simvollaşan kosmik harmoniyaya qoşulmuş olurdu. *Bu model//sarayın hər bir elementi simvolik reallığa malik idi və bu simvolların vahid bir sarayın strukturunda memarlıq*

*kodu ilə sıralanmaları orta çağ dünya qavrayışının verə bildiyi Vahid Dünya İnformasiyasının müvafiq kodla şifrələnməsi idi.*

**– Məncə, Bəhram şah bu əsərdə həm də Günəşi simvolizə edir. O, Günəşdir və ətrafında səyyarələr var. Qədimdə inanırdılar ki, günəş, əslində, ətrafındakı ulduzların işığını əks etdirir. Bu mənada, Bəhram şah da yeddi gözəlin həqiqətini əks etdirir və əsər beləcə sanki dünyanın aqibəti təsiri bağışlayır. Bu simvolika barədə siz nə deyərdiniz?**

– Orta əsrlər düşüncə modeli Allah-Dünya-İnsan qapalı strukturunun makrokosmik və mikrokosmik eyniyyətinə əsaslanır. Başqa sözlə, Allahın insan ağlı üçün qapalı olan strukturu dünyanın strukturunda, dünyanın strukturu isə insanın strukturunda təkrarlanır: dünya – insanda, insan – dünyada proyeksiyalanır. Ona görə də bu düşüncə modelində dünya – *böyük insan,* insan – *kiçik dünya* hesab olunurdu. Bu cəhətdən, Bəhramın günəşi simvolizə etməsi orta əsrlər semiotik – işarəvi, – düşüncə modeli baxımından sizin tərəfinizdən edilmiş düzgün müşahidədir.

**– Birinci nağılda nəfs şəhvətdən, ikincidə yalançılıqdan, üçüncüdə mahiyyətində ehtiras dayanan eşqdən, dördüncüdə cahillikdən, beşincidə tamahdan, altıncıda şərdən, yeddincidə haramdan təmizlənməsindən söhbət gedir. Sanki Bəhram şah yeddi nağıl vasitəsilə islah olur, yəni alternativ dünya onu islah edir. Nizami Gəncəvi sanki bu nağıllarda nəfsin təmizlənməsini sufi mərhələləri kimi əks etdirir. Sadəcə, sufizmdəki ümumi mərhələləri Nizami yarımmərhələlərə bölüb. Yoxsa?**

– Müşahidəniz tamamilə doğrudur və orta əsrlər düşüncə modelinin məntiqini əks etdirir. Burada biz iki məqamı bir-birindən fərqləndirməliyik:

Birincisi, hər bir konkret sufi təliminə xas olan *təsəvvüfi-irfani* kamilləşmə modeli;

İkincisi, Nizami yaradıcılığında öz əksini tapmış *bədii-irfani* kamilləşmə modeli.

Bunları bir-birindən fərqləndirməsək, obyektiv nəticələrə gələ bilmərik. Hər bir konkret sufi ordeninin özünün konkret təriqət modeli olmuşdur. Burada kamilləşmə qolunun mərhələlərinin, hər mərhələnin özünün daxili strukturunun dəqiq bölgüsü olmuşdur. Biz Nizaminin “Yeddi gözəl” məsnəvisində konkret bir təsəvvüf təliminə xas olan bölgünü müşahidə etmədik. Ona görə də Nizami yaradıcılığında bədii-irfani kamilləşmə yolundan bəhs edə bilərik.

Qeyd edək ki, “Sirlər xəzinəsi”ndə sufiliyin nəzəri-kateqorial, “Xosrov və Şirin” ilə “Leyli və Məcnun”da ilahi-idraki, “Yeddi gözəl”də idraki-praktik, “İskəndərnamə”də nəzəri-konseptual tərəfləri müşahidə olunur. Lakin Nizaminin heç bir əsəri insana sırf sufi baxışı deyildir.

Nizami insan probleminin həllində çağının dünya modellərindən çıxış etmişdir. Bu dünya modelləri içərisində Kamil İnsan konsepsiyasının xüsusi mistik-idraki şərhini verən sufilik mistik-dini, fəlsəfi-idraki dünyagörüşü kimi həmişə şairin diqqətini çəkmişdir. Lakin Nizami Bəhramın simasında klassik sufi obrazı yaratmamışdır. Sufilikdəki insanın kamilləşmə modelinin nəzəri-texniki elementlərindən istifadə edən şair bu prosesdə çağın paralel dünya modellərindən də istifadə etmiş və mahiy-yətcə orijinal bir obraz yaratmışdır. Bu obraz bütün çoxluq təşkil edən sufi cizgiləri ilə bərabər, heç də klassik sufi modelinin verə biləcəyi obraz-variant deyildir. Bu, özünü sufilərin Allahla mistik ünsiyyətə girməyinin mümkünlüyünə münasibətdə bilindirir. Sufilərin keçdiyi yolla gedən Bəhram yolun sonunda heç də mistik ünsiyyət feyzi ilə yaşayan

qəh-rəmana çevrilmir. Nizami onun belə bir əlaqə qabiliyyəti qazanmasına dair heç bir işarə vermir. Nizaminin Bəhramı yolunun Fəna və Bəqa pillələrinin təqdimində Merac arxetipinin sufi yox, klassik formasına əsaslanır: Bəhram bir dəfə ölür və Allaha qovuşmaq üçün yeganə imkanı bu ölümlə əldə edir. Lakin bu fərqlərə baxmayaraq, Nizaminin Bəhramı əxlaqi-idraki kamillik, ədalətli insan, mütləq xeyir və Allah ədalətinin daşıyıcısı məqamlarına məhz sufi yolu ilə çatır. Bu, bir daha göstərir ki, Nizami Bəhramı mürəkkəb yaradıcılıq təfəkkürünün məhsulu olan çoxqatlı obrazdır.

**– “Yeddi gözəl”dəki dünyaları mahiyyətcə iki yerə mikrokosm – kiçik dünya və makrokosm – böyük dünyaya bölürsünüz. Sanki bu fərqlər əsəri oxuyanların da Nizami dünyasına daxil olma “ölçüsünü” göstərir, ya necə?**

– Təbii ki, elədir. Bizim hamımızın da bir oxucu kimi, Nizaminin “Yeddi gözəl”də gerçəkləşdirdiyi dünyaya “daxil olmağımız”, öz bədii düşüncəmizi Nizami düşüncəsinə “qoşula bilməyimiz” üçün, sizin qeyd etdiyiniz “Nizami dünyasına daxil olma “ölçüsünə”” köklənməliyik. Əks halda, mətni nə qədər oxusaq da, onun dünyasından kənarda qalacaq, əsərə kənardan tamaşa etməli olacağıq.

Nizami çox mürəkkəb müəllifdir. Elə hesab edirəm ki, nə Azərbaycanda, nə də dünyada onu səciyyələndirən, Nizami kimliyini “daşlaşmış epitetə” çevirə bilən identifikativ işarə hələ tapılmamışdır. Biz onu, adətən, “mütəfəkkir şair” adlandırırıq. Mütəfəkkir şair – hərfi mənada ümumən filosof şair deməkdir. Hələ ki, bundan irəli getməmişik. “Filosof” təyini Nizami çağında Şərq peripatetizmini, başqa sözlə, “əhli-hikməti” işarələyirdi. Lakin belə hesab edirəm ki, Nizami kimliyi hələ özünün dəqiq ad-işarəsini tapmamışdır. Çünki şairin dünyagörüşü əhli-hikmətin də – filosofların, əhli-vəhdətin də – sufilərin görüşlərinin fövqünə qalxır. Nizamidə əhli-şəriətin – İslam dininin görüşləri ehkamdır. Bu məsələ, bütövlükdə götürdükdə, fəlsəfi problemdir. Bu sahədə ciddi tədqiqatlar da aparılmışdır. Ancaq XX əsrin materialist dünyagörüşündən tamamilə azad olan yeni yanaşmalara ehtiyac var. Və bu yeni yanaşmalar müasir nizamişünaslığın prioritetlərinə çevrilməlidir. Burada bir-birindən heç bir halda ayrılıqda götürülə bilməyən iki şeyə ehtiyac var:

1. Fars dilini farsdilli şeirin bütün tarixi poetikasını əhatə edəcək dərəcədə bilmək;

2. Müasir dünyanın humanitar təhlil metod və texnologiyalarından peşəkar səviyyədə baş çıxartmaq.

Heç şübhəsiz ki, Nizamini tədqiq etmək üçün fars dilini bilmək lazımdır. Ancaq fars dilini bilmək Nizamişünaslığın müstəsna şərti ola bilməz. Əgər tədqiqatçının “nizamişünaslıq” baqajı yalnız fars dilini bilməklə məhdudlaşacaqsa, o, ən yaxşı halda, Nizami mətni ilə Azərbaycan oxucusu arasında “raviyə”, “nağılçıya” çevrilə bilər. Məsələnin mahiyyəti daha dərindədir. Məsələn, K.Levi-Stros yazır ki, ““Tərcüməçi – qatildir” deyimi miflərin tərcüməsinə şamil olunmur. Ən pis tərcüməçi belə, mifin mahiyyətini təhrif edə bilmir”.

Levi-Stros niyə belə hesab edir? Çünki mifin mahiyyəti onun sintaqmatik quruluşunda deyil, paradiqmatik quruluşunda, yəni mənaların bir-biri ilə vəhdət təşkil etdiyi modeldə ifadə olunur. Bu cəhətdən, Nizamini “sintaqmatik” üsulla oxumağa son qoymaq, onun gerçəkləşdirdiyi mətnlərin “paradiqmatik” məna laylarına enmək lazımdır. Nizami kimliyi həmin laylarda gizlənib. Onu yalnız orada axtarmalıyıq.

***Söhbəti Fərid HÜSEYN apardı***



*AĞASƏFA*

## OYANDI QOCA VULKAN

***Nə yatmısan, qoca vulkan, səninləyəm!***
***Məmməd ARAZ***

Daha dözə bilmədi,
Daha boğa bilmədi
Otuz illik ağrını.
Oyandı qoca vulkan,
Yardı düşmən bağrını.

Oyandı qoca vulkan,
Silkələndi zirvələr.
Murov dağın başından
Dığırlandı dığalar,
Yumbalandı "kirvələr".

Oyandı qoca vulkan,
Xışmaladı, xışladı
Beton istehkamları.
Kül oldu düşmənlərin
Arzuları, kamları.
Miras qaldı tankları,
Miras qaldı topları.
Boş qaldı papaqları,
Puç oldu hap-gopları.

Laçın yolunda qaldı
Yırtılmış şapşapları.

Oyandı qoca vulkan,
Qazilər muğam üstə
Havalandı Şuşadan:
– Evin yiyəsi gəldi!
Sürüş burdan, şarlatan!

Oyandı qoca vulkan,
Çıxdı alov içindən
İgidlər simurq kimi.
Azərbaycan göründü
Havada yumruq kimi.

Oyandı qoca vulkan,
Oyandı, Məmməd Araz.
Şəhidlərin qanından
Qarabağ başdan-başa
Çiçəkləyəcək bu yaz...

***2020.***

## GECƏ DOĞULAN ŞEİRLƏR

Gecə doğulan şeirlər
Kül altından çıxan oddur,
Ulduz-ulduz xatiratdır...

Səhərəcən məşğulatdır,
Tanrı ilə ixtilatdır
Gecə doğulan şeirlər...

Gecə doğulan şeirlər
Xeyrə, şərə tərəzidir,
Ruhun göylərə ərzidir...

Hər gecə günün tərsidir,
Tanrının gecə dərsidir
Gecə doğulan şeirlər...

Gecə doğulan şeirlər
Bir qaynarda – vamda gəlir,
Gözümü yumanda gəlir...

Həmsöhbət göydə Allahdır,
Yarpaq–yarpaq qopan ahdır
Gecə doğulan şeirlər...

Gecə doğulan şeirlər
Gəlir, birbaşa doğulur,
Can eşə-eşə doğulur...

Hey rişə-rişə doğulur,
Üzü Günəşə doğulur
Gecə doğulan şeirlər...

## ÜSTÜ QANLI... İSTİQANLI TOPPUŞ BALA...

Üzündə Tanrıdan nur –
Şirin, dadlı təbəssüm,
Baxır mərdanə, məğrur.
Eyhamlı baxışında
Düşmənə tuşlanan qeyrət.
Yuxusunda gördüyü
Qanadlı raketə
İnadlı heyrət.
Yumruqları
Yanına sıxılmış
Dəli-dolu birisi...
Məhsətinin,
Nizaminin nəvəsi...
Cavad xan köyündə
Cavad xanın varisi...
Alnının tən ortasında
Bir şırım ipisti qan.
Qəzan mübarək olsun,
Qazi... Milli qəhrəman...
Şipşirin, almayanaq.
Bapbalaca bir oğlan...
Üstü qanlı...
İstiqanlı toppuş bala...
Sənin du......nu yesin
Boynu əyri Paşinyan!

## QARIŞQALARIN İŞ GÜNÜ

Bu gün ağır döyüş günü...
Tanklar yerin sinəsini
Yarıb, eşim-eşim eşib.
İşin tərsliyinə bax ki,
Qarışqaların da iş günü
Döyüş günlərinə düşüb.

Qızmış tankların lüləsi
Od tökür düşmən üstünə.
Qarışqalar da tələsir
Əsgər süfrəsindən qalan
Qırıntılı dən üstünə.

Tankların çiynində lülə...
Qarışqa boynunda şələ...

Çiynində ağır şələsi
Özü boydadır ən azı,
Ruzusunun hayındadır
Buğda-buğda, muncuq-muncuq
Qarışqaların anası.

Tanklar lüləni tuşladı,
Şığıdı düşmən əzməyə.
Ana qarışqa başladı
Yuvaya karvan düzməyə.

Bitər bu vəhşi savaşlar,
İnsanlığa barış qalar.
Aman günüdür, qalmasın
Tank altında qarışqalar.

Qarışqalar İlahinin
Ən istəkli məxluqudur.
Qarışqaların yoxluğu
Yerdə Haqqın yoxluğudur.

Qarışqalar şairiyəm
Ötən əsrdən bəri mən...
Yuvasına dən daşıyan
Qarışqalardan biri sən...
Qarışqalardan biri mən...

## ƏN SONUNCU PARTLAYIŞ...

Aman! Ehtiyatlı ol,
Dərddaş planetdaşım.
Minalanıb hər tərəf,
Dolub, planet daşır.

Hər addımda mina var,
Hər qarışda mina var.
Hər çalada-çuxurda,
Hər qırışda mina var.

Mışıldayır marıqda
Bələk-bələk minalar,
Bu köstəbək minalar,
Bu göbələk minalar.

Bu lənətə gəlmişdə
Nələr baş verir, nələr...
Gecələr mina əkir
Şeytanlar, əcinnələr.

Nənə babadan tutur,
Nəvə nənədən tutur,
Toplan nəvədən tutur,
Məstan Toplandan tutur...
Dartır... dartırlar...
Axır
Yerdən turp əvəzinə
Bir zırpı mina çıxır...
Yanı üstə... Yıxılı...
Partlamamış... Qorxulu...

Dolub dəlmə-deşiklər,
Siçan balalarıtək
Doğur, artır, çoxalır
Bu dərd-qübar minalar,
Yastı-yastı minalar,
Qabar-qabar minalar,
Hisli-paslı minalar.

Basıblar, doldurublar
Küncləri, bucaqları...
Dəymə! Minalanıbdır
Uşaq oyuncaqları.

Gecənin tən yarısı...
Hansı düyməni bassam,
Ekranda partlayış var.
Xəbərçi xəbər verir:
O yanda partlayış var,
Bu yanda partlayış var.
Telefonun içində,
Sən demə, mina varmış,
İşin içində iş var...

Azar-bezar dövrüdür...
Mənəm...
Bir də dörd divar...

Əlimi sinəm üstə
Qoymağa da qorxuram...
Partlayış ola bilər...
Ən sonuncu partlayış...
Ürəyimdə mina var...

## ÖMÜR YOLUNDA

Ömür yolunda
Kim ki, çaş qalır,
Gözü yol çəkir,
Əli boş qalır.

Zaman yüyürək,
Yarası göynək.
Əriyir ürək,
Gözdə yaş qalır.

Uçur kəşanə...
Torpaq üstündə
Quru nişanə
Nişandaş qalır.

## GÖY ÜZÜNDƏN İLTİMAS

***(Gecə işıqlar sönəndə )***

Göydə Sənsən,
Yerdə mənəm.
Ətəyində ulduzlardır,
Bir də mənəm.
Var xahişim – iltimasım:
Ver mənim işıq ruzumu,
Qıyma qaranlıqda azım.
Al ordan bəxt ulduzumu,
Gətir, özün bas ovcuma,
Aparım komamda asım.
Bir əlçim nurun altında
Oturum, ağrımı yazım...

## KİÇİKLƏRİN BÖYÜKLÜYÜ

Kasıb kasıbla yol gedir,
Pullu pullunu yanlayır.
Böyüklük nə olan şeydir,
Hərə bir cürə anlayır.

Kasıbın ürəyi nardır,
Pullunun ürəyi qart daş.
Pullunun yuxusunda da
Pul qardaşdır, el qarındaş.

Pulluya ən uca dağlar
Kiçikdən kiçik görünür.
El gözü sərraf gözüdür,
Hər nə var, gerçək görünür.

Halal adam tikir, qurur,
Yuxa qırağı sulamır.
Halal kəsin heç iti də
Pulluya quyruq bulamır.

Halal düzünə çırpınır,
Haram çəpinə at çapır.
Halal yetimə nə versə,
Haram görsə, əldən qapır.

Pullu hər gün ax-vaydadır,
Kasıbdadır dözüm, səbir.
Pullu xaricdə dəmlənir,
Kasıb yurdunda dən səpir.

Pullu şeytan qoltuğunda,
Kasıb Tanrının yanında.
Qalib kimdir, məğlub kimdir
Halal-haram meydanında.

Böyüklər dörd əllə tutur,
Qamarlayır yeri, göyü.
Halal süfrə başındadır
Kiçiklərin böyüklüyü.

Kasıb kasıbla yol gedir,
Pullu pullunu yanlayır.
Böyüklük nə olan şeydir...
Hərə bir cürə anlayır...

## YERİ BİR AZ DA...

Axıb... Axıb... Duruldunmu,
Fikirdəsən, xəyaldasan...
Ağasəfa, yoruldunmu?
Yoldasan.... Hər gün yoldasan...

Yollar səni yormadımı?
Sən yolları yorub gəldin.

Yol əzir, üzür adamı,
Tilsimləri qırıb gəldin.

Dözdün... Dözdün... Gətirdin tab...
Sənə nə olsa, haqq olur.
Şair ömrü əzab... əzab...
Əzablı yoldur HAQQ yolu.

Sən piyada...
Haqq uzaqda...
Hələ dağ aşmağın qalıb.
Yeri bir az da...
Qabaqda
Haqqa qovuşmağın qalıb...

## SƏHƏR

Bilməm nə var ki dünyada
Günəşi görməkdən gözəl,
Təndirçidən çörək alıb,
Evə yüyürməkdən gözəl,
Gülər nəvələr əlində
İsticə dürməkdən gözəl...

## AY ÇİYNİ TÜFƏNGLİ ADAM...

Ay çiyni tüfəngli adam,
Əziyyət verib özünə,
Gör hardan hara gəlmisən.
Gecə yağan qar üstündə
Düşüb bir dovşan izinə,
Qarabaqara gəlmisən...
Qarabulağa gəlmisən...

Keçən qışdan bu qışacan
Bircə dovşanımız qalıb,
O da əsir əsim-əsim...
Vurma dovşan qardaşımı...
Gəl, sənə bir
Pipiyi qan xoruz kəsim,
Ver mənə patrondaşını...

## GƏLƏRSƏN... GÖRƏRSƏN...

***Zarafatyana***

Təmas telefon çağırdı,
Basdım sovxa düyməni.

Zəng vuran ərklə çığırdı:
– Vay... Tanımadın məni?
Ay kişi, dost olmuşuq,
Çox yemişik, içmişik,
Bir yerdə məst olmuşuq.
İşin-gücün necədir?
Necəsən, nə təhərsən?

– Gələrsən...
Görərsən...

– Gördüm görünmürsən heç,
Soruşdum səni bildir.
Kəndə nə vaxt köçmüsən?
– Burdayam otuz ildir...
– Nə var ey bu şəhərdə?
Qəşəng! Qəşəng! Çox qəşəng!
Gözəl! Gözəl! Çox gözəl!
Vallah ki, bəxtəvərsən...
Deyirlər səndə bal var...
Nə vaxt gəlim, görüşək?
– Otuz ildən sonra gəl!
– O vaxtacan...
– Ölmərəm!
Gələrsən...
Görərsən...

## MƏN ONLAYN BABAYAM...

***(Yarı hənək, yarı gerçək)***

İndi büsbütün işlər
Olub taraz... Onlayn...
Mən burdan cəh-cəh vurum.
Sən qulaq as... Onlayn...

Evdə dərs alır hamı,
Kitab-dəftər onlayn.
Hər cür durmaq, oturmaq,
Hər cür rəftar onlayn.
Ən yaxın qonşu ilə
Söhbət – göftar onlayn.

Uşaq, qoca, ortabab
Deyir-gülür onlayn.
Sifariş versən, kabab
Evə gəlir onlayn.

Möcüzədir, möcüzə,
Nə görmüsüz hələm siz
Onlayn.
Maşallah, Rəşad Məcid
Kitab yazıb qələmsiz...
Onlayn...

Şəhərli nəvələrə
Babayam mən... Onlayn...
Hər gün həmən dörd divar,
Hər gün həmən onlayn...

...Ay çıxıb, ulduz doğub
Qəşəng-qəşəng – onlayn...
Mən onlayn babayam,
Sən onlayn nənə ol,
Onlayn yaşa baxmır,
Çıx, görüşək onlayn...

Onlayn yaşamaqdan
Bezir adam...
Anlayın...

## ƏZRAYILIN GƏLİŞİ

***(Zarafatyana)***

Gəlmisən? Xoş gəlmisən...
Tezdir ey... Nöş gəlmisən?
Qoy yuxudan duraq... Get...

Qarışdırdın yuxumu,
Burax, burax yaxamı,
Burax məni...
Burax... Get...

İşim-gücüm boğazdan,
Gün doğacaq bir azdan,
Ölmək olmaz bu vaxt... Get...

Yaxşı... Xətrin xoş olsun...
Nə olur, olmuş olsun...
Bir az qeybət qıraq... Get...

## DÜNYADA KİM VARSA, İMTAHANDADIR

***Südabə xanım AĞABALAYEVAYA***

Zəng vurdum bir kəlmə söz soruşmağa,
Dedi: – Bağışlayın, imtahandayam.
İmtahan vaxtıymış...
Bir işə bax a...
Aləm nə haydadır, mən nə haydayam.

İmtahan deyəndə çaş-baş qalıram,
Ağlımda nə varsa, çıxır başımdan.
Çaş-baş qala-qala yüyürhayüyür
İmtahan vermişəm uşaq yaşımdan.

Kitab qalaqladım üst-üstə hey-hey,
Hər gün imtahana çəkdilər məni.
Mən dizi torpağa dirənən Antey,
Kəsdilər, doğrayıb-tökdülər məni.

İllərdən xatirə saxlamaqdayam,
Suala cavabdır saçımda hər dən.
Az qalıb, səksəni haqlamaqdayam,
İmtahan verirəm yuxumda hərdən.

Ardı kəsilmədi imtahanların,
Orda imtahandır, burda imtahan.
Ağır imtahanlar sonra başladı,
Anaya, övlada, yurda imtahan.

Yüyürdüm, yıxıldım, qalxdım, dirəndim...
Anladım imtahan yaşa baxmır ki...
Bir ali məktəbdir balaca kəndim,
İmtahan payıza, qışa baxmır ki...

Ağır imtahandır görülən hər iş,
Sual da, cavab da canda, qandadır.
Mən tək deyiləmmiş...
Tək deyiləmmiş...
Dünyada kim varsa, imtahandadır...

Hər kimə üz tutsam, mənə dərs deyir,
Hər kimə zəng vursam, imtahandadır...

***Xızı, Qarabulaq kəndi***



*Elçin HÜSEYNBƏYLİ*

# Kənddə bir gün

***Qələm dostlarım Novruz Nəcəfoğluna və Aydın Tağıyevə...***

...Onda hiss elədi ki, ürəyi şiddətlə döyünməyə başladı...

– Günbatar!? – deyə çopursifət sürücü kəndin adını eşidəndə təəccübləndi, – indi orda heç kim yoxdu. Ora heç maşın da getmir.

– Necə yəni!? – Bu dəfə təəccüb növbəsi ona çatdı. – Dağlıq yer olsa da, kənd məşhurdu, 300-dən çox təsərrüfatı vardı. Ola bilməz ki, yerində heç nə qalmasın!

– Mən bildiyimə görə orda heç kim yaşamır, – sürücü təkrar elədi, – su yoxdu.

– Bəs Əyriçay!?

– Deyirlər ki, çay da quruyub. Hansısa bir məmur, yekələrdən, dağın başında – kənddən yuxarı yekə bir ev tikib, çayın ağzın kəsib, həyətində özünə baseyn (hovuz) quraşdırıb, suyu ora vurur, qalan su isə dağın o üzünə, onun təsərrüfatına axıdılır. Çoxlu qoyun sürüsü var.

Təəccübdən gözləri bərəldi:

– Necə yəni!? Bəs adamlar, bəs hökümət!?

– Adamlar neyləsin, hökümət neyləsin, gərək adamın özündə, üzündə həya ola.

– Necə yəni neyləsin!? Allah? sən saxla! O yekəlikdə kənd!..

* * *

...Bakıya səhər tezdən çatdı. Qatarla iki sutka yarım yol gəlmişdi. Qatarları xoşlayırdı. Dolanbac yollarda bir sehr, qatar təkərlərinin taqqıltısında qəribə ritm vardı, ürək kimi döyünürdü. Doğma yurddan düz iyirmi doqquz il əvvəl

çıxmışdı; yeni hökumətin üzünə ağ olduğuna görə. Özü də elə-belə çıxmamışdı, başını götürüb qaçmışdı.

Şəhərə düşən kimi, bir doğmalıq hiss elədi, vətənin qoxusu onu vurdu, sakitləşdi.

Öncə nə zamanlarsa burda yaşamış qohumlarını aramaq istədi. Amma şəhəri bir az dolaşdıqdan sonra bu fikrindən daşındı, çünki şəhər dəyişmiş, köhnə evlər yoxa çıxmış, keçmiş xatirələr də onlarla birgə qeyb olmuşdu. Ona görə də bayaqkı doğmalıq hissi şəhərin nataraz göydələnlərində, havanın boğanağında, hasarların his-pasında, küçələrin hay-küyündə, asfaltın iyində yoxa çıxdı.

Onun doğma yurdu ordaydı, ölkənin düz çıxışında, sərhəddə, meşələrin arasında, dağın ətəyində. Ürəyi uçundu, ora tələsdi. Yaşıl ormanlar onu çağırırdı.

Ona görə də paytaxtda ləngimədi. Avtovağzala yürüdü və qarşısına çıxan taksiyə oturub rayon mərkəzinə gəldi.

– Hara gedəcəksiniz? – deyə sürücü yolda soruşdu.

– Evə.

– Hm, – taksi sürücüsü evi tanıyırmış kimi, mızıldandı.

– Bəs ev hardadı? – deyə handan-hana xəbər aldı.

– Günbatarda.

Bayaqkı dialoq da o zaman başladı.

Günbatar kəndlərinin adıydı. O, yaxşı bilirdi ki, indi zəmanə dəyişib. İnsanlar rahat həyata can atırlar. Susuzluqdan və yolsuzluqdan əziyyət çəkən kənddə kim qalmaq istəyər ki?! Hər yerdə beləydi: uzun illərlə yaşadığı Rusiyada da, uzaqdan-uzağa haqqında eşitdiyi Amerikanın özündə də...

Taksi sürücüsü onu da dedi ki, sonuncu dəfə ora iki il öncə gedib. Kənddə qalan bir qarının oğlunu aparıb.

– Camaatın əksəriyyəti rayon mərkəzinə, yol qırağına köçüb, babat imkanı olanlar isə Bakıdadı. Mənim özümün də Bakıda evim var. Oğlum alıb, – deyə sürücü fəxrlə əlavə elədi...

O, yaxınlarının öldüyünü çoxdan bilirdi. Rusiyaya gələn dost-tanışdan öyrənmişdi, amma hökumətin qorxusundan kəndə qayıda bilməmişdi. Qorxmuşdu ki, kohnə əməllərinə görə ondan haqq-hesab soruşarlar. Amma indi sakitlik idi. Qiyamçılar da, onları məğlub edən hökumət də əl-ələ verib işləyirdilər. Umu-küsülər, elə onun özü də yaddan çıxmışdı. Hamı kimi onu da bağışlamışdılar...

Telefon da yoxuydu ki, kəndə zəng edə. Kim idi dağ kəndinə telefon çəkən. Bununla belə, vətən həsrəti onu dartırdı. O, doğma sifətlər, doğma danışıqlar və söhbətlər üçün darıxırdı.

Həyat yoldaşı tatarkaydı (tatar qızı). Uşaqları böyüyəndən sonra hərəsi bir tərəfə getmişdi. Arvadı da bu dərdə dözməyib ölmüşdü. Həkim elə belə də demişdi: “Bağrı çatlayıb.” İndi uzaq bir məmləkətdə onu saxlayan heç nə yox idi. Ətraf da, qəlbi də bomboşuydu. Ona elə gəlirdi ki, bu boşluğu yalnız doğma yurdu doldura bilər.

Rayona çatanda taksi sürücüsü dedi ki, indi axşamdı, istəsə, onlara qonaq olar, istəməsə, yaxınlıqdakı istirahət mərkəzlərindən birinə aparar:

– Yeri də yaxşıdı: dağətəyi, sərin, qiyməti də münasib. Mənim müştərilərimin çoxu ora düşür.

Taksi sürücüsü onu da əlavə elədi ki, onu kəndə kimi yox, ora beş-altı kilometr qalmışa kimi apara bilər: “Niva”da. Amma sabah tezdən çıxmaq

lazımdı. Yollar bərbad gündədi. Azı beş saat yol gedəcəklər. Qayıdanbaş gecəyə düşə bilər. Ancaq onu qoyub geri qayıtsa, göz görənə kimi mərkəzə çatar.

– Sizə də məsləhət görmürəm ki, ora gedəsiniz. Tək-tənha orda neyləyəcəksiz?..

– Bircə günlüyə də olsa, getməliyəm. Oraları görməsəm, rahat ölə bilmərəm.

– Qorxuram ki, oraları görəndən sonra nəinki rahat, əksinə, narahat öləsiniz, məəllim, – sürücü zarafata salıb belə dedi. Amma o, heç bir cavab vermədi. Sürücü də susdu...

...Danışdıqları kimi kəndə səhər obaşdan çıxdılar.

Taksi sürücüsü haqlıydı. Yollar, doğrudan da pis gündəydi. Yolun bir neçə yerini sel yumuşdu. Ona görə də sürücü düşüb çalaları doldururdu ki, maşın keçə bilsin. O, işini ehtiyatlı tutmuşdu, maşının yük yerinə bel və bir neçə kisə qum yığmışdı.

Yolun bir yerinə çatanda maşın dayandı.

– Çatdıq, – sürücü dedi, – burdan o tərəfə yolu tut get. Yol özü səni aparar. Beş-altı kilometr ola-olmuya.

– Mən bu yolları yaxşı tanıyıram. Sən heç narahat olma. Deyilən vaxt gəlib məni apararsan.

Taksi uzaqlaşandan sonra o, vələs ağacından bir budaq qopardı, yarpaqlarını təmizlədi, çantasını kürəyinə atıb yola düzəldi. Ağacı bərayi-ehtiyat götürdü. Nə bilmək olardı: ətraf meşə və kimsəsiz. Ağac, həm də onun yol yoldaşı olacaqdı. Elə axıra qədər də ona dayana-dayana getdi.

Meşə tamam səssiz idi. Sanki burdakı canlılar ölmüşdülər. Amma bir azdan sakitliyin içindən dolaşaların, zağcaların, kol quşlarının səsi eşidilməyə başladı. Meşə adamın hənirtisini duyanda susmuş, amma gələn qonaqdan heç bir təhlükə olmadığını görəndə, danışmağa başlamışdı.

Bir az yol getmişdi ki, ot basmış cığırda mal təzəyi gördü. Deməli, buralarda mal-heyvan dolaşır, ona görə də çətin ki, qurd-quş olsun. Arxayınlaşdı...

Bir talaya çıxdı. Talada çiyələk bitmişdi. Xırda olsalar da, şirin idilər. Dadmasa da, bilirdi ki, belədi. Bununla belə, yemiş tamı verən çiyələkdən dənləyib ovcuna yığdı, yığa-yığa bir-ikisini də ağzına atdı. Keçmişi xatırladı. Uşaqlıqda buralarda çox quzu otarmışdı. Çiyələklər də, sanki həminkiydilər və onu görən kimi tanıdılar...

“Qəribədir, adamlar dəyişir, təbiət yox...”

Çiyələk yeyə-yeyə bu barədə fikirləşdi, amma tez də taladan çıxdı. Çünki ləngimək istəmirdi. Tezliklə kəndə çatmaq, həyətlərində dincini almaq istəyirdi.

Talanın üstündən o tərəfdə geniş və aydın səma görünürdü. Göy üzündə bir quş süzürdü. Yaxşı ayırd edı bilmədi: ya qartal idi, ya da ley. Leydən zəhləsi gedirdi. Uşaqlıqda onları o qədər daşlamışdı ki: cücələri apardıqlarına görə. Bu iri gözlü, sarı rəngli quşları harda gördü, daşlayardı. Həmin quşlar onun nəzərində pinti adamlara bənzəyirdilər, kirli-paslıydılar və pis iy verirdilər. Onlar nədənsə işıq dirəklərinə, elektrik qüllələrinə qonmağı və ətrafı süzməyi sevirdilər. Canlılara yuxarıdan-aşağı baxmaq onların xislətindəydi. O isə atdığı daşlarla bu iyrənc quşların rahatlığına haram qatırdı, yalançı qürurlarını sındırırdı. Hətta civirdən yay, cildən ox düzəltmiş, oxun ucuna iynə taxmışdı. Ona elə gəlirdi ki, atdığı oxla həmin quşları vura bilər. Ay vurdu ha, oxlar beş-altı metr göyə qalxandan sonra yerə düşürdü...

Uşaqlıq ixtiralarına gülümsündü. Hətta araba təkərlərindən velosiped, taxtadan və simdən tar düzəltmək istəyi də ona əlçatmaz və gülməli göründü...

Bir azdan meşədən çıxdı. Qarşısında kolluqlar, kolluğun o üzündə isə kəndləriydi. Ürəyi atlandı. Kəndin havasını ciyərlərinə çəkdi, sinəsi açıldı.

Yolun üstündəki ziyarətgaha çatdı. Türbənin bir tərəfi uçmuşdu. Bir zamanlar insanların pənah gətirdiyi müqəddəs ocağın özünün adamların pənahına ehtiyacı vardı. İstədi içəri girsin, amma qorxdu. İlan-çayandan qorxdu...

Kəndin girəcəyində iri qoz ağacı vardı və olduğu kimi də dururdu. Yalnız bir-iki budağı qurumuşdu. Onun kölgəsində oturub dincini aldı, özüylə götürdüyü sudan bir az içib yanğısını söndürdü. Amma su isinmişdi deyə, lığ tamı verirdi. “Bulaq, görən durur?” ürəyində fikirləşdi. “Çay quruyub, aydındı, bəs bulaq?”

Bir zamanlar o da başqa uşaqlar kimi ağacların başına öz adını yazırdı. Amma qoz ağacına adını yazıb-yazmadığını bilmirdi. Yazmışdısa da, yəqin yeri itmişdi. Yaşının da o vaxtı deyildi ki, çıxıb baxsın...

Aşağıdakı dərədən bir zamanlar Əyriçay axırdı. Orda o qədər çimmişdi ki... Daşların arasından o qədər balıq tutmuşdu ki. Amma başına gələn bir hadisə əllə balıq tutmağı ona tərgitdi. Daşın altından balıq əvəzinə yekə qara ilan çıxartdı. Bir müddət əlində bərk-bərk tutduğu ilana key kimi baxdı. İlan sanki yuxuluydu. Başı o tərəf-bu tərəfə əyilirdi. Uşaqların çığırtısı hər ikisini ayıltdı. İlan qıvrıldı və o, ilanı dəli kimi uşaqların üstünə atdı və elə o sürətlə də sudan çıxdı. Odu-budu, əlini daşın altına salmaz.

Bu da məscid, köhnə məktəb. Hamısı uçmuşdu. Məscidin qabağındakı yekə tut ağacı qurumuşdu.

Kərpic hasarın dibində çömbəltmə oturan qocaları xatırladı. Qocalar saatlarla burda oturub çubuqlarını tüstülədərdilər. Yorulanda isə ayağa qalxıb çomaqlarına söykənərdilər. Onlar o qədər qocaydılar ki, nə dişləri vardı, nə də qulaqları. Qulaqları tutulmuşdu. Külək əsəndə əski parçası kimi yellənirdilər. Qocalar eşitməsələr də, bir-birilərini anlayırdılar. Nə demək istədiklərini dodaqlarının tərpənişindən duyurdular. Bəlkə də hərəsi öz dərdini, arzusunu pıçıldayırdı, özü üçün danışırdı, keçmişi ələk-vələk eləyirdi. “Hanı mənim uşaqlığım?!” deyə öz-özünə suallar verir və heyrətlənirdi...

Amma ona öz evləri lazım idi. Dağın döşündə bir zamanlar qonaq-qaralı olan aynabəndli evləri. Aşağıdan yuxarı baxanda evləri yaxşı görünmürdü. Ona görə də ot basmış cığırla tövşüyə-tövşüyə yuxarı qalxdı.

Evlərinin qoxusunu almaq istəyirdi, amma vağanımış otun ətrindən başqa heç nə hiss eləmirdi. Ürəyi çırpındı. Deməli, evləri ölüb. Ölməsəydi, mütləq onun qoxusunu alar və özləri də ona cavab verərdilər...

Nəhayət, bu da o: şüşələri qırıq-qırıq olmuş ev. Görkəmi miskin və ürək ağrıdan. Amma bu, onun vecinə deyildi. Əsas oydu ki, evlərindəydi. Həyətində oynadığı, eyvanında iməklədiyi doğma evlərində. Ev hələ tam ölməmişdi.

Evin taxtadan olan pilləkəni və eyvanı çürümüşdü. Eyvan uçmasın deyə, altına dirək vurmuşdular. Amma dirək də çürümüşdü. İstədi ayağını pilləkənə qoysun, pilləkənin taxtası batdı. Pillələr qovaqdan yığılmışdı. O zaman meşəyə girməyə, ağac kəsməyə icazə vermirdilər. Ona görə də atası məcbur olub həyətlərini dövrələyən qovaq ağaclarını kəsib, “piloramaya” doğranmağa vermişdi. Qovaq ağacı da tez çürüyən şeydi.

Evin birinci mərtəbəsinə girdi. Hər tərəf nəm qoxuyurdu. Hörümçəklər burda öz torlarını qurmuşdular, balıqçılar kimi.

Eyvana arxa tərəfdən qalxdı. Ev öz arxasını yamaca söykəmişdi. Ayağını qaldırıb laxlayan məhəccərin üstündən birtəhər adladı və uzaqlara göz gəzdirdi, xarabalığa çevrilmiş kəndə baxdı, ürəyi döyündü. Bir az aralıda futbol meydançasıydı. Orda o qədər top qovalamışdı ki... Amma meydan nə gəzirdi? Əyriçay hardaydı? Çayın yerində çaylaq qaralırdı. Bəzi yerləri nəm idi. Yəqin selin iziydi. Hər yer boş idi. Bir zamanlar adamlarla, mal-qarayla dolu, səs-küylü kənd indi yoxuydu. Onun təsəvvüründəki kənd itmişdi, yer üzündən silinmişdi. Bəlkə yer üzü də bir zaman yoxa çıxacaq? Kənd quduz itə oxşayırdı. Yalquzaq kimi ulayırdı, amma səsi çıxmırdı. Bəlkə eşitmirdilər. Əvvəlcə üşəndi, canından gizilti keçdi. Deməli, bir zaman gələcək, o da olmayacaq. Ümumən, heç nə olmayacaq. İçindən nəsə isti bir şey qalxdı, əvvəlcə ürəyinə, sonra beyninə və gözlərinə doldu. Özü də hiss eləmədən, ağlamağa başladı, için-için. Ağladığını özü də bilmirdi, yalnız burnunun suyu dodaqlarından süzüləndə bunu anladı və gözlərini sildi. Amma göz yaşları öz-özünə axırdı. Sanki o, ağlamırdı, amma göz yaşları süzülürdü.

Bir azdan sakitləşdi. Çünki niyə ağladığını bilmirdi. Daha doğrusu, dəqiqləşdirə bilmirdi: öz gününəmi ağlayırdı, kəndinəmi, taleyin acığınamı, itmiş keçmişəmi, qorxusundanmı? Həm də ona görə sakitləşdi ki, bəzi suallara elə ağlaya-ağlaya cavab tapmışdı. Heç nə əbədi deyil... Amma bu da tam həqiqət deyildi. Deməli, onu aldatmışdılar... Gələcək-filan yoxdu. Həyat da yoxdu. Əbədilik var: dağlar, qayalar kimi... O isə, olsa-olsa, yuxu görür... Həyat yuxudur...

İlk dəfəydi ki, siqaret çəkmək istədi. Ömründə siqaret çəkməyən adam təmasa ehtiyac duydu, özü də siqaretlə...

Ağlına gəldi ki, dərəyə enib, ağaclardan kəssin, heç olmasa, pilləkənləri və eyvanı bərkitsin.

Birinci mərtəbəyə düşdü. Buradan heç zaman ev kimi istifadə eləməmişdilər. Əl damı kimi bir şey idi. Ağzı pas atmış balta da, ondan da betər günə düşmüş yeyə də öz yerindəydi – taxçanın üstündə. Onları növbəylə əlinə alıb uzun-uzadı baxdı. Baltanın ağzını itiləmək istədi. Amma elə o saat da ağac kəsmək fikrindən vaz keçdi, çünki buralara əl gəzdirməyin mənası yoxuydu. Bayquş deyil ki, tək-tənha burda yaşaya. Ömrünün axırına kimi yaşayardı, amma necə? O, təsəvvüründəki kəndə gəlmişdi. Təsəvvürü diri olsa da, gerçəklik ölüydü...

Təzədən yuxarı qayıtdı. Oturub uzun-uzadı, sonuncu dəfə kəndə baxdı. Ürəyi yenə də sıxıldı. Sakitlikdən üşəndi. Yaxşı ki, hərdən cırcıramaların, ağaclardan qopub düşən quru budaqların, yarpaqların səsi gəlirdi. Ağlından keçdi ki, birdən ürəyi dözməz, elə buradaca yiyəsiz, tək-tənha ölər. Qorxdu. Halbuki, özü demişdi ki, kəndi bircə dəfə görsə, rahat ölər...

Lap yuxarıda – dağın başında qəbiristanlıq idi. Baş daşları kol-kosun içində itmişdi, yalnız bəziləri görünürdü. Bir zamanlar ora qara paltarlı arvadlar axışardı, dağa qalxan cığırla. Ata-anası o burda olmayanda ölmüşdülər. Məzarlarını bilsəydi, hökmən baş çəkərdi...

Hiss elədi ki, uzun müddət çəkdiyi xiffət yoxa çıxıb, sanki hissləri ölüb. Sağ əliylə sol döşünü ovxaladı, ürəyini sakitləşdirmək istədi...

...Birdən gözlərində sevinc parladı. Bəlkə də bu sevinc hissindən çox, ümid idi. Aralıda – böyürtkən kolluqlarının arasında nəsə tərpəndi. Gözlərini o

səmtə zilləyib diqqətlə baxdı, amma heç nə görmədi. Gözlərini ovuşdurub təzədən baxdı. Bir azdan yenə də kollar tərpəndi. Fikrindən keçdi ki, yəqin küləkdir. Burda hiss olunmasa da, dərədə veyillənir. Amma yox, nəsə ağ zolaqlı heyvandı. Diqqətlə baxanda gördü ki, bu, keçidir. Keçi talaya çıxdı, yanında da balası, sonra özü boyda biri. Güman ki, sonuncu çıxan erkək, o birilərsə ana-balaydılar. Ağ-qara keçilər əllərini kola qoyur və xırdaca dillərilə yarpaqları qoparırdılar. O, bunu dəqiq görməsə də, bilirdi... Deməli, yaşamağa dəyərdi. Həyat o fikirləşdiyi qədər də deyilmiş. Heç nə ölmür. Həyatı yaşadanlar var. Bəlkə elə bəşəriyyət öz ibtidailiyi, öz bakirəliyi ilə gözəldi? Öz qurd-quşuyla, ağacıyla, küləyiylə maraqlıdı? Qoy, o da olsun ibtidai adam... Sən demə, ən sədaqətli adamlar elə onlar imiş – ilklər. Bəşəriyyətin ilkləri. Milyon illər ərzində dünyanı ölməyə qoymayıblar, onu yaşadıblar. Amma Tanrının sirlərini bilməyə can atan adamlar öz əcdadlarının milyon illərlə qurduğu mətəni, ocağı dağıdıblar...

Dərəyə düşdü. Bulaq yamacda, yaşıl kolların içərisindəydi. Bura xırdaca bir vadiydi. Bulağın gözü tutulmuşdu. Vən ağacından xırda bir budaq qoparıb, bulağın gözünü qurdaladı, sonra su çıxan yeri əlləriylə açdı, balaca çala düzəltdi. Bulanıq bulaq suyu çalaya dolduqdan sonra yamacdan dərəyə tərəf süzülməyə başladı. Bir azdan dupduru, sədəf kimi suya çevrildi. Çaladakı sudan ovuclayıb içdi. Buz kimi, sərin suydu. Çantasındakı şüşəni çıxardı, isinmiş suyu yerə boşaltdı və bulaqdan ovuc-ovuc doldurdu. Bulağı gözünü açandan görmüşdü. Babası demişdi ki, elə o da bulağı uşaqlıqdan xatırlayır. "Bəlkə də min ilin bulağıdı. Kim bilir..." Babası belə demişdi.

Yamacda oturdu. Birdən ağlına gəldi ki, keçilərin yanına getsin. Onlar da canlıdılar, hənirlərini alar...

Keçilər onu görəndə hürkdülər. Görünür, onlar yad adamdan qorxmuşdular. Hürkəndə keçilərdən birinin boynundakı zınqırov cingildədi. Bu, ana keçiydi, əmcəkləri doluydu...

Keçilər, bəlkə də azmışdılar. Zınqırovundan bəlliydi ki, onun sahibi var. Amma kənd kimsəsiz idi. Bəlkə keçilər taksi sürücüsü deyən qarının idi. Amma hardadı o qarı?

Yuxarı qalxıb həyətləri bir-bir gəzdi...

Bura Dəmirçi Həsənin eviydi. Atları nallayardı, arabaların oxlarını yağlayardı, balta, dəhrə düzəldərdi. Onun qonşusunda Bənna Mürvət idi. Bu evlərin çoxunu o tikmişdi.

Bura isə... Nə qədər fikirləşdisə, ev sahibinin adını yadına sala bilmədi. O, qəbirqazan idi. Bəlkə qorxusundan həmin kişinin adını xatırlamadı. Uşaqlıqda ondan yaman qorxurdu...

Kəndin ortasına çatdı. Bura Bağban Qəzənfərin eviydi. Həm qoruqçuydu, həm də bağban. Ağaclara o calaq vurardı. Evin həyətində odun qalağı vardı. Görünür, onu kimsə qış tədarükü üçün yığmışdı, amma çoxdandı ki, əl dəyilməmişdi. Odunların üstünü toz-torpaq örtmüşdü.

Evə göz gəzdirdi. Evin divarlarından keçi buynuzu asılmışdı, qapısı azca aralıydı. Başqa evlərə nisbətən bu ev tam sökülüb-dağılmamışdı. Ehtiyatla evə girdi, bir-iki dəfə öskürdü. Sonra "ehey, kimsə var?" deyə boşluğa səsləndi. Səs-səmir gəlmədi.

Arxa otağa keçdi. Yarıqaranlığa nəzər saldı. Və birdən... Gözlərinə inanmadı. Evin küncündəki çarpayıda kimsə uzanmışdı. Əti ürpəşdi. İstədi evdən çıxıb qaçsın, amma çarpayıdakı adam tərpəndi. "Lənət şeytana! Bismillah!"

deyə öz-özünə pıçıldadı. Özünü ələ alıb yaxına gəldi. Bu həmən qarıydı, sürücünün dediyi. Qarının ağappaq saçları balışa yayılmışdı. Ona elə gəldi ki, qarı ölüb. Amma... bayaq tərpəndi axı. Burnuna kəsif qoxu gəldi. Ürəyi bulandı. Pərdəni aralayıb, pəncərəni açdı. Pəncərə çərçivədən qopdu, rəzəli-zadlı yerə düşdü. İçəri işıqlandı. Bir az özünə gəldi.

Qarıya diqqətlə baxdı.

Qarının gözləri açıq və bulanıq idi. Özü isə xırıldayırdı. Başının üstündə kiminsə dayandığını hiss edən qarı boğula-boğula nəsə dedi. Qulağını yaxınlaşdırdı.

– Gəlmisən? – deyə qarı zəif səslə soruşdu.

Qarı, bəlkə bildir bura gələn oğlunu gözləyirmiş, ya bəlkə onu Əzraillə dəyişik salırmış.

Başını tərpətdi və bir müddət ona baxdı.

Qarı təzədən nəsə demək istədi, amma səsi çıxmadı, eləcə xırıldadı.

Birdən ağlına gəldi ki, qarıya su versin. Stolun üstündəki bulanıq stəkanı götürüb yaxaladı, suyla doldurdu, əti ürpəşə-ürpəşə qarının başını qaldırıb, ona su verdi.

Qarı suyu qurtum-qurtum, həvəssiz içdi. Sanki onun heç nəyə ehtiyacı yoxuydu... Bəlkə də yeyib-içməyi tərgitmişdi, bəlkə də yaddaşı ölmüşdü. Suyun nə olduğunu bilmirdi. Sonra quru, bumbuz əlləriylə onun su verən əllərinə toxundu, bir az özünə gələn kimi oldu.

O, qarını tanımırdı. Çünki belə bir insan görməmişdi. Gözləri də o qədər bulanıq idi ki, nə illah elədisə, tanıya bilmədi. Qəzənfər kişinin arvadı çoxdan ölmüşdü. Bəs bu kimiydi!? Bəlkə onun anasıydı? Qəzənfər kişinin anası vardı ki!? Yadına sala bilmədi... Bəlkə o, bəşəriyyətin ilkinliyiylə sonu arasında bir körpüydü. Niyə belə fikirləşdiyini anlamadı, bu fikir qəfil ağlına gəldi...

Qarı barmaqlarını onun əllərində gəzdirdi, sanki dirildi. Barmaqları hərəkət etdikcə qarının istisi də artırdı. O, bunu hiss edirdi, elə bil qanı durulurdu, damarlarından çay axırdı.

– Sən Axırqədəmsən, elə? – Qarı pıçıltıyla soruşdu.

Əvvəlcə nə cavab verəcəyini bilmədi. Çünki bu ad onun babasının adıydı. Görünür, qarı onu qanından, iyindən tanımışdı.

– Hə, Axırqədəməm, – dedi.

Bir müddət sakitcə durdular. Bəlkə qarıya yeməyə nəsə versin. Özüylə götürdüyü çörəkdən, kolbasadan. Amma qarı onu yeyə bilməzdi. Bəs neyləsin? Ağlına gəldi ki, keçiləri tapıb, ana keçinin südünü sağsın. Bilirdi ki, bu, elə də asan məsələ deyil. Amma başqa yolu da qalmamışdı.

Qarıya heç nə demədən çölə çıxdı. Bayaqkı talaya gəldi. Hər yeri ələk-vələk elədi, amma onları tapmadı. Kor-peşman geri qayıtdı. Evə girəndə gözlərinə inanmadı. Keçilər qarının çarpayısının böyründə dayanmışdılar. Ana keçi nəm burnuyla qarını qoxulayırdı... Yad adamı görən kimi hər üçü özünü çölə atdı.

Onların dalınca qaçmağın mənası yoxuydu. Qarının yanına gəldi. Qarı huşa getmişdi.

Kətilin üstündə hisdən qaralmış mis qab vardı. Əvvəllər onu görməmişdi, bəlkə fikir verməyib? Bəlkə qarının heyi olmadığına görə keçilər fəhmlə onun yanına gəlir və qarı heysiz əllərinə güc verib ana keçini sağırmış. Yoxsa indiyə kimi sağ qalardımı? Nəsə inanmağı gəlmədi. Özü öz fikirlərinə şübhə elədi...

Eyvana çıxıb qaralmaqda olan səmaya baxdı. Hardasa, lap uzaqlarda göy guruldayır, ildırım çaxırdı. Eyvandakı köhnə divana uzanıb keçmiş və gələcək haqda xeyli düşündü, aranı dağa, dağı arana daşıdı. Uşaqlarını fikirləşdi. İndi Allah bilir hardaydılar. Uşaqlar ata-analarına xəyanətləriylə birgə sevgilərini də aparmışdılar. "Ana övladlarını sevir, ata övladlarına rəhm edir." Bu fikri hardasa oxumuşdu. Ona görə də uşaqların anası öldü. Sevgisizliyə tab gətirmədi. Çünki ana, yəni onun arvadı Fatimə sevgisini verməyə adam tapmadı. "Tanrı hamını eyni zamanda sevə bilmir, vaxtı çatmır, ona görə də anaları yaradır..." O özü isə uşaqlarını çoxdan bağışlamışdı. Çox düşünüb-daşındı. Hardasa uzaq məmləkətlərdə çırağı yananlara, bütöv ailələrə həsəd apardı. Onun yuvası dağılmışdı: həm orda – qərib məmləkətdə, həm də burda – doğma diyarda. Sanki bunu indi dərk elədi. Tamam ümidsizləşdi. Filosofların həyat, insan və kainat barədə fikirlərini xatırladı, düşdüyü vəziyyətə haqq qazandırmaq istədi. Amma fikirləri o qədər qarışıq idi ki, yadında heç nə qalmırdı. Bir an əvvəl fikirləşdiyi bir an sonra yadından çıxırdı.

Mürgülədi və özü də bilmədən yuxuya getdi. Yuxuda uzun-uzadı dolanbaclar gördü. Sonu bilinməyən tunellə harasa qaçırdı. Deyəsən, lap sonda işıq vardı, amma yaxınlaşanda dalana dirənirdi. "Ana!!!" deyə qorxusundan qışqırdı...

Yuxudan öz səsinə oyandı. Yəqin, sayıqlayırmış. Gün çoxdan çıxmışdı...

İlk ağlına gələn qarı oldu. O yatan otağa keçdi. Qəribəydi, qarı qalxıb çarpayıda oturmuşdu. Bir dəri, bir sümük idi...

Nə edəcəyini bilmədi. İndi qarını qoyub gedə bilməzdi. Amma getməliydi axı. Sürücüylə danışdıqları vədə yaxınlaşırdı. Ora kimi, ən azı, bir saatlıq yol vardı.

Qarıya su verdi və dünənkindən fərqli olaraq, qarı suyu həvəslə içdi. Deyəsən, yaddaşı qayıtmışdı. Sonra gözlərini ona zillədi.

...Qarı ona elə baxırdı ki, sanki "getmə" deyirdi və o, gedə bilmirdi. İstəyirdi desin ki, mənə elə baxma, sən elə baxanda gedə bilmirəm, amma deyə bilmirdi. Getməliydi axı. Burda qalmağın nə mənası? Bəlkə qarını da özüylə aparsın? Ancaq hara? Qarı getsəydi, iki il qabaq oğluyla gedərdi. Hətta aparsaydı da, qarı yolda ölərdi.

Qarı:

– Gedirsən!? – deyə öləzimiş və ümidsizləşmiş gözlərilə, səssizcə, bir az da həyəcanla xəbər aldı.

O da səssizcə başını tərpətdi.

Qarı zəif bir hərəkətlə quru, qaxac əlini çarpayıya dirədi, o biri əlini isə balışının altına salıb bir bükülü çıxartdı və ona uzatdı.

O, bükülünü açdı. Bu, iri sapfir qaşlı qızıl üzük idi.

– Məni orda, həyətdə, tut ağacının altında basdırarsan...

Qarı, doğrudanmı bu sözləri dedi? Bəlkə qulağına gəldi? Bəlkə kimsə kənardan pıçıldadı. Bəlkə bu, ölməkdə olan bəşəriyyətin səsiydi... Anlaya bilmədi...

Bəs ağac!? Ağac hardaydı və indiyə kimi onu niyə görməyib!?

Çölə çıxdı. Həyətdə, doğrudan da nəhəng, qollu-budaqlı qocaman tut ağacı vardı. Başını yuxarı qaldırıb, uzun-uzadı ona baxdı. Ağac çox möhtəşəm idi. Yarpaqları, elə bil, kimisə çağırırdı. Bu həmin ağac idi: əzəmətli və yaşıl. Onu ara-sıra öz yuxularında görmüşdü...

...Telefonu çıxarıb, taksi sürücüsünün nömrəsini yığdı...

# Güllə səsləri qulağımda

...Atası qoşalüləni zirzəmidən gətirdi, üstünə sarıdığı köhnə bezi tələsə-tələsə açdı. Sonra ora-bura vurnuxdu, aynabənddəki şkafdan göydaş və maşın yağı gətirdi, stulda oturub tüfəngi silməyə, ora-burasını yağlamağa başladı. Arvadı əvvəlcə doqquz yaşlı oğluna baxdı, sonra da ərinə işarə elədi: yəni uşağın gözünün qabağında niyə belə edirsən?

Uşaq deyilən Umudun topu uşaqlarda qalmışdı. Bu barədə atasına demək istəyirdi, amma ürək eləmirdi. Atası əsəbi və qayğılıydı. Bunu onun əl hərəkətlərindən də bilmək olardı, həm də öz-özünə kiminsə qarasına deyinirdi.

Bir neçə gün əvvəl hökumət kənddəki silahların hamısını yığmışdı, barışıq üçün.

– Ermənilərə etibar yoxdu, – evin kişisi dedi. – Göydərə tərəfdə yaman qaynaşırlar.

Körpə bacısı anasını dartışdırdı, anası o biri otağa keçdi; uşağı yatızdırmaq üçün.

– Topum uşaqlarda qaldı, – deyə Umud atasının üzünə baxdı.

Atası acıqlı-acıqlı:

– İndi top vaxtıdı? – dedi.

Uşaqların anası bir azdan qayıtdı. Patronları doldurmaqda ərinə kömək elədi. Patron gilizdən, qırma və köhnə qəzet qırıntılarından ibarət idi. Onları uşaq da doldurardı, amma topu hardan alasan? Nahaq verdi. Umud ata-anasına baxa-baxa ürəyində belə fikirləşirdi. Onu da fikirləşirdi ki, görən, atası uşaq olanda top-top oynayıb?

– Əgər bir şey olsa, məni gözləmiyin, Araza tərəf gedin. Umud o yolları yaxşı tanıyır, – atası belə dedi və oğluna baxdı.

Umud başıyla təsdiqlədi.

– Əlbəttə, tanıyıram, – dedi, – ordan o qədər keçib getmişəm ki...

Bu sözləri deyəndə bir az forslandı da, yəni uşaq deyiləm ha! Doğrudan da atasıyla Araza balıq tutmağa çox getmişdi.

Həmin yol qaratikan kollarıyla doluydu, aradabir dağdağan və saqqız ağacları da gözə dəyirdi. Bir az aralıda isə tala-tala bitmiş daş armud ağacları vardı. Ötən payız uşaqlara qoşulub o qədər yemişdi ki, qarnı bərkimişdi, evlərilə ayaqyolunun arasını səhərdən axşama kimi ölçmüşdü. Təpəliyin aşağısında "subasar"dı. Yazda Araz məcrasından çıxır və yaşıl çəmənlikləri örtürdü. Balıq da tutmaq olurdu. Hələ bir dəfə sinif yoldaşı ilə balıq üstündə dalaşmışdı da. Balığı ikisi tutmuşdu: biri balığı qırağa atmışdı, o birisi sürüşüb suya düşməyə qoymamışdı. Di gəl, ayırd elə görüm, kim haqlıdı? Ona görə də balığı atmışdılar çaya.

Atası yarıpıçıltı, yarıqəzəblə danışırdı:

– Bu axşam növbə mənimdi, bəlkə Qabil də mənnən getdi. Sağ olsun, o da beşaçılanı vermiyib; amma ikincidə tutulur, atmır. Bilalın da bir qəməsi

var. Sabah “Sarı təpə”nin döşünü şumluyajam. Qoy, ermənilər görsünlər ki, özümüzə arxayınıq. Dığa köpəy uşaxları.

– Səni vurarlar, – arvadı çəkinə-çəkinə etiraz elədi.

– Qələt eliyərlər.

– Dədə, mən də səninlə gedəjəm.

– Bəs dərsə kim gedəjək? – “dədə” dediyi atası ona tərs-tərs baxdı.

Umud güldü.

– Sabah dərs yoxdu. Bazardı.

Atası onun bu sözündən tutuldu. Zamanı unutduğuna görə.

– Evdə qalıb quşatan düzəldərsən. Bir azdan buraları sığırçınlar basajax. Onda kara gələr. İndi isə get yat, gejdi.

Umud dodağının altında nəsə mızıldandı və yatmağa getdi.

Ər-arvad tək qaldılar.

– Gərək sizi əvvəldən şəhərə göndəriydim, – əri patronları patrondaşa düzə-düzə söyləndi.

Patrondaş tam dolmamışdı, ona görə dörd giliz də doldurdu.

Arvadı:

– Səni qoyub gedə bilməzdim, – çəkinə-çəkinə dedi.

Qurdbasar xırda kənddi, 7 evdən ibarətdi. Evlər bir-birindən o qədər uzaqdı ki, güllə atsan, eşidilməz. İki ailə erməni-müsəlman davası başlayandan burdan köçüb. Yerdə qalan 5 ailənin ikisinin arvad-uşağı ötən həftə “QAZ-69”la burdan çıxarılıb. Üç ailə isə kənddə qalıb. Sağ tərəfdəki yüksəklikdə üç kişi növbəliklə kəndi qoruyur. Rayondan xəbər göndəriblər ki, ermənilərlə danışıblar, hücum olmayacaq, amma bərayi-ehtiyat, ayıq olsunlar.

– Necə ayıq olaq? Kənddə hərənin iki-üç tüfəngi vardı, hamısını yığıb apardılar. İki tüfənglə neyləmək olar! –deyə evin kişisi öz-özünə deyindi. Sonra arvadının hazırladığı bağlamanı götürüb evdən çıxdı.

Umud güllə səsinə oyandı. Səhər yenicə açılırdı.

Anası onu durğuzdu. Körpəni geyindirməyə başladı. Umudla bacısı İlahənin arasında üç uşaq da olmuş, amma körpəykən ölmüşdülər.

– Umud, sən özün geyin, – nənə gözlərinə qurban.

Umud mızıldandı. Yenə də topun davasını eləyirdi. Bu zaman evin kişisi püfərək içəri girdi.

– Bizə vaxtında demiyiblər, ermənilər hər tərəfdən gəlirlər, ən çox da kəndin aşağısından. Siz kənddən çıxana kimi onları saxlıyarıq. Umud, dədə, sən aşağı cığırla get. Özün də qorxma. Nənəni də (bu yerlərdə anaya nənə deyirdilər), bacını da sənə tapşırıram.

Fikirləşməyə vaxt yoxuydu. Arvadı döyükə-döyükə ərinə baxdı.

Əri:

– Gözünü üzümə nə zilləmisən, uşaqları qurtar! – acıqlı-acıqlı qışqırdı.

Körpə atasına baxıb qorxdu və ağladı. Atası səhv elədiyini başa düşdü, uşağın başını sığalladı:

– Qorxma, – dedi.

Qaratel bağlamasını götürdü, körpəni dalına şəllədi və arxaya baxmadan getdilər. O biri iki evin arvad-uşağı bir az əvvəl getmişdilər. Ayaq izləri də aydın görünürdü.

Bağlamalardan birini Umuda yüklədilər. Ədyal idi. Yolda lazım olardı. Havadan yaz qoxusu gəlirdi. Bir neçə gün əvvəl bərk yağış yağmışdı deyə, cığırın bəzi yerləri sürüşkən idi, qalan yerlər isə incəvardan qumsallığıydı.

Qaratel təpənin başında dayanıb kəndə göz gəzdirdi. Həyətlərindəki ağaclar yenicə çiçəkləmişdi. Uzaqda örüş yeri və ərinin bayaq qaçıb getdiyi kolluq basmış dərə-təpə uzanırdı.

Umud yükünü yerə qoydu və:

– Topum qaldı, – deyə mızıldandı.

Anası ona acıqlandı.

– Atanı demirsən, topun dərdin çəkirsən. Hamı gedib, sənin topun da.

– Özümə görə demirəm, e. İkuş onnan oynamağı xoşluyurdu, – dedi və İlahənin qıvırcıq saçlarını qarışdırdı. Uşaq quş balası kimi ağzını açıb səssizcə güldü.

Yaxşı futbol oynamalı havaydı. Gün üfüqdən qızarırdı, yer bir azdan qupquru olacaqdı.

Qaratelə elə gəldi ki, əri uzaqdan onları görür və əl edir ki, getsinlər. Bəlkə də gözünə görünən ilğım idi. Getməyə həvəsi yoxuydu. Ərini qoyub getmək istəmirdi. Amma getməlidi, əri belə istəmişdi. “Fazil” deyə yarıpıçıltıyla səsləndi.

On üç il bundan əvvəl Fazil ilk dəfə ona bacılığından söz göndərmişdi. Fazil əsgərlikdən yenicə gəlmişdi və elin adətinə uyğun olaraq, evlənməliydi. Əsgərliyi qurtardın, oldun kişi. Əvvəlcə hər kəsə kəndin bir böyründən ev tikirdilər, sonra da evə gəlin gətirirdilər. Kənddə ayda-ildə toy olurdu. Onda da o qədər oynayırdılar ki, üç gün-üç gecə yıxılıb yatırdılar.

Həmin gün qızlar pencər yığmağa getmişdilər. Tərs kimi, leysan yağmış və Qaratel bacılığı ilə kəndin ayağındakı birinci evə qaçıb girmişdi: Fazilgilin evinə. Qismətdən qaçmaq olmaz. Bir müddət çardağın altında dayanmışdılar. Fazil pəncərədən onlara baxırdı, yağış damcıları pəncərədən aşağı süzülür və xırda arxa dönüb axırdı, damın üstündə ildırım şaqqıldayırdı...

O günlər keçmişdə qalmışdı, amma indiki qədər aydın və duruydu.

Təpədəki cığır əvvəlcə bağlara, sonra Araza düşürdü. Elə də uzaq deyildi.

Aşağıdakı asfalt yoldan tırtılların səsi gəlirdi. Qaratel vahiməyə düşdü. Əri demişdi ki, ermənilər hər tərəfdən gəlir: həm aşağıdan – Füzuli tərəfdən, həm də yuxarıdan – Mincivan tərəfdən.

Tələsmək lazımıydı. İlahə elə hey ağlayırdı, “çiş” istəyirdi. Umud şələsini tez-tez yerə qoyub, nəfəsini dərirdi, anası onu tələsdirirdi...

Nəhayət, çatdılar. Aşağıda Araz idi: enli və lam. Bəzi yerlərdə su daşlara dəyib ləpələnir, köpüklənirdi. Ora girmək ölümə bərabəriydi, amma düşmən əlinə keçməkdənsə, nə olur-olsun, adlamalıydılar. Qaratel özündən yox, balalarından qorxurdu.

Aralıdan bir əsgər göründü. Azərbaycanca onları çağırdı:

– Orda nə veyillənirsiniz! – deyə qışqırdı, – o tərəfə keçmək lazımdı.

Araz özü ilə müxtəlif ev əşyaları gətirirdi. Aralarında alabəzək bir top da vardı. Bu, Umudun gözündən yayınmadı. Heyifsiləndi. Görünür, yuxarı başın camaatı əşyalarını suya buraxmış, özləri isə o tərəfə keçmişdilər.

Əsgər danışa-danışa onlara tərəf gəlirdi.

Qaratel:

– Uşaqları su aparar, – dedi.

Əsgər:

– Mən sizə dayaz yeri göstərərəm, bayaqdan xeyli adam adlatmışam, köhnə bəndin üstündən, – dedi, – amma yüklərinizi apara bilməyəcəksiniz.

– Bəs bunları neyliyək?

– Burda qoyun. Bu əski-üskü canınızdan artıqdı?

Qaratel dinməz-söyləməz şələyini açdı. Balaca düyünçəsi şələyin içindəydi. Ailənin bütün gümanı ordaydı.

Əsgər İlahəni qucağına aldı, şalla qarnına bərkitdi.

– Düyünçəni də mənə ver, – dedi.

Qaratel duruxdu.

– O tərəfdə qaytararam, – əsgər dedi və düyünçəni alıb cibinə qoydu.

Yuxarıya tərəf getdilər. İki il əvvəl Güneylə Şimal arasındakı sərhəd məftilləri qırılmış, kimsə, yaxud kimlərsə bəndin üstündən o tərəfə yoğun məftil atmışdı. Əsgər sağ əli ilə məftildən tutdu. Məftil yellənirdi. Bir-iki yerdə çaya dəmir payalar bərkidilmiş, məftil də ora bağlanmışdı. Amma xeyri yoxdu, məftil ləngərləyirdi.

Qaratel arxaya dönüb əri qalan tərəfə baxdı, amma təpələr görünmürdü, bağ-bağat onun qabağını kəsmişdi. Qaratelin gözlərində yaş damcıları puçurladı.

Umud əsgərin enli toqqasından, Qaratel oğlunun belindən yapışdı. Arazın ən qıjav yeriydi. Köhnə bənd dağılsa da, enli və sürüşkəniydi. Daşlar mamır bağlamışdı. Onlar asta-asta, ayaqlarının altını yoxlaya-yoxlaya gedirdilər. Bir azdan su Qaratelin dizinə, Umudun qarnına çıxdı.

Əsgər:

– Bir-birinizdən bərk tutun, – deyə qışqırdı. Bu zaman Qaratelin ayağı sürüşdü və suya yıxıldı, oğlunu da özü ilə dartacağından qorxub əllərini buraxdı. Su onu üzü aşağı apardı.

– Nənə! – deyə Umud qışqırdı və özünü onun arxasınca atmaq istədi. Əsgər sol əlini atıb onu bərk-bərk saxladı.

– Hara!?–deyə qışqırdı...

İlahə qorxusundan çığırıb ağladı.

Sahilə çıxdılar. Qarşıdakı təpəlikdə əsgər postu vardı. İranlı əsgər və zabitlər dinməz-söyləməz onlara baxırdılar.

Anasının son sözü qulaqlarında qalmışdı:

– Umud!!!

Uzaqda – kənd tərəfdən atışma səsləri gəlirdi...

Körpə kirimək bilmirdi, əllərini köpüklənən dalğalara tərəf uzadıb ağlayırdı.

Umud bacısını qucağına aldı. Əsgər onların hər iksinin başını tumarladı, sonra isə:

– Burda dayanmayın, gedin, orda sizi gözləyirlər. Mənsə geri qayıtmalıyam. Hələ gələnlər çox olacaq...

Xeyli aralıda naməlum kənd görünürdü.

...Umud gedə-gedə hıçqırır və ağlayan bacısnı ovundurmaq üçün:

– Sənə alabəzək top alajam, – deyirdi...

# Özünü atan adamın ayaqları

Qonşu otaqda yenə də oğlu ilə gəlini arasında mübahisə düşmüşdü. Bu, demək olar ki, hər gün təkrar olunurdu. Səslərini nə qədər qıssalar da, o biri otaqdakılar eşidirdi. Söhbətin nədən getdiyi də hamıya aydın idi. Hamı deyəndə ki, bir özü, bir də arvadıydı. Qızını çoxdan köçürmüşdü, amma onların da həngaməsi səngimək bilmirdi. Hərdən qulağına çatırdı ki, qız qayınanası ilə yola getmir... “İndiki cavanlar niyə belədilər!?” - deyə öz-özünə sual verir, vaysınırdı...

Balkona çıxıb bir siqaret yandırdı. Bu gün bazar günüydü deyə, evdə qalmışdı. Gedəsi bir yeri də yoxuydu. Hamı öz başını zorla dolandırırdı. Həyat solmuşdu. Sosial şəbəkələr adamların hissini öldürmüşdü. Həyat onun üçün, elə onun yaşıdları üçün də maraqsız olmuşdu. Adamlar bir-birilərinə qonaq getməyə də utanırdılar, bəziləri də getməyə ərinirdilər...

Siqareti sona kimi çəkmədi. Son zamanlar hövsələsiz olmuşdu. Siqaretin közünü iki barmağı arasında acıqlı-acıqlı əzdi və küncdəki zibil qutusuna tulladı.

İçəri keçdi. Mübahisə davam edirdi. Arvadı, həmişəki kimi, divanın bir küncündə yanpörtü oturmuşdu, sanki bu evdə yad idi və birazdan köçüb gedəcəkdi. Amma belə deyildi, arvadı harasa köçüb getmək fikrindən xeyli uzaq idi, mübahisə də onun üstündə düşmüşdü.

Əslində, bu məsələdə bir balaca həqiqət vardı. Çünki oğlunu ayırmaq istəməyən məhz oydu. “Bir oğlum var, o da getsin düzlərdə qalsın?! Onu buraxan deyiləm! Qoy, böyrümüzdəcə otursun! Arvadına da baxaram, uşaqlarına da! Az taparıq az yeyərik, çox taparıq çox!”

Bax belə: qısa və aydın. Adi və bəsit məntiq, amma bəşəri. Bütün analar belə fikirləşir, yəni onun tanıdığı anaların əksəriyyəti. İstisnalar həmişə var...

İnsafən, arvadı mehriban idi və dediklərinə şübhə də olmazdı. O, bütün arzu və xəyallarını, istəklərini analıq hissinə qurban vermişdi. Həyatın mənasını özünün yox, balalarının xoşbəxtliyində görürdü...

İçəri keçdi.

– Yenə də nə olub? – deyə, xalaxətrin xəbər aldı. Darıxırdı axı. Nəsə deməliydi. Heç nə deməsəydi, içindəki hisslər qəzəbə çevrilə bilərdi. Özü də bu fikirdəydi ki, cavanlar harda istəyirlər, orda da yaşamalıdırlar. Yəni “sevgilinlə uçuq bir daxmada yaşamaq da gözəldir!”

Arvadı ərinin xasiyyətini bildiyindən, özünü yığışdıran kimi oldu və çiynini çəkdi, hələ bir ağzını da əydi, qəsdən yox, adəti üzrə, yəni onun mimikası beləydi, çiynini çəkəndə paralel olaraq dodaqlarının bir ucu da dartılırdı, sanki çiyni ağzını yuxarı çəkirdi: “Yəni, nə bilim!?” Əslində, bilirdi. Bilirdi ki, gəlin yenə də kürlük eləyir, kirayə evə çıxmasının davasını döyür...

Evə gəlin gətirəndən heç bir ay keçməmiş, məlum oldu ki, onlar bir yerdə yaşaya bilməzlər. Gəlin ayrılmaq istəyir. Oğlu ilə oturub məsləhətləşdilər ki, bir müddət bir yerdə qalsınlar. Oğlunun əli babat gətirəndən sonra kreditə bir ev götürsünlər. Ona qədər bir yerdə yaşasalar, xərcləri də az olar. Düz sözə nə deyəsən? Arvadı əvvəlcə bu məsələyə razılaşdı, çünki başqa əlacı yoxuydu. Təki, oğlu xoşbəxt olsun. Ev də mütləq yaxında olsun. Qapıbir qonşu ol-

salar, lap yaxşı. Ancaq gecə yatıb durandan sonra dirəndi ki, oğlunu heç yana buraxan deyil. İşə bax da! Elə bil arvada yuxudaykən cadu-piti eləmişdilər.

Gəlin pis ailədən deyildi. Ədəb-ərkanlı yerin qızıydı, amma, elə bil, onlara oxşamamışdı. Bir az hövcələsiz idi, fikirləşdiyi dilindəydi. Qudaları arada bir dəfə çıtızdırmışdılar ki, ev almağa onlar da kömək edərlər, amma tərs oğlu tərs, yəni oğlu bu işə razı olmamışdı. "Mən arvad evində yaşamaram!" Buna bax da! "Necə yəni yaşamazsan!? Nə səninki, nə mənimki?!" Oğluna belə desə də, ürəyində ona haqq qazandırırdı. İş belə də qala bilməzdi. Nəsə bir çıxış yolu tapmalıydı, ancaq çıxış yolunu fikirləşməyə vaxt da yoxuydu, yəni ona vaxt verən kimiydi. Hərə öz havasını çalırdı. Özünə də, oğluna da yazığı gəlirdi. "Arvad əlində qalmışıq da!" deyinirdi.

Düzdü, cəmi ikicə otaqları vardı, ancaq hələ ki, onlara bəs edirdi. Oğlu ilə gəlini yataq otağında, özləri isə qonaq otağında yatırdılar. Tüklərinin üstündə dolanır, barmaqlarının ucunda yeriyirdilər. Evə bir milçək girəndə narahat olur, onu təcavüzkar düşmən bilib ailəlikcə qovurdular...

Təzədən balkona qayıtdı. İçəridəki müəmmalı ab-hava onu sıxdı.

Gəlini balaca, toppuş, özü də gülərüz idi. Qayınatasına da, qayınanasına da yalnız gülümsəyirdi, düzdü, hərdən qaş-qabaq da tökürdü. Bu da anlaşılan idi. Çünki qayınatası siqaret çəkirdi, hərdən sinəsi xırıldaya-xırıldaya öskürürdü. Əlbəttə, bu, təzə gəlinə xoş gələ bilməzdi. Söz vermişdi ki, yeni ildən sonra siqareti atacaq. Zaman hər şeyi öz yerinə qoymalıydı.

Evdəki sakitlik qəfil pozuldu. Sanki fırtına qopdu.

Oğlunun acıqlı səsini eşitdi: "Rədd olsun bu xaraba da, siz də!"

Oğlunun üzünü görməsə də, bilirdi ki, hirsindən rəngi göyərib, ayaqqabılarını da hirsli-hirsli ayağına keçirib, başını götürüb harasa gedir. "Siz" deyəndə isə anasıyla arvadını nəzərdə tutur. Atasıyla işi yoxdu. Atası, yəni o, üzüyola və yola gələn adamdı...

İstədi ki, o da evdən çıxıb harasa getsin. Dərhal da fikrindən daşındı. Qorxdu ki, evdən getsə, qayınana ilə gəlin dalaşar və qonşuların yanında biabır olarlar. O, evdə olanda səsləri çıxmırdı. Abır-həya eləyirdilər. Əslində, qayınana ilə gəlin bir dəfə də olsun dalaşmamışdılar, bir-birilərinə səslərini də qaldırmamışdılar, amma o, fəhmlə duyurdu ki, bu razılaşdırılmış sakitlik fırtına öncəsi dəniz kimidir, birdən partlaya bilər.

Axşama kimi beləcə qaldı. Evlə balkonun arasını ölçdü, hərdən televizorun pultunu əlinə alıb, kanalları fırlatdı. Arvadı da mətbəxdə gah qab yuyur, gah xəmir qatır, gah qonaq otağına girib kiminləsə uzun-uzadı telefonla danışırdı. Kiminlə olacaq ki, bacılarıyla, ya da rəfiqələriylə.

Gəlindən səs çıxmırdı. Bircə dəfə balkona tərəf səsləndi ki, əmisinə, yəni ona çay gətirsin, ya yox? O da ədəb-ərkanla və mehribanlıqla dedi ki, çay içməyə həvəsi yoxdu, bir azdan içər. "Bir azdan, gözəl balam, bir azdan!"

Axşam çoxdan düşmüşdü. Qonaq otağına keçib divana uzandı. Arvadı onun yatmaq istədiyini fikirləşdi. Ona görə də telefon əlində, mətbəxə keçdi. Amma səsi çıxmadı. Yəqin o da mətbəxdə oturub oğlunu fikirləşir, ürəyində gəlinini danlayırdı.

O özü isə heç kimi danlamırdı, yalnız özünü qınayırdı. Vaxtında istəsəydi, başqa bir ev də alardı, imkanı buna çatardı, amma gözütoxluq elədi. Bir evimiz var, bəsdi. İki oğlumuz yoxdu ha!

Yuxuya getmək istəsə də, bacarmadı, mətbəxə keçdi. Özünə bir çay süzüb içdi. Arvadı heç qımıldanmadı da. Elə bircə dəfə "bu gədə harda qaldı?" deyə

öz-özünə sual verdi. Amma ərinin də eşitməsini istəyir, təsəllifason bir cavab alacağına ümid edirdi...

Oğlu evləndən sonra evə gec gəlməyi tərgitmişdi: həm yorulurdu, həm də səhər tez durduğuna görə erkən yatmalıydı. Bu gün isə gecikirdi. Saat gecə biri adlamışdı. İçən olsaydı, fikirləşərdi ki, yəqin dostlarıyla başı qarışıb. Amma dilinə içki vuran deyildi.

Arvadına nəzər saldı. Arvadı da günahkarcasına ona baxıb çiynini çəkdi, yəni mən başıdaşlı, neynim axı?! Anayam da!

Ürəyi sıxıldı. Yenidən balkona çıxdı. Məhəccərdən əyilib aşağı baxdı. Yuxarı mərtəbənin hündürlüyü onu qorxutdu. Uşaqlıqdan canında "yüksəklik qorxusu" vardı...

Oğlu harda ola bilərdi axı!? Narahat oldu. İstədi ki, dostlarından birinə zəng edib dərdini bölüşsün, amma gec idi. Qarşı evlərdəki mənzillərin işıqları sönmüşdü, yalnız bir neçəsində işıqlar yanırdı.

Kimsə aşağıda siqaret çəkirdi. Oğlu çəkən idi, amma heç zaman atasının yanında bu qələti eləməzdi, xəlvətə çəkilərdi. "Bəlkə odu?!"

Siqaret çəkən öskürdü. Oğlu deyildi.

Sonra siqaretin közü yox oldu. Kimsə pillələrlə yuxarı qalxırdı. Lift ola-ola, pillələrlə niyə? Addım səsi onlardan ötdü. Yuxarıda yalnız mansard vardı. Onu bina sahibi özü üçün saxlamışdı. Amma o da bura nadir hallarda gələrdi. Bəs kim idi? Lənət şeytana!

Bir azdan tappıltı səsi gəldi.

– Atdı, özünü atdı!

Binanın qarovulçusunu səsindən tanıdı. Qarovulçi təşvişlə bağırırdı:

– Atdı e, axırıncı mərtəbədən atdı!

Ürəyi düşdü. Arvadına bir söz demədən, liftə də minmədən pillələrlə aşağı qaçdı.

Qarovulçu özünü atan adamın meyidinin başı üzərində durub nəsə danışırdı. Qulaqlarını küy basdığından, onun nə dediyini eşidə bilmirdi.

Özünü atan adam küçə işığının altında uzanıqlıydı, ayaqları ona tərəf idi. Bağırmaq istədi. Amma həmin adamın ayaqqabılarına baxanda sakitləşdi. Onun oğlu kiçik ölçülü ayaqqabı geyinirdi, intihar edənin ayaqları isə çox yekəydi.

"Şükür Allaha, çox şükür!" – dedi və özünü atan adamın yanına çatanda dizləri üstə düşüb, əllərini göyə açdı...

Ölünün üzündə heç bir ifadə yox idi, əcəlini duyan adamlar kimi, gözlərini də yummuşdu.

Ağlamağa başladı.

O, ürəyində Allaha şükür oxuyur, göz yaşları yanağından aşağı süzülürdü.

Qarovulçu heç nə anlamırdı. Eləcə key-key ona baxırdı. Meyidin başından axan qan onun dizlərini, qarovulçunun ayaqlarını da isladırdı...

# Dostumun papaqları

İstanbula günortaya yaxın düşdüm. Danışdığımız kimi, məni qədimi dostum qarşıladı. O, İstanbul universitetlərindən birində öyrətmən işləyirdi.

Bəri başdan deyim ki, bu hekayədə Türkiyə türkcəsinə tez-tez rast gələcəksiniz, çünki dostum o kəlmələri kullanmağı xoşlayır, Məşədi İbad demiş, bir nou öyrəncəli olub.

Dostum məni çıxışda gözləyirdi. Xoşbeş - onbeşdən sonra universitetlərindən, İstanbuldakı bahaçılıqdan, ərzağın, ətin keyfiyyətindən danışdı, daha doğrusu, narazılığını bildirdi. Mən də ona təsəlli üçün, bir az da həqiqətə yaxın olduğuna görə dedim ki, indi hər yerdə geni dəyişdirilmiş məhsullar satılır, elə Bakının özü də yaxşı gündə deyil.

Hava limanında liftə minib aşağı düşdük. Oradan da metro ilə (tramvayla) şəhərin mərkəzinə gəldik. Bilməyənlər üçün ərz eləyim ki, Atatürk Hava Limanından İstanbula metro gedir.

Şəhərin mərkəzində bir neçə dəfə olmuşdum: bir tərəfdə Aya Sofya kilsəsi, bir tərəfdə də Sultan Mehmet camesi, meydanda nargilə daşıyan qeyri-rəsmi, qəni statussuz qarsonlar...

Metrodan düşəndə üşüdüyümü hiss elədim. Hava soyuq və çiskinliydi.

Ətrafa baxdım və gördüm ki, bizdən başqa hamı papaqlı-şallıdır.

Dostumun uzun saçları olduğuna görə soyuq onun vecinə deyildi. Həm də fikirləşdim ki, yəqin onun da mənim kimi papağa allergiyası var, papaq qoyanda başı geyişir. Halbuki bir zamanlar o, cürbəcür papaqları sevərdi, anası onu küçəyə papaqsız qoymazdı.

Dostum mənim üşüdüyümü duydu və yaxınlıqdakı kafedə qəhvəaltı təklif elədi, razılaşmadım, dedim ki, təyyarədə naharımı eləmişəm.

– O zaman evə gedək, – dedi, – uşaqlar da sənin üçün darıxıblar. Vapurla getsək yaxşı olur,- deyə əlavə elədi.

“Uşaqlar” deyəndə o, həyat yoldaşı Dilarə xanımı nəzərdə tuturdu.

Biz gəmiyə minib Asiya yaxasına getdik. Göyərtədə hava çox soyuq olduğundan aşağı – kayutlara tərəf endik, amma otaqlara girmədik, eləcə ətrafı – dənizi, qağayıları seyr elədik.

Dostum qağayılara işarə ilə:

– Buraların martıları tam fərqli, – dedi, – çığırışmağı çox sevərlər, çünki balıq fazla.

Onun dediyinin fərqinə varmasam da, başımla təsdiqlədim. Uzaqdan “Qız qalası” görünürdü. Yağmurluq geymiş həvəskar balıqçılar tilovlarını suya tullamışdılar və çox güman ki, tutacaqları ovun ləzzətilə yaşayırdılar.

Bir zamanlar mən də onlar kimi Arazın qırağında oturub balıq tutardım, yağış başıma döysə də, ov sevdasından əl çəkməzdim, çünki balıq qarmağın böyür-başına fırlanır, hərdən onu didişdirirdi. Mən o balığı aydın təsəvvür edirdim. Xəyalımda onun iri pulcuqlarını, qəlsəmələrini sığallayırdım. Balığı necə tovlayıb tutmağımı başıma yığışanlara danışırdım.

– İndi də balığa gedirsənmi? – deyə dostum soruşdu və bununla da mənim balıq həvəskarı olduğumu unutmadığını nümayiş etdirdi.

– İndi nə çaylarda, nə də Xəzərdə balıq qalıb, – deyə gileyləndim, – çayın qovşağına o qədər tor atırlar ki, balıqlar kürü qoymağa da macal tapmırlar.

Heç olmasa, aprel-may aylarında bunu qadağan edələr. Amma kimə deyirsən, sanki bu dəniz və çaylar onların deyil.

Dostum başı ilə məni anladığını bildirdi.

– Hər yerdə aynıdır, – dedi, – elə burda da.

Gəmidən düşüb avtobusa mindik. Bir neçə dayanacaqdan sonra dostumun dərs dediyi universitet şəhərciyinin qarşısında düşdük.

Kampuslar səliqəylə cərgələnmişdi.

– Bura öyrəşmişik, ona görə də ayrı bir mənzil kirayələmədik,- dostum üzümə baxaraq, sanki məni sınayırmış kimi, dedi.

– Təbii, insan haranı bəyənərsə, orada da yaşamalıdır, – cavabını verdim.

Dostum həyat yoldaşı ilə birinci mərtəbədə yaşayırdı. Qapının arasında məktub vardı. Məktub arvadından idi. O, təəccüblə məktubu açıb oxudu, sonra mənə tərəf dönüb:

– Əcələ okula getməliymiş, bir azdan gələr, – dedi, sonra da izah elədi ki, arvadının bu gün dərsi yoxdur, bizi gözləməliymiş, amma getməyə məcbur olub, təcili işi çıxıb.

Otağa girəndən sonra dostum yenə də qəhvəaltı təklif elədi. Bu dəfə boyun qaçırmadım, fikirləşdim ki, xətrinə dəyə bilər, çünki bura kafe yox, onun öz eviydi.

O, soyuducudan pomidor-xiyar, pendir, kolbasa çıxarıb stolun üstünə düzdü. Yəqin öncədən hazırlıq görmüşdü.

– Bizdən fərqli olaraq türk arxadaşlarımız səhərlər bol yeməyi xoşlayırlar. Özü də tərəvəzə üstünlük verirlər, -deyə o, pomidor doğramağa başladı. Mən başımla onun dediklərini təsdiqlədim, gözlərimlə ətrafı seyr eləməyə başladım. Dəhliz mətbəxlə üzbəüz idi. Orada iri, yığma şifoner vardı, üstündə isə cürbəcür kişi papaqları. Məni maraq götürdü. Necə ola bilərdi ki, bu qədər papaq ola-ola, dostum başıaçıq gəzsin, başıaçıq gəzəcəkdisə, onda papaqlar nəyə lazım idi?

– Papaq kolleksiyası toplayırsan, deyəsən? – deyə şifonerə işarəylə soruşdum.

O, bir anlığa duruxdu, sonra nəzərlərini hərləyib dəhlizə baxdı, qımışdı:

– Hə, onları deyirsən?.. Uzun söhbətdir. Sonra danışaram.

–Vaxtım çoxdu, – dedim, – axşamüstü mehmanxanaya qayıdacam, qonaqlarım olacaq, sabah konfransa qatılacam.

Qəhvəaltı dəm-dəstgahı hazır olandan sonra dostum papaq əhvalatını danışmağa başladı:

– Uşaqlıqdan papaq qoymuşam da, bilirsən, rəhmətlik anam məni öyrəncəkli etmişdi.

Başımla təsdiqlədim.

– Universitetə təzə gəlmişdim. Gördüm, əksəriyyət burda papaq qoyur. Əsl müsəlmançılıqdır. Ürəyimdə sevindim də. Fikirləşdim ki, mən də bir papaq alım. Saqqalıma uyğun, qara rəngli bir panama aldım. Bir-iki gün keçəndən sonra dəhlizdə gedirdim, birdən rektor yardımçısı arxamca qaça-qaça gəldi və dedi ki, “rektor əfəndiləri sizi görmək istəyir”. Dedim yəqin nəsə bir tapşırığı var.

Gəldim rektorun kabinetinə. İçəri girən kimi, rektor ayağa durub mənimlə hal-əhval tutdu, sonra papağıma baxıb soruşdu: “Oğlum, sən ortodoks yəhudilərdənmisən?” “Yox, canım, – dedim, – mən də sizin kimi müsəlman və türkəm”. “Bəs bu şapka nərədən çıkdı?” “Şapkadı da, xoşuma gəldi, aldım”. “Oğlum, bax, beni yaxşı-yaxşı dinle, bizim universitedə böylə şapkaları sev-mezler.”

Düzü, bərk təəccüblənsəm də, biruzə vermədim və dedim: “Pəki, əfəndim bir daha takmaram”.

Üstündən bir neçə gün keçəndən sonra Dilarə xanımla (dostum arvadını nəzərdə tuturdu) qapalı çarşını gəzməyə çıxmışdım. Bu dəfə özümə ağ rəngli şlyapa aldım. Bilirəm, indi təəccüblənəcəksən ki, niyə məhz şlyapa, o da elə panamanın bir adıdır da. İş burasındadır ki, bu bir az yığcam idi, həm də mənim bu cür papaqlara bir nostaljim var. Rəhmətlik atam belə papaqları sevərdi. O papaqlarla çoxlu şəkillər çəkdirmişdi: enlibalaq şalvar, zolaqlı pencək, damağında papiros... Nəysə.

Bir neçə gün universiteyə bu papaqla gedib-gəldim. Bir gün rektor köməkçisi təngnəfəs gəlib dedi ki, rektor əfəndi çağırır. Getdim. Bu dəfə rektor ayağa durmadı, əvvəlki iltifatı da göstərmədi. Eləcə deyindi: “Ya sən nə əcaib adamsan! Solçumusan?” Dedim “yox, canım, siz nə danışırsınız, mən siyasətlə ilgilənməm“. “Bəs bu şapka nə?” “Şapkadı da” – deyə əsəbi cavab verdim. – “Başıaçıq gəzməyəcəm ki...” “Bax oğlum, ben solçu-molçu bilmem. Özünə ayrı şapka tap”. Bir söz deməyib çölə çıxdım. Fikirləşdim ki, geri – vətənə qayıdım, ya da özümə ayrı bir universitə bulum. Bu əhvalatı və ağlımdan keçənləri Dilarə xanıma danışdım. O da dedi ki, kefini pozma, mən sənə yaxşı birisini alaram, rektor əfəndi də razı qalar, sən də özgə fikirlərə düşməzsən.

Arvad dediyi kimi də elədi. Mənə özbək araxçınına oxşayan bir papaq aldı. Papaq əsl araxçından balaca, fəsdən azca iriydi. Xoşuma gəldi...

Bu yerdə dostum dayandı, ayağa durub civiltili səs çıxaran çaynikin altını söndürdü. Geri qayıdıb oturandan sonra mənim intizarıma son qoydu.

– Araxçın mənə yaraşırdı. Bir eynək də almışdım. Əsl professora bənzəyirdim. Üstündən bir-iki gün keçmişdi ki...

– Professor səni çağırdı, elə? – deyə sözünü kəsdim.

– Aynan sən dediyin kimi. Yenə də rektor yardımçısı gəldi. Bu dəfə rektor əfəndi daha da əsəbiləşmişdi. İçəri girən kimi, ədəb-ərkanı kənara qoyub üstümə düşdü: “Oğlum, sən nə oyun çıxarırsan ya?! Azərbaycanda sizə yalnızca siyasət dərsimi keçirlər?” “Canım, nə siyasət?!” deyə mən də səsimi qaldırdım. “O siyasət ki, gündə bir türlü şapka taxırsan. Bu nədi belə?! Şimdi də dinçimi oldun?!” “Mən dinçi-zad deyiləm, ya! İstəsəniz, universiteni həmən tərk edib gedərim”. Mənim bu sözlərim rektorun havasını aldı, bir qədər yumşaldı və soruşdu: “Oğlum, sən həqiqətənmi, bu şapkaların tərifini bilmirsən?” “Bilmirəm”, – dedim, – “nərədən bilim? Başıma bir papaq qoymalıyam, ya yox!? Bizlərdə kimin hansı şapkanı qoymağı kəndi işi dir. Ona heç kim qarışmaz”. “Bak, oğlum, mən səni istədiyimdən deyirəm. Yarın səni bir sağçı, ya solçu öldürsə, bizim heç bir suçumuz yok”. “Sağçılar hansı şapkadan taxırlar ki? – deyə bərayi-ehtiyat soruşdum.” Rektor əfəndi gülümsündü və divarı göstərdi. Divarda yeni baş nazirin şəkli asılmışda, başında dimdikli kepka. Barmağımı dişlədim, amma heç nə demədən çölə çıxdım. Mən nə ortodoksal yəhudiydim, nə solçu, nə də dinçi, sağçı olmaq da istəmirdim. Çünki dimdikli kepka qoyanlardan xoşum gəlmirdi. Özün də bilirsən ki, bu cür kepkaları keçmişlərdə farmazon müsəlmanlar qoyurdular... Odu-budu, papaq qoymuram...

Dostum bu sözlərlə hekayətini tamamladı və uzun saçlarını, sonra da saqqalını tumarladı, axırda da qəhqəhə çəkib güldü. Mən də ona qoşuldum.

Daha sonra dostumla türkiyəli arxadaşlarımızı bizimlə birləşdirən və ayıran nəsnələri müzakirə elədik. Bu arada Dilarə xanım da gəlib çıxdı, evdə

olmadığına və müsafirinə yetərli diqqət göstərə bilmədiyinə görə üzüldüyünü dedi. Amma mən gördüyümü görmüş, eşitdiyimi eşitmişdim.

Dostlarımdan ayrılıb mehmanxanaya qayıtdım. Konfrans zalı mehmanxananın özündəydi. Mənim də məruzəm varıydı. Papaq əhvalatını konfransdakı çıxışıma əlavə eləmək istədim. Çünki mövzumuz cəmiyyətdə tolerantlıqla bağlıydı. Amma mehmanxananın salonundakı müxtəlif sifətləri görəndə bu fikrimdən vaz keçdim, çünki onların çoxu bura papaqda gəlmişdi...

# Kimsə ağlayırdı...

Artırmada arvadı su tökür, o da əlinin mazutunu yuyurdu. İşdən təzəcə gəlmişdi. Başını qaldırıb arvadının üzünə də baxmadı. Eləcə dəsmalı alıb üz-gözünü sildi.

Bayırdan öskürək səsi gəldi. Atasıydı. Demək istəyirdi ki, özlərini yığışdırsınlar.

Arvadı dal otağa keçdi.

Atası qaradinməz adam idi. Siqaret çəkməkdən bir az da qaralmışdı. Anasının sözləriydi:

– Az çək o zəhrimarı, özün qarasan, bəs dəyil, hələ bir tüsdülədirsən də!? Tir kimi qaralmısan!

Atası siqaret əlində, içəri keçdi, eyvandakı köhnə divanda oturdu. Bir-iki ağız öskürdü. Siqareti əlində o tərəf-bu tərəfə fırlatdı. Sözlü adama oxşayırdı.

Zahir onun nə demək istədiyini təxmin elədi, dalağı sancdı.

– Gəlini göndər getsin, – atası siqaretin filtrini ağzında çeynəyə-çeynəyə, oğlunun üzünə baxmadan dedi.

"Arvadını göndər" demədi. Bu o demək idi ki, hara getsə, yenə də onun gəlinidir.

Ata-bala susdular. İçəridən körpənin səsi gəldi, bir ağız ağladı, tez də susdu. Yəqin anası körpənin səsini kəsmək üçün döşünü onun ağzına saldı.

Bir azdan anası artırmada göründü. Gözlərinin qızartısından başa düşdü ki, ağlayıb. Anasının ürəyi yumşaq idi, göz yaşı da ovcunda. Qucağında dəsmala bükülü nəsə vardı. Balaca qazana oxşayırdı. Anasının xasiyyəti beləydi, əliboş gəlməzdi. Özü də çox zaman onun xoşladığı kələm dolması gətirərdi.

– Arvadın əli uşaqlıdı, ona görə də sənə yemək gətirdim, – dedi, əlindəkini stolun üstünə qoydu, gəlib onun yanında oturdu. – Başına dönüm, – deyə oğlunun boynunu qucaqladı, – odey, Şirvanlıda da yüz ilin arvadını dədəsi evinə göndəriblər. Allah qırsın Qarbaçovun belini. Aranı o qarışdırıb deyirlər. Ara sakiitləşəndən sonra gedib gətirərsən.

Nə cavab verəcəyini bilmirdi. Ermənilərlə ara son zamanlar qızışmışdı. Hər iki tərəf haça təpəlikdə post qurmuşdu. Azərbaycanlılar burdan, ermənilər də ordan. Hərdən atışırdılar da. Elə-belə, bir-birilərini qorxutmaq üçün. O da günaşırı posta gedirdi, amma heç kimin üzünə düz baxa bilmirdi.

Kəndin ayağında Mehbalının evini arvad-uşaqqarışıq yandırandan sonra ermənilərə qəzəb və nifrət artmışdı. Qonşu kəndin simsar erməniləri and-aman edib, söz göndərmişdilər ki, Mehralı kirvənin evini onlar yox, İrəvandan gələn saqqallılar yandırıb, aranı da qızışdıran onlardır.

Atası:

– Mehralıgilin müsibətindən sonra erməni haxçılərinin hamısını dədəsi evinə göndərirlər. Bu gün də belə qərar verdilər, dedilər ki, biz erməni... – sözünün dalını gətirmədi, yəni “qancıq” sözünü dilinə gətirmədi, əvəzində siqaretdən bir qullab aldı, – kənddə saxlaya bilmərik.

Dal otaqda yenə də körpə ağladı.

– Bəs uşaq?! – deyə Zahir uzun sürən pauzadan sonra dedi, daha doğrusu, inildədi.

– Uşaq, əlbəttə, bizdə qalacaq! – atası ötkəm səslə belə dedi, – erməniyə uşaq umud eləməy olar!?

– Uşaqdı da, qadan alım, – anası söhbətə qarışdı, – bir az ağlıyıb kəsəcək. Aşağı obada Zalxagilin keçiləri təzə balalıyıb, keçi südü ana südündən də yaxşıdır.

– Bəs anası?

– Anası da bir az ağlayıb-sıtqayıb, sakitləşəcək. Bir də gördün Kamal yekə kişi olub.

Bütün bu danışıqları Siranuş eşidirdi, amma səsini çıxarmırdı. Eləcə xısın-xısın ağlayırdı. Uşağı özünə bərk-bərk sıxır, üz-gözündən öpürdü. Uşaq da sanki həyəcanlanmışdı, hərdən ağzını anasının döşündən ayırır və ağlayırdı. İri, qara gözləriylə anasına baxır, xırdaca əllərini anasının üzündə gəzdirirdi.

– Bu gecə gəlini apar, yola sal, ürəyin gəlmirsə, qardaşın aparsın, – atası dedi və siqaretini tüstülədə-tüstülədə getdi.

O boyda qaradinməz və sərt kişi də kövrəlmişdi deyəsən, çünki bu sözləri deyəndə səsi titrədi...

– Dur, qadan alım, dur, bir tikə çörək ye, qaranlıq düşəndən sonra apararsan, – anası ağlamsına-ağlamsına dedi, – sənə heç kim heç nə deməz.

Nə edəcəyini bilmirdi. Onsuz da son zamanlar iştahı tamam küsmüş, yuxusu qaçmışdı.

Anası ayağa durdu, gəlin olan otağa tərəf baxdı, deyəsən, ora girmək istədi, amma fikrindən daşındı.

– Dədən də narahatdı, gedim görüm, neynir, dərd eləməsə yaxşıdı, eləliyinə baxma, ürəyi yumşaq adamdır, – dedi, təzədən oğlunun boynunu qucaqladı, bir müddət başını sinəsində

saxladı, sanki gəlinini yox, oğlunu uzaq səfərə yola salırdı.

– Yaxşı, sən get, – deyə Zahir başını anasının qolları arasından çıxardı, – narahat olma, bir şey fikirləşərəm.

Anası ayağını sürüyə-sürüyə getdi.

O isə dal otağa girdi və küncə sığınıb ağlayan arvadının ayaqlarının ucunda oturdu.

İşıqlar yenə də sönmüşdü, içəri alaqaranlıq idi. Siranuş lampanı da yandırmamışdı.

Körpə anasının qucağında, arxası üstə yatırdı. Bir əlini qarnının üstünə, o birini qulağının dibinə qoymuşdu...

Bir müddət dinmədilər. Sanki hər ikisi uşağın mışıltısını dinləyirdi.

Siranuşu səkkiz il əvvəl yamacda yer şumlayanda görmüşdü. Dünyanın düz vaxtıydı, ermənilərlə aralarında heç bir ədavət yox idi, canbir-qəlbbir yaşayırdılar.

Zahir həmin gün briqadir Arzumanın torpaq sahəsini şumlayırdı və yamacın aşağısındakı bulağa enəndə qızın əvvəlcə ağ baldırlarını gördü, sonra başını qaldırıb üzünə baxdı, ala gözlərinə vuruldu. Siranuşun iri burnu gözünə görünmədi...

Siranuş adını eşidəndə atası əvvəlcə başını tutdu, sonra gözünü yumub, ağzını açdı, evdən çıxıb qaçan oğlunun dalınca bir salba da tulladı... Amma anası bu işə razı oldu. Hətta toy tədarükü də gördü.

Qızı bir həftə sonra, elə bulaq başındaca kirvələri Dəmirin köhnə "Moskviç"inə basıb apardılar.

Onu sevirdimi, ya yox, bilmirdi. Yeddi il uşaqları olmasa da, Siranuşu boşamamışdı.

– Bu erməni haxçisi, deyəsən, qısırdı, boşayın getsin. – İnişil rəhmətə gedən babası belə demişdi.

– İndi neyləyəssən? -Siranuş ağlaya-ağlaya soruşdu və ala, nəm gözləriylə ona baxdı. - Bu körpədir axı, səkkiz aylıqdır, burda qalsa, sizinkilər yola verəcək?1

Əvvəlcə çiynini çəkdi, sonra inamsız halda:

– Yəqin verərlər, – dedi.

Belə dedi, amma dediyinə özü də inanmadı.

Siranuş göz yaşlarını boğa-boğa:

– Deməzlərmi ki, erməni südü əmib? – deyə bildi.

Dinmədi.

Bir müddət susdular. Bir-birilərinin gözlərinə belə baxmadılar, sanki utanırdılar: biri erməni olmağından, biri də azərbaycanlı.

– Dur, hazırlaş, – Zahir handan-hana arvadının üzünə baxmadan dedi.

Siranuş bir anlığa donub qaldı, nə edəcəyini bilmədi. Bilirdi ki, getməlidir, kənd camaatı, qayınatası və qayınanası da belə istəyir, amma Zahirin belə tezliklə razı olacağına inanmırdı, bəlkə də inanmaq istəmirdi.

– Uşağı apar qoy yerinə, – Zahir alçaq səslə dedi.

Siranuş ayağa durdu. Uşağı yerinə elə qoydu ki, sanki maşının banına kartof torbası atır. İncəvara körpə oyanmadı.

Zahir bildi ki, arvadı uşağı oyatmaq üçün belə edir. Amma dinmədi.

Siranuş sandıqda bir az eşələnəndən sonra körpənin yanına gəldi, onun əl-ayağından, yanaqlarından, saçlarından öpdü.

Zahir bütün bunları görmürdü, amma duyurdu. Siranuşun ala gözlərindən, qızarmış yanağından süzülən göz yaşlarını da, göz yaşlarının duzunu da hiss edir, amma başını qaldırmırdı. Əlacsızlığına, həyat yoldaşını qoruya bilmədiyinə görə için-için göynəyirdi...

Siranuş da ərinin tərəddüdlərini anlayır, onun əlacsızlığına həm acığı tutur, həm də yazığı gəlirdi.

Ortaya ağır bir sükut çökdü. Lap uzaqlarda ara-sıra güllə səsləri eşidilirdi.

– Hansı yolla gedəcəyik? – Siranuş, sanki ərini vəziyyətdən çıxarmaq üçün dedi.

– Aşağı yolla, – Zahir də könülsüz halda cavab verdi.

Siranuş qəhərdən boğula-boğula:

– Mən hazıram, – dedi.

... Darvazanı açıb doqqaza çıxdılar. Şər çoxdan qarışmışdı. Siranuş darvazanın ağzında durub evə tərəf baxdı və qəfildən hönkürdü. Zahir istədi ki, onun boynunu qucaqlayıb ovutsun, amma əlləri qalxmadı, eləcə, bir siqaret yandırdı.

– Gedək, – pıçıltıyla dedi.

Kəndin yuxarısında it hürdü, aşağısından da cavab gəldi. Kiminsə inəyi böyürdü, qoyun-quzusu mələşdi.

Kəndin aşağısı kolxoz bağı idi. Çəkillik qaranlıqda keçilməz meşəyə oxşayırdı. Burda heç kim onları görə bilməzdi. Çünki postlar lap yuxarıdaydı.

Heç biri dinmirdi. Hərə dərdini öz içində çəkirdi. Bir zamanlar dərd-sərlərini bölüşən ər-arvad, sanki bir anın içində yadlaşmışdılar.

Zahir fikirləşirdi ki, vaxtında instituta qəbul olunsaydı, nə traktor sürər, nə də Siranuşa rast gələrdi. Yəqin paytaxtın hansısa bir məhəlləsində işıqlı mənzildə yaşayırdı. Orta məktəbi yaxşı oxumuşdu, amma çox yuxarı yerdən yapışmışdı: hüquqdan.

Atası elə belə də demişdi: "Bala, ora sən girən kol deyil, gəl müəllimdən-zaddan ol. Gücün çatmasa, danadan-dunadan satıb birtəhər yoluna qoyarıq." Amma Siranuşun ala gözləri onu yoldan çıxardı: nə prokuror oldu, nə də müəllim...

Siranuş isə heç nə fikirləşmirdi. Fikri-zikri balasının yanındaydı və hərdən öz ürəyində "Moskviç"ə minib qaçdığı günə lənətlər yağdırırdı...

Bağ qurtarandan sonra şumluq sahə başlayırdı. Bura şərik torpaq sahəsiydi. Ara-sıra ermənilərlə onun üstündə dava da

düşürdü. Sahənin kənarından maşın yolu keçirdi. Siranuş ora çatanda dayandı. Bu o demək idi ki, burdan o yana tək də gedə bilər. Amma Zahir dayanmadı və Siranuşu kəndlərinin ayağına qədər ötürdü, arvadının arxasınca baxmadı da...

– Geriyə baxma, – Siranuş dedi və getdi.

Evə necə çatdığını bilmədi.

Qulağına ilk gələn körpənin çığırtısı oldu. Körpələr hamısı eyni cür ağlasa da, Zahir öz uşağının səsini dərhal tanıdı.

Kamil nənəsinin qucağındaydı və durmadan ağlayırdı. Zahirin bacısı da ordaydı və nə illah edirdilərsə, körpə kirimirdi. Atası ilə qardaşı postdaydılar. Bu axşam onların növbəsiydi.

Evdən çıxanda körpəni yatılı qoymuşdular. Zahir anasına arxayın idi. Bilirdi ki, Kamil durub ağlasa, anası eşidəcək.

Zahir içəri girəndə anası uşağı ona verdi.

– Bax, dədən də gəldi, – dedi.

Kamil atasını görüb bir az toxtayan kimi oldu, ancaq çığırtısı yenidən aləmi başına götürdü.

Ağlamaqdan uşağın bədəni qıc olmuşdu, qara gözləri orabura qaçır, anasını axtarırdı.

Anası qızına:

– Qaç, Siranuşun paltarını geyin, bəlkə sakitləşə...

Bacısı dal otağa keçdi və Siranuşun bir ay əvvəl qardaşının toyuna geyindiyi paltarı əynində, qayıtdı.

Körpə bir anlığa duruxdu və birdən özünü bibisinin qucağına atıb, onun yaxasını dartışdırmağa başladı.

– Al bu əmziyi, yaxandan keçir, elə bilsin ki, anasının məməsidir, – anası dedi, Zahirin üzünə baxdı, – keçi südüdü, – deyə əlavə elədi, – Zalxagildən almışam...

Amma körpə yad qoxunu duydu, duruxdu və azacıq tərəddüddən sonra əmziyi ağzına aldı.

– Demişdim axı, heç nə olmaz. Bir az ağlayıb kiriyəcək, – anası özünə bəraət qazandırırmış kimi, Zahirə baxıb dedi.

Bir anlığa araya sükut çökdü. Körpə yenidən ağladı. Südün tamını xoşlamadı deyəsən. Əvvəlcə nənəsi uşağı qucağına aldı, onu oxşamağa, sakitləşdirməyə başladı, hətta çölə çıxıb buzovları, qoyun-quzunu da göstərdi. Kamil bir ara sakitləşdi, amma yenidən çığırtısı aləmi başına götürdü.

Zahir bildi ki, körpə kiriyən deyil, əslində, anası da bunu bilirdi, amma deməyə ürəyi gəlmirdi.

– Onu ver mənə, – Zahir acıqlı-acıqlı dedi və uşağı qucağına aldı.

– Bir az ağlayıb kiriyəcək, – anası çəkinə-çəkinə, oğlunun üzünə baxmadan dedi. – Yorulub yatacaq.

Uşaq yatmaq bilmirdi. Elə hey ağlayırdı. Amma bir azdan anası deyən kimi oldu, uşaq səsini kəsdi.

– Yatdı deyəsən, – Kamilin bacısı dedi.

Anası:

– Ehmalca yerinə uzat. Elə elə ki, oyanmasın... Bəlkə özümlə aparım, istəyirsən sizdə qalım, anası suçlu nəzərlərini oğluna dikdi.

– Ehtiyac yoxdur, – Kamil dedi və uşağı aparıb yerinə uzatdı. Sonra qayıdıb divanda oturdu və başını əllərinin arasına aldı...

Anası evdən çıxanda bir Zahirə, bir də nəvəsi yatan otağa tərəf baxdı:

– Gəlinin döşü gəlməsə yaxşıdı...

Zahir bilirdi ki, bir azdan körpə yenə də duracaq və anasını axtaracaq. Onun da ürəyi dözməyəcək. Ona görə də nəyin bahasına olursa-olsun, uşağı anasının yanına aparmalı və əmizdirməlidir...

Körpəni qucağına alıb yola çıxdı. Uşaq yatırdı. Hər tərəf sakitlik idi. Yazın sonlarıydı. Gecə böcəkləri təzə-təzə cırıldamağa başlamışdı...

Siranuşgilin həyətlərinə necə çatdığını bilmədi: körpənin oyanacağından qorxduğuna görə, həm sürətlə yeriyir, həm də olanları və olacaqları götür-qoy edirdi...

... O, artırmanın qapısına çatanda arvadı da artırmaya çıxdı. Sanki ürəyinə dammışdı. Bununla belə, ərini görəndə duruxdu, amma uşağı ərinin qucağında görəndə özünü onun üstünə atdı. Yuxulu uşaq diksindi, oyandı və anasını görən kimi xırdaca əllərini onun yaxasına atdı. Gəlin utanıb-eləmədən döşünü uşağın ağzına saldı.

Siranuşun anası da çölə çıxmışdı. Kürəkənini görəndə qımışan kimi oldu. Təmiz azərbaycanca: "Xoş gəlmisən, Zahircan – dedi, – evə keçsənə."

Arvadı bir əli ilə uşağı tutmuşdu, o biri əli ilə də Zahirin qolundan tutub evə dartdı.

Amma o, etiraz elədi. Əslində, arvadı ilə görüşmək, bir yataqda yatmaq ürəyincə idi, amma həya elədi.

– Uşaq əməndən sonra aparacam, – Zahir astadan dedi.

– Aparma, Zahircan, aparma! Qorxma, mən onu heç kimə vermərəm!

Siranuş Zahirin üzündəki tərəddüdü görəndə daha da coşdu:

– Heç kimə vermərəm! Heç sənə də! Heç kimə!

Zahir bu sözlərdən tutuldu, udqundu, sanki deyəcəyi sözlər boğazında ilişib qaldı. Eləcə, anasının qucağında şirin-şirin mışıldayan uşağa baxdı... Və heç bir söz demədən artırmadan çıxdı. Gözücü Siranuşa baxdı. Arvadı körpənin üzünə baxıb gülümsəyirdi.

Gəldiyi yolla da geri qayıtdı. Getmirdi, ayağını sürüyürdü...

Atasının sözləri qulağında cingildəyirdi: "Erməniyə uşaq umud eləməy olar!?"

Gecənin səssizliyində kimsə hıçqırırdı...



*Ağacəfər HƏSƏNLİ*

**SƏNƏ SIĞINMAĞA**

*“Əziz Şuşa, sən azadsan!”*
**İlham Əliyev,**
**Azərbaycan Respublikasının**
**Prezidenti, Ali Baş Komandan**

Göylər dolansın başına –
Şuşam, sən indi azadsan!
Zülmət batsın göz yaşına,
Axşam, sən indi azadsan!

Məbədimdə irs dağıla…
Qoyma hikkə-hirs dağıla…
Lağım atdım Kirs dağına,
Paşam, sən indi azadsan!

Qoy bütün cahan eşitsin,
Salam, sən indi azadsan!
Lazım deyil bir keşikçin,
Qalam, sən indi azadsan!

Dərələrim çəksin nalə,
Bağrın qana dönsün, lalə!

Güzgülən – "Çətir şəlalə",
Lalam, sən indi azadsan!

Soyuq su yerdən fışqırsın,
Düşmənin belin qış qırsın!
Dəymiş cır armud qışqırsın –
Balam, sən indi azadsan!

Palıd qollarım gərilib,
Başlamışıq yığılmağa.
Azərbaycan bütöv gəlib,
Şuşam, sənə sığınmağa.

## İLHAM-ƏRDOĞAN BİRLİYİ

Uca Tanrının ətası –
Allah qorusun, qadası!
İki dövlətin sədası,
Bir millətin diriliyi –
İlham-Ərdoğan birliyi.

Hər gün boy atan, böyüyən,
Gah fəxr edən, gah öyünən.
Həmişə birgə döyünən
Ürəklərin iriliyi –
İlham-Ərdoğan birliyi.

Əfi ilan yuvası da
Möhtacdır haqq duasına.
Avropanın havasına
Min rəng qatır bu şirliyi –
İlham-Ərdoğan birliyi.

Düşmən də yerində sayır,
Tərəqqidən yoxdu payı…
Dost unutmur haqqı-sayı,
Bu müdrikliyi, pirliyi –
İlham-Ərdoğan birliyi.

Yar olsun ulu Yaradan,
Ağ seçiləcək qaradan.
Tamam qaldırar aradan
Mütləq ikitirəliyi –
İlham-Ərdoğan birliyi.

## FƏRYAD

*Vətən müharibəsində Ermənistanın*
*Gəncəyə atdığı ballistik raket zərbəsindən*
*həlak olmuş uşaqlara*

Adlarını bilmədikləri silahlar,
onların yuxularının darmadağın etirafı.
Uşaq oyuncaqlarına oxşar,
alabəzək, müdhiş, qorxulu,
ölüm qoxulu…

Bədheybətli, bəd niyyətli silahlar,
aman vermədi ki, səhər açılsın.
Yerlə yeksan olmuş daş binaların
üstünə gün doğsun, şəfəq saçılsın.

Yaralanmış, paralanmış yuxular,
parça-parça olmuş duyğular,
külü havaya sovrulmuş nağıllar
şəhəri silkələdi gecə yarısı.
Gəncənin üzünü görmə, qadası,
uşaq ah-naləsi, körpə nidası…

Yuxuları ərşə çəkmək olarmı,
silahları əfv eləmək olarmı?
verək raketlərə yuxu dərmanı,
pozmasın gecəni fəryad səsləri,
dalanı, küçəni sükut bürüsün!..
Uşaqlar nə günah sahibləridi?!

## TALA

İyirmi yeddi payız sonra
döndük Qarabağa.
İyirmi yeddi qış
nazıyla oynadıq,
izlədik düşməni qarabaqara…

İyirmi yeddi yay
özümüzü aldatdıq,
röyamıza bal qatdıq.
Əkdiyimiz ağacların kölgəsi,
zəhmətimiz boşa getdi…

İyirmi yeddi bahar
nə naharımız nahar idi,

nə də şamımız şam.
Yuxuma girirdi Şuşa
səhər-axşam…

Düz iyirmi yeddi il
yağı yurdumu qarış-qarış taladı.
Orman sükutuna batdım,
zənn etdim ürəyim kiçik taladı.

## CƏBHƏÇİ GİZİRİN GÜNDƏLİYİ

Alnımın qırışı bir sakit küçə,
üzümün hələ ki, matəmi yatıb.
Nə adi səhərdir, nə zülmət gecə –
gözümün Adəmi-Xatəmi yatıb.

Zədəli qazidir hər nəm kirpiyim,
xatircəm qayıdıb müharibədən.
"Laçın oğlan idim"… deyim, kiriyim? –
çalıb saçlarıma müharibə dən.

Ay aya calanıb, ili il çəkir,
kövrək duyğularım göz ağardır: sus.
Harasa çaxmağa gözüm yol çəkir,
getsəm, peşimanam, getmişəm, məyus.

Min ağlı-qaralı xatirəm duyuq,
dayanıb durmuşam fağırlığımda.
Düşmən danışanda başından böyük,
daş saldım başına ağırlığında…

O hansı mənzildir ünvanı gizlin –
bəlkə səksəkəli limandır elə?
Ümidsiz-ümidsiz yel döyür dizin
yoxsa ürəyimə damandır belə?

Onda ki, belimdən düşdü yarağım,
gün kimi üstümə doğdu Yaradan.
Karıma yetmədi əlim-ayağım,
canımla sürünüb çıxdım aradan!

## İNTİHAR VƏ İNTİBAH

Gündüzlər – qaranlıq çatmamış
intihar edir.
Gecələr – işıq yetişməmiş
intihar edir.

İntihar edir baxışlar
ümidlərin puçluğunu görüb.
İntihar edir yağışlar,
payızlar, qışlar,
köçəri quşlar…

Dünyada ölüm yoxdur,
intihar var.
Hətta intiharın axırında
yeni intibah var.

Yolların sifətini ot basır,
adamları sürükləyir intihara.
Bir Qıl qorxusundan, gül qoxusundan
addımlar batır günaha,
gedir intihara.

## ÖZÜNƏ QAYIDIŞ

Şuşanı özünə qaytaraq indi,
təmtərağı üçün şəhər darıxıb.
Atılıb üzündən duman rübəndi,
çilçırağı üçün səhər darıxıb.

Ağır günün ömrü az imiş, demə
hanı bayatısı, hanı nağılı?
Fərəhdən "özünü itirmiş" demə –
dağların başından çıxıb ağılı…

Üstündən atlanıb keçdi hərb mifi,
ümid təpərimə, heyimə qalıb.
Orda Xan qızının, burda Vaqifin
məzarı deyinə-deyinə qalıb.

Həsrət yaddaşımı daşlamamışdan
xarıbülbül yığaq, tər nərgiz dərək.
Şuşanın bərpası başlamamışdan
sönməyən büsatı qayıtsın gərək.

## TORPAQ

Oğlum, çatıb qisas anı,
Götür öp, dəmyə torpağı.
Yetib samanın zamanı –
Ovcunda dəmlə torpağı.

Mayasında fikir-zikir,
Qayasında kəklik səkir.
Neçə ildir aclıq çəkir,
Dur indi yemlə torpağı.

Yer göstər qonağa təki,
Dost-düşmən qınağa çəkir.
Buludlar sınağa çəkir –
Sopsoyuq nəmlə torpağı.

Sərhəddə elə dayan mil,
Qoy yabançı çıxartsın dil.
Hücum et, qurtaran deyil,
Hər kiçik həmlə torpağı.

Haqq işi üstünə götür,
Söz anlamır qotur-motur.
Orda mərdi-mərdanə dur,
Bir əldə cəmlə torpağı.

## ŞƏKİL

***Sevdiyi qızın bapbalaca şəklini kağız parçasına büküb qoltuq cibində gəzdirən kəşfiyyatçı-döyüşçüyə***

Bu nadir hekayət qandırdı haqqı,
davadan, savaşdan bir sirr qalmasın.
Sən həlak oldun ki, qoltuğundakı
mənfur erməniyə əsir qalmasın.

Vətənin sənintək balası vardı,
keçilməz mənzillər qət eləyəsən.
Qəlbində bir sevgi qalası vardı,
Şuşa qalasını fəth eləyəsən.

Şəkil yaşadırdı səadətini,
qol-qanad verirdi sənə çətində.
Elə bil döyüşçü rəşadətini
bölüşdün məhəbbət şücaətinlə.

Dırmandın qayaya, dikə, ağaca,
borcunu qaytardın ulu torpağın.
Qoymadın qarşında düşmən göz aça –
solmasın atəşdən gülü torpağın.

O qızın sırğası ana öyüdü,
üzüyü son qoyub hər həyəcana.
Yadigar şəklini göylər böyüdüb,
kölgəsi yayılıb Azərbaycana.

## QOŞA QALA QAPISI

Tərs damarım tutardı, hərdən dərsdən qaçardım,
gözünü zilləyərdi dalımca oğrun-oğrun.
Kimə söyləyəydim ki, bəd nəfəsdən qaçardım,
təkcə o qız bilərdi: nə yalandı, nə doğru.

Bir ağzıyırtıq onda çıxarardı adıma,
atmacanın beşini, tapmacanın yüzünü.
Yenə mağmın çağımda o çatardı dadıma,
fasilədə deyərdi sözün-sovun düzünü.

Hara baş götürərdim: heç özüm də bilməzdim,
nəfəsim təngiyərdi papiros qoxusundan.
Mənzil üzü görməzdim, danışmazdım, gülməzdim,
günlərlə ayılmazdım sərməstlik yuxusundan.

Gecəsi qara idi, cücəsi qara idi –
ağzı qatıq kəsmirdi Bakı küçələrinin.
Bəzən eşitmədiyim ürək avara idi,
tənha sərsərisiydim ürkək gecələrinin.

Ovçu da mən, ov da mən – quşu gözündən vurur,
tələbəlik həsrətim gen alnımın yazısı.
Elə bilirəm xəzri yenə üzümdən vurur,
nişangah yenə durur: Qoşa Qala qapısı.

## QARĞIŞ

Min kəsə boyun büküncə,
bir şaha mehtər olasan.
Xəlvət qısılasan küncə,
qocalıb kaftar olasan.

Bənizində ət qalmaya,
dizində taqət qalmaya.
Heç kim vecinə almaya,
canından betər olasan.

Azasan dumanda, sisdə,
özgə bir duyğuda, hissdə.
Mürgü döyüb ayaq üstə,
əbədi yatar olasan.

Fırlanasan öz çevrəndə,
çalxalanasan nehrəndə…
Əzrayılın eşq nəhrində –
gəmitək batar olasan.

## AXTARDIĞIMI TAPMADIM

Necə oyun oynayasan,
əvvəldən bardaqdı dünya.
Mələklə olmur qol-boyun,
şeytanla ortaqdı dünya.

Ürək-göbəyin yeyirsən,
şiti-şoru çoxdan çıxıb.
Vaxt elə keçir, deyirsən –
yer kürəsi oxdan çıxıb.

Şeytan azdırdığı adam,
ağlın nə kəsir quyruqda?
Ürək qızdırdığın adam –
səni saxlayıb buyruqda.

Hamı kimi binə qurdum,
heç vaxt yolumdan sapmadım.
Dünyanı dişimə vurdum,
axtardığımı tapmadım.

## ÖLÜM, HƏYAT

Anamdan əmdiyim süd
burnumdan gəldi.
Gördüm ölümlə həyat
bir bezin qırağıdı.

O da yuxudu,
bu da yuxudu.
Biri məni təqib etdi,
digəri təpədən-dırnağacan oxudu.

## NAXIŞ

Hər dəfə köksündə gərək köklənə,
sazın saz olmağı sazın naxşıdı.
Üfüqün qaşında gün çiçəklənər,
buluddan baxmağı yazın naxşıdı.

Əlbəttə, şirindir xəyalda olmaq,
göyün ağacından düşən üç alma…
Düşmənin gözünün odunu almaq,
qələbə – meydangir azın naxşıdı.

Gücünün üstündə güc qalanıbsa,
fərq eləməz tez, ya gec qalanıbsa.
Əgər mənzilində soba yanırsa,
ocağı qızdıran közün naxşıdı.

## DUSTAQ

Özümdən xəbərim yoxdu,
öz üzümə ağ olmuşam.
Çıxmağa təpərim yoxdu,
özümdə dustaq olmuşam.

Nə xurma daddım, nə kişmiş,
öz qır qazanımda bişəm.
Heç düşmən gərək deyilmiş,
özüm öz düşmənimmişəm.

Görmək üçün göz lazımmış
dözümdən qisas almağa.
Bir "Quran"lıq söz lazımmış
özümdən xilas olmağa.

## BAYATILARDAN

***

Sığınmağa kümən var,
dərdim azdı, kəmim var.
Sağ ikən ağlayıram,
ölsəm, kimə güman var?

***

Qar yağdı, ərimədi,
sazağı kirimədi…
Bərkidi dağ döşündə –
su olub, yerimədi.

***

Gülün butası soldu,
yerə yatası oldu.

Dörd yol üstdə çaşqınam,
solum sağ, sağım soldu.

***

Bu bağ badam, püstədi,
barı-bəhri üstdədi.
Doğmaya üz göstərdim,
məndən astar istədi.

***

Kölgən yolda yaxardı,
üzümə rəng yaxardı.
Daha səni itirdim,
bu nə yalvar-yaxardı.

***

Vadi başdan-başa şam,
yada düşmür nahar, şam.
Yandırıb yaz günəşi –
ürəyimdə titrək şam.

## BƏRK SAXLA

Ötəri külək belə üzməsin saplağından,
Ağacının üstündə yarpağını bərk saxla.
Pay olmadı heç zaman dərəsindən, dağından,
Xalqım, bu əmanətdi, torpağını bərk saxla.

Desən qatıq qaradır, ağ da o tərəfdədir,
Nə bağ-bostan, şamama, tağ da o tərəfdədir.
Güc hansı tərəfdədir, haqq da o tərəfdədir,
Ayağının altında tapdağını bərk saxla.

Bunun min sifəti var, həftəbecər kimidir,
Üz versən, astar istər, köhnə ləçər kimidir.
Hansısa erməniyçün papaq ləçək kimidir,
Sən məğrur doğulmusan, papağını bərk saxla.

Dünya yalvarıb-yaxır; döyüşləri dayandır,
Düşmən üstünə yağan söyüşləri dayandır.
Bu payız, elə bil ki, Qarabağ gülüstandır –
Cüllər qan çanağıdı, çanağını bərk saxla.

Günü günə caladın, vaxtı ötürdün daha,
Qalibiyyət taxtında indi oturdun daha.
Bu dünyada çox şeyi görüb-götürdün daha,
İtlə dostluq etsən də, çomağını bərk saxla.

**2783**

Yayaq tarixlərin qan yaddaşına
iki min yeddi yüz çəksən üç nəfər.
Dönək bu torpağın qara daşına,
iki min yeddi yüz çəksən üç dəfə.

Ürəklər həsrətin daman yeridi,
hər məzar bağrımın güman yeridi.
Daha and yeridi, iman yeridi –
iki min yeddi yüz çəksən üç nəfər.

Qoy məğrur analar yırtmasın sinə,
şəhid adlarından evlər isinə.
Salaq dərsliklərin səhifəsinə –
iki min yeddi yüz çəksən üç nəfər.

Sözlər dodağımda erkən üşüdü,
sandım sığındığım Murov döşüdü.
Ağacdı, qayadı, cənnət quşudu
iki min yeddi yüz çəksən üç nəfər.

Şimaldı, cənubdu, Laçındı, Qaxdı,
məğlubdum, dost-düşmən başıma qaxdı.
Şirvandı, Muğandı, xan Qarabağdı,
iki min yeddi yüz çəksən üç nəfər.

Qanını uğrumda tökən qoşundu,
yağının üstünə səkən qoşundu.
Balamdı, qalamdı, qonum-qonşumdu,
iki min yeddi yüz çəksən üç nəfər.

**GENERAL-LEYTENANT
HİKMƏT MİRZƏYEV**

***Müharibənin qızğın çağında Prezidentin bir neçə dəfə telefon açıb danışdığı yüksək çinli igid zabitimizə***

Komandandan aldı hər tapşırığı,
əsgərdir gözünün nuru, işığı.
Yerinə yetirdi ər tapşırığı,
general-leytenant Hikmət Mirzəyev.

Sifətini görmə cəng meydanında,
mərmidən qulağın dəng meydanında.
Qeyrətin ətri var təmiz qanında –
general-leytenant Hikmət Mirzəyev.

Orda piyadadır, burda atlıdır,
təkbətək qovğada qol-qanadlıdır.
Savaşda xüsusi təyinatlıdır –
general-leytenant Hikmət Mirzəyev.

Ürəyində elə həsrət yaşayır,
qaşınmayan yerin düşmən qaşıyır.
Azərbaycan boyda sevgi daşıyır –
general-leytenant Hikmət Mirzəyev.

Yıxıb-sürüdüyü düşmən qovuldu,
keçilməz yerlərdə külü sovruldu.
Fəth etdi Şuşanı müzəffər ordu –
general-leytenant Hikmət Mirzəyev.

Bu Vətən ruhudur, canı-qanıdır,
qalib komandiri torpaq tanıdır.
İndi Müharibə Qəhrəmanıdır,
general-leytenant Hikmət Mirzəyev.

## ŞƏHİD

Vətənə ülvi sevginlə –
rəşadət yolu keçdin.
Göz dəyməsin, şövqünlə
şəhadət yolu keçdin.

Diz çöküb satqın "kirvə" –
taleyin töhfəsiymiş.
Yüksəldiyin o zirvə –
şəhidlik zirvəsiymiş.

Qanı yerdə qalasıdı,
dağılmış Ağdamların?
Şəhid – Tanrı balasıdı,
biz adi adamların.

Əbədi nur gecəsi,
Şahidin adınadır.
Behiştin hər küçəsi –
şəhidin adınadır.

Şəhid Günəştək batır,
söz qalır qüvvəsində.
Cismi torpaqda yatır,
ruhu göy qübbəsində.

## ƏSGƏR BABASI

***Vətən müharibəsi iştirakçısı Rəşadıma***

Qanadım yoxdu uçmağa,
xarıbülbültək açmağa.
Hazıram Kirsə qaçmağa –
mən əsgər babasıyam.

Düşmənimdən qisas aldım,
yurdumun seyrinə daldım.
Qırx dörd gündə zəfər çaldım, –
mən əsgər babasıyam.

Mənfur yağı qansın indi,
varlığını dansın indi.
Cəhənnəmdə yansın indi, –
mən əsgər babasıyam.

Daha üşüməz Qarabağ,
bir üst-başında qara bax.
Heç vaxt büzüşməz Qarabağ –
mən əsgər babasıyam.

Qoltuğum şişib bu dəfə,
başımı ucaldıb nəvə.
Şairliyim bir tərəfə, –
mən əsgər babasıyam!

## YARDIM

***Bir aylıq pensiyasını ordunun dəstək fonduna köçürən tənha anaya***

Ay ana, bu nə zəhmətdi,
aldığın çörəkpuludu.
Allah da sevmir o kəsi –
hər kim qarnının quludu.

Düşmən ocaq başındaydı,
sənin niyyətin bəllidi.

Çörəyinin duzu yoxdu –
günah ocaq daşındaydı.

Kim harda yeyib-içirdi –
billah, gözümdə deyildi.
Bu xəmir çox su apardı,
səbəb özümdə deyildi.

Saçındakı ağ bayraqlar
başındakı dənin olsun.
Oğul vermisən, bəs edir,
təqaüdün sənin olsun!

## QAZİ AĞACLAR, VETERAN QUŞLAR

Bu düzlər qəzəbnak,
ağaclar hirsli…
Quşlar nifrət edir müharibəyə.
Mərmidən çat vermiş daşların kini –
cızılıb alnımda qaşlarım kimi…
Mənim də acığım soyumur qəti,
açılmır beynimin keyi, taqəti.

Sərçələr qurmur damlarda yuva,
qarğalar risk etmir
bala çıxartsın.
Tərtərdə örtülü kirəmitlərin
örtülü bazarı dostluğu pozub.
Açılan dan yerinə tuşlanıb
tankın, pulemyotun bərəlmiş gözü.

Silahların səsi eşidiləndən
kəsilib dağlarda kəkliyin səsi.
Ağaclar yuxarı qalxmağa qorxur,
dərinə işləyir kökü, rişəsi.

Sərsəngin suları barıt qoxuyur,
siçan deşiyinə girib balıqlar.
Şanapipik ara-sıra oxuyur,
bilir ki, düşmənin köpün alıblar.

Bu qazi ağaclar,
veteran quşlar –
nifrət bəsləyirlər müharibəyə.
özləri düşüblər mühasirəyə,
Vətən torpağına isinişməkçin...

## MÜHARİBƏ VƏ SEVGİ

Dirsəklənən dağların üzü yoxdur deməyə,
dava vaxtı haqq sözü döyüşkən əsgər deyib.
Üstdə gödək yapıncı, altda zireh geyməyi,
məktubunu gizlətmiş saçları əsmər deyib.

İntizar baxışların təbəssümü solmamış,
veteranlar nəql edir sevgi hekayətini.
Nə deyəsən buluda, yenə quraq keçir qış,
xəzələ yazmaq olmur könül şikayətini.

Sən ey saralmış orman, kölgəni halal elə,
dərinə varma canım, düşmən bizi şərlədi.
Müharibədə ölür bağlanan müqavilə,
müqavilədə olmur məhəbbətin şərtləri…

Külə dönmüş meşənin dərdini bərk çəkməyin,
münbit qara torpaqdan öz-özünə boy atar.
Füzulidə yad yerin ağacını əkməyin,
qürbət eldə şairin məqbərəsi od tutar.

Cıdır düzündə xarıbülbülün ovqatı təlx,
mümkün deyil açılsın daşa dəymiş diləyi.
Şəhidlərin qanından şamamalar atıb tağ,
qara topaq beşiyi, sarı yarpaq bələyi…

Savaşın ilk anında bəxtimi gətirdi qara,
yenə kabus dolaşdı biganələr bağında.
Subay çavuş qayıdar hərbi xidmətdən sonra,
qız girər yuxusuna fəslin oğlan çağında.



## *Gülnarə CƏMALƏDDİN*

***

Canım dişimə sıxılır,
Nə çəksəm də görməzlər.
Dünya diz üstə yıxılır,
Yıxılana gülməzlər.

Buludlar ağappaqdı,
Dağlar köhnə papaqdı.
Gedənləri haylayıb
Çağırsam da gəlməzlər.

Düşən yarpağı qaldır,
Baxsan torpağa, laldır,
Hərdən başını qaldır,
Ölüm, belə ölməzlər.

***

Qarışqalar qədər yorğunam,
Havazirəngilər qədər kədərli.
Oxuma,
nəğmələrin avazına tab gətirməz
tərk edilmiş ürəyim.
Ölərəm,
baiskarı sən olarsan əcəlimin.

***

Mən nə istəyirdim ki, dünya,
Bir barıtlıq ömür,
Bir atımlıq ölüm,
Bir içim su.
Bir də
bir damcı sevgi.
Sənsə dərdi güllə kimi sıxdın
Alnımın ortasına.

***

Sənsizliyin çarəsi
Elə sənsiz qalmaqmış.
Sənsizlik ölüm deyil,
Ölüm sənsiz olmaqmış.

***

Çıx get, payız,
Quşlarını da götür,
Yarpaqlarını da apar.
O gedəndən
nə sən gözümdəsən
nə dünya.
Bir arı vızıltısı kimisən
ruhumda.
Çıx get, payız,
nə sənə verəcək
ürəyim var,
nə də ki, eh...
O küləklər qollarımdı
tuta bilsən
canımdakı azadlıqdan
qurtar məni.
Çıx, get, payız,
həyatına kədər dolu
yaz gəlməmiş.

***

Adam dünyanı seçdi,
Ölüm insanı.
Xoşbəxtlik heç birini.

***

Küçə qaranlıq.
Küçədə

bir qadın,
bir parça çörək
və
bir siqaret.
Siqaret kül oldu,
çörəyi it,
qadını azadlıq apardı.

***

Buludların kölgəsində
ağaclar.
Ağacların kölgəsində
adamlar.
Gözünü yum,
yum, dəlicəm.
Ürəyinin kölgəsində
Allahı
görəcəksən.
Allahın kölgəsində
hər şey
və
heç nə.

## SƏN DƏ MƏMLƏKƏT KİMİSƏN

Sən də məmləkət kimisən
Ucsuz-bucaqsız.
Ən çətin günlərində
daha çox sevilirsən.
Həsrətin, hicranın dözülməz.
Sən də məmləkət kimisən,
Səni sevməmək olmaz
Saçların sünbül qoxar,
Gözlərin dəniz kimi dərin.
İntihar ağacıdı əllərin,
toxunsam, öldürər.
Sən də məmləkət kimisən,
Sənsiz yaşamaq çətin.

## SƏRÇƏYƏ

Bu boranda nə azarın,
nə itin azıb burda,
yazığın gəlmirmi sənin
bapbalaca boyuna?
Pəncərəyə qısılırsan,

budaqdan asılırsan,
yazı kimi dərdin, qəmin
alnına yazılırsan.
Mən qara çox baxammıram,
gözlərimi qar aparır.
Hamı gəlir bu dünyaya
hər gedən də can aparır.
Bu dünya
səni də sevməz
aydan arım,
sudan durum.
Bu etibarsız dünyada
kimə gərək etibarın?!

***

Alnıma yazılanları
Ömür yozur bircə-bircə.
Alıb əlinə silgini
Fələk pozur bircə-bircə.

***

Pəncərədən yağış süzür,
Ürəyimi hicran üzür,
Hardasan, qayıt gəl.
Daha elə gəlməz bahar,
Aramızda ayrılıq var.
İndi dünya mənə sığar,
Mən dünyaya sığmasam da.
Ruhum qərib, ruhum səssiz,
Dünya içimdə kimsəsiz,
Kimim var ki, səndən əziz,
 səndən əziz,
Hardasan, qayıt gəl.

***

***Məhəmməd Hadiyə***

Soyuyub gözümdə dünya,
Hər tərəf qar şəklində.
Bir qərib azadlıq var
Ruhumda intihar şəklində.

*Əyyub QİYAS (Qi Or El)*

# ÖLƏNƏ QƏDƏR



♦ *Kino-roman**

## *– XI –*
## *SİRLİ QADINLA İLK GÖRÜŞ*

Gecə çox gərgin keçir. Səhərə yaxın Lətifin adamlarından bir nəfər gəlib, onu aparır. Dayday da bizə belə işlərə qarışmamağı, ehtiyatlı olmağı, Kazım kimi adamlardan uzaq olmağı tapşırıb gedir. Biz də Bəhram kişi ilə sağollaşıb evə yollanırıq. Nadir ilk dəfədir bu evə gəlir. İkiotaqlı, normal şəraiti olan evdir. Bibi soyuducunu bişirdiyi yeməklərlə doldurub. Üçümüz də acmışıq. Soyuq aşı qaşıqlayıb yedikdən sonra hərəmiz başımızı bir tərəfə qoyub, pallı-paltarlı uzanırıq. Hər şeyi unutmuşduq. Cəhənnəm olsun Kazım da, Lətif də, Dayday da... Üstəlik, haradan bilim ki, söhbət mənim gələcək qayınatamdan, Rənanın atası Kazımdan gedir.

Yenə zarafatlaşır, olub keçən məzəli xatirələri yada salıb gülür, bir-birimizi illər əvvəl olduğu kimi cırnadırdıq. Hər şey gözəldir. Gözəl bir səhər açılmaq üzrədir. Üfüq narıncı rəngə boyanıb. Axırda Əli üstümüzə çəmkirir, sabah əlli dənə işimiz var deyir, yatıb dincəlmək lazımdır. Və biz Əlinin sözündən çıxa bilmərik. Yataqda gülə-gülə, pıqqıldaşa-pıqqıldaşa yuxuya gedirik...

* * *

Nicat Kazımın tapşırığına əməl edib Rənanın maşınını götürmək üçün təzəliklə sahibi olduğumuz maşın təmiri sexinə gəlməlidir, amma Əlini gördüyündən, onun həmin sexin sahibi olduğunu bildiyindən, maşını götürmək üçün özü gəlmək istəmir. Ona görə də Vüqarın otağına girib kartı uzadır:

– Vüqar, get burdan Rənanın maşınını götür, mənim şefnən işim var, – deyir.

– Narahat olma, – Vüqar kartı Nicata qaytarır, – Rəna özü getdi maşını götürməyə. Əvvəl onu sexə apardım, sonra gəldim ofisə.

Nicat bu işi yoluna qoyduğuna görə rahat nəfəs alır, dəhlizlə gedib Kazımın otağının qarşısında ayaq saxlayır. Dərindən nəfəs alır, köks ötürür, özünü bir qədər sonra baş verəcək tufana hazırlayaraq, qapını döyüb içəri keçir.

---
* *Əvvəli jurnalımızın ötən sayında*

* * *

Gec yatdığımız üçün – gec deyəndə ki, biz yatarkən artıq səhər açılırdı – saat 11-ə qədər Əli nə qədər çalışsa da, bizi oyada bilmir. Axırda bir sətkan çay içib, əvvəlcə işlətdiyimiz dönərxanalara baş çəkir, sonra təmir sexinə gedir. Əli sexə gələndə Rəna yenə ustanın başının üstünü kəsdirib suallarını yağdırır. Əlini görəndə, gülümsəyərək ona yaxınlaşır. Görüşürlər.

– Bundan sonra bir şey olsa, həmişə maşını bura gətirəcəyəm, – ustalarınız bacarıqlıdırlar. Hər şeyi bilirlər.

– İşimizi bəyəndiyin üçün sağ ol, – Əli gülümsəyərək deyir, – ancaq bir məsələ var, onu səndən gizlədə bilmərəm...

Rəna gözlərini qıyaraq, sual dolu baxışlarını Əliyə zilləyir.

– Maşının başqa problemi də var? – soruşur.

– Yox, – Əli başını bulayır, – maşının heç bir problemi yoxdur, sadəcə, sənin maşının dünən axşamdan hazırdır.

– Necə yəni dünən axşamdan hazırdır? – Rəna səsini qaldırır. – Heç bilirsən dünən axşam neçə görüşümü təxirə salmışam?! Özü də vacib görüşləri.

– Usta hay-küy saldığını görəndə, ona mane olmayasan deyə, sənə yalan danışmağa məcbur olub.

– Yalan danışmaq, hə?! İndi mən o ustaya göstərəm məni aldatmaq necə olur! – Rəna qəzəblə çevrilib, ustanın yanına getmək istəyəndə, Əli astaca onun qolundan yapışır.

– Bir dəqiqə, – Əli sakit danışır. – İndi elə başa düşdün ki, mən ustanı sənə satdım?! Elə deyil... Bir şeyi yadında saxla, hay-küylə, zorla heç nə olmur...

Rəna gülümsəyir. Başını aşağı salıb dodağını dişləyir. Şıltaq təbəssümlə Əliyə baxır və onun bu baxışları Əlinin qəlbini ovsunlayır.

– Neyniyim, – çiyinlərini çəkir, – xasiyyətim belədir. Həmişə bu hay-küyüm üzündən pis vəziyyətə düşürəm.

Rəna maşına doğru gedir, Əli qapını açır. Rəna sükan arxasına keçib mühərriki işə salır, sonra şüşəni endirir, sandıqçadan bir dəvətnamə çıxarıb Əliyə uzadır.

– Səni ad günümə dəvət edirəm! Amma mütləq gəl, gözləyəcəyəm, – yenə təbəssümlə deyir. Yazıq Əli, axı hardan bilsin ki, Rənanın bu ilahi təbəssümü məni də özünə əsir edib. Axı Əli haradan bilsin ki, artıq üç aydır görüşürük və bir-birimizi dəli kimi sevirik. Əli bunu bilsəydi, Rənanın xəyalını belə özünə yaxın buraxmazdı...

Rəna şüşəni qaldırır, qırmızı rəngli maşın sexin həyətindən çıxır. Əli eşq dolu gözləri ilə maşını yola salır.

* * *

Dayday həyətdəki skamyada oturub, samovar çayı içir. Ramiz də oradadır. Nadir həbsxanadan çıxarkən onları yaşıl rəngli “Opel”lə izləyən iki nəfər də ayaq üstə dayanıb. Raya vazada meyvə gətirib süfrəyə qoyur.

– Başqa bir şey lazımdır? – Daydaydan xəbər alır.

– Yox, Raya, işində ol, – Dayday razılıqla söyləyir. Raya uzaqlaşdıqdan sonra Dayday üzünü ayaq üstə dayananlara tutaraq danışır: – Budu sizin iş görməyiniz? O uşaqlar mənə yaxın adamlardır, mən sizə elə-belə, uzaqdan

izləyin, baxın çıxandan sonra hara gedirlər, öyrənin, onu tapşırmışdım. Görürsüz ofisə tərəf gəlirlər, yolunuzu dəyişib, cəhənnəm olun da. Niyə adamların gözünə girirsiz?!

Oğlanlardan biri, həmin gün maşın sürən adam sıxıla-sıxıla danışır:

– Dayday, birdən yollarını dəyişdilər, elə bildim ofisə gəlmək istəmirlər...

Dayday qəzəblə əlinin içini masaya çırpır, boş armudu stəkan aşır.

– Kəs! Eşidirsən, kəs! Bəsdir çərənlədin! Ramiz, ver bunların hərəsinə beş-üç manat, yola sal, getsinlər Surquta. Qoy ordakı işlərlə məşğul olsunlar. Ordakı uşaqlara da xəbər elə, bura qayıtsınlar. Bunlar burda Nadirin gözünə görünsələr, etibarımız zibilə dönəcək.

Oğlanlar Daydaya minnətdarlıq edib gedirlər. Ramiz onları yola salıb qayıdır. Dayday bizim onunla saat neçədə görüşəcəyimizi xəbər alır, Ramiz saata baxıb:

– Bir saata gələcəklər, – deyir.

Dayday Ramizin təzə süzdüyü çaydan bir qurtum içib evə tərəf boylanır, qızının pəncərə qarşısında dayanıb baxdığını görür.

* * *

Nicat nə qədər istəsə də Lətifin qaçırılması məsələsini Kazımdan gizlədə bilmir, çünki bilir, Kazım bu məsələni başqasından eşitsə, onu bağışlamaz. Odur ki, "nə olar, olar!" deyib Kazımın otağına girir və gecə baş verənləri təfsilatı ilə Kazıma danışır.

Kamera görüntülərinə baxmaq xahişilə səhər tezdən şikayət ərizəsi yazıb polis şöbəsinə müraciət edən Namik anbarda Maliklə bərabər nahar etməyə hazırlaşır. Şöbədə bildirirlər ki, rəis şikayət ərizəsənin üstünü yazan kimi, kamera görüntülərinə baxmağa şərait yaradacaqlar. Namik məsələni tezləşdirmək üçün hələ polisdəki tanışlarından birinə gecə Lətifdən götürdüyü puldan 200 dollar "şirinlik" də verir və dostu onu əmin edir ki, sabaha qədər məsələni həll edəcək. Əgər söhbət uzansa, özü kamera görüntülərinə baxıb, məlumat verəcək.

Qapı qəfildən, zərblə açılır, Maliklə Namik oturduqları yerdə əllərini silaha atıb dik qalxırlar, amma Kazımı görəndə, tufan qopacağını başa düşüb, silahı bellərinə keçirirlər. Kazım ayağını otağa basan kimi çığırır:

– Kuklasız siz? Robotsuz? Baş var sizdə, baş?! Hanı Lətif?!

– Şef, – Namik ağzını açıb vəziyyəti başa salmaq, Kazımı Lətifi tapacaqlarına inandırmaq istəyir, amma ağzına dəyən qəfil şillədən sonra, bunun mənasız olduğunu anlayır.

– Nə şef əəə?! Şefmiş... Məni bütün Bakıda biabır eləyiblər, hələ bir şef də deyir. Sağlığınıza ələ salacaqlar məni, ələ...

Malik elə bilir Kazım bir şillə vurduqdan sonra sakitləşib, odur ki, ürəklənərək:

– Şef, vallah... – Söz adamın ağzında qalır. Kazım yumruğunu qaldırıb Malikin sifəti tuşunda saxlayır. – Danışma! Sən də danışma! Sus! Eşidirsən, sus! Nicat! – Bağırır və səsindən anbar pəncərələri cingildəyir. Nicat bir addım qabağa atılır.

– Bəli, şef... – deyir.

Kazım, yumruğu hələ də havada, Malikə baxır.

– Bilirsən də, bunun hamısı sənin zibillərindir. – Nicat başını aşağı salır. – Adam qoy Lətifin evinin böyür-başında. Oğlunu, qızını, arvadını... hamısını

izləyin. Lətif indi yəqin siçan deşiyi tapıb, gizlənib orda, ancaq çıxacaq, çox qala bilməz... deşikdə...

– Görəsən, şikayət eləməz?! – Nicat sakitcə mızıldanır.

– Kimə, papasına?! – Kazım gözlərini bərəldərək Nicata baxır.

– Yox... Polisə... Əlbəttə, polisə, – Nicat udqunur.

Kazım yumruğunu aşağı endirib Nicata tərəf gəlir, onun gözlərinin içinə baxaraq danışır.

– Əla olar! Şikayət eləsə, əla olar! Ancaq ağlım kəsmir. Lətif sizin kimi ağılsız deyil. Yoxsa indi dənizin dibində təzə neft yatağı axtarırdı. – Sözünü bitirib qapıya tərəf gedir, çatarkən dayanır, geri baxmadan: – Hə, bir də o uşaqları tapın. Yerin deşiyindən də olsa, tapın, gətirin bura. Mənim onlarla söhbətim olacaq...

Kazım çıxır. Namik ağzını doldurub onun arxasınca: “Şef, narahat olma, polsidə tanışlarım var, maşını tapacaqlar...” – deməyə hazırlaşanda, Nicat şəhadət barmağını qaldırıb, silkələyir, Namikə susmasını əmr edir, sonra sürətlə Kazımın arxasınca yüyürür.

* * *

İlk dəfədir Daydayın evinə gəlirik. Bura onun qızının doğulub-böyüdüyü yerdir. Əslində, genetik şeylər var deyirlər, ruh var, qan var, nə bilim, insanın özündən asılı olmayan hisslər-filan var deyirlər, amma bu deyilənlərin heç birinin mənə dəxli yoxdur. Burada özümü çox narahat hiss edirəm və Daydayın Nadirə yox, Əliyə yox, daha çox mənə qayğı göstərməyindən, daha çox mənimlə danışmağından iyrənirəm. Çünki uşaq evinə düşdüyüm andan arada-sırada kənar adamlarla görüşəndə onların bizim kimi kimsəsizlərə acımaları, köks ötürmələri, yazıq-yazıq baxmaqları məni həmişə cin atına mindirir. Bizə acımaq lazım deyil. Biz yazıq deyilik. Bizi dünyaya gətirib uşaq evində böyüməyə məcbur edənlərdir yazıq. Bəd ayaqda elə bizə yazıq gözü ilə baxanlardır yazıq. Bizə nə olub?! Əlimiz, ayağımız, ağlımız... Siz özünüzü fikirləşin, atalı-analı yetimlər, özünü xoşbəxtlik yalanı ilə ovudanlar! Bizdən qurtulub özünə təzə, təmiz həyat arzulayanlar!

Doğrudur, hər şey başqa cür də ola bilərdi: normal ailədə böyüyərdik, səhərlər anamız yanağımızdan öpüb bizi oyadar, qarşımıza yağ-çörək qoyub yeməyimizə tamaşa edər, sonra bizi tərtəmiz geyindirib məktəbə yola salardı. Hərdən televizorda ailələrdən bəhs edən filmlər göstərirlər: analar, ya da atalar şirin-şirin yatan oğlunu, qızını üzündən öpərək yuxudan oyadır. Çəkməyin belə şeylər! Bizi valideynlərimizin atmağı, kimsəsizliyimiz yox, belə şeylərə baxmaq öldürür. Ondansa, Tüklü Mamontların, Sevimli Dinozavrların ailəni dağıdan rəftarından, sevgini, mərhəməti unudub, mənasız şeylərə meyil salmağından filmlər çəkin! Və heç vaxt bizim kimi uşaqlara yazıq, biçarə varlıqlar kimi baxmayın! Biz yazıq deyilik! Biçarə – heç deyilik! Bax, üç dostuq! Üç qardaşıq! Elə ailələr var ki, doğma qardaşlar bir qarış torpaq, bir otaqlı ev, iki baş qoyun-quzuya görə bir-birinin qanını tökürlər. Biz isə bir yerdəyik! Bir-birimizə görə kimin desən qanını tökməyə hazırıq. Bizimlə heç kəsin işi olmasın! Bizim öz dünyamız var və ölənə qədər həmin dünya bizə yetər!

Əgər Dayday bir az da belə davam eləsə, yəqin bomba olub partlayaram! “Kişi ol, adam! Belə hərəkətlər eləmə. Özün də yatıb çıxmısan! De də, de ki, neçə vaxtdır bu günü gözləyirəm. Nadirə bu qədər yaxınlaşmağının, bizim üçün bu şeyləri etməyinin səbəbini aç de! Hə, bax onda, sənin cəsarətinə

şübhə etmərəm. İndi bu fokusların yeri yoxdur, qoca! Bu pirojnadan ye.... meyvənin də dadına bax... deyəsən, banandan xoşun gəlir... Xoşum gəlir, adam, banan görəndə ağzım sulanır. Elə ona görə bir dəfə Əli ilə Nadir axşam məni dama çıxartdılar. Bir yeşik banan alıb damda gizlətmişdilər. Onlar hərəyə cəmi iki bananı zorla yedilər, mənsə on üç dənə bananı acgözlüklə ötürdüm, getdi. Qarnım şişmişdi, daha yeyə bilmirdim, amma gözüm doymurdu. Əli ilə Nadir gülüb, məni ələ salırdılar. Sonra dedilər, səhər gəlib qalanını yeyərəm. İnanmıram hansısa valideyn övladına bir yeşik banan ala... İnanmıram da, zor deyil ki...

On beş yaşımız vardı onda, Əli ilə Nadir hər gün işləməyə gedir, axşam pulla qayıdırdılar, mənsə çox vaxt bir küncə çəkilib şəkil çəkirdim. Şəkil çəkmək üçün lazım olan şeyləri də onlar almışdı mənə: rəng, kağız, rəngli karandaşlar, akvarel, quaş... Böyüdükcə tələbatlarım da artır, çəkdiyim şəkillərin keyfiyyəti də dəyişirdi. Sonra xərclər də artırdı: kətan, yağlı boyalar, fırçalar... Əli ilə Nadir alırdı onları mənə... Sən onda yox idin Dayday. Dinozavrım da yox idi. Tüklü Mamont isə gözlərim önündə öz qanında boğulmuş, uzaq illərin xatirəsində qalmışdı.

Yaxşı ki, çay, meyvə, doğmalıq, nə bilim nə... nə... belə söhbətlər qurtardı. Yoxsa, bayaq da dedim, Ümid adlı bomba partlamaq üzrəydi.

Hələ bu Dayday bir yana qalsın, qulluq eləyən arvad var, baxırsan rusdur, ancaq bizim dildə uşaq evinin mamaşası Lalədən təmiz danışır. Deyəsən, adı Rayadır. Hə, bax o Raya, az qalır gözləri ilə bizi yesin. Başımızın üstünü kəsdirib durur. Gah gilas mürəbbəsi çəkir qabımıza, gah da boşqaba ikinci dilim tortu qoyub: "Sizin üçün bişirmişik, yeyin", – deyir və beləcə, beynimin içindəki cinlərə yallı oynadır. Çay dəm-dəsgahı qurtarır! Şükür! Raya da çəkilib itir. Ramiz samovardan çay süzür. "Allah var, bu Ramiz çox yaxşı oğlana oxşayır."

– Gecə Lətifin yanında hər şeyi açıb sizə demədim, – nəhayət, Dayday gözlənilən mövzudan söz açır. Sonra gözlərini Nadirə dikərək, davam edir: – Axı sən belə şeylərdə səhv eləyə bilməzsən. – Bu, – mənə işarə ilə, – uşaqdır! – "Lənət sənə! Əl çək də məndən, adam! Əl çək! Mən uşaq-zad deyiləm! Oturub-durub məni ortalığa atma! Atma!" – Belə şeylərdə naşıdır. İki it didişir, qoy cəhənnəm olsunlar! Didsinlər bir-birlərini! Bilirsən nə boyda problem yaratmışıq özümüzçün?!

Dözə bilmirəm. Onun bizim qayğımıza bu qədər qalmağına dözə bilmirəm.

– Narahat olma, Dayday, onsuz da bizim ömrümüz problem içində keçib! Sən qəti narahat olma! – dedim ey. Daha susa bilməzdim.

– Bir dəqiqə dayan, – Nadir sözümü kəsir. – Nə məsləhət bilirsən, Dayday? Neyləyək?

Dayday bir qədər fikrə gedəndən sonra yenə əvvəlcə mənim üzümə, sonra evin pəncərəsinə baxır. "Nə fikirləşir bu adam?!"

– Hələlik heç nə eləmək lazım deyil. Ancaq hər şeyə hazır olun. Kazım çox axmaq adamdır. Düzdür, salam-əleykimiz var, ancaq Kazım kimi adamlar belə şeyləri bağışlamırlar. Məqamını gözləmək lazımdır, görək Lətif neynəyir. Əgər izinizə düşüblərsə, heç! Ona görə də ayıq olun, məni xəbərsiz saxlamayın.

"Məncə, bu adam özünü əməlli-başlı yekə mafioz hesab edir. Bəsdir, ağsaqqal, bəsdir! Bizimçün kriminal filmlərdəki avtoritetlərin rolunu oynama! Biz bu vaxta qədər başımızın çarəsinə baxmışıq, bundan sonra da baxarıq!"

– Birdən fikirləşərsiz ki, özünüz başınızın çarəsinə baxıb bu Kazımı yola gətirə bilərsiz, belə şeyi ağlınızdan keçirməyin! – Dayday bu sözləri deyəndə, başımı aşağı salıram. "Bu adam mənim ürəyimi oxuyur, nədir?!"

– Kimdir bu Kazım?! – Axır ki, Əlinin də səsi çıxır. – Nə işə baxır? Dayday, sən onun haqqında elə danışırsan, elə bil onun...

– Sss... – Dayday əlini qaldırıb sakit olmağımızı işarə edir. – Artıq-əskik danışmaq lazım deyil. Əslinə qalsa, Kazım heç kimdir, adi biznes adamıdır, tikinti, metal, dərman, spirtli içkilər-filan, amma əli uzundur.

– Uzundur, bir az kəsək də, – yenə mənəm. Neynəyim, dilimi dinc saxlaya bilmirəm də. Necə yəni əli uzundur?

– Qaqaş, dayan da, – yenə Nadirdir. Bu adam mənə danışmağa imkan vermir.

– Niyə, qaqaş, niyə dayanım? Bax biz yolnan gedirik, görürük birinin köməyə ehtiyacı var. Bəlkə elə o baqajnikdəki Kazımın özüydü, ya da elə bəlkə Dayday idi baqajda aparırdılar. – Mən belə deyəndə, Nadir yenə mənə göz ağardır, amma Əlinin qadasını alaram, o dəqiqə dodaqları qaçır. Dayday da gözlərini mənə dikib susur. Mənsə qoyuram ey, üstünə: – Kömək eləməzdik? Biz öz insanlığımızı eləmişik. Burda neprav hərəkət yoxdur! – "Bayaqdan "prav, neprav söhbətləri gedir! Ona görə belə deyirəm. Heç kəs deməsə də, özüm özümə deyəcəyəm: Halaldır, Ümid!"

Dayday diqqətlə mənə qulaq asır, amma daha heç nə danışmır. Nadir yenə ağzımdan vurub doğru danışmadığımı deyəndə, əsəblərimi cilovlaya bilmirəm. Axı bunlar mənə həmişə balaca gözü ilə baxıblar. Mən bunlardan yaşyarım balacayam axı... "Hə, balacayam, gəlin, oturun belimdə! Lənət şeytana! Özünüz bilərsiz! Demirsiz Kazım qorxulu adamdır, olsun! Mən ondan da qorxuluyam! Aıııııı!"

Ayağa qalxıb, həyətdə var-gəl etməyə başlayıram. Burada qəribə çiçəkləri olan ağac var, ətri adamı bihuş edir. Əvvəlcə bunun nə ağacı olduğunu Daydaydan soruşmaq istəyirəm, amma onun Nadirlə söhbət etdiyini görəndə, fikrimdən daşınıram. Raya həyətdə gülləri suvarır, yavaş-yavaş ona yaxınlaşıb:

– Xala, o ağacın adı nədir? – soruşuram. Raya işinə ara vermədən bir mənə, bir də ağaca baxır:

– Bu, onun ağacıdır, – cavab verir.

– Kimin? – Yenə soruşuram.

Çiyinlərini çəkir. Bu qadının başdanxarab olduğundan şübhələnmişdim, amma indi qətiyyətlə əmin oluram. Ümumiyyətlə bu evdə, bu həyətdə qeyri-adi nəsə var. Mənə elə gəlir ki, evin bütün pəncərələrindən kimsə bizi izləyir. Elə bunu dəqiqləşdirmək üçün başımı qaldırıb qəfildən üzbəüzdəki pəncərəyə baxır, arıq bir qadının aşağı boylandığını görürəm. Qadın yuxarı baxdığımı hiss edən kimi, pərdə arxasında itir.

Ürəyim sıxılır. "O qadın kimdir? Niyə mənə elə baxırdı?!"

Astaca darvazaya tərəf gedir, qapını açıb həyətdən çıxıram. Bu gün Rəna ilə danışmamışam. Səsini eşitməyə çox ehtiyacım var.

Telefona baxanda Rənadan beş cavabsız zəng gəldiyini görürəm. Telefonu səssizə qoyduğumu xatırlayır, tez doğma nömrələri yığıram.

– Rəna, necəsən? Normal... Yox, qanım qara deyil.

Rəna mənimlə danışarkən öz otağında, öz yatağında üzüqoyulu uzanıb dəb jurnallarından birini vərəqləyir, özü üçün ad gününə geyməyə paltar seçir. Rəna belədir, o dəqiqə ovqatımı müəyyən edir. Qanım qara olanda, dünya dağılsa belə, bunu Rənadan gizlədə bilmirəm. Kefim kök olanda, Rəna tez bunun səbəbini soruşur. İndi də əlli bəhanə gətirib, kefimin yaxşı olduğunu desəm də, xeyri olmur.

– Bilirəm axı, dilxorsan. Darıxmışam...

“Offf, sənin “Darıxmışam” deyən dilini yeyərəm, qız! Nə yaxşı ki, varsan, Rənam!” Amma mən bu sözləri onun üzünə deyə bilmirəm. Niyə?! Bax, niyəsini də bilmirəm!

Vədələşirik. Bir saatdan sonra həmişəki kafedə görüşməyə razılaşırıq. Axır ki, bizim “daydayşünaslar” da gəlib çıxırlar. Qapıda onları Ramiz yola salır, amma nədənsə, təzə maşına yox, Əlinin kirayə götürdüyü maşına doğru gedirlər. Nadir də, Əli də maşına otururlar, Əli onlara baxdığmı görəndə, işıqları yandırıb-söndürməklə məni çağırır. Tərs-tərs baxıb, yaxınlaşıram:

– Nə? – deyib, Nadirə baxıram.

– Otur! – Nadir deyir.

Özümü Əlinin kirayə götürdüyü maşının arxa oturacağına atıram. Qapını çırpan kimi:

– Aldı maşını? Ha-ha-ha! – qəhqəhə ilə gülürəm. Əli ilə Nadir çevrilib tərs-tərs mənə baxırlar. – Mənə heç elə baxmayın. Mənim bu adamdan xoşum gəlmir. Gəlmir də!

– Az danış, qaqaş! – Əli üstümə çəmkirir. – Hər halda, bu adam bizim dalımızı Kazımdan qorumağa çalışır.

– Maşın ey, maşın, aşibka elədiyimizə görə maşını geri aldı? – Mənim düşünməyə başqa variantım olmur.

– Yox, qaqaş, yox, – Nadir səsini qaldırır, – Dayday maşını almadı. Gecə Ramiz sürüb gətirəcək sexə. Dayday dedi ki, ola bilsin Kazımın adamları maşını görüblər, ona görə bir müddət Əlinin maşını ilə fırlanaq! Çatdı sənə?

## – XII –
## MƏNİM DƏ BİR NAĞILIM VAR...

Sakitlikdir. Hər şeyi unutmuşam. Kazım, Lətif... Hətta Daydayı da yaddan çıxarmışam, bircə Daydayın evinin pəncərəsindən baxan o qadının gözləri arada-sırada yadıma düşür, vəssalam! Amma tez də unutmağa çalışıram. O anda Rənanın gözlərini xatırlayır, dünyanı unuduram.

Az qalır. Rənanın ad gününə lap az qalır.

* * *

Əli... Dünyadan xəbərsiz Əli... Ürəyində Rəna ilə bağlı xəyallar quran, saatlarla onun gülüşünü yada salıb özünü dünyanın ən xoşbəxt adamı hesab edən Əli! Rənanın ad gününə geyməyə kostyum axtarır özünə. Təzə köynək, ayaqqabı alıb. İndi də təzə paltarlarını geyinib güzgüdə özünə baxır, arabir qaşlarını çatır, sinəsini irəli verir, bir addım geri çəkilir, saçlarını düzəldir. Rənanın sevgisi hər an daha çox dolur onun ürəyinə. “Gərək telefon nömrəsini götürərdim. Nəsə...” – Əli ürəyində fikirləşir.

* * *

Nadir əlində televizorun komandası, təzə ofisdəki divanda yuxulayır. Bir qədər əvvəl Daydayla danışıb: Dayday Lətifin ona zəng vurduğunu, Kazımın adamlarının onun evinin qabağında keşik çəkdiyini deyib. Ehtiyatlı olmağımızı tapşırıb. Sonra, söhbətin axırında bizi soruşub. Salam gönərib. “Niyə?! Niyə də, niyə?”

* * *

Həmişəki doğma məkandayıq. Rəna ilə üz-üzə oturub onun gözlərinə baxmaq gözəldir. İlahi, bu işıq hardandır belə?! Bu qız gündən-günə necə də gözəlləşir! İşə bax, üç aydan çoxdur görüşürük, bir-birimizi dəli kimi sevirik, amma mən onun ailəsi haqqında heç nə bilmirəm. Elə Rəna da mənim haqqımda, demək olar, heç nə bilmir. Sadəcə, üç dost olduğumuzdan xəbəri var. Uşaq evində böyüdüyümü bilsə, reaksiyası necə olacaq? Görəsən, nə vaxtsa Sevimli Dinozavrımın Tüklü Mamontu gözlərim önündə öldürdüyünü eşitsə, mənə münasibəti dəyişər? Bilmirəm... Amma bu suallara tezliklə cavab tapmaq lazımdır. Hiss edirəm, Rəna imkanlı ailənin qızıdır. Bahalı maşın sürür. Qayğısız görünür, amma onun ailəsinin imkanları məni maraqlandırmır. Rənanı tanıyıram, onun özünü xoşbəxt hiss etməsi üçün, sadəcə, sevgiyə ehtiyacı var və mən, ehtiyac duyduğu sevgini bir ömür ona verməyə hazıram! Nəyin bahasına olursa olsun, mən bu sevgini ondan əsirgəməyəcəyəm.

Bəlkə daha da açıq olmağın, səmimi olmağın zamanı çatıb? Bəlkə, açıb hər şeyi ona deyim? Çünki bunu gizlətdikcə, bəzən mənə elə gəlir, onu aldadıram. Axı, bizim bir-birimizdən sirrimiz olmamalıdır.

– Rənam, bilirsən nə var? – Əllərini buraxmadan gözlərinin içinə baxıram.

– Bilirəm və həyəcandan ölürəm! – Uşaq məsumiyyəti ilə danışır. – Ümid, bir gün qaldı... Sabah ad günümdür.

“Hə, doğrudan ha, sabah Rənanın ad günüdür. İnanıram, möhtəşəm gün olacaq. Yox, belə bir gündə hər şeyi açıb danışmağın yeri yoxdur. Niyə onun kefini pozum? Birdən uşaq evində böyüdüyümü eşitsə, pərt olar... Gözlərim önündə baş verən hadisədən – qətldən xəbər tutsa, sarsılar... Belə bir gündə onun qanını qaraltmağa dəyərmi?”

– Hə, sabah möhtəşəm gün olacaq! Bizim günümüz! – deyirəm. Rəna sevinir, həm də həyəcanlıdır. – Sabah məni atanla tanış edəcəksən? – soruşuram.

– Mütləq! Bu gün bibimlə də danışacağam. Bibim həmişə mənim tərəfimi saxlayır. – Rəna ürəklə danışır. Amma niyə anası ilə yox, bibisi ilə danışmaq istəyir?! Qızın ürək döyüntülərini eşidirəm. – Bəs sən? Dostlarına nəsə demisən?

Başımı tərpədir, gözlərimin işarəsi ilə “hə” deyirəm.

– Sabah bir yerdə gələcəyik. Etirazın yoxdur?

– Ürəyin kiminlə istəyir, gəl. – Əllərimi sığallayır.

– Rəna! – Səsim titrəyir, özümlə bacara bilmirəm. – Bunu sənə deməliyəm. Bəlkə heç sabah məni görmək istəməzsən...

O dəqiqə qaşları çatılır. Gözəl dodaqları kövrələn uşaq dodaqları kimi titrəyir. Mənə baxır. Bu dəqiqə ağlayacaq! Bu qədər şıltaq, bu qədər həyat eşqi olan qızın necə kövrək ürəyi var.

– Ümid... – titrəyən səsi ilə adımı çəkir. – Nəsə olub?

– Mən uşaq evində böyümüşəm, Rəna! – “Off! Axır ki, məni sıxan, əzən yükdən qurtuldum.” – İki dostdan başqa heç kəsim yoxdur.

– Offf! Elə bildim daha məni sevmədiyini deyəcəksən. – Rahatlıqla nəfəs alır. – Əgər elə bir şey olsa, ölərəm! – Yenə tanıdığım şıltaq Rəna olur. – Heyy, elə şey ola bilər?

– Nə?

– Məni sevməyə bilərsən?

Gülürəm. Sanki bir qədər əvvəl söylədiyim sözləri, haqqımda dediyim həqiqəti unudub.

– Yox! Mümkün deyil! Amma mən sənə...

– Adam haradasa böyüməlidir, – danışmağıma imkan vermir. – Anam mən uşaq olanda dünyasını dəyişib. Atam isə iş adamıdır, hərdən danışanda eşidirəm, elə başa düşürəm ki, şəhərin yarısı onun düşmənidir. Yəni atam da ölə bilərdi. Mən də uşaq evində böyüyə bilərdim. Şərt bu deyil ki...

Kövrəlmişəm... Rəna dediyi sözlərlə məni öldürür. Onun yanaşması, hər şeyi başa düşməsi məni kövrəldir.

– Nədir şərt, Rənam? – Onun cavabı mənim üçün maraqlıdır.

– Şərt odur ki, adam ruhən öz təmizliyini saxlaya bilsin. – Gözlərimə baxır. – Atamın sevdiyi kitab var – “Kapital”. Dediyinə görə, hələ tələbə vaxtından bu kitaba vurulub. Müəllif yazır ki, “insanı mühit formalaşdırır, mühiti isə insan”. Bax, görürsən, sən düşdüyün mühitdə ağıllı, təmiz qala bilmisən. Bunu mənə əvvəldən deməliydin, onda səni lap çox sevərdim.

– Rənam!

– Dostlarınla uşaq evində bir yerdə böyümüsüz?

– Hə... Rəna, sənə başqa sözüm də var... Yəni, mənim öz nağılım var...

– Danış...

– Balacaydım... Evdə stolun altına girib öz cəngəlliyimdə oynamağı xoşlayırdım. Həyatda yeganə qorxduğum bir varlıq vardı – Tüklü Mamont, amma bilirdim ki, Sevimli Dinozavrım nəyin bahasına olursa olsun, məni Tüklü Mamontun hücumlarından qoruyacaq. Bir gün yenə Tüklü Mamont mənə hücum elədi, xatırlayanda, hələ də qorxuram. Həmişə olduğu kimi, bu dəfə də Sevimli Dinozavrım özünü yetirdi, Tüklü Mamontu öldürdü... Məni qorumaq üçün öldürdü, Rəna! Çünki o, hər dəfə hücum edəndə, mən ölürdüm... Qorxudan ölürdüm.

– Ümid! – Rəna göz yaşlarını saxlaya bilməyib, boynuma sarılır. “Söz verirəm, bir də sənin yanında ağlamayacağam! Söz verirəm, sənə olan sevgim heç vaxt tükənməyəcək! Söz verirəm...”

– Söz verirəm, – Rəna titrəyən səsi ilə deyir, – səni həmişə sevəcəyəm! Həmişə...

* * *

Kazım tikiləcək yeni binaların iri masa üstə quraşdırılmış maketinə baxır. Memar tikiləcək evlərin özəllikləri haqqında izahat verir. Bu vaxt qapı döyülərək açılır və Nicat içəri girir. Kazım onu da maketə baxmağa dəvət edir:

– Necədir, taxtabaş? – Soruşur.

– Əla! – Başqa nə deyə bilər? – Lap oyuncaq adama çevrilib bu maketin içində yaşamaq istədim, – Nicat uşaq sadəlövhlüyü ilə deyir.

– Detdom uşağından bundan artıq nə gözləyəsən? Real ol bir az, real. Nə xəbər gətirmisən?

Nicat Rənanın ad günü keçiriləcək restorandan gəldiyini, bütün hazırlıq işlərinin başa çatdığını, bütün verilən tapşırıqların bir-bir yoxlandığını söyləyir.

– Hər şey hazırdır. Superdir hər şey. Musiqi, atəşfəşanlıq... Yəni narahat olmalı bir məsələ yoxdur. Heç bir problem olmayacaq.

Kazım memara təşəkkür edərək, onu yola salır. Sonra yenə diqqətlə maketə baxaraq, danışır:

– Bilirəm, sən problem olmaz dedinsə, əlli dənə problem çıxacaq, – maketin qarşısına qoyulmuş oyuncaq maşını götürür. – Ancaq məni yaxşı eşit, əgər –

baş barmağı ilə işarə barmağını birləşdirib, “balaca” işarəsi göstərir, – bu boyda problem olsa, özündən küs. Sən də, sənin o işbilməz adamların da. Təzə qohumlar da olacaq orda! Məni başa düşdün?!

– Bəli, şef! – Nicat əlüstü cavab verir.

– Bəli, şef... – Kazım üz-gözünü turşudaraq onu yamsılayır.

* * *

Nadir həbsdən çıxdığı gündən sonra, demək olar, bir yerdə keçirdiyimiz saatları daha çox yeni sahibi olduğumuz maşın təmiri sexində oluruq. Buranın ofisində bizim üçün lazım olan hər şərait var. Divan, kreslolar, yaxşı televizor, musiqi mərkəzi, soyuducu, kondisoner, mini mətbəx, hamam otağı... Bir sözlə, yaşa özünçün.

Üçümüz bir yerdəyik. Nadir yenə divanda uzanıb televizor seyr edir. Süfrədə dönər, ayran var. Əli ağzındakı tikəni udub, üstündən ayran içir. Mən ayaq üstə dayanıb ona baxıram. Ömrümdə onun qədər səbirli adam görməmişəm. Neçə vaxtdır bu günə hazırlaşırıq. Hələ Nadir həbsxanadan çıxmamışdı o vaxt, qərar vermişdik ki, bir yerdə Rənanın ad gününə gedəcəyik, amma indi Əli dönər yeyə-yeyə başqa işi olduğunu, başqa yerə dəvət olunduğunu deyir.

– Qaqaş, niyə uzadırıq söhbəti? Dedim axı, məni də başqa ad gününə çağırıblar. – Əli dönərin son tikəsini çeynəyib, udur, üstündən plastik stəkanda olan ayranı sona qədər içir.

Nadir uzandığı yerdən qalxıb oturur, gah mənə, gah da Əliyə baxır.

– Başım xarab oldu ey... – əsəbi deyir. – Qaqaş, hardan çıxdı başqa ad gününə getmək? Necə olur ey, ikisi də bir günə düşür? Ümid neçə gündür deyir ki, bizi qonaqlığa aparacaq. Bu gün Ümidin yanında olsaq yaxşıdır, – masadan bir ayran götürüb açır.

Yox, Əli fikrindən daşınana oxşamır.

– Görürsən, Nadirin yadında qalıb... – Ürəklənirəm, Rənanın ad günündə ən yaxın dostlarımla bir yerdə olmaq istəyirəm.

– Başa düşürəm, mənim də yadımdadır, demişdim, ancaq bu çıxdı, getməsəm, yaxşı düşməz. Əslində, Ümidin qonaqlığı olmasaydı, mən sizi aparacaqdım özümnən. Yəni məni üzrlü sayın da...

Dözə bilmirəm. Əlinin inadına dözə bilmirəm!

– Mənim sevdiyim qızın ad günüdür, biz ora gedirik! Sən hara gedirsən? Kimin ad gününə gedirsən?! Allah bilir...

– Sss! – Əli sözümün ardını gətirməyə imkan vermir. – Qurtardı bu söhbət!

* * *

Rənanın ad günü keçiriləcək restoranın həyətinə maşınlar ard-arda gəlir. Biri gətirdiyi qonağı qoyub park olunan yerə çəkilir, bir başqası dayanıb kiməsə gözləyir. Kazım bayramsayağı geyinib, restoranın girişində dayanıb, sağında və solunda, bir addım arxada iki yekəpər cangüdən dayanıb. Şəxsən özünün dəvət etdiyi qonaqlarla səmimi görüşür, onları mehribanlıqla içəri dəvət edir. Gəncləri – Rənanın dəvət etdiyi adamları görəndə, sadəcə, təbəssümlə baxır, başını tərpətməklə məmnunluğunu bildirir.

Həyətdə qonaqları qarşılamaq, maşınları yerbəyer etmək Nicatla Malikə həvalə olunub. Namik isə darvazanın yanında dayanıb, gəlib-gedənlərə nəzarət edir.

Növbəti qonaqlar gəlir, əllərində iri gül dəstələri, hədiyyə bağlamaları var. Bir qədər sonra Daydayı gətirən qara rəngli “Toyota Land Cruiser” restoran həyətinə daxil olur. Dayday maşından düşür, onun ardınca Ramiz də maşından düşüb, arxa qapını açır, iri gül səbətini götürüb, Daydayın ardınca addımlayır.

Daydaygil Kazıma yaxınlaşırlar, Kazım gülümsəyir, Daydayı mehribanlıqla qarşılayır. Nicatla Ramiz baxışları ilə salamlaşır.

– Rənanı ürəkdən təbrik edirəm, Kazım! Xoşbəxt olsun! Yəqin tezliklə toyuna yığışarıq! – Dayday deyir.

– Həsən, əziz dostum, çox şad oldum səni görməyə! Nicat, Daydayla məşğul ol!

– Rəna hardadır? – Dayday soruşur. – Mən onu axırıncı dəfə görəndə 3-4 yaşı vardı.

– İçəridədi... Nicat, məşğul ol! – Kazım tapşırıq verir.

Nicat başını tərpədir və əlinin işarəsi ilə Daydayı içəri dəvət edir. Dayday irəlidə, ardınca əlində gül səbəti olan Ramiz, onların ardınca da Nicat foyeyə daxil olurlar. Rəna bir neçə rəfiqəsi və yaşıdı oğlanlarla foyedə söhbət edir. Dayday onu görəndə üzünü Nicata tutaraq:

– Odur Rəna?! – soruşur. Nicat təsdiq edir. Dayday təbəssümlə Rənaya yaxınlaşır. – Təbrik edirəm, qızım! Xoşbəxt ol! – Ramizin əlindəki çiçək səbətinə işarə ilə: – Bu güllər sənindir. Ömrün gül kimi ətirli olsun!

– Ayy... Nə gözəl güllərdir! – Rəna sevinərək deyir. – Təşəkkür edirəm!

Ramiz səbəti hədiyyə çiçəklər üçün ayrılmış yerə qoyur. Bu vaxt Dayday cibindən içərisində bahalı zinət dəsti olan qutunu çıxarıb, Rənaya uzadır.

– Bu kiçik hədiyyəmi də qəbul elə! – söyləyir.

Rəna qutunu alır, gözləri ilə minnətdarlıq edir, gülümsəyir. Sonra Nicata baxır və gözlərinin işarəsi ilə “məşğu ol”, deyir. Nicat Daydaya yol göstərmək istəyir:

– Narahat olma, Nicat, – Dayday imkan vermir. – Sən işində ol, burda kənar adam yoxdur.

– Yaxşı düşmür axı... – Nicat, üzrxahlıqla baxır.

– Hər şey yaxşıdır, – Dayday mehribanlıqla əlini onun çiyninə qoyur. Nicat başı ilə razılıq edib, bayıra çıxır. Dayday Ramizə də işarə ilə: “Çıx, bayırda gözlə”, – deyir, sonra tanış bir adama yaxınlaşıb, görüşür, söhbət edə-edə pilləri qalxırlar.

Rəna çox xoşbəxt, həm də həyəcanlıdır. Rəfiqələri ilə söhbət etsə, dostları ilə zarafatlaşsa da, tez-tez girişə tərəf boylanır.

– Burda dayanmayın, uşaqlar! – Dostlarına deyir. – İçəridə musiqi var, qonaqlar əylənir. Keçin zala, mən də gəlirəm.

Dostlarını zala ötürdükdən sonra Rəna kənara çəkilib, telefonla nömrə yığır.

## *– XIII –*
## *BALACA VƏ YUMRU DÜNYA*

Dünyada sevdiyin insana hədiyyə seçməkdən çətin iş yoxdur.

Nadir iki saatdır mənimlə gəzir, bezdiyindən ayrılır, ticarət mərkəzindəki kafeteriyaya qalxır. Ayrılarkən deyir ki, hədiyyə seçib işimi bitirəndən sonra ona zəng vurum. Amma nə olsun, vaxt uzandığından adam kafeteriyada qala bilmir, təzədən gəlib məni tapır və tələsdirməyə başlayır.

– Qaqaş, belə getsə, axşama qədər dükandan çıxa bilməyəcəyik! – deyir. – Bir şey seç, gedək də, ürəyim sıxıldı.

Bir neçə dəfə üzərinə qayıtdığım iri, yumşaq ayını qucağıma götürmək istəyəndə, cibimdəki telefonun silkələndiyini hiss edirəm. Rənadır.

– Hə, Rənam! Gəlirəm... Yarım saata ordayıq... Baş üstə! – Telefonu yenidən cibimə qoyduqdan sonra bu dəfə mən Nadiri tələsdirməyə başlayıram. – Qaqaş, tez ol, deyir bizdən başqa hamı gəlib.

* * *

Əli restoranın yaxınlığında dayanmış bahalı maşınları görəndə, kirayə götürdüyü köhnə "Mersedes"lə içəri girmir. Maşını küçədə saxlayır, aldığı hədiyyələri götürüb, restorana doğru gedir. Taybatay açılmış iri darvazadan içəri keçəndə Rənanın telefonla danışdığını görür. Əli gül dəstəsi və üstü lentlə bəzədilmiş, açıqcası olan hədiyyə qutusu ilə Rənaya yaxınlaşır. Rəna telefon danışığını bitirib, bir neçə addım Əliyə doğru gedir. Təbəssümlə ona əl uzadır.

– Salam! Xoş gəldin! – deyir.

Əli də öz növbəsində salamlaşaraq, çiçək dəstəsini və hədiyyəni təqdim edir.

– Təbrik edirəm!

Rəna məmnunluqla Əliyə baxır və onun baxışlarından Əlinin bütün bədəni uçunur.

– Hədiyyəyə görə çox sağ ol. Keç içəri...

Bu vaxt Nicat pillələrlə aşağı enir. Əli ilə Rənanın danışdığını görəndə, bir anlıq çaşır, qaşlarını çatır. Onlara yaxınlaşır. Əli ona fikir vermir, çünki gözlərini Rənadan ayıra bilmir. Rəna Nicatı görən kimi:

– Nicat, Əli mənim yaxın dostumdur, – deyir. – Zəhmət olmasa, onu zala ötür, tapşır, qulluğunda dursunlar, – tapşırıq verir.

– Salam, Əli!

Tanış, amma uzaqdan gələn səs Əlini fikrindən ayırır, qarşısında Nicatı görəndə, heyrətini gizlədə bilmir.

– Nicat?

Bu, Rənanın diqqətindən yayınmır.

– Aaa, demək, tanışsız. Əla! Nicat, Əli darıxmasın. Mən də gəlirəm, – deyən Rəna gözlərini qapıdan çəkmir.

– Narahat olmayın, Rəna xanım, – Nicat təkəbbürlə deyir, – Əli qətiyyən darıxmaz!

Nicat Əlini irəli buraxıb, onu zala ötürür. Nicat həyəcanlıdır, amma Əli xoşbəxtdir.

Zəif səslə, fon musiqisi kimi caz melodiyası səslənir. Gənclər ayaq üstə gəzişir, süfrəçilər əllərində sinilər içki paylayır, bir tərəfdə soyuq qəlyanaltılar düzülüb.

– Səni bir də görəcəyimi ağlıma gətirməzdim, – zalın girəcəyində Əli Nicata deyir. – O vaxt bəxtin gətirdi, qohumun səni apardı.

Nicat iyrənc bir təbəssümlə Əliyə baxır. Zalın yanıb-sönən rəngbərəng işıqları onun üzündə rəqs edir.

– Əslində, dünya çox balacadır, həm də yumrudur, adam gəzir, dolaşır, sonra yenə yola başladığı yerə qayıdır, – Nicat özündən razı halda danışır.

– Qohumsuz?

– Kazım müəllim məni uçaq evindən götürən adamdır. Atamın qohumudur, illərdir mənə atalıq edir. Mənə ailənin yaxın adamı da demək olar.

– Kazım müəllim? – Əli qaşlarını çataraq Nicata baxır. Son günlər bu adı tez-tez eşitdiyindən, beynindəki məlumatlar bir anlıq qarışır. Gözləri ilə, başının işarəsi ilə "kimdir bu adam?!" xəbər alır.

Nicat onun sualına cavab vermir.

– Sən rahatlan, məni üzrlü hesab elə, işlərim var, – deyir. – Kim bilir, bəlkə bundan sonra tez-tez görüşərik... Keç... dincəl...

Nicat bayıra çıxır. Bu vaxt diqqət çəkən bir maşın restoranın həyətinə girib binanın önündə dayanır. Pillələr üstə durub gözləyən Kazım həmin maşını görən kimi, tez aşağı enib, gələnləri qarşılamağa tələsir. Sürücü maşından düşüb arxa qapını açır və bazburutlu bir adam maşından enib, ətrafa baxır. Digər arxa qapı açılır, bu dəfə də cavan, yaraşıqlı, ədabaz bir oğlan maşından düşür. Kazım təbəssümlə gələn qonaqlarla salamlaşır.

– Səfər müəllim, gəlişinizlə şərəf verdiniz! Çox şad oldum! – Səfər deyilən adamla qucaqlaşır.

– Sağ ol, Kazım, sağ ol! – Səfər də Kazımı salamlayır. – Nə müəllim, canım, biz qohumuq. Rəsmiyyəti burax getsin. – Sonra yanındakı cavan oğlana baxır. – Hə, tanış olun, bu da Orxan! Rənanın ad gününü təbrik etmək üçün Amerikadan birbaşa bura gəlib.

– Orxan bala xoş gəlib, səfa gətirib. – Kazım oğlanı qucaqlayır. – Allah saxlasın!

– Sağ olun, Kazım əmi! – Orxan məmnunluqla başını tərpədir.

– Keçin içəri, bayırda dayanmayın, – Kazım qonaqlarını zala dəvət edir.

* * *

Dəvət olunduğumuz restoranın həyətində maşınların çoxluğundan hərəkət etmək çətindir. Daydayın dediyi kimi, bağışladığı təzə maşını sexin həyətindən çıxartmırıq, bura taksiylə gəlmişik. Basabas olduğundan, taksi çox da irəli gedə bilmir, maşını saxladıb, enirik. Nadir irəlidə oturduğundan, tez düşür, mənsə arxa oturacaqdakı az qala özüm boyda olan ayını götürüb, birtəhər maşından enirəm.

– Heç olmasa gülləri sən götür, ya da ayını, – Nadirə deyirəm.

– Nə deyirdi uşaq evindəki Lalə?! İti öldürənə sürüdərlər! Adam bu boyda ayı alanda belə olur. "Kinq-Konq" boydadır, – deyən Nadir mənə kömək etməkdən boyun qaçırır.

Malik gələn qonaqları qarşılayıb, yerbəyer etməklə məşğul olduğundan, bizi görən kimi yaxınlaşır. Əlimdəki iri ayı hər kəsin diqqətini uzaqdan cəlb edir.

– Salam, xoş gəlmisiz, bura buyurun! – Malik mehribanlıqla dillənir. Qucağımdakı ayının "Kinq-Konq"la müqayisə olunmasının havasındayıq, öz-özümüzə qımışırıq. Fərqində deiyilik, amma Malik bizə baxdıqca, onsuz da domba gözləri daha da böyüyür. Üzümü qucağımdakı ayı tutduğundan, məni yaxşı görə bilməsə də, Nadirin siması kino lenti kimi xəyalında canlanır. İşıqforda dayanmış maşın. Tez gəlib yük yerini açarla bağlayan adam. Ani olaraq arxadakı maşında olanlara baxır. Bu vaxt Namik deyilən adam da gəlir və:

– Burda dayanmayın, maşınların yolunu kəsirsiz, zəhmət olmasa içəri keçin, – deyərək, içəri keçməyimizi xahiş edir. Bir neçə addım atırıq, Malik arxadan yaxınlaşıb qolumdan yapışır, az qalır ayını əlimdən buraxam. Çevrilib tərs-tərs ona baxıram.

– Bir dəqiqə, – bizə deyir, – sizi kim dəvət edib? – Nifrətlə xəbər alır.

Əsəbləşirəm.

– Hər halda dəvətsiz gəlməmişik, – qəzəblə deyirəm. Nadir də pərt olur, sual dolu baxışları ilə mənə baxır.

– Zəhmət olmasa bir dəqiqə burda gözləyin, – Malik deyir, sonra yüyürərək, pillələr üstə dayanıb bir nəfərlə söhbət edən Nicatın yanına gedir. Səbri tükənən Nadir yanımızda dayanıb Malikin arxasınca baxan adamdan:

– Nəsə problem var? – soruşur.

– Yox, – adam fikirli-fikirli cavab verir. – Heç bir problem yoxdur, indi hər şey düzələr, – deyərək tələsik özünü Nicatgilə çatdırır.

Kazım Səfər və onun Amerikadan gəlmiş oğlu ilə hələ də şirin-şirin söhbət edirlər.

Malik danışdıqca Nicat dayandığı yerdən bizə tərəf baxıb başını bulayır. Bu, Nadirin gözündən yayınmır, mənə baxır. Ürəyim sıxılır.

– Nə olur bilmirəm, ancaq, deyəsən, gəlməyimiz problem yaradıb, – Nadir dodaqlarını gəmirərək danışır. Bu vaxt Nicat Malikgildən aralanıb astaca Kazıma yaxınlaşır, bir addım kənarda dayanıb sakit səslə:

– Kazım müəllim, sizi bir dəqiqə olar? – deyir. Kazım üzünə saxta təbəssüm əlavə edir, sonra Səfərgilə baxaraq, mehribanlıqla:

– Siz içəri buyurun, – deyir, – mən indi gəlirəm.

Səfər oğlunun qoluna girərək asta-asta pillələri qalxır. Kazım isə əsəbiliklə Nicatın üzünə baxır:

– Nə olub? Gözləyə bilmirsən? – səsini boğmağa çalışaraq Nicatın üstünə çığırır. Nicat udqunaraq başının işarəsi ilə bizi göstətir.

– Onlardır, Kazım müəllim! – deyir.

Heç nə başa düşməyən Kazım üz-gözünü turşudur.

– Kim?

– Lətifi aparan uşaqlar!

Kazım eşitdiklərinə inana bilmir. Heyrətlə gözlərini qıyıb, bizə tərəf baxır.

– Nə danışırsan? Yəni Lətif göndərib? – çaşqınlıqla deyir.

Bu vaxt Rəna restorandan çıxıb həyətə boylanır. Bizi görür, bizə tərəf gəlir. Səfərlə oğlu onun qarşısına çıxır, amma Rənanın gözləri bizdən başqa heç kəsi görmür. Bunu hiss edən Kazım pərt olur, qızını səsləyir:

– Rəna, Səfər əmi burdadır. Orxan da Amerikadan birbaşa səni təbrik eləməyə gəlib, – təbəssümlə danışır. Rəna bir anlıq ləngiyir, gülümsəyərək atasının təqdim etdiyi adamlara baxır, amma dayanmır, bizə tərəf gəlməyə davam edir. Kazım pərtliklə qızının arxasınca boylanır.

– Salam, xoş gəldiniz! – Rəna Nadirlə görüşür, sonra sevgi ilə dolu gözlərini mənə zilləyib adəti üzrə dodaqlarını büzür. – Küsmüşəm. Niyə gec gəldiz?

Nicat bu mənzərəni görüb bizə yaxınlaşmaq istəyəndə, Kazım mane olur.

– Sss! Əgər öz ayaqları ilə gəliblərsə, qoy yeyib-içsinlər. Mane olma! Amma göz qoyun onlara! – tapşırır.

Bu anlarda Kazımın ağlından keçənlər: “Lətifi bu qədər uzaqgörən bilməzdim. Deməк, Rəna üstündən oyun qurub! Eybi yox, Lətif, qurduğun oyunu burnundan gətirməsəm, mənə də Kazım deməsinlər!”

– Bir məsələ də var! – Nicat sakitcə deyir.

– Nə? Sənin məsələlərin qurtarmadı? – Kazım artıq qəzəbini boğa bilmir. – Hə?! – Səsini qaldırır.

– Onların bir tayı da içəridədir! – Məlumat verir.

Biz Rəna ilə yanaşı restorana tərəf gedirik. Yolüstü Rəna Nadirə məndən şikayət edir:

– Dostunu cəzalandıracağam! – deyir.

– Haqqın var! – Nadir gülümsəyərək Rənaya tərəf çıxır. – Ancaq hədiyyə dükanında hər kəsi bezdirdiyi üçün bu dəfə günahından keç!

Gülürük. Bu arada Nicat Kazıma bizimlə bağlı qısa məlumat verir. Kazım diqqətlə dinləyir, başını bulayaraq altdan-altdan bizə baxır. Restorana qalxan pillələrə çatırıq. Qucağımdakı ayını sahmanlamaq üçün bir anlıq dayanıram.

– Burda dayanmayın, – Rəna deyir. – Nicat, hədiyyəni götür. – Rəna atası ilə söhbət edən Nicata səslənir. – Sizsə içəri keçin. Bayaqdan ancaq sizi gözləyirəm.

Kazım bizə baxaraq gülümsəyir.

– Olsun, – Nicata deyir. – Rənanın dediklərini elə. Gərək Lətifi də gətirəydilər. Keçin, uşaqlar, keçin! – Son sözlərini isə bizə söyləyir.

– Ancaq bayaqdan buraxmaq istəmirdilər, – Nadir bizə yaxınlaşan Nicatı görəndə, sakitcə məni dümsükləyir. – Ora bax! – Nicatı göstərir.

– Kim sizi buraxmaq istəmirdi? – Rəna əsəbi soruşur.

– Mən! – Nicat yaxınlaşır. – Dəqiqləşdirmək istəyirdim, bunlar doğrudan da mənim köhnə tanışlarımdır, ya yox...

– Nicat, sən burda neynirsən? – Nadir soruşur.

– Əslində, mən səndən soruşmaq istəyirdim, – gülümsəyir, – görürəm, Rəna xanımı tanıyırsız. Ancaq bir şeyə təəccüblənirəm...

– Nəyə? – Səbrim tükənir. Nicatı görmək qətiyyən ürəyimdən deyil.

– Niyə ayrı-ayrı gəlmisiz? – soruşur.

Rəna təəccüblə gah mənə, gah da Nicata baxır.

– Bir yerdə gəlmişik! – Nadir deyir.

– Səni demirəm. Əli də burdadır! – deyib, gözümüzə baxır.

Bu üzücü dialoqdan yorulan Rəna, sakitcə qoluma toxunur:

– Burda dayanmayın. Sonra məni də başa salarsan! – deyir, amma mən Rənanın sözlərini yox, Nicatın dediklərini eşidir, çaşqınlıq içində Nadirə baxıram.

## *– XIV –*
## *SÜRPRİZ NİŞAN*

Toplaşdığımız zal gənclərin ixtiyarına verilib. Süfrəçilər əllərində sinilər aralıqda gəzişir, qonaqlara müxtəlif içkilər, şirniyyat, soyuq qəlyanaltı, meyvə salatı paylayırlar. Musiqi lap sümüyə düşür. Dəbdə olan mahnılar bir-birini əvəz edir. Rəna ev sahibəsi kimi dəvət etdiyi qonaqlarla bir-bir görüşüb, xoş sözlər deyir, kimini rəqsə dəvət edir, kimi ilə zarafatlaşır. Orxan – bir qədər əvvəl atası ilə gələn oğlan özündən razı halda zalda gəzişir, Rənanın hərəkətlərinə göz qoyur. Əlbəttə, bu gün Rəna həmişəkindən də gözəldir, bütün gözlər ona dikilib, sanki bu qız ətrafa özündən işıq saçır.

Gözlərimi yekəxana Orxandan çəkmirəm, amma Əlinin bu məclisə bizimlə bir yerdə deyil, tək gəlməsi ağlımdan çıxmır. Axı biz onu dəvət etsək də, başqa yerə gedəcəyini deyirdi, belə çıxır onun başqa yer dediyi elə bura imiş. Yox... Burada qaranlıq nəsə var!

– Sən Rənanı haradan tanıyırsan? – əl çəkən deyiləm.

– Tam təsadüf, – Əli fikirləşmədən cavab verir. – Siz Daydayın qonaqlığında olanda mən sexə qayıtdım axı, onda Rəna maşını gətirdi, tanış olduq, məni də dəvət elədi. İstəyirsən gedim? – Əli çiynini çəkərək, mənə baxır.

– Qurtarmadı bu söhbət? – Nadir üstümüzə çəmkirir.

– Ümid soruşdu, mən də cavab verdim, – deyən Əli, yarımçıq şirə stəkanını yaxınlıqdan keçən süfrəçinin əlindəki siniyə qoyur. Bu vaxt Rəna yaxınlaşır, bizə baxıb gülür, amma nədənsə üçümüzün bir yerdə olması onun üçün maraqlı deyil.

– Canım, bəlkə rəqs edək? Niyə məni rəqsə dəvət eləmirsən?! – İlahi, necə gözəl, məlahətli səsi var. O dəqiqə ağlımı başımdan alır. Əli, Nadir ikinci plana keçir. Bu anlarda Əlinin keçirdiyi hisslər məni qətiyyən maraqlandırmır. İndi mənim üçün yalnız Rəna var, yanıb-sönən işıqlar var, həzin musiqi var... Əgər Əli deyirsə, demək elə də olub, çünki mənim qardaşım heç vaxt yalan danışmaz. Hə... Rənaya söz verib ki, ad günündə iştirak edəcək, ona görə sözümü yerə salıb. Hardan bilsin ki, ikimiz də eyni tədbirdən danışırıq. Burada mənim də günahım var, axı ona Rəna ilə bağlı heç nə deməmişəm. Sadəcə, bir qıza aşiq olduğumu, onu sevdiyimi bildirmişəm, amma kim?! Əli bu barədə heç nə bilmir.

Rəqs edirik. Rəna qırmızı qanadlı kəpənək kimi süzür. Hərdən məni də qanadlarına alıb göyə qaldırır. Biz göydə baş-başa verib, süzərkən Nadirlə Əlinin arasında belə bir dialoq gedir:

– Ümid o qızı sevir, özü də dəli kimi sevir. Yolda hər şeyi danışdı mənə.

– Lap yaxşı. Xoşbəxt olsunlar, – deyən Əli bizə baxır.

– Niyə fikirli görünürsən? – Nadir Əlinin səsində nəsə hiss edir.

– Yox, qətiyyən, sənə elə gəlir, – söhbətdən yayınır. – Nicata bax ha, – Əli deyir. – Ağlıma gəlməzdi nə vaxtsa yenə onunla görüşəcəyəm.

– Hə, özünü yaxşı yerə ilişdirib, – Nadir ironiya ilə gülümsəyir.

Bu vaxt iki gənc qız Nadirlə Əliyə yaxınlaşıb onları rəqsə dəvət edirlər. Bir qədər əvvəl Rənanın işarə ilə Əligili göstərdiyi qızlardır.

* * *

Mən də, Rəna da çox xoşbəxtik. Ətrafda nə varsa, bizə gözəl görünür. Bu anlarda Kazımla Nicat foyedə pıçıldaşırlar. Dünyadan xəbərimiz yoxdur, amma sən demə, Kazım hərəmizə bir adam ayırıb, hər addımımızı izləyirlər.

– Rəna heç nə hiss eləməsin, – Nicata tapşırıq verir. – Gedəndə yolda kəsin qabaqlarını, aparın anbara. Tədbiri yola verim, özüm də gələrəm.

– Baş üstə! – Onsuz da Nicatın leksikonunda "baş üstə"dən başqa cəmi bir neçə ehtiyat söz var.

Kazım özündən razı halda zala qayıdır. İkinci mərtəbədə zala toplaşan qonaqları tamam unudub. Biz hələ də rəqs edirik, deyəsən, Əli meydanda rəqs edənlər arasında yoxdur.

Kazım musiqiçilərə yaxınlaşır, musiqini dayandırır, mikrofonu götürüb bir neçə dəfə üfürür. Rəqs edənlər meydanı boşaldırlar. Bütün gözlər Kazıma dikilir. Rəna ilə mən yan-yana dayanırıq, Nadir də bir qədər əvvəl rəqs etdiyi gözəl qızın yanındadır, qulağına nəsə deyir, qız uğunur. Yox, bu qız gülməsə yaxşıdır. Bu qız güləndə bütün zərifliyini itirir. "Nadir, güldürmə qızı!" Kimə deyirsən?! Sanki qızın dodaqları eyniqütblü maqnit kimi bir-birini itələyir.

– Qızım Rənanın hörmətli qonaqları! – Kazımın səsi möhtəşəm salonda əks-səda verir. – Sizi burada görməkdən məmnunam. Bu gün mənim üçün əlamətdar gündür...

Gözlərimlə Əlini axtarıram, Əli yoxdur. Girişdə, pillələr üstə dayanıb, səmaya baxır. Pərtdir. Kənara çəkilib siqaret yandırır. Kazımın səsi bir qədər aşağı tembrdə zaldan bayıra dartınır.

– Mən həyatımı ancaq qızımın xoşbəxtliyi üçün yaşamışam! – Bu sözləri Kazım deyir. Rəna ilə baxışıb, oğrun-oğrun gülürük. – Və onun xoşbəxt olması üçün hər şey eləməyə hazıram. Yaxın gəl, Rəna!

Rəna məmnunluqla mənə baxır, gözlərimin işarəsi ilə "get" deyirəm. Bu gözəl varlıq xoşbəxtlik dənizində üzə-üzə atasına yaxınlaşır. Onun atası da xoşbəxt görünür. Mən onun atası ilə qürur duyuram. Qızının xoşbəxtliyi üçün hər şey etməyə hazır olan ata! Rəna mənə danışıb, körpəlikdən Rənanı bu yaraşıqlı kişi böyüdüb. İkinci dəfə ailə qurmayıb, Rənanı ögey anaya etibar etməyib...

Malik Əlinin restorandan çıxdığını görən kimi, yüyürüb bayıra atılır. Gözlərini Əlidən ayırmır. Bu vaxt Namik də gəlir.

– Dostları burdadır, – deyir, – heç yerə gedən deyil.

– Gözün üstündə olsun! – Malik tapşırıq verir. – Bu dəfə də yarıtmasaq, şef bizi bağışlamaz.

Bu vaxt bir dəstə gənc siqaret çəkmək üçün hay-küylə bayıra çıxır. Əlinin ətrafında dayanıb siqaret çəkirlər. Aralarında boy-buxunu, paltarı Əliyə oxşayan biri var. Saçlarını da eynilə onun kimi düzəltdirib. Arxadan baxanda ümumiyyətlə kimin kim olduğunu ayırd etmək mümkün deyil.

Malikgilin başı söhbətə qarışdığından bir anlıq Əlini gözdən yayındırırlar, amma tez gənclərin arasında onu axtarıb tapır, gözlərini yenidən ona dikirlər. Bizim Əli isə asta addımlarla restoranın geniş həyətindən çıxışa doğru gedir.

* * *

Gözlərimi Rənadan çəkmirəm. Rəna atasına sığınıb. Kazım məmnunluqla qonaqlara baxır. Bu vaxt Orxan da onların dayandığı yerə yaxınlaşır. Kazımın Səfər müəllim dediyi adam da oğlunun yanında yer alır. Kazım sağ qolu ilə qızını qucaqlayır.

– Neçə vaxtdır Rəna iş qurmaq istəyirdi, – deyərək Nicata baxır. Nicat əlindəki bəzəkli qutunu açıb, Kazımın tuşunda dayanır. Kazım qutudakı açarı və sənədləri götürüb, Rənaya verir. – Bu da sənə iş, əziz balam! Bu gözəllik salonu sənindir. – Monitorda haqqında söhbət gedən gözəllik salonunun görüntüləri canlanır. Alqış sədaları artır. Ekranda gözəllik salonunun işçiləri yeni patronlarını təbrik edirlər. Rəna məmnunluqla, qürur hissi ilə atasına baxır. Onun boynuna sarılır, üzündən öpür.

– Çox sağ ol, ata! – səsi titrəyir. – Bu, mənim üçün əsl sürpriz oldu.

Nadirlə yanaşı dayanmışıq. Nadirin rəqs etdiyi qız hələ də dişlərini ağardıb gülür. "Bəlkə Nadirə deyim, qıza təpinsin. Belə gülmək olmaz axı..."

– Əlini görmədin? – Nadir baxışlarımı qızın ağzından çəkməyimə yardım edir. Ümumiyyətlə bu qızın varlığını unutmaq istəyirəm.

– Buralarda olar, – deyirəm. – Yəqin, siqaret çəkməyə çıxıb.

– Hələ sürprizlər davam eləyir, əziz Rənam! – Kazım işarə ilə Nicatı uzaqlaşdırır. – Səfər müəllim, əziz Orxan, lütfən, yanımda dayanın. Qoy bu anlar kameranın da yaddaşına həkk olunsun. Bu, çox həyəcanlı anlardır.

Səfər və Orxan deyilən o təkəbbürlü, özündənrazı oğlan Kazıma yaxınlaşırlar. Səfər Kazımın, Orxan isə Rənanın yanında dayanır.

– Biz Səfər müəllimlə çoxdanın dostuyuq, – Kazım davam edir. – İkimiz də bu dostluğun həm də qohumluq telləri ilə bağlanmasını istəyirik.

Hələ də bayaqkı rəqsin təsiri altında göylərdə süzürəm. Nadir yavaşca qoluma toxunur. Ona baxıram, gözlərinin işarəsi ilə Kazımı göstərir. Qulaqlarıma dolan sözlər məni bir anda göyün yeddinci qatından yerə çırpır.

– Orxanla Rəna, demək olar, bir yerdə böyüyüblər, – Kazım davam edir. – Onlar hələ uşaq olanda... – heç nə eşidə bilmirəm. Bir qədər əvvəl mənə güclü, yaraşıqlı, müqəddəs görünən adam gözlərim önündə şüşə kimi çiliklənir, eybəcərləşir, əcaib varlığa çevrilir. “Sus, ay adam! Danışma! Sən bizim xoşbəxtliyimizə mane ola bilməzsən!” Səsim içimdə boğulur. Kazım isə hələ də danışır. – Onlar hələ uşaq olanda biz Səfər müəllimlə bir söz vermişdik. – Hiss edirəm, bu sözlərin arxasında qara-qura, məkrli arzular gizlənir. – Bu gün həmin sözü tutmaq vaxtı çatıb.

“Nə söz?! Kazım kişi, neyləmək istəyirsən?! Rəna mənim canımın bir parçasıdır! Bizi heç nə ayıra bilməz! Bir Kazım yox, lap yüz Kazım olsun! Bir Orxan yox, lap elə bütün Amerika tökülüşüb gəlsin, bu, mümkün deyil!”

– Mənim əziz qardaşım, sevimli Rəna! – Sus, Səfər müəllim. Sənə söz verən olmadı, sus! Hələ Rənanın yanındakı çəyirtkəyə bax. Gör bir necə kişilənir. Yox, onun haqqı yoxdur Rənanın yanında dayanmağa! Bir addım irəli atıram, Nadirin kəlbətin barmaqları qoluma dolaşır. Başını bulayaraq “yox, olmaz!” deyir. Gözlərim bərəlir, qulaqlarımda dəhşətli uğultu var! Nadir məni yanına çəkir. – Orxan, əziz balam! Sizi ürəkdən təbrik edirəm. Kazım qardaşım düz deyir, siz uşaq olanda, biz sizin gələcəyinizlə bağlı bir qərar vermişdik. Öz aramızda razılaşmışdıq. Bu gün, bu əziz gündə sizi nişanlamaq istəyirik!

“Rəna, niyə susursan?! Məni bura bu axmaq şounu izləməyə çağırmısan?! Məni təhqir eləməyə, hisslərimi məsxərəyə qoymağa çağırmısan?!”

Axı mən haradan bilim ki, Rəna da mənim kimi şokdadır. Atasının sürprizi onu da sarsıdıb. Rəna heyrət içində atasına baxır. Orxan deyilən o çəyirtkə isə məmnundur. Musiqi səsi yüksəlir. Heç nə eşitmirəm. Rəna da eynilə mənim kimi uğultudan başqa heç nə eşidə bilmir. Səfər cibindən balaca, qırmızı qutu çıxarır, iki üzükdən birini götürüb Rənanın, digərini Orxanın barmağına taxır. Rəna müti qul kimi müqavimət göstərmədən, atasının dediyi sözlərə əməl edir. Səfər süfrəçilərdən birinin sinidə gətirdiyi qayçı ilə üzüklər arasında olan qırmızı lenti kəsir.

Tamaşa bitdi! Demək, hər şey oyun imiş! Rənanın sevgi üzərində qurulmuş möhtəşəm şousu! Alqışlar! Hər şey çox gözəl və təbii idi. Burada qalmağın mənası yoxdur. İti addımlarla zalın çıxışına doğru gedirəm. Nadir ardımca yüyürür. Bir cüt naməlum göz bizi izləyir. Alqış sədaları, fit, uğultu, musiqi bizi təqib edir. Bir- birimizin ardınca foyeyə çıxırıq. Xəbərim yoxdur, amma, sən demə, Rəna məni izləyirmiş. Bizim bayıra çıxdığımızı görən kimi, heç nəyə məhəl qoymadan arxamızca gəlir.

Nadir məni saxlaya bilmir. Dayanmadan gedirəm. Bu vaxt Rəna arxadan gəlib, özünü mənə çatdırır, qolumdan tutub saxlayır.

– Məni burda qoyub hara gedirsən?! – Səsində həm qəzəb, həm də yalvarış hiss olunur.

Kazımın qulbeçələri kənardan bizi izləyirlər.

– Mənim burda qalmağıma ehtiyac var? – İroniya ilə cavab verirəm.

– Var! – Rəna qətiyyətlə deyir. – Ehtiyac olmasaydı, indi sənin yanında dayanmazdım. Apar məni burdan!

Rənanın sözləri məni özümə qaytarır. “Demək bu şoudan Rəna da xəbərsizdir! Kazım öz ağlı ilə hərəkət edib?!”

Yaxşı ki, Nadir var. Altdan-altdan ətrafa baxır. İzlənməyimizin əsl səbəbini bilmirik, bizə elə gəlir ki, Rəna məclisi yarımçıq tərk edib bayıra çıxdığı üçün Kazımın adamları onu izləyirlər.

Nadir Nicatla o biri iki nəfərin diqqətlə bizə baxdığını görür. Qaqaşım tədbirli oğlandır. Təmkini də öz yerində.

– Tez ol, məni burdan apar! Burda qalmaq istəmirəm! – Rəna təkid edir.

– Ağıllı olun! – Nadir bizi sakitləşdirir. – Bir dəqiqə mənə qulaq asın! Burdan bayıra bir addım ata bilmərik! Atanın adamları gözlərini bizə zilləyiblər. Qayıdın zala. Heç nə olmamış kimi aparın özünüzü. Ağılla hərəkət eləmək lazımdır.

Mənim üçün Nadirin sözlərinin əhəmiyyəti yoxdur, hələ də Rənanın təklifini düşünürəm.

– Rənam, düz sözündür?! Mənimlə gəlmək istəyirsən? – Heyrətlə soruşuram, amma hiss edirəm səsim titrəyir.

– Dəli! – Rəna deyir. – Əlbəttə, düz sözümdür. Mənə ancaq sən lazımsan!

Rənam bu sözləri ilə məni yenidən qanadlarına alıb göylərə qaldırır.

Nadir isə, dediyim kimi, ağıllı və tədbirli oğlandır. Bizi sakitləşdirib, zala qayıtmağa razı salır.

– Rəna, sən atanın yanında dayan! Sakit ol. Heç nə hiss elətdirmə. Bizdən işarə gözlə! Ümid hara getsə, sən də onun ardınca get...

Rəna həyəcanlıdır.

– Yaxşı, nə desəz, eləyərəm, ancaq məni burda qoyub getsəz...

– Getmərik! – Ona sözünün ardını gətirməyə imkan vermirəm. – Sənsiz heç yerə gedən deyiləm.

Zala qayıdırıq.

## *– XV –*
## *NİYƏ SEVİNMİRƏM?!*

Əli zalda baş verənlərdən, gözlənilməz nişan mərasimindən xəbərsizdir. Onun bayıra çıxmasından Kazımın adamlarının xəbəri yoxdur. Onların Əliyə bənzətdikləri oğlan bir nəfərlə söhbət edir, kənardan iki cüt göz ona dikilib. Gənclər telefonda nəyəsə baxıb gülüşürlər. Əliyə oxşayan oğlanın arxası Maliklə Namikə tərəfdir.

* * *

Səfərlə Orxan yanaşı dayanıb, Rəna isə aldığı tapşırığa əsasən, atasına sığınıb. Kazım üzündəki təbəssüm mimikasını pozmadan, başını sakitcə qızına tərəf əyir:

– Bayaq hara qaçdın? – soruşur.

– Ürəyim sıxıldı, ata. – Rəna fikirləşmədən cavab verir. Çünki dedikləri doğrudur. – Utandım birdən-birə. Bütün gözlər mənə baxırdı.

Kazım da Rənanın dediyi sözlərin doğruluğuna inanır. Bu vaxt yenidən həzin rəqs musiqisi səslənir. Gənclər rəqs etmək üçün meydana üz tuturlar. Bu fürsətdən Səfər də yararlanmaq istəyir, ona görə oğluna tərəf azacıq əyilib, pıçıldayır:

– Orxan, nişanlını rəqsə dəvət elə!

Orxan ürəklənir, Rənanın qarşısında dayanıb, əlini uzadır:

– Gəl, rəqs eləyək, – deyir.

Rəna diqqətlə mənə baxır. İstəmirəm! İstəmirəm Orxanla rəqs eləsin, bu vaxt Nadir qoluma toxunur. Sən demə, o da Rənanı izləyirmiş. Gözlərimin işarəsi ilə Rənaya “rəqs elə” deyirəm. Mənim Rənam istəmədən, öz iradəsinə xəyanət edərək, Orxana baxıb gülümsəyir. Onlar da meydandakı gənclərə qarışırlar.

Nadir harasa itir. Mənsə Orxanla Rənanın rəsqinə baxıram və sonradan öyrəndiklərimi indi sizinlə bölüşürəm.

Səfər məşhur nazirlərdən biridir. Onu el arasında çox yayılmış bir cümlə ilə xarakterizə edirlər: "Qılıncının qəbzəsi də kəsir." Rüşvətxorun, korrupsionerin, dövlət malını talayan, qazanmaq üçün ən ağlagəlməz əclaflığı etməyə hazır olan adam. Vəzifə pillələrini ağlagəlməz sıçrayışla qalxıb.

Universiteti bitirdikdən sonra təyinatla rayonlardan birinə, xalq deputatları sovetinə hüquqşünas göndərilir. O vaxt bir kostyumu, bir köynəyi varmış, amma adamın üstündə Allah var, hamı deyir ki, savadına söz ola bilməz. Bax, o savadı sayəsində hörmət qazanır, ona aid oldu-olmadı, bütün yazı-pozu işlərini Səfərə həvalə edirlər, o da can-başla tapşırılan işləri görür. Subay olduğundan, yataqxanada qaldığından, gözləyəni olmadığından çox vaxt gecə keçənə qədər iş otağında qalır, işləyir. Bir gün sədr onu yanına çağırır:

– Səfər, görürəm ağıllı, yaraşıqlı, savadlı oğlansan, nə əcəb bu vaxta qədər subay qalmısan? Bir istəyənin varmı? – soruşur.

Bu gözlənilməz sual Səfəri çaşdırır. Bəlkə də ömründə ilk dəfə bu vaxta qədər həyatında bir qızın, bir qadının olmadığının fərqinə varır.

Səfər səkkizuşaqlı ailənin yeganə oğul övladıdır. Atası oğul gözləyə-gözləyə on beş il ancaq qız əkməklə məşğul olub, hər şeydən əli üzüləndən sonra daha arvada yaxın düşməyəcəyinə and içib. Beləcə üç il keçib. Arvad kişidən sübhələnməyə başlayıb, başqa qadınla oturub-durduğunu güman edib, evdə dava-mərəkə qalxıb. Bir gün Səfərin dədəsi arvadını yaxşıca əzişdirib, sonra bir həftə evə gəlməyib, gedib MTS-in qarajındakı otaqda gecələyib və orada gecələdiyi sonuncu gecə arvadı qəflətən qapını açıb, içəri girib. Səfərin dədəsi arvadın gəlişindən qəzəblənib, yenə təpiyinin altına salıb payını vermək istəyib, amma qadın nə edibsə, kişinin ağlı başından çıxıb, qapını arxadan bağlayaraq arvadını da xoşbəxt edir, özünü də və həmin o qarşılıqlı xoşbəxt gecədən doqquz ay keçəndən sonra Səfər gəlib dünyaya. Bir sözlə, Səfərin təməli MTS-in qarajında qoyulub.

Sədrin qəfil sualından çaşbaş qalan Səfər:

– Hələ evlənmək fikrim yoxdur, Kamil müəllim, – cavab verir.

Kamil müəllim sanki bu cavabı gözləyirmiş, elə o dəqiqə Səfərə:

– Əgər elədirsə, sənə qohumluq təklif edirəm, – deyərək, Səfərin ağlını başından çıxarır. – Qızım Nigarın 21 yaşı var, universitetin tarixində oxuyur. Səni onunla evləndirmək istəyirəm, atana xəbər elə, gəlsin qızı istəməyə.

Səfər o gündən sonra sədrdən sonra ikinci adama çevrilir. Dədəsi tez-tələsik borc-xərc edib, elçiliyə gəlir. O gün son dərəcə abırlı, ismətli görünən gəlin toydan cəmi üç gün sonra öz kefi ilə yaşamağa davam edir. Hətta, deyilənlərə görə, toy gecəsi qız bakirə olmur, amma Səfər bu sirri heç kəsə açmır. Anası toyun səhəri Səfərin barmağındakı kəsiyi görəndə şübhələnir, Səfər isə and-aman edir ki, barmağını şampan qədəhinin qəlpəsi kəsib.

Az sonra Səfərin qayınatasını yaxşı bir işə irəli çəkirlər. Kişi kürəkəni də özü ilə aparır və bundan sonra gün işığı bu çoxqızlı ailənin yeganə oğul övladının üstündən itmir. Səfərin qayınatası yavaş-yavaş geri çəkilir, kürəkəni irəli buraxır və Səfər dədəsi ilə anasının MTS qarajındakı qəfil eşq macərasının, qayınatasının gözlənilməz təklifinin, toy gecəsi bakirə çıxmamaq şübhəsi altında qalan xanımının acığına dünyadan qisas alır. Çapıb-talayır dünyanı. Yeddi ildir arvadı ilə oğlu Orxan Amerikada yaşayırlar. Orada Səfərin xeyli malı-mülkü, biznesi var. Ortancıl oğlu isə Avropada iş qurub. Yəni Səfərin topdağıtmaz sərvəti, milyonlarla pulu, evləri, sarayları, qalaları, Kazım kimi dostları var...

* * *

Nadir məndən ayrılır, zalın yuxarı başındakı qapıya tərəf gedib itir. Alaqaranlıq zalda rəngbərəng işıqlar yanıb-sönür, rəqs edən gənclərin sifətləri anidən işıqlanır və görünməz olur.

Nadir hər kəsin gözündən yayınıb bizi qaçırmaq üçün plan hazırlayır. Bu, onun macərapərəst xarakterindən irəli gəlir. Adamın qətiyyən sakit dayanmaq, dinc oturmaqla arası yoxdur. Bu xasiyyətinə görə Əli həmişə onu danlayır, amma mən indi Nadirdən çox razıyam. Yaxşı ki, Əli yanımızda deyil, yoxsa bizi fikrimizdən daşındırmağa çalışardı. Nə olursa olsun, mən Rənanı o özündənrazı, lovğa gədəyə verən deyiləm! Nadir qardaşdır! Halaldır ona! Ona nəsə deməyə, xahiş etməyə gərək yoxdur, özü hər şeyi yaxşı başa düşür. Nadir başadüşən oğlandır.

Bura mətbəxdir. Nadir diqqət çəkmədən mətbəxdə gəzişir. Aşpaz qadınlar haray-həşirlə yemək hazırlayırlar. Nadir onlardan birinə – deyib-gülən qadına yaxınlaşır.

– Narahat eləyərim, ancaq yeməklərə söz ola bilməz, – deyir. – Ağzımız dada gəldi.

Aşpaz qadın belə qəfil komplimentdən xoşlanır.

– Nuş olsun, – dəyərək, nazlanır.

Nadir mətbəxdəki dəmir qapını göstərir:

– Bilmək olar bu qapı hara açılır? – xəbər alır.

Qadının otuz beş yaşı ancaq olar, nazlı, işvəli, cəzbedici xanımdır. Nadir kimi cavan, yaraşıqlı oğlanın onunla ünsiyyət qurmasından dondurma kimi əriyir. Bu qadını həmişə bir sual düşündürür: “Baş inzibatçı mənim kimi gözəgəlimli qadını niyə görmür?!” İndi Nadirin qəfil gəlişi və məhz onunla danışması qadının ürəyindəndir.

– Arxa küçəyə çıxır. Niyə soruşdun? – gözlərini süzdürərək cavab verir.

Bu qadın altı il əvvəl ərindən ayrılıb. Həmişəki problem – təklikdən darıxmaq. On yeddi yaşında ərə gedir, özü də sevərək, qoşulub qaçır. İlk vaxtlar yaxşı dolanırlar, lakin üç ildən sonra evdə söz-söhbət başlayır. Kişi bəzən həftələrlə ezamiyyətdə olur, o isə tək qalır, divarlarla danışmaqdan bezir. Kişi ezamiyyətdən qayıtdıqdan sonra evdə əsl qırğın başlayır. Bu qanqaraldan söhbətlər uzandıqca uzanır, amma kişi işini atmaq, ezamiyyətlərdən qalmaq fikrində deyil. Belədə qadın eksperiment etmək fikrinə düşür, məhəllənin işıq idarəsi üzrə müfəttişi ilə xoş rəftar etməyə başlayır və günlərin birində o adamı öz yatağına salır. Qadın “işıqçı” ilə dəli kimi sevişir. Əri ilə etmədiklərini bu yad kişi ilə yataqda edir. Doymaq, yorulmaq bilmədən sevişirlər. Sonra işıqçı bu evə dadanır, kişi ezamiyyətə gedən kimi, onlar da yatağa girirlər və bir müddət sonra qadın hamilə olduğunu başa düşür və dəqiq bilir ki, bu uşaq həmin o işıqçıdandır. Bir gün əri onları eyni yataqda tutur və çamadanını götürüb, evdən gedir. Bir müddət sonra işıqçının da ayaqları evdən kəsilir və qadın yenidən darıxmağa başlayır.

– Sürpriz hazırlamışıq, – Nadir qadının sualını cavabsız qoymur. – Bizə xəlvət qapı lazımdır. Bu qapı lap yerinə düşdü!

Nadir qadına göz vurur, üzünə gülümsəyir və yenidən zala qayıdır. Qadının ürəyində darıxmamaq üçün yeni ümid oyanır.

* * *

Nadir itmişdi axı, hə, indi də haradansa yenə peyda oldu. Bir dəfə uşaq evində də itmişdi qəfildən. Biz də hər yeri axtarmışdıq. Nadir elə bil quş olub göyə uçmuşdu. Əminə, Lalə, Ziyad, uşaqlar... axtarmadığımız yer qalmadı. Axırda Əminə polisə xəbər vermək istədi, zəng vurmaq üçün kabinetinə keçdi və bir neçə saniyədən sonra çığırtısı uşaq evini başına aldı. Nadir onun kabinetində divanda uzanıb televizora baxdığı yerdə yuxuya getmişdi. Deməyim odur ki, Nadirin qəfil itməyi, qəfil peyda olmağı var...

Zalda rəqs əməlli-başlı qızışıb. Bu Orxan var ha, Orxan, Rənanın qulağına nəsə pıçıldayır, Rəna onu dinləsə də, heç bir reaksiya vermir. "Görəsən, nə deyir Rənaya?!" Rəna gözlərini məndən çəkmir.

Nadir mənə yaxınlaşır. Gözləri gülür. "Qaqaş, incimə, zarafat eləməli halım yoxdur!" Bu təbəssüm adamı qıcıqlandırır axı. Adam istər-istəməz bilmək istəyir: "Nə olub? Nəyə gülürsən?!"

– Ürəyini buz kimi saxla! – deyir, mənə göz vurur. – Ölənə qədər demişik, demək, ölənə qədər. Hər şey əladır. Hazırlaş. Rənaya da işarə elə. Beş dəqiqə sonra mətbəxdən çıxarsız. Bax, – deyib, zalın girişlə əks tərəfdə olan divarındakı qapını göstərir. – Ora mətbəxdir. İçəridə həyətə açılan qapı var. Ordan da yola çıxmaq olur. Görüm, Əli hardadır? – Telefonu götürüb Əlini yığır, sonra səs-küydən heç nə eşidə bilməyəcəyini başa düşür, mesaj yazır: "Əli, hardasan?"

Namik gözlərini Əlidən ayırmır. Həyətdə siqaret çəkən gənclər danışıb-gülərək restorana tərəf qayıdırlar. Hava qaralmaq üzrədir: qaranlıqla həyətdə yanan işıqların proyeksiyasından adamların üzünü ilk baxışdan ayırd etmək olmur. Gənclər Namikə yaxınlaşırlar, adam gözlərini "Əlidən" çəkmir və lap yaxınlaşana qədər onu gözləyir. Yaxınlaşan gənclərin arasında Əlinin olmadığını görəndə, heyrətdən gözlərini döyüb qalır, bayaqdan bəri Əliyə oxşatdığı oğlanın qolundan tutur, saxlayır, diqqətlə onun üzünə baxır. Sonra əsəbiliklə oğlanın əlini geri itələyib həyətə cumur. Onun bu hərəkətindən bir şey başa düşməyən oğlan Namikin arxasınca səslənir:

– Qaqaş, nəsə problem var?

Yaxınlıqda olan gənclərdən biri onun çiyninə toxunur:

– Gəl əşşi, yəqin çox içib, – deyir və onlar hay-küylə zala qayıdırlar.

Bu vaxt restorandan bir qədər aralıda gəzişən Əlinin telefonuna mesaj siqnalı səsi gəlir. Əli telefonu cibindən çıxarır, mesajı oxuduqdan sonra "WhatsApp" proqramı ilə cavab yazır: "Bayırda, küçədəyəm. Sizi gözləyirəm. Gec çıxacaqsız?"

Bir neçə saniyə sonra yeni mesaj daxil olur: "Maşınla restoranın arxasına keç. Ümid gəlir."

"Nəsə olub?" – Əli tez yazıb, göndərir.

"Hə... Ümidi gözlə!" – Nadir cavab yazır.

"Ok..."

Diqqətlə Nadirin yazışmasına baxıram. Nadir gözlərini telefondan ayırır:

– Əla! Üzün gülsün, qaqa! Heç kəsi şübhələndirmə. Super. Əli bayırda sizi gözləyəcək. Rənaya işarə elə, özün də yavaş-yavaş get mətbəxə, qızı gözlə. Dediyim kimi, arxa qapıdan bayıra çıxın. Əli ordadır.

Nadirin dediklərini robot kimi yerinə yetirməyə hazıram. Bayaqdan bəri gözlərini məndən ayırmayan Rənaya baxıb gülümsəyirəm, başımın işarəsi ilə "ardımca gəl" – göstərirəm və bu an ağlıma bir sual dolur:

– Bəs sən? – Nadirdən xəbər alıram.

– Məndən narahat olma. Siz gedin, mən başımın çarəsinə baxaram. Getdiz...
– Nadir! – qolundan tuturam.
– Sssss! – mənə danışmağa imkan vermir. – Sənin bu qayınatan Kazım var ha, çox cındır adama oxşayır. Lətifin, Daydayın dediyi adam budur. Bunun dərsini vermək lazımdır. Nə isə... Get! Rəna sənə baxır.
Mən də Rənaya baxıram. Gözlərindəki təlaş və kədər məni sarsıdır. Başımla işarə edirəm. Astaca mətbəxə tərəf addımlamağa başlayıram. Yolüstü qarşılaşdığım süfrəçinin əlindəki sinidən bir qədəh şampan götürüb, başıma çəkirəm. Boş qədəhi digər süfrəçinin sinisinə qoyub, mətbəxə girirəm. Bu vaxt Rənam da özünü mənə çatdırır.
Aşpaz qadınlardan biri bizi görəndə təəccüblə baxır. Bu vaxt Nadirin münasibət qurduğu qadın köməyimizə çatır.
– Əşşi, işinizdə olun. Sürpriz eləyirlər də! – deyir və digər qadınlar da qımışırlar.
Qadınlara baxıb başımla razılıq edirəm, sonra Rənanın əlindən tutub arxa qapını açıram. Sürətlə qaçır, dəmir pillələri enirik. Aşağı düşüb küçəyə baxırıq. Həyəcandan ürəyim ağzıma gəlir, indicə Rənanın yanında pərt olacağımı düşünüb, dodaqlarımı gəmirirəm. Bu vaxt Əli maşının işıqlarını yandırıb-söndürür. Rənanın əlindən tutub, maşına tərəf yüyürürəm. Tez arxa qapını açıb Rənanı maşına oturdur, sonra özüm də onun yanında əyləşirəm. Necə başa salım sizi?! Çox həyəcanlıyam! Adam belə şeylərdən şoka düşə bilər. Ürəyimin döyüntüsü qulaqlarımda əks-səda verir.
– Getdik! – deyirəm. Maşın yerindən tərpənir. Rəna mənə sığınır. Gedirik. Binalar, xiyabanlar, küçələr, gecə işıqları üstümə şığıyır. Gedirik. Rəna yanımdadır, Əli buradadır, mən sevdiyim insanların əhatəsindəyəm. Mən öz sevgimi xilas etmişəm. Rənanı sevmədiyi bir adamla yaşamaqdan qurtarmışam. Niyə sevinmirəm bəs? Niyə?! Nadir! Nadir?!
– Dayan! – çığırıram.

## *– XVI –*
## *QAÇIRILMADAN SONRA*

Restoranda bir neçə nəfəri çıxmaq şərtilə, hamı əylənməyə davam edir. Kazım gözləri ilə Rənanı axtarır, amma Rəna mənim yanımdadır. Biz bir yerdəyik.
Kazım əl işarəsi ilə Nicatı yanına çağırır. Nicat yüyürərək gəlir:
– Bəli, şef!
– Bax gör Rəna hardadır, – Kazım deyir. – Tez xəbər çatdır mənə.
– Baş üstə!
Nicat ani olaraq zala boylanır, sonra tələsik zalı tərk edir.
Nadir işini görüb qurtarıb, arxayındır. Artıq aradan çıxmaq vaxtıdır. Diqqət çəkmədən telefonu açıb mesajları silir. Sonra sakitcə zalın çıxışına doğru gedir.
Bu vaxt Malik təngnəfəs, tövşüyərək özünü Nicata çatdırır. Dili ağzından bir qarış bayıra çıxıb. Üz-gözünü turşudub.
– Gədələrdən biri yoxdur! – Malik deyir.
– Necə yəni yoxdur? – Nicat çaşqınlıqla xəbər alır. – Hər yerə baxmısan?
– Hə... Gözümün qabağında idi, birdən qeyb oldu.
Nicat qəzəbdən yumruğunu yaxınlıqdakı ağacın gövdəsinə vurur, ağrıdan ufuldayır.

– Blyət! – Yumruğunu düyünləyərək, Malikə baxır. – Zalda gözümə onlardan ancaq biri dəydi. Rəna da yoxdur, Ümid də... İndi sən deyirsən ki...

– Hə, vallah, – Malik onun sözünü kəsir. – Hər tərəfə baxdım, o uzunsaç gədə yoxdur.

– Namiklə bir yerdə hər tərəfə baxın, küçəyə-zada göz gəzdirin. Tualetlərə də baxın. Tez!

Nicat Malikə tapşırıq verdikdən sonra zala qayıdır. Kazım foyedə onu gözləyir. Qəzəblidir. Hiss olunmur, ancaq dişlərini kip sıxaraq, dodağını gəmirir. Nicatı görən kimi, ona doğru bir neçə addım atır:

– Nə oldu, hardadır Rəna? – qəzəblə xəbər alır.

– Tapa bilmirəm, – Nicat asta səslə cavab verir. – Zalda yoxdur, foyedə deyil... Bəlkə...

Kazım cibindən telefonu çıxarıb, düyməni basır və asta-asta bayır pilləkənlərinə doğru gedir.

Əli mənim "dayan!" nidamdan sonra maşını saxlayır, amma salonda qəbir sükutu var. Hətta bayırdan eşidilən qarışıq səsləri belə duya bilmirəm. Rəna astaca çiynimə toxunub, əlindəki telefonu mənə göstərir:

– Atamdır! – deyir.

– Cavab vermə! – yuxudan yarımçıq ayılmış adam kimi, tez deyirəm, amma Əli söhbətə müdaxilə edir:

– Məncə, danışsa yaxşıdır! – məsləhət verir.

Rəna qaranlıq salonda gözlərimə baxır. Onun gözlərindəki işığı görürəm.

– Bilirəm ona nə deyəcəyəm! – İnamla söyləyir və susmaq bilməyən telefonun yaşıl səthinə toxunur. – Hə, ata. Taksidə... Evə gedirəm... Bayaq dedim axı sənə, ürəyim sıxıldı. Gözləmirdim, ata, belə sürpriz gözləmirdim. Küsmüşəm səndən. Yaxşı... Mən də... – Telefonu qapadır. – Qoy indi məni evdə axtarsın. – İnamla Əliyə baxır. – Yaxşı, hara gedirik? – soruşur.

– Qoy Nadirə zəng vurum, sonra, – deyərəm. Elə bu vaxt telefonuma Nadirdən mesaj gəlir. "Siz gedin. Məni gözləməyin. Sizi taparam."

Onun bu mesajı məni sevindirir.

– Nadir deyir yolunuzdan qalmayın, sizi taparam! – Əliyə deyirəm. – Hara gedək, Əli? – həyəcanla xəbər alıram.

Əli bir neçə saniyə susduqdan sonra əlini sürətl qutusunun dəstəyinə atır, maşın yerindən tərpənir:

– Bir yer bilirəm, bu gecə orda qalarsız. Rəna, sən telefonu ümumiyyətlə söndür. Ümid, sən də tanımadığın nömrəyə cavab vermə!

* * *

Kazım Rəna ilə danışığını bitirib qəzəblə Nicata baxır. Əlindəki telefon aparatını silkələyərək danışır:

– Rəna evə gedib, – deyir. – Sizsə burda ağcaqanad qovursuz elə bil. Rəna taksi çağırtdırıb evə gedir, sizin bundan xəbəriniz olmur. Qoy məclis qurtarsın, siznən sonra danışaram.

Bu vaxt Səfərlə Orxan Kazıma yaxınlaşırlar. Səfər Kazımın sifətinə baxan kimi, onun nədənsə narazı olduğunu anlayır, amma bunu üzə vurmaq istəmir. Gülümsəyərək əlini Kazımın çiyninə qoyur:

– Rəna qızım gözümə dəymir, – hiyləgər təbəssümlə deyir.

Kazım... Kazım nə edə bilər ki? Onun hələ dünyadan xəbəri yoxdur. Ona görə özünü sakit göstərir.

– Hə, Səfər əmisi, – başı ilə məmnunluq edir, – elə indicə yola saldım, evə getdi. Nədənsə başı möhkəm ağrıyırdı. Neyləsin, öyrəşməyib də belə səs-küyə. Üzürlü hesab edin, sizinlə vidalaşmağa imkanı olmadı.

Səfər də öz üzərinə düşən rolu oynamağa davam edir. Bu adam tülkünün biridir, Kazımı görən kimi, nəsə baş verdiyini anlayıb, amma dəqiq bilmədiyi şeylər var. Hiss edib ki, bu nişanlanma Rənanın ürəyincə olmayıb, amma bu, onun üçün heç bir əhəmiyyət kəsb etmir. O, öz prinsipləri ilə yaşayır.

– Əslində, mənim də başım möhkəm ağrıyır, deyəsən, təzyiqim qalxıb, – Səfər gülümsəyərək danışır. – Həkimlərim “konyak içmə” deyirlər, mənsə yaxşı konyakdan imtina edə bilmirəm. Bizə də icazə ver, gedək. Təbriklərimi Rənaya çatdırarsan. Qoy, gənclər xoşbəxt olsunlar! Bizim başqa arzumuz yoxdur. Orxan, – deyərək, oğluna baxır. – Sən də Kazım əminlə görüş. – Orxan bu gecə Amerikaya qayıdır, vacib işləri var.

Orxan Kazımla görüşür, Kazım kürəkənini məhəbbətlə qucaqlayıb sinəsinə sıxır. Bu hərəkətləri ilə öz hisslərini Səfərə göstərməyə çalışır.

– Yaxşı yol, oğlum! – deyir. – Bundan sonra özün əlaqə saxla, gələndə mütləq bizə də baş çək. Daha öz evindir. Rənanın nömrəsi var da səndə?

– Var, var, – Səfər cavab verir.

– Əlbəttə, əlaqə saxlayaram. Özünüzə yaxşı baxın, Kazım əmi, – Orxan əlavə edir.

Kazım onları maşına qədər ötürür. Səfərgil maşına otururlar. Maşın yerindən tərpənəndə Kazım əllərini qoşalaşdırıb, onların arxasınca yelləlir. Bu vaxt Namik qaça-qaça gəlir, Nicata yaxınlaşır, onun qulağına nəsə deyir. Bu, Kazımın gözündən yayınmır.

– Hə?! – Kazım bayaqdan bəri sifətində donub qalan yalançı təbəssümü qoruyub saxlamağa çalışır.

– Problem var, şef! – Nicat qorxaq səslə məlumat verir.

– Problem... Problemmmm... – Kazım qəzəblə təkrar edir. Bir qədər əvvəlki mimikasından əsər-əlamət qalmayıb. – Düz bir aydır sənə deyirəm, xəbərdarlıq eləyirəm... bu gün problem olmasın! Danış, yenə nə olub?!

– Mətbəxə gedək... – Nicatın səsi titrəyir.

Kazım qəzəbli addımlarla pillələri qalxır.

* * *

Mətbəxdə qarışıqlıq var. Bir qədər əvvəl Nadirə arxa çıxışı göstərən qadını kətil üstə oturdub, üzünü yelpikləyirlər. Başqa bir qadın stəkanda su gətirib ona verir. İnzibatçı ayaq üstə dayanıb qadına baxır. Hamı həyəcanlıdır.

Kazım qəzəblə mətbəxə girir. İnzibatçı tez irəli çıxıb onu qarşılayır.

– Hə, hamınızı bir yerdə eşidirəm, nədir problem?! – Kazım hirsini boğaraq, soruşur.

İnzibatçı kətil üstə oturub ağır-ağır nəfəs nəfəs alan qadına deyir:

– Ruqiyyə xala, necə olubsa, danış.

İnzibatçının 27 yaşı var, oğlan hər dəfə ona xala deyəndə qadın qəzəbdən özünü didir, amma indi özünü didmək zamanı deyil.

Qadın bir neçə qurtum su içir, dikəlir, başına toplaşmış adamlara baxır. Sonra baxışları qəzəbli gözlərini ona dikmiş Kazımla qarşılaşır. Qadın qorxudan udqunur.

– Vallah, mənim heç bir günahım yoxdur, – sözə başlayır. – Bir saqqallı oğlan gəldi, ətrafı dolaşdı, arxa qapıya baxdı, soruşdu bu qapı hara gedir, mən

külbaş şübhələndim ey, ancaq elə ki, "sürpriz eləmək istəyirik" dedi, inandım. Heç on dəqiqə keçməmiş, gəlinlə bəy gəlib arxa qapıdan qaçdılar... Dedim sürpizdir də...

Kazım qəzəblə başını bulayıb, inzibatçıya baxır:

– Bu nə gic-gic danışır?! Gəlin-bəy kimdir?!

– Şef, Rəna ilə o balaca oğlanı deyir. Yəni arxa qapıdan qaçıb gediblər, – bunu da bayaqdan nə edəcəyini bilməyən Namik əlavə edir.

Kazım dodaqlarını çeynəyir, yumruğunu düyünləyir və qəfil hərəkətlə qarşısında qalaqlanmış boşqab qalağını vurub aşırır.

Kazımla vidalaşmaq üçün zala qayıdan Dayday Nadirin qoluna girib, onu kobudluqla harasa aparmaq istəyən Nicatı görür. Dayanıb baxır, Nicatla Nadir dartışaraq, zalın yuxarı başındakı mətbəx girişinə tərəf gedirlər. Dayday başını bulayaraq, tələsik zalı tərk edir.

Nicat Nadirin qolundan yapışıb onu mətbəxə gətirir. Nadir zərblə Nicatı itələyir:

– Əlini çək, küçük! – qəzəblə deyir.

Nicat səntirləyir, amma müvazinətini düzəldir, yıxılmır. Nadir adəti üzrə əlinin içi ilə onun sifətinə vurmaq istəyir, bu vaxt Malik özünü onlara çatdırır, Nadirin qolundan tutub, saxlayır.

– Ağıllı ol, Nadir! – Nicat deyir.

Maliklə Nicat hərəsi Nadirin bir qoluna girib, onu zorla mətbəxə aparırlar. Hələ də üzü yelpiklənən qadın Nadiri görən kimi, özünə gəlir, tez qalxıb Nadirin üstünə cumur.

– Ay alçaq, niyə məni aldadırdın? Budur sənin sürprizin? – Nadirin yaxasından yapışıb silkələyir. Sonra üzünü Kazıma tutur: – Məllim, bax, gəlib arxa qapını xəbər alan oğlan budur, – deyir və bir qədər arxayınlıqla köks ötürür.

* * *

Kazımın əmri ilə Nadir xəlvəti anbara gətirilir. "Kamera"ya girən kimi Nicat qəfil yumruqla Nadirin üzünə vurur. Bunu gözləməyən Nadir yerə yıxılır. Burnundan qan axır. Nadir yerə yıxılan kimi Maliklə Namik onu təpikləməyə başlayırlar. Qolları arxadan bağlı olduğu üçün müqavimət göstərə bilmir.

Onların ardınca Kazım qəzəblə kameraya girir. Hələ də təpiklənməkdə olan Nadiri görüb çığırır.

– Dayan əə! Bəsdir! Ölülər danışmır. Mənə onun ölüsü lazım deyil. – Əyilib Nadirin saqqalından yapışır. – Hardadı qızım? Sənin o küçük dostun hansı cəhənnəmdədir?

– Bilmirəm! – Nadir qorxmadan cavab verir. – Qızının yerini məndən niyə xəbər alırsan?

– İndi bilərsən. Hər şeyi bilərsən! Hər şeyi bir-bir sənin yadına salaram! – Dikəlib, üzünü Nicata tutur. – Qaldırın bunu!

Maliklə Namik canfəşanlıqla Nadiri qaldırırlar. Nadir səntirləyir, Nicat onu tutmaq istəyəndə Nadir gözlənilmədən kəllə atır və Nicat arxası üstə gedərək divara çırpılır, başı zərblə divara dəyir, gözləri qaralır, başı gicəllənir. Nicat Nadirin üstünə cummaq istəyəndə, Kazım qəzəblə onun qolundan yapışır.

– Kaş iyirmi nəfər sənin kimi maymağın əvəzində, yanımda iki nəfər belə ürəkli oğlan olaydı.

Bu vaxt Kazımın qardaşı oğlu Vüqar əlində Nadirin telefonu, otağa girir.

– Vatsapına mesaj gəldi, – telefonu Kazımın tuşunda saxlayaraq, deyir:

– Aç oxu, – Kazım amiranə səslə tapşırıq verir. Vüqar telefonun səthinə toxunaraq, ekranı açır.

– Göndərən Əlidir, – deyir.

Nicat əlinin içi ilə üzünə sığal çəkir, acıqla Nadirə baxır. Sonra üzünü Kazıma tutur:

– Rənagili qaçırtmaq yüz faiz onun planıdır, – dodağının qanını silir. – Bunların üçü bir yerdə böyüyüb, başbilənləri Əlidir.

– Oxu! – Kazım səsini qaldırır.

– "Nadir, haradasan? Sexə çatıram." – Vüqar mesajı oxuyur.

Kazım ətrafdakı adamların üzünə baxır. Maraq dolu nəzərlərini Nicata zilləyir:

– Nə sexdir o elə? – soruşur.

Hamı fikrə gedir. Birdən Nicat nəsə xatırlayır, tez əlini cibinə atır. Kartı çıxarıb, baxır.

– Mən o sexin yerini bilirəm, şef! – sevincək cavab verir.

Kazım bir addım atır, onunla burun-buruna dayanır. Nicat qorxudan başını aşağı salır.

– Sən hər şeyi bilirsən, ancaq əlindən-başından bir iş gəlmir, – deyib bitirən kimi, bağırır. – Kimi gözləyirsən bəs?

– Bu dəqiqə həll eləyərəm, – deyən Nicat dəsmalla ağzının qanını silir.

– Get o sexi dağıt, içindəki adamları parçala, Rənanı da, o küçüyü də tap, yanıma gətir.

Nicat heç bir söz demədən çıxır. Kazımın başının işarəsi ilə Malik də onun arxasınca yüyürür. Namiklə Vüqar Kazıma baxaraq, ondan tapşırıq gözləyirlər. Kazım Namikə gözləri ilə "əz onu" deyir. Namik divara dirənmiş beysbol çubuğunu götürür, Nadiri vurmağa başlayır. Kazımla Vüqar gedirlər. Nadirin səsi bütün anbarda əks-səda verir.

* * *

Bura şəhərdən kənar, gözdən-qulaqdan uzaq bir yerdir. Hər tərəf qaranlıqdır. Bu qaranlığın içində bir nəfər köhnə "Jiquli"nin yanında dayanıb ətrafa baxır. Uzaqdan yaxın işıqlarını yandırmış bir maşının ona tərəf gəldiyini görür. Maşın gəlib köhnə "Jiquli"dən bir qədər aralıda dayanır. Daydaydır. Maşından düşüb qaranlıqda onu gözləyən adama tərəf gedir. Daydayı gözləyən adam isə Lətifdir. Başındakı idman papağını gözləri üstə çəkib. Hər zaman səliqəli geyinən, şax qamətli Lətifi indi ilk baxışdan tanımaq olmur.

– Elə bildim gəlməzsən, – Dayday Lətifə deyir.

Görüşürlər.

– Gəlməyə bilməzdim, – Lətif papağı bir qədər qaldırır. – Sənə də, o uşaqlara da can borcum var.

– Nə olar, mən də borcunu qaytarmaq üçün sənə bir imkan verməк istəyirəm.

– Sevinərəm, – Lətif burnunu çəkir.

– Gəl bir az gəzişək, – deyən Dayday Lətifin qoluna girir. Asta-asta addımlamağa başlayırlar. – Kazım bizim uşaqları öyrəndi. Sənə görə onlara zülüm eləyir indi. Nadir anbardadı. Mən hələ bu işə qarışmaq istəmirəm... yoxsa qan su yerinə axacaq. Qaçıra bilərsən Nadiri ordan? – deyən Dayday qaranlıqda Lətifin gözlərinə baxmağa çalışır. Lətif fikrə gedir, arada sükut yaranır.

– Qaçıraram! – Lətif qətiyyətlə deyir.

– Nəsə, elə bil, çox fikirləşdin axı. – Arada yaranan sükut Daydayın ürəyincə olmur.

– Yox, – Lətif tez özünü ələ alır, – başqa şey fikirləşirdim. Gedib çıxardaram Nadiri, arxayın ol!

– Yaxşı fikirləş, Lətif...

– Bu günü çoxdan gözləyirdim, Həsən, – Lətif əlini Daydayın çiyninə qoyur. – Kazıma həyatı başa salmaq lazımdır. Yoxsa yerə-göyə sığmır. Narahat olma. Zəngimi gözlə.

Lətif ani hərəkətlə çevrilib iti addımlarla maşınına tərəf gedir, sükan arxasına keçib mühərriki işə salır, uzaqlaşır. Dayday yaxınlıqda onu gözləyən maşına minir.

## *– XVII –*
## *MÜHARİBƏ BAŞLADI...*

Əli narahatlıqla maşın təmiri sexinin həyətində gəzişir. Qarovulçu Bəhram kişi iki stəkan çay süzür, birini Əliyə verir, digərini yaxınlıqdakı maneələrdən biri üstə qoyur. Bayırdan maşın səsləri, qarışıq danışıq sədaları eşidilir. Bir neçə maşın qapısı açılıb çırpılır. Darvaza astaca döyülür. Bəhram kişi Əliyə baxır.

– Aç, – Əli sakitcə deyir. – Yəqin Nadirdir.

Bəhram heç nə soruşmadan, qapını açır və irəlidə Nicat, ardınca yeddi nəfər sexin həyətinə doluşur. Nicatın dodağında qanı qurumuş yara yeri var.

Nicat sexin həyətinə girən kimi, Əlinin üstünə cumur.

– Ümid hardadır? – çığırır.

– Bağırma, əəə! – Əli Nicata təpinir. – Bas bayıra!

Nicat Əliyə yumruq atır, Əli geri çəkilib yumruqdan qaçır və bu vaxt Nicatla gələnlərdən ikisi arxadan yaxınlaşıb Əlinin qolundan tutur, onun hərəkət etməyinə mane olurlar. Əli bir qədər müqavimət göstərir, sonra onu yıxıb təpiklə vurmağa başlayırlar. Yaşlı qarovulçu Bəhram kişi ortaya atılıb mane olmağa çalışır:

– A bala, neynirsiz? – Əlini vuranlardan birinin qolundan yapışıb buraxmır. – Qoçu çıxmısız?

Bəhram kişinin tutduğu oğlan digər əli ilə kişini geri itələyir.

– Hə, dayday, qoçu çıxmışıq, sən qarışma! – deyib, kişinin kürəyindən güclü zərbə ilişdirir. Bəhram kişi ayaq üstə dayana bilmir, arxası üstə yerə dəyir, adam son anda başını daş plitələrə çırpılmaqdan qoruyur.

Nicat bütün hirsini, acığını yerdə qalıb təpiklənən Əlidən çıxır.

– Bu günü on ildir gözləyirəm! – Bağıraraq deyir. – Necədir? Ala! Ala! – Gözlərini yumub təpikləyir. – Hamısının əvəzini səndən çıxacağam. Vurduğun qapazların əvəzi... Ala! Məni uşaqların yanında alçaltmağının əvəzi... Ala!

Üzünə doğru dartınan növbəti təpikdən qorunmaq üçün əlləri ilə sifətini tutan Əli, yıxıldığı yerdə Nicata badalaq vurur, bunu gözləməyən Nicat yerə çırpılır.

– Ömrün boyu cındır oldun, cındır kimi də yaşayırsan! – Dikəlmək istəyən Əli deyir. – Kişi olsaydın, tək gələrdin üstümə.

* * *

Lətif Daydaydan ayrıldıqdan sonra xeyli fikirləşir, Nadiri Kazımın anbarından qurtarmaq üçün müxtəlif planlar cızır, amma nə qədər götür-qoy etsə də, Kazımla kəllə-kəlləyə gəlməyi faydasız bilir, maşını yol kənarına verib saxlayır. Telefonu götürüb yaddaşdakı siyahıdan Kazımın nömrəsini tapır, düyməni basıb zəng etsə də, bir an sonra zəngi saxlayır. Başını sükana dayayıb fikrə gedir. Sonra başı elə sükandaca yenidən Kazıma zəng edir. Gözləyir. Adətən, Kazım tanımadığı nömrəyə cavab vermir, amma bu gün müəyyən istisnalar var.

– Kazım... Lətifdir danışan. Hə, hə, özüdür ki, var... Bir dəqiqə dayan görüm... Coşma! Məsələ sənin bildiyin kimi deyil. Nəsə, dayan da, sözüm var sənə! Belə... Mən o uşaqları sənə verirəm, sən qızının namusunu təmizləyirsən, sonra da məndən əl çəkirsən! Əvəzləşirik...

Elə bu vaxt maşının arxa oturacağından dartınan əl, bıçağı Lətifin boğazına dirəyir. Lətif çaşqınlıqdan telefonu əlindən yerə salır. Maşının salonunda qəfil peyda olan əlin sahibi isə Daydayın ən yaxın adamı Ramizdir. Lətif çapalamaq istəyir, bıçaq boğazını kəsir. Dayanır, müqavimət göstərmir.

– Kimsən? – xırıltı ilə danışır. – Sənə nə lazımdır?

– Sss... – Ramiz onu danışmağa qoymur.

Bu vaxt Daydayın maşını gəlib arxada dayanır. Yerə düşmüş telefondan Kazımın bağırtısı eşidilir. Adam dayanmadan: “Lətif... Lətif! Lətif?!” – deyərək, bağırır. – “Alo, Lətif!”, – deyib, evə girir. Solmaz onu qarşılayır. Qadın Kazımın qəzəbli olduğunu görür.

Kazım:

– Lətif! Alo! Eşidirsən məni, Lətif?! – deyir, cavab olmadığından telefonu qəzəblə yerə çırpır.

– Nə olub, Kazım? Rəna hardadır?! – Solmaz narahatlıqla soruşur.

Nəsə xatırlayan Kazım, dayanır. Bir-neçə addım geri qayıdır. Solmazın çənəsindən yapışıb, onun gözlərinin içinə baxır.

– Onu səndən soruşmaq lazımdır, bibisi! – Yenə bağırır. Bu gün Kazım gün ərzində danışıqlarının yetmiş faizini ancaq çığıraraq, bağıraraq söyləyib. – Qız hardadır?! Mən də səndən soruşuram! Qız... hardadır?! Hər şeydən xəbərin var, eləmi? Hər şeyi bilirsən, hə?!

Solmaz çaşqınlıq içində Kazımın əlini geri itələyir. O da səsini qaldırır:

– Nəyi bilirəm mən?! Hardadır Rəna? Yenə nə eləmisən?! – qadın həyəcandan ayaq üstə zorla dayanır.

– Rəna! Rəna! – Bağırır. – Rəna soxdu papağımı yerə. Qoşuldu küçüyün birinə, qaçdı, Solmaz! Qaçdı!

Solmaz ürəyini tutub kresloya çökür. Kazım qəzəbindən özünə yer tapa bilmir.

– Bilirdim belə olacaq! – Solmaz tez-tez udqunaraq danışır, sanki nəfəsi çatmır, boğulur. – Sən məsləhətləşmədən, qıza heç nə demədən onu nişanlayanda, bilirdim axırı belə də qurtaracaq! Elə bilirsən hamı Solmaz olacaq səninçün?! Hə... niyə danışmırsan?! Niyə susursan?! Bəs bilmirsən ki, Allah var, hər şeyi görür?! Bilmirsən ki, Allahın qəzəbi var?!

Kazım Solmazı vurmaq üçün əlini qaldırır, amma sonra yumruğunu düyünləyub sıxır. Havada asılı qalan əli qəzəbdən titrəyir.

– Vur da! Kimi gözləyirsən?! Vur! – Solmaz səsini qaldırır! – Ömrün boyu qorxu ilə saxladın adamları. Hər işi zorla, qorxu ilə elədin! Bəsdir, Kazım! Bəsdir, qardaşım! Əgər qız qaçıbsa, yəqin sevdiyi adamla qaçıb! Sakitləş! İmkan ver, xoşbəxt olsun uşaq.

Kazım da yanaşı kresloda oturur, hər iki əli ilə başını tutur.

– Mən göstərərəm ona xoşbəxtlik necə olur! – Sonra oturduğu yerdən sıçrayıb Solmazın qarşısında ayaq üstə dayanır. – Solmaz, əgər nəsə bilirsənsə, de mənə! Məndən nəsə gizlədirsənsə, indi de! Bax, sonra gec olacaq!

– Otur! Başımın üstünü kəsdirib durma! – Solmaz ona təpinir. – Aşağıdan yuxarı baxanda başım gicəllənir. Otur! Sakit ol! – Kazım qayıdıb yenə kresloya çökür. – Əvvəla heç nə bilmirəm! İkincisi... əgər bir şey bilsəydim də sənə heç nə deməzdim! Özünü uşaq kimi aparırsan!

* * *

Ramiz Lətifi köhnə "Jiquli"yə dirəyib. Dayday onların sağında dayanıb Lətifə baxır.

– Bilirdim ey, səndən kişilik gözləmək olmaz. – Dayday təmkinlə danışır. – Ancaq dedim bir yoxlayaq da...

– Həsən, məni səhv başa düşmüsüz, – Lətif özünə haqq qazandırmaq istəyir. – Mən Kazıma tələ qurmaq istəyirdim.

– Kəs əəə! – Dayday Ramizə işarə edir, Ramiz Lətifin sifətini zərblə maşının damına çırpır, Lətifin sifəti parçalanır. – Əəə, qurumsağ, sənə dedim get Nadiri qurtar, daha bizi sat demədim, kələ!

Ramiz Lətifin başını bir də eyni qayda ilə maşının damına vurur, bu dəfə onun burnundan, sifətindən, ağzından qan açılır. Bir neçə dişi sınır. Ağzına qan dolur. Çətinliklə danışır.

– Həsən, qurban olum, vallah, düz başa düşməmisiz məni! İcazə ver... İcazə ver mənə... gedim Nadiri...

Dayday baş barmağını boğazına çəkir, Ramiz sanki bunu gözləyir, o anda ani hərəkətlə Lətifin boynunu burub, nəfəsini kəsir. Lətif yerə yıxılır.

– Qurumsaq! Otuzdur bunu maşına, kəməri-zadı bağla, sonra da yandır bu zibili! Qoy izi-tozu qalmasın!

* * *

Lətif köhnə "Jiquli"nin sükanı arxasında çırtaçırtla yandığı vaxt, adamlarından biri təzə telefon aparatı ilə Kazımın hüzurunda boynunu büküb dayanır. Kazımın əmri ilə döşəmə üstə çilik-çilik olmuş köhnə telefonun qalıqlarını toplayır, köhnə kartı çıxarır, onu təzə telefona keçirərək, cihazı yeni sahibinə verir.

Lətifin yandığı maşından ətrafa müxtəlif qoxularla birgə benzin və yanmış ət iyi yayılır. Gecə qaranlığında qəfil alovdan hürkmüş bir neçə bayquş tənbəl-tənbəl ulayır.

* * *

Nadirin əl-qolunu bağlayıb, anbardakı kameraya atıblar. Hərəkət etməyə taqəti yoxdur. Divarın küncünə sıxılıb qalıb.

Vüqar – Kazımın qardaşı oğlu – özündən razı halda divanda oturub. Kazımın olmadığı yerdə bu adam özünü tam ixtiyar sahibi hesab edir.

Namik Nadirin üstünə vedrə ilə su tökür, bu vaxt bayırdan tappıltı səsi eşidilir. Vüqar səsə o dəqiqə qulaqlarını şəkləyir:

– Dayan görüm, – deyir. – O nə səs idi elə? Bax gör nə səsdir?

Namik əlindəki vedrəni yerə qoyub otağı tərk edir. Təxminən beş saniyə sonra başqa bir tapılltı səsi eşidilir. Vüqar hələ də qulaqlarını şəkləyərək ətrafı diqqətlə dinləyir, bir qədər əvvəlki harınlıqdan, özündən razılıqdan əsər-əlamət qalmayıb. Tez ayağa qalxır, belindəki tapançanı götürüb, qoruyucunu açır. Əlində silah hazır vəziyyətdə, qapıya doğru gedir və ehtiyatla otağı tərk edir.

Vüqar alaqaranlıq anbarın dəhlizi ilə addımlayır.

Ramiz dəhlizdəki dəmir dolabın yanında divara sıxılıb, görünmür. Vüqar bir neçə addım atıb dayanır, dəhlizin o biri başında Daydayı görəndə rahatlıqla nəfəs alır.

– Dayday, sənsən? – deyərək, silahı yenidən belinə keçirmək istəyəndə, Ramiz gizləndiyi yerdən çıxıb silahı ondan alır.

– Sən əmindən betər əclafsan! Sən get, əmin də yaxında gələcək yanına, qarşılayarsan onu! – deyir. Vüqar çaşqınlıq içində Daydaya baxır. Sonra çevrilib, Ramizi altdan yuxarı süzür.

– Başa düşmədim! Siz əmimə qarşı çıxırsız? Çaşmısız siz?! – səsini qaldırır.

– Ramiz! – Dayday sakit, amma əmr tonunda deyir.

Ramiz əlindəki tapançanı Vüqarın ağzına soxur. Qorxudan Vüqarın gözləri böyüyür, xırıldayır. Atəş səsi ilə eyni vaxtda beyninin bir parçası divara yapışır.

* * *

Ramizgil Nadiri götürüb anbarı tərk edirlər, hasarın bir qədər uçub-dağılmış yerindən çıxaraq, maşına tərəf gedirlər. Bu vaxt Ramizin telefonuna zəng gəlir, cihaz səssiz rejimdə olduğu üçün Ramiz eşitmir. Dayday hasardan aşmaq üçün əlini Ramizə uzadanda, yüngül titrəyiş hiss edir. Aşağı atılıb dikələrkən:

– Deyəsən, sənin telefonundur! – deyir. Ramiz cəld telefona baxır. Maşın təmiri sexindən qarovulçu Bəhram kişidir.

– Ramiz, Dayday hardadır? – yaşlı qarovulçu həyəcanla danışır. – Ona de ki, Kazımın adamları gəlmişdi, başlarında Nicat idi. Hər tərəfi dağıtdılar, Əlini də şil-küt eləyib apardılar. Bilmədim hara getdilər, ancaq yazıq uşağın qol-qabırğasını qırıb sürüyə-sürüyə apardılar. Mənim əlimdən heç nə gəlmədi, Ramiz! Heç nə eləyə bilmədim.

Ramiz danışdıqca Dayday əsəbiliklə qaranlıqda ona baxır.

– Bəhram kişi, indi gəlirik! Qapını heç kəsə açma! Gözlə bizi! – Ramiz danışığı bitirib, telefonu cibinə qoyur. – Nicat gəlib sexi dağıdıb, Əlini aparıblar.

Bu sözləri eşidən kimi, Nadir sanki yuxudan ayılır.

– Axxx, Nicaaat! Onun anasını ağladacağam! – Dişlərini qıcayır.

– Sakit ol! – Dayday təmkinlə deyir. – Tez getmək lazımdır.

* * *

Rəna ilə birgə qaçdığımız vaxtdan üç gün keçib. Gələcəklə bağlı yeni xəyallar qururuq. Nadir tez-tez mənimlə əlaqə saxlayır, amma nədənsə, Əlidən xəbər yoxdur. Əlinin telefonuna da zəng çatmır. Əslində, o qədər də narahat deyiləm. Əlidən arxayınam, bilirəm, başının çarəsini görəcək. Amma onun bu anlarda Kazıma əsir düşdüyünü bilsəydim, yəqin çox narahat olar, bəlkə də Rənanı burada saxlayıb, Əliyə kömək etmək üçün mən də Nadirin yanına gedərdim. Təəssüf, Nadir hələlik Əlinin başına gələnləri məndən gizlədir.

Əlinin əl-qolunu bağlayıb üç gün əvvəl Nadirin saxlandığı kameraya atıblar. Əli hələ indi özünə gəlir. Adamı o qədər döyüblər ki, bütün bədəni qan-qançır içindədir.

Kazım qara geyib. Əlbəttə, belə də olmalıdır, axı onun sevimli qardaşı oğlunu öldürüblər.

Kazım Əli saxlanan kamerada, divanda oturub, ağır-ağır nəfəs alır. Arabir dikəlir, kürəyini divara söykəyir, qanlı baxışlarla Əlini süzür. Bu vaxt qapı astaca açılır, Nicat içəri girib Kazımın qarşısında mil dayanır.

– Şef, Rənagilin yerini öyrəndik, – birnəfəsə deyir.

Kazım qulaqlarına inanmır. Gözlərini döyərək Nicata baxır.

– Necə? – Sakit soruşur.

– Bizim uşaqlardan birinin qardaşı onların gizləndiyi bağın qonşuluğunda bağbandır. Həyət-bacaya baxır. Oğlan qardaşına baş çəkməyə gedəndə Rənanı həyətdə görüb.

– Get Rənanı evə apar, o biri küçüyü isə bura gətir, – əmr tonunda, amma hüznlə deyir.

– Baş üstə! Ancaq başqa xəbərim də var!

– De!

– Lətif tapılıb!

– Gedək! – Xəbəri eşidən kimi, Kazım oturduğu yerdən dik atılır. – Gedək... Gedək Lətifi gətirək! Vüqarla bir yerdə, yan-yana basdıraq. Ancaq ona bir-iki kəlmə sözüm olacaq!

– Gecdir şef! – Nicat sakit səslə deyir.

– Başa düşmədim!

– Lətif diri-diri maşında yanıb. Köhnə “Jiquli”də. Yanıb kömürə dönüb.

Əli bu söhbətləri eşidir. Kazım ani olaraq fikrə gedir.

– Lətif durduğu yerdə yanmaz, – nəsə xatırlamağa çalışaraq, danışır. – Burda bir iş var. Burda başqa iş var. – Kazım Əliyə yaxınlaşır. – Hey, küçük, Nicatın dedikləri doğrudur?

Əli yavaş-yavaş göz qapaqlarını açıb Kazıma baxır. Gözünün birinə qan dolub.

– Nicat deyir ki, lap uşaqlıqdan ölənə qədər bir yerdə olmağa and içmisiz! Elə? Hazırlaş! Mən də and içirəm, üçünüzü bir yerdə öldürəcəyəm, siz də sözüvüzü tutarsız.

– Onlarla işin olmasın, – Əli çətinliklə danışır. – Mən əlindəyəm, məni öldür.

Kazım dikəlir.

– Yox, elə ləzzət eləməz. Üçünüz bir yerdə, – sözünü bitirir və qətiyyətli addımlarla oranı tərk edir. Nicat yüyürərək onun ardınca çıxır.

Əli bu lənətə gəlmiş kamerada tək qalır. Bir qədər dikəlir, kürəyini divara dirəyir, ətrafa göz gəzdirir. Gözləri masa üstə içərisində yarımçıq çay olan armudu stəkana sataşır. Ayağı ilə masaya vurub stəkanı yerə salmaq istəyir, ayağı çatmır, birtəhər sürünərək masaya yaxınlaşır. Təpiklə vurub armudu stəkanı yerə salır. Stəkan onun ayağı üstə düşdüyündən səs çıxmır. Əli astaca dabanı ilə vurub, stəkanı sındırır. Şüşə qırıqlarına tərəf sürünür, bir parça şüşə götürdükdən sonra, yerdə qalan qırıntıları ayağı ilə masanın altına tərəf itələyir. Sonra təzədən divara qısılır, dikəlir, əlindəki şüşə parçası ilə qoluna bağlanmış kəndiri kəsməyə çalışır.

Bu vaxt Malik Əli olan otağa gəlir. Əli yaxınlaşmaqda olan addım səslərini eşidən kimi, dayanır, gözlərini yumur, sakitcə gözləyir. Otaqda divara dirənmiş beli götürməyə gələn Malik Əlinin ayağına təpiklə vurub, kənara itələyir, amma

Əli gözlərini açmır. Malik beli götürüb qayıdır. Əli tez gözlərini açıb, qoluna bağlanan kəndiri kəsməyə davam edir.

* * *

Vüqarla Namiki anbarın həyətində dəfn edirlər. Kazım çox dilxordur. İki nəfər qəbrin üstünü torpaqla doldurur. Kazım əsəbi və qisas dolu baxışları ilə yavaş-yavaş torpaqla dolan məzara baxır. “Dəfn mərasimi” bir saata qədər davam edir. Hava qaralmaq üzrədir.

Bu anlarda Əli əvvəlcə qollarına bağlanmış kəndiri kəsir, sonra ayaqlarına bağlanmış kəndiri açır və az qala sürünərək, xəlvətcə “kameranı” tərk edir. Adamların başı dəfnə qarışıb, amma Əli yenə ehtiyatını əldən vermir, sakitcə arxa tərəfdən yola çıxır. Taqəti tükənmək üzrə olan Əli yoldan ötüb keçən maşınları görür, sonra çevrilir, bir qədər əvvəl qaçıb xilas olduğu anbara baxır. Əli dikəlir, birtəhər ayağa qalxır. Sürətlə gələn maşın Əlinin yanından ötüb keçir. Əli bir neçə saniyə ayaq üstə dayanır, amma dizləri bükülür, yenidən dizi üstə yerə çökür. Gözləri qapanır, qulaqlarında dəhşətli uğultu qopur. Bu uğultunun arasında maşın əyləcinin səsini eşidir. Sonra hansısa maşının qapısı açılır. Kiminsə addımları ona yaxınlaşır.

## – XVIII –
## GƏRGİNLİK DAVAM EDİR

Dayday Nadiri öz evinə aparıb, çünki bu anlarda ən etibarlı yer onun evidir.

Nadir birinci mərtəbədəki otaqda, çarpayıda uzanıb. Başı sarıqlıdır, qaşında iki tikiş var. Dayday ayaq üstə dayanıb pəncərədən bağçaya baxır. Raya həyətdəki qızılgül kollarını sulayır, arabir dikəlib ətli yanaqlarından axan təri silir.

Ramiz qapını açıb, gəlir. Nadir dikəlib diqqətlə Ramizə baxır.

– Nə xəbər var? – Daydayla Nadir az qala xorla xəbər alırlar.

– Xəbərlər yaxşı deyil, – Ramiz başını bulayır.

– Nə olub? – Nadir qalxıb çarpayıda oturur.

Bu vaxt Daydayın qızı hiss etdirmədən qapını azacıq aralayıb qulaq asır.

– Hə! – Dayday səsini Ramizin üstünə qaldırır. – Danış!

– Vəziyyət belədir! – Ramiz sözə başlayır. – Kazım qızının yerini öyrənib, amma necə, bilmirəm. Ümidgili tapıblar. Əli isə anbarda olmayıb. Uşaqlar deyir, Kazım bu gün Vüqarla o biri oğlanı anbarın həyətində basdırıb. Ola bilsin Əlini də onlara qatıb.

– Aaaa! – Nadir bağırır. Qapını pusan sirli qadın bir anlıq səksənib geri çəkilir. – Əgər Əlinin başından bir tük əskik olsa!.. – Nadir qəzəblə ayağa qalxır.

– Dayan, Nadir! – Dayday əlini Nadirin çiyninə qoyur, onu saxlayır. – Xəbərsiz-xəlvətcə əlli dənə iş gördüz, daha bəsdir. Bundan sonrakı söhbət mənlikdir. Sən qarışma daha!

– Necə qarışmayım!? – Nadir sakitcə Daydayın əlini çiynindən kənara itələyir. Stulun başına keçirdiyi idman köynəyini geyir.

– Bratva! – Dayday bir qədər səsini qaldırır. – Bəsdir! Söz eşit!

– Dayday, türmə Binədə qaldı. Burda başqa qanunlar işləyir! Hər şeyə görə sağ ol! – deyən Nadir qapıya tərəf gedir. Dayday:

– Nadir, mən də sənə xəbərdarlıq eləyirəm, – onun arxasınca səslənir, – əgər sənin səhvindən o uşaqlara nəsə olsa...

Nadir dinləmədən qapını arxasınca çırpıb otaqdan çıxır. Dayday tez Ramizə tapşırıq verir:

– Uşaqlardan sal bunun ardınca! Gijdəməsin!

– Baş üstə! – Ramiz tələsik otağı tərk edir.

Ramiz bayıra çıxan kimi, Dayday Nadir üçün açılmış çarpayıya oturur. Qapı açılır, Daydayın qızı içəri girir. Dayday onu görəndə qəzəblənir, bunu gizlətmədən:

– Güdürdün bizi?! – Acıqla xəbər alır.

Qadın atasının sözlərinə əhəmiyyət vermir. Bu anlarda yeri-göyü dağıtmağa hazırdır. Daydayın qarşısında dayanır:

– Nə olacaq?! – soruşur.

– Bilmirəm! – Doğrudan da nə olacağını bilmir. Kazımla bağlı proqnoz vermək çətindir.

– Onda burda niyə sakit oturmusan?! – Qadın üsyankar səslə deyir. – Get o Kazım itilə görüş, məsələni həll elə, yola gətir onu!

– Ay qız! – Dayday şələ bığlarını gəmirərək onun üstünə çığırır. – Mənim işlərimə qarışma!

– Nə olar, onda mən gedərəm! – Qadın sakit səslə atasına meydan oxuyur. Dayday ayağa qalxır, qızına baxır, başını bulayır. Qapıya doğru gedir, qapını açıb dayanır, geri baxmadan:

– Evdən bayıra çıxma! – tapşırır.

* * *

Kazım... Bu adam özünə imperatorluq qurub. Onun ofisinin zirzəmisindəyik. Buranın pəncərəsi yoxdur, amma hiss edirəm, gecədir. Nədənsə, mənim əl-qolumu bağlamayıblar. Ayaq üstə dayanmışam. Kazım əlindəki tapança ilə gözümü qorxutmaq istəyir. Tapançanı başıma dirəyib. Boş şeydir. Rəna yoxdursa, mənim də yaşamağım mənasızdır.

– Deməк, kürəkən hə?! – deyib, hırıldayır. Başa düşürəm, məni məsxərəyə qoyur, amma, deyəsən, özü də artistlik edir. Hiss etmişəm, o, bunu yaxşı bacarır. – Demək, mənim qızımı qaçırtmışdın?! Halaldı. Qurd ürəyi yemisən...

Onun belə artist oyunlarına baxmağa, gicgici söhbətlərini dinləməyə səbrim çatmır. Başımı alnıma dirədiyi tapançanın lüləsinə sıxıram:

– Uzatma! – Qəribədir, çox sakitəm. Həyatdan küsmüş adam kimiyəm. Yaşamağa, həyatda qalmağa iynə ucu qədər bəhanəm qalmayıb. – Vuracaqsansa, vur! Əlindəki zibildən də qorxmuram, səndən də! Vur! Hə... Vur da!

Kazım silahı aşağı salır. Məni altdan yuxarı süzür.

– Xoşum gəldi səndən! – İrişərək danışır. – Əslində, səndən yaxşı kürəkən çıxar ha... – İlahi, necə ola bilər ki, belə murdar, şərəfsiz adamdan Rəna kimi mələk gəlsin dünyaya?! Allahın qəribə təzadları var. – Əlasan! Supersən! Yox ey, yox... Səni belə öldürmək, ayıbdır. Bu balaca boyunla neçə gündür anadan əmdiyim südü burnumdan tökmüsən. Yox... sənə ucuz ölüm yoxdur. – O, danışdıqca, ətim tökülür. Daha babat artistlik də edə bilmir. Aktyor dostum var, Cəlal, təsadüfən teatrda tanış olmuşuq. Hə, bax o Cəlal belələrini səhnədə görən kimi “falşdır” deyir. Kazım indi öz rolunu falş oynayır. – Qardaşım oğlunun da qanı sənin üstündədir. – Adam yenə tapançanı qaldırıb alnıma dirəyir. – Səni tikə-tikə doğramaq lazımdır. Küçük! Ancaq de görüm kimdir sizə kömək eləyən?!

Bax bu kişilikdən olmur. Tapançanın arxası ilə başıma vurur, o dəqiqə gözlərim qaralır, ayaq üstə dayana bilmirəm, başım divara çırpılır, yerə

yıxılıram. Yenə başladı... Beynim uğuldayır. Qulaqlarımda dəhşətli səslər var. Yerdə çapalayaraq, çığırırıram: "Aaaaaaaaa!" Bu yaramaz Kazım mənim vəziyyətimi başa düşmür. Yenə öz axmaq oyununu davam edir. Gülür. Qəhqəhə çəkir.

– Bəs qorxmurdun?! – Elə bilir qorxudan belə edirəm. Arabir beynimdəki uğultuların arasından onun iyrənc gülüşünü eşidirəm. – Qışqır! Bağır! Hələ çox bağıracaqsan!

Bu vaxt qapı açılır, Malik gəlir.

– Şef, Dayday gəlib. Görüşmək istəyir, – deyir.

– Gecə vaxtı xeyir ola?! – Kazım, ani fikrə gedir. – Yəqin, sexinin haqq-hesabını çürütməyə gəlib. Qoca qurd. – Öz-özünə danışır. – Bəs bilmirsən, belə uşaq-muşaqla iş görməyin axırı necə olur? Burda ol, gəlirəm, – Kazım tapançanı belinə keçirir, zirzəmidəki otaqdan çıxmaq üçün qapını açanda, Daydayla qarşılaşır. Dayday yerdə çapaladığımı, başımı tutub çığırdığımı görəndə hisslərini cilovlaya bilmir, tez üstümə cumur, məni yerdən qaldırır. Sonra qəzəblə Kazımın gözlərinin içinə baxır.

– Bu uşaqla işin olmasın! Xəstədir bu uşaq! – deyir.

Kazım çaşqınlıqla ona baxır:

– Bir dəqiqə... Bu uşaqdan sənə nə? Sən kimsən?! Niyə gəlmisən? Sözünü de! Sexin ziyanı nə qədərdir, ödəyək də.

– Çəkil qabağımdan! – Dayday Kazıma meydan oxuyur. – Mən bu uşağı özümlə aparacağam. – Məni kətil üstə oturdub, kürəyimi divara dayaq verir. İsterik tutmalarım hələ qurtarmayıb, tez-tez başımı tutub çığırıram.

– Necə aparacaqsan? – Kazım yenə artistlik etməyə başlayır. İroniyası da bu adamı ələ verir. Bu adamda səmimiyyətdən əsər-əlamət yoxdur. – Burdan necə çıxacaqsan?

Dayday! O, dünyanın altına da, üstünə də bələddir. Əgər "Mən bu uşağı özümlə aparacağam!" – deyirsə, demək, aparacaq. Demək, nəsə fikirləşib. Kazım ironiya ilə sual verəndə, qəfil hərəkətlə onun belindəki tapançanı çəkib götürür. Bu, o qədər anidən baş verir ki, Kazım çaşıb qalır. Silahı Kazıma tuşlayır. Malik əlini tapançaya atmaq istəyəndə, Dayday silahı ona tərəf çevirir:

– Ssss! – deyir. – Ver o oyuncağı mənə! – Malik Kazıma baxır, çarəsizliklə silahını Daydaya verir. O, Malikdən aldığı tapançanı belinə keçirir. – Kazım, məni burdan sən çıxardacaqsan! Özün də bu uşaqla bir yerdə.

Kazım çarəsiz qalır. Çoxdandır belə çıxılmaz vəziyyətə düşməyib. Ona görə də hirsindən qəhqəhə çəkib gülür.

– Həsən... Həsən, sənə kötük deyirdilər, yadındadır? İndi Dayday olmusan, ancaq dayəlik eləyirsən. Yazıqsan, ver o tapançanı mənə, özün də cəhənnəm ol burdan!

İsterik tutmalarım bir qədər səngiyib. Dayday sol qolu ilə məni qaldırır, başa düşürəm, ona kömək etməliyəm, özümdə güc toplamağa çalışıram. Qalxıb, özümü şax tuturam.

– Niyə söz güləşdiririk?! Kömək elə oğlana! – Yəni mənə. – Düş qabağıma. Ya hamımız öləcəyik, ya da mən bu oğlanla çıxıb gedəcəyəm!

– Həsssənnn! – Kazım qəzəbdən yumruqla zirzəminin divarına vurur.

Kazım qolumdan yapışır. Çox iyrəncdir, amma onun qolunu geri itələməyin vaxtı deyil.

– Tulalarına tapşır, girsinlər bura! – Dayday əmrlə danışır. – Yoxsa səni bir də...

– Yaxşı, yaxşı! – Kazım bağırır. – Hamınız girin bura! – Kazım öz adamlarına əmr verir. Dörd nəfər başını aşağı salıb quzu kimi zirzəmidəki otağa girir. Qəribədir, Dayday çox sakitdir, amma Kazım bağırır. – Aaaaa! – Bu bağırtılar mənə tanış gəlir. Mənim də isterik tutmalarım başlayında ancaq bir hərfi xatırlayır və yalnız həmin hərfi uzadaraq çığırıram. Kazımda isə vəziyyət başqadır, onun tutması qəzəbdir. Belə çıxır ki, bütün tutmalar başlayanda adam əlifbadakı ilk hərfə ehtiyac duyur.

Daydayın göstərişi ilə Kazım zirzəminin dəmir qapısını arxadan bağlayır. Dayday açarı ondan alıb bacardığı qədər uzağa tolazlayır. Kazım bizi ofisdən bayıra çıxarır. Girəcəkdə görürük: Ramiz Kazımın adamlarından iki nəfəri yerə yıxıb, əllərini arxadan bağlayır.

Ramiz məni Kazımdan alır. Kazım maşına qədər yanımızdan ayrılmır. Hətta mənim maşına oturmağıma da yardım edir. Daydayla mən arxa oturacağa əyləşirik. Ramiz sükan arxasına keçir, ofisin həyətindən uzaqlaşırıq. Arxadan Kazımın bağırtısı eşidilir: "Aaaaaaa!"

* * *

Kazım Vüqargili dəfn etdikdən sonra məni görmək üçün birbaşa ofisə getdiyindən, hələ ki, Əlinin qaçdığını bilmir. Malik zəng vurub bir qədər əvvəl ofisin zirzəmisində baş verənləri Nicata çatdıranda, Nicat Bəşir adlı oğlanla çaşqınlıq içində anbarın həyətini, ətrafı axtarır. Əli iynə olub samanlıqda itib. Nicat bilir ki, Kazım Əlinin qaçıb aradan çıxdığından xəbər tutsa, dəli danaya dönəcək!

– Batdıq biz, Bəşir! – Nicat məğlub olub meydanda tək qalmış sərkərdə kimi zarıyır. – Şef Əlinin qaçdığını eşitsə, bizi Vüqarın yanında diri-diri basdıracaq!

– Əli o vəziyyətdə uzağa gedə bilməz! – Bəşir nəsə kəşf edibmiş kimi, sevincək dillənir. – Bəlkə gedək, yola-zada baxaq?!

Nicat silahı belindən götürür, darağı çıxarır, güllələri sayır. Sonra silahı hazır vəziyyətdə saxlayır, Bəşirə baxır, silahı belinə keçirir. Bəşir ürəkli addımlarla qapıya doğru gedir, qapını açır və sanki sehrli bir qüvvə onu geri atır. Adam zərblə Nicata çırpılır. Bu, çox gözlənilməz olduğundan, Nicatla Bəşir səntirləyirlər. İrəlidə Nadir, onun ardınca başqa üç nəfər anbardakı otağa girirlər. Nicat əlini silaha atmaq istəyir, Nadir buna imkan vermir, havaya qalxan güclü yumruğu zərblə Nicatın ağzına dəyir və o an Nicatın ağzı qanla dolur. Nadirlə gələn o biri iki nəfər isə, Bəşiri tuturlar, tərpənməyinə imkan vermirlər. Nicat yerə yıxılır, dikəlmək istəyəndə Nadir dizi ilə onun boynuna çöküb, boğur.

– Hardadır Əli?! – Sakit xəbər alır.

– Bilmirəm! – Nicat xırıldayır, boğulur.

– Yaxşı-yaxşı fikirləş! Yada salmağa çalış! Əlini soruşuram, Əli! Hardadır?

– Vallah bilmirəm! – Nicat boğulur.

* * *

Doğrudur, həyat təsadüflərlə doludur, amma bəzən adamın ağlına gəlməyən elə təsadüflər baş verir ki, düşündükcə hər şeyin xəyal, ya da nağıl olduğunu güman edirsən.

Bizim Əli zorla, az qala, sürünərək özünü yola çatdırır, maşınlar sürətlə yanından ötüb keçir, hətta saxlamaq istəyən, dayanıb kömək etmək fikrində

olanlar belə, onun taqətsiz, üz-gözü qan-qançır içində olduğunu görəndə, ürək etmir, fikirlərindən daşınır, sürəti artırır, ötüb keçirlər.

Əli huşunu itirmək üzrədir. Amma haradasa beynindəki uğultuların, səs-küylərin arasında tükürpədici əyləc səsi eşidir. Bir maşın dayanır. Əli hər şeyi tor kimi görür. Gecə qaranlığında kimsə ona tərəf gəlir, kimsə əyilir, onun başını qaldırıb, üzünə baxır...

Saatlar keçir. Əli tanımadığı yerdə gözlərini açır, ətrafa baxır. Gözündə plastırla yapışdırılmış tənzif var. Dodağına, qaşına, üzünün bəzi yerlərinə plastır yapışdırılıb.

Əli dikəlmək istəyir, amma ağrıdan zarıyıb yatağa çökür. Yatağın yanında gecə lampası yanır. Bir qız şprisə dərman doldurur, ona baxır. Əli haradansa yaxın keçmişdən boylanan bir cüt gözü görür, nəsə xatırlayır.

– Səbinə? – heyrətlə xəbər alır.

Qız gülümsəyir, əlindəki şprislə ona yaxınlaşır.

– Yavaş-yavaş arxası üstə çevril, sənə iynə vurmalıyam! – sakitcə deyir.

– Cavab vermədin... Səbinəsən? – Əli bir də soruşur.

– Yaddaşın yaxşıdır, – qız deyir. – Çevril.

– Lazım deyil! – Əli razı olmaq istəmir.

– Lazım olmasaydı, eləməzdim.

Əli çevrilir, Səbinə ona iynə vurur. Bəli, səhv eşitmədiniz. Bu qız Səbinədir. Uşaq evinin həyasız, ipə-sapa yatmayan Səbinəsi.

– Çox tərpənmə! Özün də narahat olma, hər şey yaxşıdır. Bir-iki günə ayağa durarsan!

Əli başını bulayır. Doğrudan da bu təsadüfə inanmaq çətindir. Biz uşaq evindən çıxanda, Səbinə iki il idi oradan getmişdi. O, uşaq evindən gedəndən sonra unuduldu. Uşaq evində onu əvəz edəcək başqa qızlar da vardı. Həyatın top kimi divardan-divara çırpdığı gücsüz, zərif məxluqlar... Ümumiyyətlə, uşaq evi cəmiyyətin əxlaq göstəricisidir. Əslinə qalsa, bura atılmış uşaqların əksəriyyəti atalı-analı kimsəsizlərdir. Hətta aralarında atası nazir müavini olan, anası xəstəxanada baş həkim işləyən, valideyni bankir, tanınmış qadın bərbəri kimi ad çıxaranlar da var. Sadəcə, uşaq evinə düşmüş talesizlər o valideynlərin gerçək həyatdan kənarda olan əyləncələrinə qurban gedənlərdir.

– Necə tapdın məni? – Əli xatırlamağa çalışır.

– Yol kənarında gördüm, ayaq üstə dayanmağa taqətin yox idi, – Səbinə xatırlayaraq danışır. – Maşının işıqları birbaşa üzünə düşdü, saçlarından tanıdım. Heç dəyişməmisən...

Əli bir qədər dikəlir. Səbinə onun kürəyinə yastıq dayayır.

– Nahaq məni öz evinə gətirmisən! – Əli ağrıdan üz-gözünü turşudaraq danışır.

– Əvvəla, köməksiz adamı yolda saxlaya bilməzdim, – deyən Səbinə, boş şprisi tumbanın üstə qoyub Əlinin yanında, yatağın küncündə oturur. – İkincisi də... bəlkə sənin yanından çıxıb, amma mən ölürdüm sənin saçlarından ötrü. Bu dəfə qismətimi əldən vermək istəmədim.

– Heç dəyişməmisən! – Əli zorla gülümsəyir. – Su ver mənə.

Səbinə mətbəxə keçir, su dolu stəkanla qayıdır. Əli yataqdan qalxmaq istəyəndə lüt olduğunu görür. Səbinənin uzatdığı stəkanı almadan, heyrətlə:

– Mən getməliyəm, paltarlarım hardadır? – xəbər alır.

– Su iç! – Səbinə stəkanı ona uzadır. Əli su içib boş stəkanı qaytarır. – Elə onu demək istəyirdim axı, paltarların yaşdır, lüt getmək istəyirsənsə, buyura bilərsən.

– Səbinə, paltarlarımı gətir! – Əli, narazılıqla deyir. – İşim var, getməliyəm.

Səbinə əyilib Əlinin yaralı yanağından öpür.

– Bu gün yox! İndi yatacaqsan, bir də səhər ayılacaqsan, sonra baxarıq, bəlkə paltarların da quruyar o vaxta qədər. Sonra özün qərar verərsən, getmək istəsən, gedər, qalmaq istəsən, qalarsan...

Əli ağrıdan zarıyaraq yatağa çökür.

– Niyə soruşmursan, nə olub mənə? – Əli deyir.

– Mənim üçün maraqlı deyil, – Səbinə gülümsəyərək cavab verir.

– Mənə telefon ver, zəng vurmalıyam! – Əli Səbinəyə baxır.

– Məsləhət bilməzdim, amma öz işindir! – deyən Səbinə, tumba üstə olan telefonu Əliyə uzadır. Əli çətinliklə nömrə yığır.

* * *

Bura həmin o qanlı, Kazımın anbarda öz “düşmənləri” üçün hazırladığı gizli, qanunsuz kameradır. Amma Kazım daha üç gün əvvəlki adam deyil. Sanki hər tərəfdən atəş altında qalıb, başını çıxaran kimi, güllə yağışına tuş gəlir.

İndi bu anbarda Nadir əli-qolu bağlı Nicatın boynuna kəndir keçirib ayağı altda kətil var. Kətil arabir laxlayır və belədə az qalır Nicat ölüm qorxusundan huşunu itirə. Bu adam dəfələrlə ölümlə üz-üzə gəlib. Hələ uşaq evində, sonra Kazımın yanında işləyəndə, bir dəfə ağır qəzaya da düşüb, amma heç vaxt belə hisslər keçirməyib. Nicat ilk dəfədir ölümdən qorxur.

Nadir bir ayağını kətilə dayayıb.

– Mən onsuz da Əlini tapacağam! – Nicata baxaraq, danışır. Gəl məni incitmə! De Əlinin yerini!

Nicat danışmaq istəyir, ayağı altda olan kətil yenə laxlayır, adam yenə o dünyaya qısa səyahət edib, qayıdır.

– Mən Əlinin yerini bilmirəm! Əli qaçıb...

– Demək, inadından dönmürsən?! Olsun! Üçə qədər sayıram. Bir... – Bu vaxt Nadirin telefonuna zəng gəlir.

– Vallah Əlinin yerini bilmirəm! – Nicat yalvarır. Lap uşaq evindəki kimi yalvarır.

– Yerini de, yerini... – Telefona baxır, tanış nömrə deyil. Cavab vermək istəmir. Ekrana toxunur. – İki... Bax, adam ol! Mən zarafat eləmirəm! – Yenə zəng gəlir. Əsəbiliklə ekrana toxunub cavab verir. – Hə... Kimdir? Əli sənsən? Hardasan, qaqa? Yerini de...

– Məndə hər şey yaxşıdır, Nadir. Ümid hardadır? Nə danışırsan? Bilirdim belə olacaq! Məndən narahat olma! Yox, yox... tamam başqa yerdəyəm, sonra deyərəm. Özüm sənə zəng vuracağam. Görüşərik. Muğayat olun!

Əli danışığı bitirib, telefonu qapadır.

Nadir bir neçə dəfə: “Əli! Əli!” – desə də, səs kəsilir. Nadirin ruhuna qəribə bir arxayınlıq dolur. Bir qəqər əvvəl o, Nicatın ayaqları altda olan kətili vurub aşırmağa ehtiyat edirdi, amma indi bunu etmək üçün içində dəli bir həvəs oyanır.

Telefonu cibinə qoyur. Gülümsəyərək Nicata baxır:

– Hə, Nicat, bu da üç! – kətil aşır və Nicat boynundakı kəndirdən sallanıb qalır.

## – XIX –
## QAÇMAQ QURTULMAQ DEYİL

On gün keçib o vaxtdan, amma hələ heç nə bitməyib. Rəna ev dustağıdır. Evə gəldiyi, bu otağa qapandığı gündən ağlayır. Yaxşı ki, bu evdə Solmaz var – Rənanı həyatından çox istəyən adam, Rənanın bibisi. Amma Rəna Solmazın verdiyi təskinliklə ovunmur. Özünü dünyanın ən bədəxt adamı hesab edir.

– Ağlamaqdan, sızlamaqdan bir şey çıxmaz, Rənam! Bir vaxtlar mən də çox ağladım... – Solmaz doluxsunaraq danışır.

– Özümü öldürəcəyəm! – deyən Rəna bibisini qucaqlayır.

Solmaz doğma övlad kimi sevdiyi bu zərif, bu anlarda köməyə ehtiyac duyan qızın ipək kimi yumşaq saçlarını tumarlayır.

– Onda gərək əvvəlcə mən özümü öldürəm, – deyir. – Bibin hələ ölməyib. Dur... geyin...

Rəna çaşqınlıqla qadına baxır:

– Bibi, hara? –soruşur.

– Həsənin telefon nömrəsini öyrənmişəm. Gedək, səni Həsənə təhvil verim.

– Bibi, atam xəbər tutsa, səni öldürər, – Rəna qorxur, amma bibisinin nə qərar verəcəyini gözləyir.

– Adam bir dəfə ölür, qızım! – Qadın kədərlə gülümsəyir. – Mən on yeddi il əvvəl ölmüşəm. Hər şeyimi Gəncədə qoyub gələndə. Bundan sonra yüz dəfə ölsəm, nə faydası? Ancaq imkan verməerəm Kazım səni də diri-diri öldürsün. Dur, hazırlaş...

Rəna quş cəldliyi ilə çarpayıdan atılır, bibisinin boynuna sarılır və onu sevinclə öpür.

* * *

Çarpayıda yatıram. Bura haradır, bilmirəm. Kim var ətrafımda – təsəvvürüm belə yoxdur. Beynim azacıq durulanda Daydayla Ramizin söhbətindən elə başa düşmüşəm ki, cəbhə genişlənib. İndi Kazım Daydayla da müharibə edir.

Yatdığım çarpayının yaxınlığında tumba var, tumba üstə müxtəlif dərmanlar, iynələr yığılıb.

Başımın üstünü kəsdirən qaraltı diqqətlə mənə baxır. Hiss edirəm, bir neçə dəfə barmaqlarını uzadıb, mənə toxunmaq istəyib, amma nədənsə ürək etmir. Kimdir o?

* * *

Bir yerə cəmləşib, sexi əvvəlki halına salırlar. Ustalar yenə işləyirlər. Əli ilə Nadir kürəyini divara söykəyib söhbət edirlər.

– Demək, Nicat doğrudan da sənin yerini bilmirmiş! – Nadir deyir. – İnanmırdı onu öldürərəm.

Əli acı-acı gülümsəyir.

– Adam elədir də, son ana qədər inamını itirmir. İki-üç gün əvvəl mən də yaşadım bunu, – Əli Nadirə baxıb köks ötürür.

– Demək, Səbinə, hə?! – Nadir heyrətlə başını bulayır. – Adam yatsa, yuxusuna girməz.

– Hə... Mənə də yuxu kimi gəlirdi hər şey. Amma çox dəyişib, o Səbinədən heç nə qalmayıb. Özəl klinikada baş həkimin katibəsidir. Tibb bacısı kimi işləyib bir müddət. Deyir həkimlərdən çox bilirəm. Həm də çox qəşəngləşib... O, danışdıqca, adam qulaq asmaq istəyir...

Nadir tərs-tərs Əliyə baxır.

– Nəsə, məni Səbinə-zad maraqlandırmır. Ümid də sağalsaydı, çıxıb gedərdik buralardan.

– Hara?!

– Hara gəldi! Dünya böyükdür, bizə bir yer tapılar!

* * *

Son günlər Kazım vaxtının çox hissəsini ofisdə keçirir. Bura həm onun evinə yaxındır, həm də qisas planını həyata keçirmək üçün müxtəlif adamlarla görüşməyə münasibdir. Şəkər xəstəsi olduğundan, dərmansız keçinə bilmir. Qarnına növbəti insulini vurduqdan sonra kürəyini kreslonun geniş arxalığına dayaq verir, üzbəüz divardan asılmış qılınc kolleksiyasına baxır. Telefona gələn zəng onu xəyaldan ayırır. Bunun mesaj siqnalı olduğunu biləndən sonra tələsmədən ekranı açır. Vatsapa gələn işarəni görür, növbəti keçidi edir və ekranda “Solmaz” yazısını görəndə, bir qədər təəccüblənir. İlk dəfədir bacısı ona səsli mesaj göndərir.

“Kazım, Rənanı da götürüb evdən gedirəm. Bizi axtarma, elə bil ki, ikimiz də sənin üçün ölmüşük. On yeddi il əvvəl məni bədbəxt elədin, Rənanın da eyni taleyi yaşamağına imkan verməərəm. Bu inadın qardaşımızın yeganə yadigarı Vüqarın da axırına çıxdı. O bədbəxt uşaq da sənin üzündən getdi. Min dəfə demişdim ona, mənə qulaq asmadı. Özünü elə bir quyuya salımısan ki... Nə isə, sənə məsləhətim var: özünə yazığın gəlsin. Bu hirsin, bu hikkən bir gün səni də məhv eləyəcək...”

Kazım otağa dolan səsdən heyrətlənir, eşitdiklərinə inanmır. Barmağını ekrana toxundurub bir qədər əvvəl dinlədiklərini bir də dinləyir. Əsəbdən yumruğunu çənəsinə dirəyib sıxır. Mesajın sona çatmasını gözləyə bilmir.

– Aaaaaaaa! – İçindən qopan gücün son həddi ilə çığırır. – Aaaa! Aaa!

Malik başılovlu otağa girir.

– Şef! Nə oldu? – Heyrətlə xəbər alır.

– Evdə uşaqlardan kim var? – Kazım acıqla soruşur.

Malik ani olaraq fikrə getsə də, cavabı gecikdirmir:

– Sərdar, bir də Mais. Nəsə olub?

– Zəng vur evə! – Kazım deyir və cəld ayağa qalxıb, qapıda dayanan Malikə tərəf addımlayır. Malik tez kənara çəkilir, Kazım otaqdan çıxır. Malik telefonda nömrə yığa-yığa onun arxasınca yüyürür.

* * *

Malikin idarə etdiyi maşın işıqforların qırmızı işığında dayanmadan şəhər küçələri ilə şütüyür. Maşın darvaza önündə dayanır, adətən, evdə növbə çəkənlərdən kimsə bura gələnləri qarşılayır, amma indi qapıya gələn yoxdur. Malik maşından enib açarla həyət qapısını açır, Kazım tez özünü həyətə salır. Malik də onun arxasınca içəri girib ətrafa baxır. Sərdar deyilən adam həyətdə, kölgəlikdə qoyulmuş yellənən kresloda xoruldayaraq yatır. Mais isə evin giriş qapısı yanında, pillələr üstə oturub, kürəyini divara söykəyərək, yuxulayır.

Malik də, Kazım da çaşıb qalıblar. Bu, onların adət etdiyi mənzərə deyil. İndi həyətdə kim varsa, Kazımın qarşısında mil dayanmalı idi.

Malik adamları oyatmağa çalışır. Mais oturduğu yerdə aşır, büzüşüb yatmağa davam edir. Kazım evi axtarır, Solmazı, Rənanı səsləyir, əsəbiliklə yenidən aşağı enir, həyətdə quraşdırılmış kölgəlikdə oturur. Sərdarın xorultusu onun başına düşür:

– Kəs bu zırramanın səsini! – Bağırır. Malik tez Sərdara yaxınlaşıb, onun başını yana çevirir, Sərdarın xorultusu kəsilir.

Kazım telefonunu Malikə verir:

– Götür bunu, mesaja qulaq as, bəlkə nəsə öyrənə bildin!

– Baş üstə, şef! – Malik cəld telefonu Kazımdan alır.

* * *

Son günlər Əli Səbinənin evində gecələyir. Çiyələk mövsümü olduğundan, hər dəfə beş-altı kiloqram çiyələk alıb gəlir, üz-üzə oturub yeyir, uşaq evində keçən günlərdən, ayrılıqdan sonra baş verən xatirələrdən danışırlar. Əli Səbinəyə bağlandığını hiss edir, sanki bu, onun uşaq evindən tanıdığı, tez-tez dama çıxıb birlikdə ulduzlara baxdığı qız deyil.

Bura yataq otağıdır. Səbinə şirin-şirn yatır, Əli isə gözlərini tavana dikib, fikirləşir. Taxtın yanındakı tumba üstə olan telefonuna titrəyişlə zəng gəlir. Əli sakitcə telefonu götürüb yan düyməyə toxunur, titrəyiş kəsir. Ekranda "Nadir" yazılıb. Əli sakitcə yataqdan qalxır. Şalvarını götürüb mətbəxə keçir. Ekrana toxunur, telefonu qulağına yaxınlaşdırır.

– Hə, Nadir?! – cavab verir.

– Narahat elədim?

– Dəlisən? Nəsə olub?

– Təcili görüşməliyik!

– Haradasan? Yaxşı, gəlirəm!

Əli telefonu qapadıb, mətbəx masası üstə qoyur. Şalvarını geyinir. Bu vaxt Səbinə mətbəx işığını yandırır. Əynində ev xalatı var. Diqqətlə Əliyə baxır.

– Gedirsən?

– Hə...

– Gözlə, səni aparım.

– Taksi çağıracağam!

– Maşın ola-ola nə taksi?! Gözlə, geyinim...

* * *

Metronun Nərimanov stansiyası yaxınlığında xəlvət küçə. Alaqaranlıq yolda bir taksi dayanıb. Dayday Ramizlə bərabər, taksiyə yaxınlaşırlar, Ramiz qapını açan kimi, salonun işığı yanır. Taksidə Solmazla Rəna var. Solmaz Həsəni görəndə başı ilə salamlaşır:

– Bilirdim gələcəksən! – deyir.

– Gəlməyə bilməzdim.

– Getməyə yerimiz yoxdur. Yəni etibar elədiyim yer yoxdur. Rəna ilə bir yerdə evdən qaçmışıq. Yəqin Kazım indi hər yerdə bizi axtarır. Elə səni də axtarır... Səni çətinə salıram, hə...

– Solmaz bacı, narahat olma! Düşün maşından.

Solmazla Rəna maşından enirlər. Ramiz taksini yola salır. Birlikdə Dayday-gil gələn maşına minirlər. Ramiz sükan arxasına keçir.

* * *

Gecədir, amma Bakı hər zaman olduğu kimi oyaqdır.

Nadir Cəfər Cabbarlı abidəsinin qarşısında durub siqaret çəkir. Bu vaxt Səbinənin maşını onun yanında dayanır. Əli şüşəni aşağı endirir, Nadir siqareti atır, maşına baxır.

– Nadir, tez ol, otur gedək, – Əli onu səsləyir.

Nadir tez arxa oturacaqda əyləşir. Maşın tərpənir.

– Salamın harda qaldı? – Səbinə salon güzgüsündən Nadirə baxır.

Nadir çaşır, özünü itirir.

– Salam, salam! Necəsən, Səbinə?!

– Sağ ol! Hara gedirik?

* * *

Hələ də beynimin içində tanklar uğuldayır, təyyarələr guruldayır. Hərdən dənizdən qopan tufan, qasırğa səsi də beynimin divarlarına çırpılır. Nəsə xatırlamağa çalışıram: tüstü, duman içində uzaqdan boylanan bir cüt tanış göz görürəm, amma yada sala bilmirəm. Gözlərimi açmağa taqətim yoxdur. Bəlkə də taqətim deməzdim, həvəsim yoxdur. Gözlərimi açan, dünyanı dərk edən kimi problemlər, ağrılar üstümə hücum çəkir. Yuxuya gedirəm, məni narahat edən səslər uzaqlaşır, amma tamamilə itmir, sadəcə, uzaqlaşır. Bu, yaxşı haldır, heç olmasa, yata bilirəm.

Yuxudayam, yenə gün ərzində yaxınlığımda olan tanış, amma uzaq, əzik-üzük xatirələrdən boylanan gözlərin təmasını hiss edirəm. İndi bu gözlər də məni narahat edir. “Kimsən?! Niyə mənə elə baxırsan?!” Səsim qulaqlarımda əks-səda verir, amma həmin gözlərin sahibi cavab verməyə tələsmir. Eləcə mənə baxır. Sanki qorxur. Nədən qorxur görəsən?!

Qapı açılır. Dayday öz açarları ilə qapını açır, əvvəlcə Solmazla Rənanı içəri dəvət edir. Başımın üstünü kəsdirmiş adam baxışları ilə onları qarşılayır.

Yuxudayam. Daydayın səsini eşidirəm. Sonra qarışıq, sakit, pıçıltılı səslər bir-birini əvəz edir. Çox istərdim gözlərimi açım, qalxım, o səslərin haradan, niyə gəldiyini öyrənim, amma gücüm çatmır, iradəm mənə tabe olmur.

– Necədir? – Dayday yanımda kölgə kimi dolaşan qadından soruşur.

– Bir az əvvəl iynə vurdum, sakitdir. Yuxulayır, – cavab verir. “Mən bu səsi haradasa eşitmişəm. Demək, iynə vurub. Yuxulayır ha! Heyyy! Oyağam ey! Hər şeyi eşidirəm!”

– Tanış ol, Solmazdır, Rənanın bibisi, – Dayday deyir. – “Rəna! Mənim Rənam! Hə, mənə bibisindən çox danışıb...”

Bir anda müxtəlif filmlərdə səslənən lirik melodiyalar hücum çəkib beynimə dolur. Sanki lenti sürətlə fırladırlar və səslər anlaşılmaz hala düşür.

“Rəna! Rəna buradadır! Mənim yaxınlığımda! Yox! Mən qalxmalıyam! Mütləq qalxmalıyam!”

Rənanı hiss edirəm. Çox yaxındadır. Narahatdır. Mənə baxır. Yanaqlarından yaş süzülür. Son gücümü toplayıram. Çiçəyə cuman arı kimi, Rənanı görməyə tələsirəm.

* * *

Daydaygil gedəndən sonra Ramiz maşında tək oturub, kürəyini oturacağın arxasına dirəyib, gözlərini yumub, mürgüləyir. Səbinənin maşını gəlib onun arxasında dayanır. Əli ilə Nadir maşından enirlər. Ramiz o dəqiqə oyanır, o da maşından enir, gələnlərə yaxınlaşır. Əli hələ də açıq qapıdan Səbinə ilə danışır. Səbinənin əlini tutub. Ramizlə Nadir salamlaşırlar.

– Gecən xeyrə qalsın, – Səbinə Əliyə deyir. – Bir şey lazım olsa, xəbər elə.

– Tək qayıdırsan, narahat olacağam, – Əli Səbinənin əlini buraxır.

– Narahat olma! – Səbinə gülümsəyir.

Bu vaxt Ramiz astaca Əliyə yaxınlaşır:

– Dayday dedi ki, Səbinə xanım da yuxarı qalxsın! Həkimə ehtiyacımız var, – deyir.

– Mən həkim deyiləm, – Səbinə tez cavab verir.

– Dayday elə dedi.

* * *

Gecədir. Kazımın evində gərginlik davam edir. Sərdarla Mais ayaq üstə dayanıb, başlarını aşağı salıblar. Kazım qəzəbindən özünə yer tapa bilmir. Elə həyətdəcə, kölgəlikdə oturub, özünə insulin vurur. Sonra Malikin stəkanda gətirdiyi mineral suyu içir. Tələsmədən, qurtum-qurtum içir, sanki içindəki yanğını söndürməyə həvəsi yoxdur. Stəkanı Malikə qaytarıb, ayağa qalxır. Maisgilə yaxınlaşır:

– Saboouz xeyir! – Üz-gözünü turşudaraq, danışır. – Yuxuda kimi gördüz? Yəqin Əzrayıl cildində məni görmüsüz. – Sərdarın qarşısında dayanır. Əslində, içində bağırır, amma səsi ağzında boğulur, bayıra sakitləşib çıxır. – Cavab verin!

Maislə Sərdar udqunaraq, baxışırlar.

– Şef, həmişə içdiyimiz çay idi, – Maisin səsi xırıldayır. – Bibi mürəbbəylə, limonla bir yer yerdə gətirib qoydu qabağımıza. Biz də içd...

– Tutuquşusan?! – Kazım ona danışmağa imkan vermir. – Eyni sözləri neçənci dəfədir gəvələyirsən?!

– Şef, kimin ağlına gələrdi ki, bizi yatırdıb evdən qaçacaqlar?! – Sərdar bir qədər ürəklə danışır.

Kazım qəfildən qəhqəhə çəkir.

– Ağıl ha! – Uğunub gedir. – Sizdə olmayan şeydən danışmayın. – Qəfildən çevrilib Malikə baxır. – Öldür bunları!

Söz ağzından çıxan kimi Maislə Sərdar Kazımın ayaqlarına düşürlər. Yalvarırlar. Malik belindəki tapançanı çıxarıb onlara tuşlayır.

– Şef, qadan alım, iki gün vaxt ver, tapaq bibigili. – Sədar dil tökür. – Qurban olum, şef...

Mais də ona qoşulur:

– Vaxt ver bizə, noolar...

Kazım ani hərəkətlə Malikdən tapançanı alıb Sərdarla Maisin böyür-başını gülləyə tutur. Daraqdakı son gülləyə qədər yerə boşaldır. Adamlar qorxudan üzlərini tuturlar. Güllə qurtardıqdan sonra Kazım tapançanın dəstəyi ilə Sərdarın başına vurur:

– Axtarın, tapın! – Bağırır. – Yerin deşiyindən də olsa, tapıb gətirin! Hər yeri axtarın. Bakı... Gəncə... Sumqayıt... Cəhənnəm! Həsənin adamlarını izləyin. O detdom küçüklərini də gözdən qoymayın! Bilmirəm, 24 saat vaxtınız var! Neyləyirsiz eləyin, ancaq onları tapın, gətirin yanıma!

## – XX –
## TƏSADÜF FƏLSƏFƏSİ

Ramiz ona tapşırılan dərmanları alıb gəlir. Səbinə dərmanlara baxır. Gecə ikən klinikadakı həkim tanışını yuxudan oyadıb, onunla məsləhətləşib.

Çarpayıda oturmuşam. Rəna da yanımda oturub, büzüşüb. Dağınıq saçlı, gözləri çuxura düşmüş arıq bir qadın var, mən yuxuda olarkən onun baxışlarını hiss edirdim. Bu qadın kimdir?! Deyəsən, bu qadının varlığı məndən başqa heç kəsi maraqlandırmır. Mən axı bu qadını harada görmüşəm?!

– İndi iynə vuraram, təzyiqi düşər, – deyən Səbinə şprisə dərman doldurur. – Həyəcandan, stresdəndir. – Solmaza baxır. – Bir az sakit olun. Ramiz, Əli aşağıdadır? – soruşur.

– Hə, mən yuxarı qalxanda Nadirlə bir yerdə siqaret çəkirdilər.

Solmaza iynə vuran Səbinə:

– Mən də gedim yavaş-yavaş, – deyir. Sonra dərmanları göstərərək: – Rəna, bu dərmandan gündə üç dəfə yeməkdən əvvəl Solmaz xanıma verərsən, içsin. Narahat olmayın, təzyiqi normallaşacaq. Əgər narahatlıq olarsa, gələrsiz klinikaya, həkimlərimiz müayinə edərlər.

Səbinə getməyə hazırlaşır. Güclü baş ağrısından gözləri qaralan Solmaz üzünü Daydaya tutur:

– Həsən, ağlın nə kəsir, bu işlərin axırı necə olacaq? – soruşur.

Dayday bir qədər fikirləşir, bu arada Səbinə evdəkilərlə vidalaşıb, gedir.

– Kazımı yola gətirmək lazımdır, – Dayday təmkinlə danışır. – Tərsin biridir, acığa düşüb ağlına gələn axmaqlığı eləyə bilər. Başqa çarəmiz yoxdur. Münasib bir imkan tapıb, onunla danışmalıyam.

Baş verənlər hələ də mənə yuxu kimi görünür. Ətrafa baxıram, saçları dağınıq, arıq qadın gözlərini məndən çəkmir. Baxışlarımız toqquşur. Qadın gülümsəyir. Axı mən bu təbəssümü harada görmüşəm?! Necə də doğma gülüşdür. Hələ onun gözləri... Yox, ola bilməz... Bu qədər tanış gələ bilməz o qadın mənə...

Fikirlər beynimdə bir-birini əvəz edir. Həyatımdan gəlib keçən insanların siması sürətlə dəyişir. Sanki bütün ömrüm, həyatım kino lentinə yazılıb və indi naşı kinomexanik hansısa səhv düyməyə toxunub, lent anormal sürətlə fırlanır.

– Əvvəlcə sizin yerinizi dəyişməliyəm, – Daydayın xırıltılı səsindən sonra qəfildən lent qırılır. – Buranı tanıyanlar var! – Sonra üzünü sirli qadına tutur, əlavə edir: – Hazırlaş, evə gedək. Solmazgil Ümidin yanındadırlar.

Hə. Xatırladım. Mən bu qadını Daydayın həyətində, pəncərədən baxanda görmüşəm. O vaxt da baxışlarımız toqquşmuşdu. Axı mən niyə susuram?! Danışmaq, demək istədiyim o qədər söz var ki... Soruşmaq istədiyim suallar boğazımda düyünlənib qalıb.

* * *

Əgər bir şeyi təsadüfə bağlayırsansa, onda növbəti təsadüflərə də hazır olmalısan. Mənsə bu anda təsadüflərin tən ortasındayam.

Dayday gecə ilə yerimizi dəyişir, bizi şəhərin başqa səmtinə aparır. Bura yeni tikilmiş yaşayış evinin altıncı mərtəbəsində, zövqlə təmir edilmiş dördotaqlı mənzildir. Evdə hər şərait var.

Dağınıq saçlı qadını unuda bilmirəm.

Başımın içindəki uğultu səngimir.

Dayday bizi bura yerləşdirəndə dəyişəyimin olmadığını xatırlayıram. Uşaq evində böyüsəm də, vasvasıyam, üstümdən tər, yaxud başqa bir qoxu gəldisə, rahatlıq tapa bilmirəm.

Ramiz mənə dəyişək gətirir. Əsl detektivlər kimi hərəkət edir. Maşından enib heç kəsə sezdirmədən ətrafa baxır. Sakitlikdir, yad adam olmadığını görüb, alaqapıdan içəri keçir, amma ondan da ağıllı detektiv var. Çünki daha səhv edə bilməz. Söhbət Maisdən gedir. O, həyətin əks tərəfindən, iki binanın tinindəki yolu keçib gəlir. Ətrafa baxır, xəlvət yer tapıb gizlənir.

* * *

Gecədən başlayan yağış indi də külək vıyıltısı ilə bir yerdə yağır. Bayırda axmaq hava var, darıxdırıcıdır.

Səbinə... Xoş xəyallarla yaşayan Səbinə. Düzünü deyəcəyəm, bu qızdan zəhləm gedib hər zaman, amma indi onun haqqında xoşagəlməz nəsə deməyə bəhanəm yoxdur. Üstəlik, Əliyə kömək etdiyinə görə, özümü bir ömür ona borclu bilirəm. Axı bu qaçaqlıq, dostlarımın çəkdiyi əziyyətlər, əzablar, işgəncələr mənə görədir. Mən bu insanların haqqını necə ödəyəcəyəm?! Üstəlik, təzə bəlalar da yoldadır...

Nəsə... Səbinədən danışırdım axı. Hə, Səbinə, uşaq evində hər kəsin zəhləsini tökən, 20 qəpiyə yanağından, 50 qəpiyə dodağından öpdürən Səbinə... Əli ilə qarşılaşdıqdan sonra özünə xoş xəyallar qurur. İndi də əsas ofisi şəhərin mərkəzində yerləşən "Qi Or El" turizm şirkətinin əməkdaşı olan tanış qızla üz-üzə oturub məsləhət alır.

– Təkliflərin maraqlıdır, təşəkkür edirəm. Elə ürəklə danışırsan, adam dediyin yerlərin hamısını görmək istəyir, – Səbinə xoşbəxt təbəssümlə danışır.

– Amma, dediyim kimi, Albaniya maraqlı ölkədir, – qız davam edir. – Səbiş, inan ki, nağıllar aləminə düşəcəksən.

Səbinə səfər zərfini götürüb qalxır.

– Sənin sözlərinə inanıram, Gülay, – yenə xoşbəxt təbəssümlə baxır, gülümsəyir.

Səbinə əlində bir qədər əvvəl aldığı səfər zərfi ilə ofisdən çıxır. Külək saçlarını yalayır, bir ovuc yağış xoşbəxt simasına çırpılır. Mobil telefonu çıxarıb, Əlinin nömrəsini yığır.

Əli ilə Nadir sexdədirlər. Nadir divanda uzanıb, gitara çalır. Hə, tamam unutmuşdum, onun yaxşı gitara çalıb oxumağı da var.

***"Əsir dəli-dəli külək,***
***Təklikdən üşüyür ürək.***
***Ay qız, ver əlini görək –***
***Səni külək aparacaq!***

***Qoparacaq çiçəkləri,***
***Qurudacaq ləçəkləri,***
***Əlindəki əlcəkləri...***
***Səni külək aparacaq.***

***Öpəcək qara telindən,***
***Qucacaq incə belindən,***
***Çətrini alıb əlindən***
***Səni külək aparacaq..."***

Əlinin telefonuna gələn zəngdən sonra Nadir susur... Əli üzrxahlıqla Nadirə baxır.

– Səbinə!... – Əli deyir, sonra dinləyir. – Nə sürpriz? – Qaşlarını çatır. – Ürəyinə başqa şey gətirmə, amma sürpriz xoşlamıram. Mənim üçün hazırlanan sürprizlər həmişə dilxorçuluqla qurtarıb.

Əli diqqətlə Səbinəni dinləyir.

– Bu dəfə hər şey yaxşı olacaq! – Səbinə əminliklə danışır. Ancaq ikimiz. Sən, bir də mən. Albaniya. Tirana. Beş gün, dörd gecə... Əli...

– Sən ki belə ürəkdən istəyirsən, olar! Lap dünya dağılsa da, gedərik!

Səbinə Əlinin harada olduğunu soruşur. Əli Nadirlə bir yerdə olduğunu söyləyir. Bir qədər sonra görüşməyə razılaşırlar.

* * *

Eyvanın pəncərəsindən bayıra baxıram. Yağış pəncərələrə çırpılıb əzilir. İri damlalarköməksiz görünür. Pəncərəni açıb başımı bayıra çıxarıram. Yağış gözəldir, bütün ruhum sərinlənir, hətta beynimin içindəki uğultu da səngiyir.

Rəna da gəlib yanımda dayanır. Hiss edirəm axı, çox narahatdır, amma başqa bir şey də hiss edirəm: bütün bu narahatlığa, qorxuya baxmayaraq, mənimlə bir yerdə olduğu üçün xoşbəxtdir.

Bibi yan otaqda uzanıb, təzyiq bu qadının kələyini kəsib.

Daydayla Ramiz gedirlər. Açığı, Dayday arxada dayanıb mənə nəsə deyir, amma onu eşitmirəm, çünki onun nə deməyi mənim üçün maraqsızdır və məncə, o da bunu hiss edir.

Aşağı düşəndən sonra Dayday sakitcə Ramizdən gələrkən diqqətli olub-olmadığını xəbər alır. Ramiz hər şeyin nəzarətdə olduğunu söyləyir.

– Arxayın ol, Dayday, yolumu iki dəfə dəyişmişəm, – cavab verir.

Pəncərədən onları görürəm, maşına oturub, gedirlər. Mənsə hələ də başımı pəncərədən çıxarıb yağışla oynayıram.

Haradansa bir cüt göz mənə baxır. Yox, əslində, Rəna da mənə baxır, amma onun gözləri mənim ruhumun içindədir.

* * *

Səbinə evinə gəlir. Həyətdə iki yad maşın var. Mais alaqapıdan keçib yağışdan qorunur. Sərdar alaqapı ilə üzbəüzdə, maşında oturub, telefonla danışır. Səbinə alaqapıdan içəri keçəndə Maislə qarşılaşır, adam kənara çəkilir, ona yol verir, sonra şəhvət dolu baxışları ilə arxadan onu izləyir.

Səbinə açarla öz evinin qapısını açmaq istəyir, bu vaxt siqaret çəkmək üçün sığındığımız evin qapısını açıb çıxıram. Səbinə ilə qarşılaşırıq. İkimiz də çaşqınlıq içində bir-birimizə baxırıq.

– Ümid?! – Səbinə heyrətlə deyir. – Bura gətiriblər sizi?

Açığı, gözlərimə inanmıram. Səbinə mənə iynə vuranda, dərman verəndə halım özümdə deyildi, indi bu tanış simanı görəndə, bir anlıq uşaq evində keçirdiyim günləri xatırlayıram. Mən bu Səbinəni niyə istəmirdim?! Belə

baxanda, gözəl, mədəni qıza oxşayır. İllər onu necə də dəyişib.

Səbinə sual dolu nəzərlərini mənə dikib.

– Bibi necədir? – soruşur.

– Başının ağrısı keçməyib. Sən burda qalırsan? – ona baxıram.

– Hə...

– Qonşuyuq ki... – deyirəm.

– İslanmışam, üst-başımı dəyişim, gəlib bibiyə baş çəkərəm.

* * *

Malik, telefon əlində, Kazımın otağına soxulur. Həyəcanlı, həm də məmnun görünür.

– Mais bibigilin yerini öyrənib, – sevincək məlumat verir.

Kazım yerindən atılır.

– Nə danışırsan? – Səsində sevinclə qəzəbin savaşı gedir. Bir neçə saniyə susur, sonra nəsə kəşf edibmiş kimi, səsini qaldırır: – Tapşır, bu dəfə yatıb qalmasınlar! – Malikə baxmır. Başını aşağı dikib dodaqlarını gəmirir. – Çıx, gəlirəm mən də...

Malik kabinetdən çıxır, Kazım hər iki əli ilə başını tutub, kresloya çökür.

“Solmaz, bacım, niyə belə elədin?! Yoxsa sevdiyin oğlanı öldürdüyümü bilirsən?! Bəlkə buna görə qızımla məndən qisas alırsan?! Əgər ağlına belə bir şey gətirmisənsə, çox böyük səhv eləmisən, Solmaz! Əslində, gərək səni də o vaxt sevdiyin küçüklə bir yerdə itirəydim!”

Dəli bir sıçrayışla yerindən qalxır. Siyirtməni açır, tapança götürür, qəzəb saçan gözləri alışıb-yanır. Otağı tərk edir, qapını arxasınca çırpır və qəfil tappıltı dəhlizdə əks-səda verir.

* * *

Səbinə telefonu açıq səslə tumba üstə qoyur, paltarlarını dəyişir, həm də Əli ilə danışır. Yüngül idman köynəyi geyərkən, səsi ani olaraq qırılır.

– Sənə bir şey deyim... yə-ni, deməli-yəm!

– De gəlsin! – Bir qədər əvvəl Nadirin çaldığı gitaranı dındıldadıb, divan üstə qoyur.

– Ümidgil burdadır! Yəni, üzbəüz mənzildə. Yuxarı qalxanda gördüm, həyətdə qəribə adamlar, yad maşınlar var. Hava da belə... elə bil, nəsə olacaq... – Səbinə danışır, amma anidən səsi boğulur, qəhərlənir.

Əli Səbinənin sözlərini eşidən kimi, yerindən sıçrayır. Həyəcanlanır.

– Səbinə, sakitcə, amma bacardığın qədər tez, Ümidgili öz evinə keçirt. Qapını heç kəsə açma. Gəlirəm. Tez ol, tez!

Əli telefonu qapadıb cibinə qoyur, artıq həyətdədir. Yağış daha da güclənib. Səbinə “Əli! Əli!” desə də, cavab ala bilmir və aldığı tapşırığı icra etməyə tələsir.

Qapı döyülür, evdə hamı susub mənə baxır. Sakitcə qapıya gedirəm, gözlükdən baxıb Səbinəni görəndə, ürəklə qapını açıram. Səbinəni həyəcanlı görüb, təəccüblənirəm. Bir qədər əvvəl belə deyildi. Mən qapını açan kimi, şəhadət barmağını dodağına qoyub mənə:

– Ssss! – deyir.

* * *

Küçələrdən sel axır. Maşınlar suyu ətrafa sıçradır, narahat və narazı insanlar ora-bura qaçırlar. Yol boyu birtərəfli tıxacda bir-birinə dirənən maşınlar sıralanıb.

Malikin idarə etdiyi maşın da tıxacların birində ilişib qalır. Siqnal səsi baş aparır. Malik maşını bir qədər geri verir, sonra irəli verib əks yola çıxır və sürətlə irəliləyir.

Əlinin tapşırdığı kimi, indi də Səbinənin evinə sığınırıq. Bizim kimi adamlara qaçaq da demək olar. Hiss edirəm, elə bil, daha bu dünyada bizə yer yoxdur. Hara getsək, sanki əcəl bizi izləyir.

Həyəcandan yenə bibinin təzyiqi qalxıb. Qadın boğularaq nəfəs alır. Səbinə narahatdır, bibi hər an insult ola bilər.

Sakitcə mətbəxə keçirəm, dolabın siyirtməsini açıb bıçaqlara baxıram. Bir neçə bıçağın arasından birini seçir, köynəyimin qolu altında gizlədirəm. Çevriləndə Rənanın həyəcanlı gözləri ilə qarşılaşıram. Göz-gözə baxırıq. Rəna sakitcə bir qədər əvvəl gizlətdiyim bıçağı götürüb, siyirtməyə qoyur.

– Məni fikirləşmirsən? – deyir. Nədənsə ani olaraq hər zaman maraqla baxdığım “Ölsəm, bağışla” filmini xatırlayıram. Deyəsən, eyni səhvi edirik. Məncə, əcəldən qaçmaq mümkün deyil.

## *– XXI –*
## *SALAM, QARDAŞIM ƏCƏL*

Rəna Daydayın məsələdən xəbərdar olduğunu söyləyir. Əli yoldadır. Rəna əminliklə danışır. Deyir, Daydayla Əli hər şeyi yoluna qoyacaqlar. Geri çevrilmədən əl atıb yenidən bıçağı götürmək istəyirəm, Rəna qolumdan yapışır.

– Nəsə eləmək lazımdır! – deyirəm.

– Ümid, qurban olum, gözlə! – Rənam yalvarır və başını sinəmə qoyur. Pıçıltı ilə: – Kaş, tanımazdıq bir-birimizi, – deyir.

Sarsılıram.

– Peşmansan? – Səsim boğazımda ilişib qalır.

– Hə! Çox peşmanam, çox! – Rəna hönkürür.

Bu vaxt küləklə yağışın fonunda əyləc səsi, maşın qapılarının tappıltısı eşidilir. Qeyri-ixtiyari bir-birimizdən aralanıb, pəncərəyə tərəf cumur, aşağı baxırıq. Kazımın yağışa baxan simasını görən kimi, geri çəkilirik.

Kazım başını qaldırıb səmaya baxır, yağış sifətinə çırpılır, sanki bu yolla içindəki qəzəb atəşini söndürmək istəyir, amma Kazım belə asanlıqla sönən deyil.

İti addımlarla alaqapıdan içəri keçir. Maislə Sərdar ona yol verirlər. Pillələri qalxıb liftin önündə dayanır. Düyməni basıb gözləyirlər. Lift ən yuxarı mərtəbədən aşağı düşməyə başlayır. Liftin üstündəki yaşıl işıqlı rəqəmlər tələsmədən bir-birini əvəz edir. “16-15-14-13...”

– Neçənci mərtəbədədirlər? – Maisdən xəbər alır.

– Altıncı...

“9-8-7...”

– Sən mənimlə gəl, Malikgil pilləkənlə qalxsınlar.

“4-3-2-1”

Qapı açılır. Yaşlı qadınla 12-13 yaşlı bir oğlan liftdən çıxırlar. Qadın Kazımgilə tərs-tərs baxır. Kazım ona fikir vermədən lift kabinəsinə girib düyməni basır. İndi də rəqəmlər üzü yuxarı dəyişir.

"...2-3-4..."

– Deyirsən, Həsəngil burda idi?

– Bəli, şef!

Əli sürətlə həyətə girir. Gəlib, maşını bir qədər əvvəl Kazımgilin dayandığı yerdə saxlayır. Cəld maşından enib, alaqapıdan içəri cumur.

Liftin hansı mərtəbədə olduğunu göstərən rəqəmlərə baxır.

"5-6-7..."

Lift dayanmır, kimsə onu yuxarıda gözləyir.

"8-9..."

Lift dayanır, qapı açılır. İki nəfər orta yaşlı kişi lift gözləyir. Kazım divardakı yazını görür: "9".

Kabinəni tərk edir. Pillələrlə aşağı enir.

Tövşüyür, nəfəsi daralır, amma dayanmadan enir.

* * *

Bir qədər əvvəl gizləndiyimiz mənzilin qapısı bağlıdır, amma həyəcandan dəmir qapını açarla kilidləməyi unutmuşuq. Mais qapını itələyir, qapı taybatay açılır. Kazım içəri soxulur və o an bağırtısı ətrafa yayılır, səs haçalanıb pillələrə dəyir, aşağı çırpılır, səmaya tərəf dartınır.

– Hanı bəs?! Göyə uçdular? Cəld olun, yuxarı baxın!.. – Tapşırıq verir.

Mais cəld bayıra çıxır.

Kazım divan üstə qalmış yaylığı götürüb, baxır. Bibinin baş yaylığıdır.

Maliklə Sərdar mənzilə girirlər. Evdə heç kəsin olmadığını görən Sərdar dodağını dişləyir.

Bu vaxt Əli də pillələri qalxır, onların axasınca açıq qapıda görünür. Malik Əlini görən kimi, onun üstünə cumur, qollarını burur. Əli müqavimət göstərmək istəyəndə Malik tapançanı onun başına dirəyir. Bu vaxt Sərdar da qayıdıb qapını örtür.

Kazım əsəbiliklə Əlinin boğazından yapışır, ağır-ağır nəfəs alaraq, onu boğur:

– Guya sən Rembosan?! – dişlərini qıcayaraq deyir, boynunu buraxıb, əlinin arxası ilə onun ağzının üstünə vurur. Əli çiyni ilə ağzının qanını silməyə çalışır.

– Bir dəqiqə oturaq, adam kimi danışaq! Bəsdir boş yerə aləmi qatdın bir-birinə, – Əli sakit danışır. – Bura sənnən danışmağa gəlmişəm.

Kazım yenə o iyrənc qəhqəhəsi ilə divarları lərzəyə salır.

– Mənə ağıl öyrədəcəksən, küçük?! Qızım hardadır?! – bağırır. Sonra tərs-tərs Maislə Sərdara baxır, Əlinin qolunu burub, onu Kazımın qarşısında çökdürürlər. – Dəqiq bilirəm, uzağa gedə bilməzlər. Bir-bir qapıları döyüb, Rənanı axtaracağam. Tapacağam onu. Amma sən desən, yaxşı olar. Nə biz əziyyət çəkərik, nə də qonum-qonşu.

Əli başı ilə "yaxşı" deyir. Kazımın işarəsi ilə onu buraxırlar. Əli ayağa qalxır.

– Camaatla işin olmasın. Oturaq, söhbət eləyək. Ağılla, hədə-qorxuyla yox. Özün gördün də, hədə-qorxunun xeyri olmadı. – Əli hər zaman olduğu kimi, təmkinini qorumağa, yaşından böyük adamlar kimi danışmağa davam edir. – Ailən də səndən üz döndərdi.

Kazım stul çəkib oturur. Solmazın yaylığını masaya qoyur.

– Ailəm? – Gözlərini süzdürərək başını silkələyir. – Ailəm... Olsun... Qoy üz döndərsinlər. Qaliblər axırda gülür...

– Gülünc danışırsan! – Əli də oturur. Maislə Malik mane olmaq istəyirlər, Kazım əlini qaldırıb, qoymur. – Kimə qalib gəlmək istəyirsən? Qızına? Doğma bacına?

– Uzatma! Sözünü de, küçük! – Kazım dodaqlarını çeynəyir.

– Mən uşaq evində böyümüşəm, mənə, mənim kimilərə küçük demək asandır. Hər dəfə bu rəftarınla gücsüzlüyünü sübut eləyirsən.

Kazım qəzəblə yumruğunu masaya çırpır, yerindən sıçrayır, Əlinin gözlərinə baxır:

– Uzatma dedim! – bağırır.

Mənsə dəmir qapı arxasında dayanıb gözləyirəm. Nəyi gözləyirəm?! Bilmirəm... Hər dəfə əl atıb qapını açmaq istəyəndə, Rəna mane olur, yalvarır, ağlayır. Səbinənin narahatlığını hiss etməmək mümkün deyil. Hələ bibi! Bu yazıq qadın onsuz da canı ilə əlləşir, indi də həyəcandan az qalır nəfəsi kəsilsin.

Yenə gözlükdən baxıram. Sərdar adlı adam mənzildən çıxır, qapıda növbə çəkir. Səbrim çatmır. İçəridə baş verənlərdən xəbər tutmaq istəyirəm.

– Özün gördün də, zorla heç nə olmadı. – Əli hələ də təmkinini qoruya bilir. – Yaşlı-başlı adamsan. Pul, güc, əlaqələrin səni kor eləyib. Robota dönmüsən! – Əli danışdıqca Kazım gülür. – Başa düş də, qızın başqasını sevir. Mən bilmirəm ata necə olur. Amma dəqiq bildiyim bir şey var: atalar övladları üçün canını verir.

Araya sükut çökür. Əli masadan kağız dəsmal götürüb, ağzının qanını silir, köynəyindəki ləkəni təmizləyir.

– Mən də qızım üçün hər şeyə gedərəm! – deyən Kazım ayağa qalxır. – Onun xoşbəxt olmağı üçün, lazım gəlsə, dünyanı dağıdaram!

– Amma hələlik, nə edirsənsə, onun bədbəxt olmağı üçün eləyirsən! Nə isə, – Əli də qalxır, – onlar bir-birlərini sevirlər. Bu söhbətə nöqtə qoymaq lazımdır. Ümidlə Rəna evlənib! Gecdir daha!

Kazım dəli kimi qarşısındakı stula təpik atır. Sonra Əlinin üstünə cumur, yenə boğazından yapışır, onu divara dirəyir.

– Heç vaxt heç nə gec olmur! – Kazım od püskürən gözləri ilə Malikə baxır, baş barmağını hülqumuna yaxınlaşdırır, kəsmək işarəsi göstərir və qəzəbli addımlarla mənzili tərk edir.

Kazım mənzildən çıxıb qapını çırpır. Malik tapançanı çıxarıb Əliyə iki güllə vurur. Əlinin gözləri iriləşir, kürəyini divara dirəyir. Malik də gedir, otaqda tək qalan Əli yavaş-yavaş yerə çökür.

* * *

Hər kəs çıxıb getdi, amma Əli hələ də otaqdadır. Rəna bu dəfə mane olmaq istəyəndə, az qala bir qədər də kobudluqla onu kənara itələyir, qapını açır, cəld bayıra çıxıram.

Bir neçə saat əvvəl tərk etdiyimiz mənzilin qapısını açıb, içəri soxuluram. Ətrafa baxıram. Qan içində mənə baxıb, gülümsəyən Əlini görəndə, başımı tutub çığırıram: “Aaaaaaa!”

Görürəm, Səbinə, Rəna, lap axırda da bibi gəlir. Hər kəs Əlinin ətrafına toplaşıb. Əli hələ də gülümsəyir. Beynimin içində dözülməz uğultu var yenə. Məncə, bu, sondur!

Əliyə kömək etməyə çalışırlar! Nə qədər vaxt keçir, bilmirəm: həkimlər gəlir, polislər evə doluşur. Mənsə başqa dünyadayam və həmin dünyadan geri qayıtmaq istəmirəm.

* * *

Kazım on aydan artıq davam edən məhkəmədən sonra azadlığa çıxır. Malikə 15, Sərdara 12, Maisə 9 il iş kəsdilər. Kazım isə canını 5 il şərti cəza ilə qurtara bilir. Çünki günah keçiləri tapılır, Kazımın cinayətlərini öz üzərinə götürənlər onun əvəzinə cəza çəkməyə razı olurlar. Kazım tezliklə onları da azadlığa çıxarmağa söz verir.

Mənsə Əlidən sonra dörd aya yaxın əsəb dispanserində müalicə alıram. Bu müddət ərzində Nadirlə Daydaydan başqa heç kəslə görüşmürəm. Əlinin ölümündə birbaşa özümü günahkar bilirəm. Hər dəfə beynimdəki uğultular azacıq çəkilən kimi, özümə söz verirəm: bir yol tapıb Əlinin qanını Kazımdan alacağam! Bunun üçün, lazım olsa, cinayət edib həbsxanaya da düşməyə hazıram. Müxtəlif planlar fikirləşirəm. Səhərdən axşama qədər sexdəki divanda uzanıb tavana baxır, Kazımı necə öldürəcəyimi, Əlinin qisasını necə alacağımı götür-qoy edirəm.

Nəhayət, Kazım azadlıqdadır. Bir neçə dəfə onun ofisi ətrafında dolaşmışam. İndi yanındakı adamların sayını daha da artırıb, amma bütün bunlar məni məqsədimdən daşındıra bilməz.

Bu gün Dayday Nadirlə məni öz evinə çağırıb. Həyətdə oturub çay içirik, kölgəlik həyətin yan tərəfində olduğundan, Ramiz gələndə bizi görmür və Daydayla görüşən kimi, iki gündən sonra Rənanın toyu olacağını deyir. Dayday onu susdurmağa çalışır, amma artıq gecdir.

* * *

Bakının ən möhtəşəm şadlıq sarayının həyətində gözləyən gəlin maşını səmaya atılan fişənglərin işığında alışıb-yanır. Rəna ilə Orxan qol-qola, çıxışda görünürlər. Başa düşə bilmirəm, Rəna doğrudan xoşbəxtdir, yoxsa sadəcə, belə görünməyə çalışır?! Adətə görə, yenə gəlin əlindəki çiçək dəstəsini geriyə atır, subay qızlar çiçək dəstəsini göydəcə qamarlamağa çalışırlar. Bir qədər şişman, amma gözəl qız, çiçək dəstəsini tutur. Hamı əl çalır. Ağacların arxasında dayanıb gözləyirəm. Qoy Rəna xoşbəxt olsun! Yəqin mən xam xəyallara düşmüşəm. Gör bu axmaq sevgiyə görə başımıza nələr gəldi?! Artıq Əli həyatda yoxdur və onu heç nə ilə geri qaytarmaq mümkün deyil. Amma Rəna xoşbəxt ola bilər.

Kazımla Səfər bir-birini təbrik edirlər. Hər ikisi məmnun və xoşbəxtdir. Kazım qalib gəldi. İndi o, öz qələbəsini bayram edir. Mənsə məğlub tərəfəm, itki vermişəm, amma bu məğlubiyyət məni qane etmir. Kazım bu gün öləcək! Hər tərəfdən bir itki! Yəni heç-heçə. Bəlkə onda beynimin içindəki uğultu da bir az səngiyər.

Bəylə gəlin maşına otururlar. Axıra qalmış qonaqlar yavaş-yavaş maşınlara minib dağılışırlar. Kazımın başının adamları ora-bura qaçır, hərə bir işlə məşğuldur. Göy üzündə parlaq Ay çıxıb. Ətraf işıqlıdır. Kazım həyətdə tək qalır, uzaqlaşmaqda olan gəlin maşınının arxasınca boylanır. Rəna arxa şüşədən atasına baxır, baxdıqca için-için ağlayır. Onun göz yaşları iki damla yağışa dönüb, üzümə çırpılır. Əlimdəki tapançanı asta-asta qaldırır, Kazımı nişan alıram. Fikirləşmişəm, daraqdakı son gülləyə qədər hamısını bu murdar adamın bədəninə boşaldacağam. Bu vaxt kimsə astaca qoluma toxunur. Cəld silahı həmin adama tuşlayıram. Nadirdir. Onu görən kimi əsəbiləşirəm. Sakitcə

“Get burdan!” deyirəm, yenidən silahı Kazıma tuşlayıram, lakin gördüyüm mənzərə məni heyrətə salır. Daydayın evində gördüyüm, xəstə yatarkən başımın üstünü kəsdirib duran arıq, saçları dağınıq qadın, sakitcə Kazıma yaxınlaşır. Əlini qaldırıb, onun çiyninə toxunur. Kazım geri çevrilir. Mən o qadının gözlərini görürəm. Həmin o arıq, saçları dağınıq qadın əlindəki bıçaqla Kazımın qarnına dalbadal zərbələr endirir. Bir... iki... üç... dörd... beş... altı... yeddi... səkkiz... Səkkiz zərbə.

Nadir də, mən də heyrətdən yerimizdə donub qalırıq.

Kazımın gözləri bərəlir, baxışlarımız toqquşur. Kazımın gözlərində məğlubiyyətə boyun əymək istəməyən təəssüf görürəm. Kazım diz üstə çökür. Qadın əlindəki bıçağı yerə atır.

Uzaqlaşmaqda olan gəlin maşını dayanır. Rəna maşından bayıra atılır. Ayaqları bir-birinə ilişə-ilişə qan gölməçəsində qalmış atasına tərəf qaçır. Arıq, saçları dağınıq qadın heykələ dönüb qalır. Onun bu heykəl simasını hələ indi xatırlayıram. Bu, odur – mənim Sevimli Dinozavrım! O, yenə məni xilas etməyə gəlib. Bu dəfə Tüklü Mamont Kazımdır.

Kazımın başı Rənanın dizi üstədir. Kazım danışmaq istəyəndə ağzı qanla dolur. Rəna ağlayır. Mənim Sevimli Dinozavrım adamların arasında dayanıb, baxır. Nadirlə mən onlara yaxınlaşırıq. Kazım son nəfəsində, xırıltılı səslə, qırıq-qırıq sözlərlə Rənaya:

– Qızım, deyəsən, bu dəfə nəyisə düz eləmədim! – deyir. Bu, onun son sözləri olur. Bütün həyatı yanlışlıqlarla keçən bir adam son nəfəsində belə məğlub olmaqdan qorxur.

Ölüm sondur. Ölümdən o tərəfə yol yoxdur.

Kazım ölür. Rənanın hönkürtüsü qulaqlarımda əks-səda verir. Mənim Sevimli Dinozavrım astaca qolumdan tutur, üzümə baxır.

– Qorxub-eləmə! O, daha bizə heç nə eləyə bilməz! – deyir. Mən o səsi yaxşı xatırlayıram. Atam da illər əvvəl qan gölməçəsində üzəndə, bu qadın belə demişdi.

Bitir! Bir nağıl da belə başa çatır. Mənim Sevimli Dinozavrım yenə məni qoruyur.

Hadisələr sürətlə bir-birini əvəz edir. Nadirin həbsxanadan çıxdığı gündən sonra baş verənlər... Dayday deyilən adamın mənə fərqli və doğma münasibəti... Sən demə, bu adam mənim babam imiş.

Mənim Sevimli Dinozavrım adamların arasında itir. Gözlərimlə onu axtarıram. Şadlıq evinin həyətindən çıxışa doğru uzanan yolla addımladığını görürəm. Qaçaraq arxadan ona çatıram.

– Anam! – deyib, onu səsləyirəm. O, dayanır. Asta-asta geri çevrilir. Mənə baxır, gülümsəyir.

– Ümid, oğlum!..

## *PROLOQ*

Evimizdə balaca Əli var, amma bu gün böyük Əlinin ad günüdür.

Bir azdan Nadir gələcək, birlikdə Əlinin yanına gedəcəyik.

Həyətdən iki dəfə siqnal səsi eşidilir. Balaca Əli eyvana çıxıb çığırır:

– Urra! Nadir əmi gəldi!

Mən balaca Əlinin ayaqqabısının bağını bağlayıb bitirən kimi, uşaq qapıdan çıxıb pillələrlə aşağı enir.

Nadir qollarını açıb alaqapıdan çıxan Əlini gözləyir. Balaca Əli Nadirin qucağına atılır. Nadirlə Əli bir-birini çox istəyirlər.

Qəbristanda, Əlinin məzarı yanında iki başqa, qara paltarlı qadın da var. Onlar qol-qola girib məzara baxır, için-için ağlayırlar. Biz yaxınlaşanda, qadınlardan birinin məzara baxıb, asta səslə:

– Ad günün mübarək olsun, oğlum! – dediyini eşidirəm. Bu sözlər Nadiri də, məni də çaşdırır. Qadın bizi görən kimi, susur. Mən onları tanıyıram: biri Səbinə, digəri illər əvvəl uşaq evinin müdiri olmuş Əminədir. Bir qədər əvvəl pıçıltı ilə Əlinin ad gününü təbrik edən də Əminə idi. Əminə – Əlinin anası!?

Səbinə diz üstə çöküb, məzarın üstündəki otları təmizləməyə başlayır. Balaca Əli gətirdiyi qərənfilləri Nadirlə birlikdə məzarın üstünə düzür. Mənsə Əminəyə yaxınlaşıb onun üzünə baxıram.

– Mənim üçün çox maraqlıdır, bu vaxta qədər necə susa bilmisən?!

Əminə gözlərimin içinə baxır, başını aşağı salır, xırıltılı, pıçıltılı səslə:

– Susmadım ki, – deyir. – Ürəyimlə danışdım. Özümü ittiham edə-edə yaşadım. Bir gün hər şeyin bitəcəyini düşündüm... hər şeyin yaxşı olacağını fikirləşdim.

– Bitdi! Təbrik edirəm səni! Bax, – deyib, qardaşım Əlinin məzarını göstərirəm. – Hər şey bitdi. Bu dünyaya bir də Əli kimi qardaş gəlməyəcək.

Əminə gedir. Əlinin məzarına yaxınlaşıram. Nadir də gəlir. Yumruğumu düyünləyib Əlinin başdaşına toxundururam. Nadir də yumruğunu düyünləyib, eyni hərəkəti təkrar edir.

– Ölənə qədər! – deyirəm.

– Ölənə qədər! – Nadir deyir.

– Ölənə qədər! – Bu da Əlinin səsidir. Balaca Əlinin səsi...

***SON***



*Adil ŞİRİN*

## ÜMİD BAYRAQLARIDI QANLI KÖYNƏKLƏR, VƏTƏN

Analar qovrulur bütün gecəni,
Gözlərinə yuxu getmir, uyumur.
Analar Allaha dua eləyir,
Analar dünyadan səadət umur.

Hələ açılmamış mərmilər yatır
Torpağın altında, göyərə bilmir.
Hardasa öləndə sonuncu əsgər
Ölmür ana torpaq, yaşayır, ölmür.

Ana duaları qoruyur bizi,
Ana adı dilimizdə duadı.
Cənnət anaların ayağı altda,
Tanrı ilə qoşa çəkilir adı.

Ağlama, ağlama, ağlama, ana,
Əsgər ürəyidir ürəklərimiz.
Hələ ön sırada döyüşməliyik
Bütün şəhidlərin əvəzinə biz...

* * *

Başımızın üstünü
Buludlar alıb yenə –

Analar oğulları
Qurban verir Vətənə.

Bu gün qara bağlayır
Qız-gəlinlər – sonalar.
Bənövşəbığ oğlanları
Qurban verir analar.

Oğullar qurban gedir
Cənnət Şuşa bağlarına,
Uca Laçın dağlarına,
Haça Laçın dağlarına.
Bir ümid yarpağa,
bir ovuc torpağa,
Azadlığa,
Sabaha...

Ah, yeganə oğlunu qurban verən ananın
Heç nəyi qalmayıb daha...
Şəhidlərin qanıynan
Ölüm fərmanı yazır
Xain düşmən özünə.
Qara kəfən yaraşır
Vətəni satanların
iblisanə üzünə.

İkicə qarış qazsan,
Qan çıxacaq torpaqdan.
Analar, analar əlini üzmür
Göy üzündən –
Allahdan.

Mələk üzlü anaları,
İsmarlayın Allaha siz.
Məni qanlı köynəyimdə
Tapşırın torpağa siz.

Anama deyin, dostlar,
Yurd uğrunda son savaşda
Yaraları ağrımadan öldüm mən.
Arxadan vurulmadım,
Ölümümə güldüm mən.

Ümid bayraqlarıdı
Qanlı köynəklər, Vətən!

* * *

Bu necə ömürdü, necə taledi?
Hər səhər, ana, hər səhər
Pəncərəmdə eyni mənzərə
Eyni qüssə, eyni kədər.

Hər səhər ötən günün qüssəsi,
Hər səhər yarımçıq qalır
Uzun illərdən bəri gördüyüm eyni yuxu...
Hər səhər tanış diktorun səsi,
Eyni mətbəx qoxusu...
Hər səhər... müharibə qorxusu...
Eyni səhərlərin tamı
Dəli edir adamı.

Bu necə taledi, ana,
Doğulduğum torpaqda
qərib oldum yana-yana.
Hər səhər harada qeyb olur şəhər...
Bu gecə ölmədim, ana,
Bu gün də sağ qaldım.
Bu gün çıxan qəzetlərin
Hamısını aldım.

Bu gün Bakıda bir yaz səhəri.
Dəli eləyir adamı
Qəzetlərin səhifələri...

* * *

Qara xaçlı cəlladlar.
Bağladılar ağaca əsir dəliqanlını –
Köynəyinin yaxasında
Laxtalanmışdı Qanı.
Qandan sərxoş idi xaçlı cəlladlar.
Yeri-göyü gəmirirdi
                    burun pərələrindən od çıxan atlar.
Ölüm yaxınlaşdıqca xaçlı cəllad cildində
Durulurdu oğlanın
                    gözləri durulurdu.
Min yol vurulduğu mavi dağlara
                    bir daha vurulurdu.
Atların içində
                    bir xallı at da vardı,
                    dünya başıma dardı.
Son dəfə baxırmıştək yaralı qardaşına
At baxırdı oğlana.

Dağlar... Dağlar... Sıra dağlar...
Dağların başında səhər dumanı.
Dağlara, dağlara baxırdı oğlan,
Köynəyinin yaxasında laxtalanmışdı Qanı.

Qan rəngində görürdü at dağları,
Qan tutmuşdu xallı atın
Çıldırmış gözlərini.
At fınxırıb süzürdü
Cəlladların üzünü.

Ölümdən qorxmurdu amma,
                    xallı atın göz yaşına
                              dözə bilmirdi oğlan.
Oğlanın qafasında
Qırmızı, qırmızı, qırmızı duman...
Qardaşının göz yaşına
Dözə bilməyən bir adam kimi
Dözə bilmirdi oğlan
Xallı atın göz yaşına.

Dağlar ayağa qalxmışdı,
Dağlar, dağlar fırlanırdı oğlanın başına.
Bir əlac tap,
Bir əlac tap, ay Allah!
Ölümdən betərdi onunçün bəlkə
                    Qan içində
                    xallı atın gözlərinə yıxılmaq...

* * *

Mən də on doqquz yaşımdaydım
Haçansa, bir zamanlar,
Qafamın içində
İlğım dumanlar.
Sinəmin altında
Sevda çiçəyi,
Başımın üstündə
Ümid mələyi.
Və bu dünya
Bir gözəl röya...

Od içində yanır dağlar,
Od içində məmləkət.
Uzun illərdən bəri
Müharibə, fəlakət.
Bir tərəfdə müharibə,

Bir tərəfdə məhəbbət.
Müharibə – məhəbbət
Arasında yaşamaq
Mənim taleyim, əlbət...

Güvəndiyim dağlardan,
Məmləkətdən bir xəbər yox, –
Ayrılıqdan, həsrətdən
Daha acı zəhər yox...

Mən sənin əsgərinəm,
Ey mənim məmləkətim.
Mən sənin şairinəm,
İlk eşqim, məhəbbətim...

* * *

Ulduzları yanar şamtək,
Üfürüb söndürür fələk.
Çilidə, Santyaqoda
Qara mundirli qara bir köpək
Nişan aldı arxadan
Bir qızın pəncərəsi altında
Pablo Nerudanın şeirlərini oxuyan
                    tələbə oğlanı.
Asfalt səkidə heroqliflər yazdı
Çilili tələbənin qanı...

...Eyni güllə ilə vurulmuş
          on doqquz yaşlı bir dəliqanlı
                    İstanbulda, Bəyazid meydanında
                    Boğuldu öz qanında.

...Eyni güllə ilə vurulmuş
On doqquz yaşlı bir dəliqanlı
İspaniyada, Madriddə –
Lorkanın məmləkəti başı dumanlı.

...Eyni güllə ilə vurulmuş bir igid
Can verir Bağdadda,
Ölüm kabusu dolaşır
Fələstinin xurma bağlarında.

Bığ yeri təzə tərləmiş eloğlumu
Eyni güllə ilə
Qurğuşuna tutdular Laçın dağlarında.
Bir qardaşımız da şəhid oldu

Vətən torpaqlarında,
Gözlərində bir cüt ulduz.

Bu dünyanın hər yerində
Eyni güllə ilə vurulmuş
Bir şairəm mən
                    Gözlərimdə iki damla dəniz.

...Vurdular məni, vurdular, dostum,
Bakıda, Azadlıq meydanında,
Vurdular, yıxıldım mən.
Bir Şeir dəftəri çıxdı
Pencəyimin cibindən...

Niyə Təzə Pir məscidinin minarəsindən
Allahı çağırmır şeyximin səsi?!.
Niyə bu gün siyahdı
                    Göydə Ayın haləsi?!.

Niyə rus kilsəsində
Haray salmır tunc kilsə zəngləri?!.
Bu gecə ulduzlara baxma, –
Ulduzlar matəm çələngləridi,
Qanlı matəm çələngləri...

* * *

Bir səhər
Hələ yuxudan oyanmamışdı şəhər,
On doqquz yaşlı dəliqanlılar
Əliyalın yeridilər tanklar üstünə.

Qara yanvar...
Qara rüzgar...
Üçrəngli bayraqların
                    üstündən keçdi tanklar.
Amma bayraqlar yıxılmadı,
Bayraqlar yenidən qalxdı ayağa,
Düşmən üstünə yeridi Ay-ulduzlu bayraqlar.

Gülləyə tutdular bizi –
Torpaqlarımızı,
          bayraqlarımızı,
                    məscidlərimizin minarələrini,
                    müəzzinin səsini.
On doqquz yaşlı dəliqanlıların
                    ürəyini, sinəsini.

Güllәyә tuturlar bizi –
Güllәyә tuturlar çiçәklәyәn ağacımızı,
                    bәyaz buludumuzu.
Güllәyә tuturlar
Hәyat eşqimizi
Vә umudumuzu.

Amma bayraqlarımız yenә
Qalxıb yeriyir düşmәn üstünә...
Düşmәnlәr qorxurlar bizdәn –
Qorxurlar, qorxurlar ümidimizdәn...

...On doqquz yaşlı dәliqanlılar keçir
Azadlıq meydanından.
Biz bir Vәtәn yapmışıq
Müqәddәs bayraqdan,
                    tütya torpaqdan
Vә on doqquz yaşlı şәhidlәrin qızıl qanından.

«Marş, irәli, marş, irәli,
Azәrbaycan әsgәri!»
Bayraqlar dalğalanır,
Üçrәngli bayraqlar,
                    Ay-ulduzlu bayraqlar.
Bu bayraqlar bizimdi,
                    bizimdi bu torpaqlar...



## *Kamalə ABİYEVA*

## SƏN ELƏ AZADSAN

***Şəhidlərə məktub***

Torpaq əsirdisə, Vətən şəhiddi,
Bu boyda ağrıyla yaşamaq olmur.
Ey Vətən yolunda şəhid igidim,
Böyüklüyünü də daşımaq olmur.

Elə möhtəşəmsən, elə böyüksən,
Sığmırsan nə qəlbə, nə gözə, igid.
Utancdan öləcək sənə nə desəm,
Sığmazsan nə dilə, nə sözə, igid.

Bu torpaq uğruna fəda etdiyin
Həyatına qurban, özünə qurban.
Bağrımı yandıran son nəfəsinin
“Vətənim sağ olsun!” sözünə qurban.

Sənə də, mənə də anadır, igid,
Vətən dediyimiz bu Azərbaycan.
Heyf, əvəzinə ölə bilmədim,
Sən anana qurban, mən sənə qurban...

Sən elə azadsan, elə azadsan,
Mən bu azadlığın quluyam daha.
Sən elə rahatsan, elə rahatsan,
Mən isə dönmüşəm gözyaşlı aha.

Sən elə əlçatmaz bir zirvədəsən,
Bilmirəm nə vaxtsa görüşərikmi?
Sən o qutsal Vətən zirvəsindəsən,
Bilmirəm ruhumuz görüşəcəkmi?

Vətəndən halallıq alan igidim,
Sən elə xoşbəxtsən, elə xoşbəxtsən.
Mən səndən halallıq ala bilmədim,
Ömürlük önündə borclu qaldım mən.

Hər qarış torpaqda gəzən nəfəsin,
"Haqqını halal et" deməyin deyir.
Həkəri çayına qarışan səsin
"Haqqımı Vətənə vermişəm" deyir.

Haqqımı qoruyun, tapdalanmasın.
Qoruyun siz Vətən əmanətimi.
Elə qoruyun ki, canı yanmasın,
Qoruyun Şəhidlik səadətimi.

## VƏTƏN ƏTRİ

Ərənlərim,
Sizdən sonra yağış yağır...
Sizdən sonra dayanmır yağış da...
Ana, ata, bala, qardaş, bacı, sevgili
səsi var yağışda.
Sizdən sonra dəyişib yağış,
danışır yağış.
Sizdən sonra çoxalıb yağış.
Arzulara hopub qarışır torpağa.
Azadlıq qovuşur torpağa
Vətən ətri gəlir torpaqdan...

## VƏTƏN SAVAŞI

İgid əsgərlərim, yenilməzlərim,
Sizinlə yaşayır hər Vətən daşı.
Bir dastana döndü hünərinizlə
Bu Vətən savaşı, Vətən savaşı.

Vətən sevgisini yaşayır torpaq,
sevincə bürünüb gözünün yaşı.
Qələbə ətrinə qovuşur torpaq,
Vətən savaşıdır - Vətən savaşır.

İlhamla ucalan möhtəşəm ordum,
Azadlıq havası oldun bu yurdun.

Canınla, qanınla, rəşadətinlə
Gələcək günlərə yazılır adın.

Ali Baş Komandan, yumruğun qalxır,
Önündə əyilir düşmənin başı.
Bir damla türk qanı yerdə qalmasın,
Vətən savaşıdır, Vətən savaşı.

Əlində ucalan bayraq Vətəndi!
Ayağın altında torpaq Vətəndi!
Bu haqq savaşında, müzəffər ordum,
Qüdrətli ədalət –Zəfər sənindi.
Torpağa can verən şəhidlərimin
Torpağa müqəddəs andı Vətəndir.

## BİR LAYLA DE

*Nə güclüsən, qadın səsi – ana səsi*
**Nigar Rəfibəyli**

Bir layla de, layla, ana,
bir az sakit, bir az rahat yata bilim.
O nağıllı uşaqlığın əllərindən tuta bilim,
Gecələrin sükutunu ürəyimdən ata bilim.

Bir layla de, layla, ana,
qoy o kövrək uşaqlığım nəfəsinə sığınaraq
bu günümə dönsün mənim,
köməyimə gəlsin mənim.
Qoy özümü mən hamıdan
güclü sanım, güclü bilim.

Bir layla de, layla, ana,
səsin dolsun ürəyimə,
Mən laylanda qoy bir azca əzizlənim,
qoy bir azca güzgülənim, təmizlənim.

Bir layla de, laylan gəzsin Yer üzünü,
gözü yaşlı arzular var Yer üzündə,
sən onları ovut, ana.
Səsin gəzsin Yer üzünü,
mürgüləyən, yuxulayan ürəklər var,
duyğular var Yer üzündə,
laylan ilə sən onları oyat, ana,
yatanları oyat, ana,
yatmışları oyat, ana.

## KİMSƏ SƏNƏ OXŞAMIR

***Ölmək nə qarib bir şey.***
**Nazim Hikmət**

Ölmək nə qərib bir şey, anne,
qoxlayamadığın çiçəklər açar yenə
Saçına toxunamayan küləklər əsər yenə
Qoxlayamadığın çiçəkləri,
Saçına toxunmayan küləkləri
Sevmək nə qərib bir şey.
Ölmək nə qərib bir şey, anne.
Yenə Günəş batır,
Yenə Ay çıxır,
yenə kimsə darıxır...
səni islatmayan yağışlar yağır,
yağır üstünə...
Ölmək nə qərib bir şey, anne...
Səndən sonra yenə hamı bir-birinə oxşayır
Sənnən sonra yenə
kimsə sənə oxşamır...

## BAKIM

Hər səhərlə sevdim səni,
Hər gecəylə yaşadım mən.
Dalan-dalan, küçə-küçə
Ürəyimə daşındın sən.
Qarış-qarış sevdim səni.
Addım-addım oxşadım mən.
Addım-addım, qarış-qarış
Gözlərimə sığındın sən.
Haray salan, hey vurnuxan
o dəlisov küləklərin
sənlə dolu nəfəsimdi.
Hər daşına möhtac olan,
Ovunmayan həsrətimdi.
Köhnə Bakım, təzə Bakım,
ah şəhərim, tarixindən qoparılan
sökülən daşların kimi
başıma yağan kədərim.
Aradığım, tapmadığım
qır qoxulu məhlələrin
ovcuma dolan qəhərim.
Ay şəhərim, ay sultanım,
Qulun olum, kölən olum.
Bir gün elə Xəzərimin

bircə ovuc suyu kimi
torpağına hopum qalım.

## XƏYANƏT

İllər sonra qəfil çıxdın qarşıma,
Nə ağrılar yaşadım mən o anda.
Bu günümdən dünənimə boylandım,
Boynubükük dayanmışdın qarşımda.

Bir zamanlar sevgi dolu gözündə
Bu günümün səadətin görmədim.
Etinasız baxışlarım üzündə,
Mən, sadəcə, əllərimi yellədim.

Üz çevirib səndən getdim harasa,
Xoşbəxtliyin harayını duymadan.
Mən səadət axtardıqca hardasa,
Səadətim boylanırmış arxadan.

Biz heç nəyi görmürük ki, vaxtında,
Ömrümüzə min xəyanət edirik.
Gözümüzün önündəykən çox zaman
Səadətdən üz çevirib gedirik.

## DEMƏDİMMİ

Demədimmi vaxt olar,
Sən səs-küyün içində
bir sükutdan bezərsən,
Külək əsər, sən isə
yarpaqların dlində
bir pıçıltı gəzərsən.
Demədimmi, vaxt olar,
o soyuq baxışların
yanağını yandırar.
Demədimmi, vaxt olar,
vaxt olar ki, yağışlar
bir həsrəti andırar.
Demədimmi, vaxt olar,
ayrılıq dünyasına
ümid yolu çəkərsən.
Gecələrdən usanıb,
səhərin yaxasını
gözlərinlə sökərsən.
Demədimmi, vaxt olar,
ürəyinə hay salar
”unut”deyən o səsin?

Demədimmi?...
Demədim...
Demədim ki, vaxt olar,
ürəyimi üşüdər ”qayıt” deyən nəfəsin.

## İTİRDİM

Xoşbəxtlik, mən səni tapa bilmədim,
Elə həsrət qoydun özünə məni.
Yatmış gözəl oldun, öpə bilmədim,
oyada bilmədim yuxudan səni.

Təpəgözlər səni tilsimə saldı,
Daşlara döndərdi, saçından asdı.
Divlərin önündə çarəsiz qaldım,
Neçəsi, neçəsi yolumu kəsdi.

Sehrli çubuğum olmadı mənim,
nə də ki qılıncım, qurtaram səni.
Qovuşa bilmədim, bilmədim sənə,
gedər-gəlməzlərdə itirdim səni.

## EHTİYACIM

Baxma gözlərimdən axmayan yaşa,
O yaşı silməyə gücün yetməz ki.
Bir ömür mənimlə, ya mənsiz yaşa,
Sənə ehtiyacım heç vaxt bitməz ki.

Əsən küləyi də sevirəm bil ki,
hardasa saçına toxunur deyə.
Yağan yağışı da sevirəm bil ki,
“Sən” adlı bir nəğmə oxuyur deyə.

Ay gerçək xəyalım, ay yosun gözlüm,
Dünyam gözlərinə şığınıb qalıb.
Deyə bilmədiyim nə qədər sözüm
Hələ ürəyimə yığılıb qalıb.

Hər yerdə hər zaman, bil, mənimləsən.
Yaxın ol, uzaq ol, fərq eləməz ki.
Mənim gözlərimdə yaşayırsan sən,
O sən gözlərimi atıb getməz ki.

Sənsiz ötən illər nəyimə gərək;
Sənli bircə anı əvəz etməz ki.
Bir ömür gözlərəm deyəsən məntək,
Sənə ehtiyacım heç vaxt bitməz ki...



*Xəqani HƏBİBOĞLU*

## ƏSALI ƏSGƏR

***O gündən əsalı əsgərimizi unuda bilmirəm***

Dedim: - Əsgər, çox çətindi tək ayaq?
Dedi: - Əvvəl vətənimi cüt ayaqla əzərdim!
Şəhidliyə yüksəlsəydim, o da gərək olmazdı,
Soyunardım ayaqları, ruhuyalın gəzərdim!

Ya quş olam, ya ağac,
Qollar hazır budaqdı.
Açan qönçələr, – olmayan
Ayaqları öpən dodaqdı.

Vətənimi əzilməkdən qorumağa getdilər,
Düşmən ayaqdan atsa da, şükür, dikdi başımız!
Qələbəyə qol atmaqla ürəyi soyumayıb
Üstəlik, ayaq da atıb bu qazi qardaşımız!

## ZƏFƏR NƏĞMƏSİ

Yağıya bir divan tutdu,
Görkcan oldu Azərbaycan!
Canımızdan can istədi,
Ərkcan oldu Azərbaycan!

Yevrey, slavyandan soruş,
Kürd, tat, gürcü, ləzgi, talış...

Hamısıyla hüzur, barış,
Tək can oldu Azərbaycan!

Rəng qayıdıb bənizinə,
Dönüb canlar dənizinə,
Axır baxdı göy üzünə,
Türkcan oldu Azərbaycan!

## LAYLA

Bu axşam duyğular pərən-pərəndi,
Nə ola, yuxuma qona laylası.
Fikir tufanından çıxara məni,
O sona anamın sona laylası!

İlahidən gələn pıçıltı səsi,
Yarpaq titrəyişi, xışıltı səsi,
Otağı doldura mışıltı səsi,
Axa nəfəsindən qana laylası.

Havada yellənən qolumu görsə,
Leysanımı görsə, dolumu görsə,
Ruhu şişdə olan halımı görsə,
Qorxuram alışa, yana laylası!

Dilləndi, dünyaya sərinlik əsdi,
Yüz il qulaq asam, deməram bəsdi.
Oxşardım, səksənər, deyər nə səsdi,
Kişi avazıyla ana laylası!

## BAĞIŞLA

İlahi, yalvarmaq gəlmir əlimdən,
Əgər günahdısa, məni bağışla!
Bir haqqın adından min yalan gəzir,
Şairlik məkrufdu, dini bağışla!

Qərib durnaları duman yoranda,
Gözlər Səni gəzir alatoranda.
İşıqla aldadıb karvan qıranda,
Ulduzu bağışla, Günü bağışla!

Ceyranın günahı ovçunda qalsın,
Xaçın da yaşasın, hacın da qalsın,
Ədalət əlində-ovcunda qalsın,
Fələklik edəndə, Səni bağışla!!!

## BAĞIŞLAMIRLAR

Yaxşı olmaq günahın,
Daha bağışlamırlar.
Heç kimi qürurundan
Baha bağışlamırlar.

Dünya ikicə gözdü,
Biri əyri, bir düz.
Dərdin barmaq izidi
Ahı bağışlamırlar.

Ada, – dəryada daxma,
Əriyib ada axma.
Nökərə-zada baxma,
Şahı bağışlamırlar...

## ANAMA

Evə gecikəndə qınaq görərdim,
Əziz müəllimim, həmişə haqsan.
Ay ana, hər yerdə gəzirəm səni,
Ev nədi, çöl nədi, heç yerdə yoxsan.

Tərifin də tənbeh idi, dərs idi,
Deyərdin ki, oğlum nur tayasıdı.
(Oğlun nur deyil e, nur, – mayasıdı...)
Bəzək axtaranlar bilirirmi görən,
İnsanın üzündə nur, – həyasıdı.

Əlövsət gözündə uca dağ idi,
Böyük oğul bildin onun yerini.
Əzrayıla güc çatsaydı, ay ana,
Saxlayardı cüt Yəməndən birini...

Doğma evin idi ziyarət yerin,
Gəzmədin müsəlman şəhərlərini.
İlahi dualar əzbər bilirdin,
Bir də ki, oğlunun şeirlərini...

Zər qədrini zər anlayar, zər bilər,
Səni kim duyardı Yaqut sayağı...
Yusifi quyuda diri bilirdi,
Sən də ki, atamı, Yaqub sayağı...

Bulaq olub Kür atama qoşuldun,
Sevgi dünyasına güzarı seçdin.

Başımız üstəydin, çiyinə enib,
Atamın yanında məzarı seçdin...

**KƏLBƏCƏR**

Yurd həsrətli şeirlərə
Daha əlvida, Kəlbəcər!
Allahın cənnəti birdi:
– iki dünya da Kəlbəcər!

Gördü ki, əyninə dardı,
Torpaq çuxasın çıxardı.
Kəklik daşda yuva qurdu,
Evi qayada Kəlbəcər!

Top atdım, bəxtim oyandı,
Dağlar könlümə həyandı.
Qarabağ Azərbaycandı,
Dağları nida – Kəlbəcər!

***Kəlbəcər***

**OXUCULARIN NƏZƏRİNƏ!**
**"AZƏRBAYCAN"**
**jurnalına abunə yazılışı davam edir.**

**Əlaqə nömrələri:**
**+ 99412 498-78-10**
**+ 99455 668-78-79**

**Jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik,**
**illik abunə qiyməti 18 manatdır.**
**İNDEKS: 76300**

*Qəşəm NƏCƏFZADƏ*

# HÜNDÜRLÜYƏ TULLANANLAR



♦ *Hekayə*

Eşidəndə ki, metro bağlanır, onda pəncərəni kip örtüb keçdi kitab rəflərinə baxmağa. Kitabları bir-bir götürüb vərəqlədi, avtoqraflara göz gəzdirdi, sonra yerinə qoydu. Yenidən bir qalın kitabı götürüb, elə bil çəkisini öyrənmək üçün əlində xeyli saxladı. Müəllif: Alber Kamyu "Taun." Avtoqrafa baxdı: Anardan Abbasa hədiyyə. Moskva, 27 avqust 1967-ci il

"Bəs bu kitabı mənə Anar niyə hədiyyə etsin ki..." Kitabı o üz-bu üzünə çevirəndən sonra əlüstü vərəqlədi. Elə bil o vaxt, yəni 1967-ci il 27 avqustda kitabın arasına nəsə qoyubmuş, indi onu axtarır. Aha, dayandı, deyəsən, axtardığını tapdı. Qatlanmış bir vərəqin üstündə əlini saxladı. Sonra dərindən nəfəs aldı.

Hiss elədi ki, qızdırması var, əlini alnına qoydu. Arvadını səslədi: "– Ay Fəridə, gəl, deyəsən, mən də koronavirusa tutuldum, başım ağrıyır, elə bil kürəyimi ütü yandırır."

Fəridə gəlib dodaqlarını ərinin alnına toxundurdu.

Ailə qurandan hələ bir dəfə də olsun evə termometr almayıblar. Həmişə bir-birinin istiliyini dodaqları ilə ölçüblər.

– Yox, Abbas müəllim (evlənəndən ərinə Abbas müəllim deyib həmişə), qızdırman 36 ancaq olar, – dedi Fəridə, sonra təzə nübarın tamına baxırmış kimi, bir az da tamsındı.

Abbas razılaşsa da, sol kürəyində ütü yanğısı kimi bir hissin gəzdiyini, ayaqlarının üşüdüyünü hiss edirdi. Əllərini üzünə, alnına sürtdü, sonra dizlərini ovxaladı.

– Abbas müəllim, – (Fəridə bu dəfə "müəllim" sözünü elə uzada-uzada, elə intonasiya ilə dedi ki, sanki bağlı pəncərələrdən otağa yaz havası doldu), – sadəcə, bu, imitasiyadır. Koronavirusun imitasiyası. Metronun bağlanmağı da bir yandan sənü üzür. Sən ki metroya minən deyildin. Nə işinə qalıb, bağlandı, ya bağlanmadı? Sənin üçün nə fərqi var? Özünü çox üzmə, inşallah, hər şey yaxşı olacaq.

Abbasın halı bir az yaxşılaşdı. Ayağa durub bütün pəncərələri taybatay açdı. Sonra Fəridəyə tərəf dönüb: – Ay Fəridə, işə bax, bu saatda Tarqovuda bir adam da gözə dəymur. Elə bil adamları şəhərdən oğurlayıblar.

Abbas kresloda əyləşdi. Balaca uşaq kimi, başını qoluna söykədi. “Bu, əsl müharibədir. Bəs bizimlə müharibə edən kimdir? Hücum hansı tərəfdən başlanıb? Yerdənmi, göydənmi? İdarələr, bazarlar bağlanıb. Şəhər hərəkətsizdir. Adamlar başlarını pəncərələrdən dibçək gülü kimi çölə çıxarırlar. Metrolar, qatarlar şəhərin arteriya damarları, taksilər kiçik kapilyarlardı; indi hamısı dayanıb. Sanki ölkə güclə nəfəs alır. Bütün dünya qopur, iqtisadiyyat çökür. İşsizlər ordusu yaranır. Sağ olsun Prezident, yaxşı ki, karantin rejimini vaxtında tətbiq elədi, xalqı koronavirusdan izolyasiya eləməyi bacardı...

Sonra Abbas cəld başını qaldırıb otaqda nəyisə axtarırmış kimi, Fərideyə:

– Təranə ilə əlaqə saxlamısan?

– Hə, yaxşıdır. Skaypla danışdıq. Görsən, tanımazsan. Elə bil kosmonavtdır. Elə bürünüb ki...

– Bəs nə vaxt gələcək evə?

– Heç ev yadına düşür ki? Deyir koronavirusa yoluxanlar get-gedə çoxalır. Xəstələri çoxdur. Əsas da xəstələrdə təngnəfəslik, boğulma, hava istəmək, kömək istəmək, uşaqlarını arzulamaq, skaypla vidalaşmaq və nəticədə ölümlə razılaşmaq halları qızı əməlli-başlı sarsıdıb. Fəridənin də anası ölsün, elə uşaqlıqdan ürəyi yuxadır. Sənlə danışanda ağlamır, amma məni ki gördü, bir yumub, beş tökür.

Abbas ayağa qalxdı, səhər ertə vərəqlədiyi kitabı götürdü. Qatladığı vərəqə bir də nəzər saldı. Vərəqin üstündə kiçik bir qeydi oxuyub üzü təbəssümlədi. “Bu gün Bakıdan gələn zəng məni sevindirdi. Qızım olub, dedilər, adını da Təranə qoymaq istəyirlər. Mən də razılaşdım. 27 avqust 1967-ci il. Moskva”.

Otaqda gəzinməyə başladı. “Anar kitabı mənə günorta “Litqazeta”nın redaksiyasında bağışlamışdı. Sonra biz ayrıldıq. Axşama tərəf, Ədəbiyyat İnstitutunun yataqxanasında kitabı yarıya qədər oxumuşdum ki, Təranənin doğum xəbəri gəldi.”

Təranənin doğum tarixi yazılan səhifədə Alber Kamyu Əlcəzairdə taunun dəhşətlərindən yazırdı. “Onlar səmanın boşluğundan başqa heç nə görə bilmir, boşluqdan asılıb qalır, sonra isə tauna bürünüb yatırdılar”.

Bax, bu faciənin dəhşətləri yazılan səhifənin üstündə Təranənin doğum tarixi yaşayır. Demək, ölüm də var, doğuluş da, yatmaq da var, oyanış da.

Abbasın bikefliyini hiss edən Fəridə televizoru qoşdu. Düşündü ki, bəlkə Abbasın başı qarışa, ürəyi açıla. Televizorda görkəmli şair “Qızıl qələm” mükafatı laureatı Həsən müəllim qara kostyumda, qırmızı qalstukda yaradıcılıq planlarından danışırdı: – Karantin dövründə mən evdən çölə çıxmıram. Xeyli kitablar mütaliə eləmişəm. İki yarımçıq poemamı tamamlamışam, yeni bir roman başlamışam. “Seçilmiş əsərləri”min yeddi cildliyini çapa hazırlamışam, beş məqalə yazmışam. İndi yenə evdə yaradıcılıq işlərimi böyük əzmkarlıqla davam etdirirəm.

Abbas yenidən kresloya çökdü, yerində qurdalandı. Fəridədən xahiş etdi ki (o, Fəridəyə nəsə bir iş buyuranda xahiş edirdi), televizoru söndürsün. Fəridə də : –Gördün Həsən müəllimi, nə yazır-yaradır? Nə qədər kitabları çap olunur. Sən hələ bir misra da yazmamısan, bu karantin dövründə, heç bir kitab arası da açmamısan. – Fəridə gördü ki, stolun üstündə açıq bir kitab var, o saat fikrinə düzəliş elədi, – heç bir kitab da oxumamısan, – deyərək televizoru enerjidən ayırdı.

– Fəridə, belə bir ağır gündə necə şeir yaza bilərəm? – Abbas dedi. – Əli Kərim demiş: “Əlimə qələm də gəlməyir indi”. Nə qədər ki, adamlar küçəyə çıxa bilmir, işdə, gücdə, teatrda deyil, metro işləmir, mən əlimə qələm almaya-

cam. Görmürsən, dünya dəyişilib. Düz bir aydır adam üzü görmürük. Sən havaya bax, elə bil qabaqkı hava deyil. Sən də deyirsən şeir yaz.

Fəridə Abbasın fikrini kədərli notlardan yayındırmaq üçün yanına gəldi:

– Yadındadı, biz bu dünyada necə xöşbəxt idik. Keçən il ad günümüzü “Nargilə”də qeyd elədik. Evliliyimizin əlli illiyini “Sonalar sonası”ında keçirdik. Yadındadır, Abbas müəllim?

Abbas sevincək Fəridəyə tərəf çevrildi.

– Sənə nişan üzüyü alanda, bütün Bakı sevincimizə şərik idi. Elə bil hamı bilirdi sevgimizi, hər şey üzümüzə gülürdü, bütün ağaclar, binalar, fontanlar bizi təbrik eləyirdi. Həmin axşam gedib oturduq “Gilavar”da. Sənə yazdığım şeirlərimi oxudum. (Bir az sukut edərək) Fəridə, görəsən dünya bir də elə olacaqmı?

Fəridə suala cavab verməmiş, Abbas qəflətən əlini sinəsinə apardı: – Ürəyim göynəyir, – dedi, üzünü pəncərəyə tutaraq: – Elə istəyirəm ki, bu saat güclü bir yağış yağsın, əsl leysan. Göy guruldasın, şimşək çaxsın. Külək pəncərələrimizin şüşələrini sındırsın. Bilim ki, Allah Yer kürəsini unutmayıb.

Qadın Abbasın əllərini ovcuna aldı: – Abbas müəllim, bu nə qəribə arzudur? Niyə məhz belə olmalıdır? Onda virus öləcək, yoxsa ürəyinin ağrısı kəsəcək?

– Fəridə, yəni deyirəm, bilim ki, Allah Yer kürəsini yadından çıxarmayıb, hələ də o, bizi düşünür.

Fəridə ərinin hərəkətlərini ürəyində götür-qoy edirdi, amma üzünə vurmurdu, işi ciddiləşdirmək istəmirdi. Məsələn, belə olanda həmişə “Təcili yardım”a zəng edərdi. İndi bunu etsə, o, daha da həyəcanlanar. Abbasın dediklərinə guya fikir verməməyi, əslində, ona diqqət yetirməyiydi.

Abbas durub pəncərənin qabağına gəldi. Pəncərədən çölü udmaq istəyirdi.

– Fəridə, elə istəyirəm bu axşam Bakıya güclü qar yağsın, (gülə-gülə) elə bir qar ki, səhərisi uşaqlar ondan qar adam düzəltsinlər, qartopu oynasınlar. Gecə fənərləri qarın işığında öz işıqlarını bir az sarı rəngə boyasınlar, evlərin damlarından barmaqlar kimi (barmaqlarını göstərir), bax belə, sırsıra buzlar sallansın.

Sonra Abbas qəflətən Fəridəyə sarı dönərək qışqırdı:

– Fəridə, bilirsən nə var? Mən bu saat qar istəyirəm, qar. Yağış istəyirəm, üşümək, donmaq istəyirəm. Külək istəyirəm, tufan istəyirəm. Qoy o qar, o yağış, o tufan indiki solğun dünyamıza xatırlatsın ki, biz belə bir dünyada yaşamışdıq. Belə bir dünya vardı, doğulmuşdu, biz onu görmüşdük.

Fəridə Abbasın hərəkətlərindən bərk həyəcanlansa da, üzə vurmurdu, özünü sakit aparırdı. Ürəyində hesablayırdı ki, “Təcili yardım” evə neçə dəqiqəyə gəlib çata bilər? Həkimlər neçə dəqiqəyə pilləkənlərlə beşinci mərtəbəyə çıxarlar? Neçə dəqiqəyə qan təzyiqi ölçülər? Neçə dəqiqəyə əzələyə kardiamin vurular? Bu, təxminən iyirmi səkkiz dəqiqə eləyirdi. Amma hər halda, gecdi. Fəridə hər ehtimala qarşı, apteçkadan validol, kaptopiril, korvalol dərmanlarını gətirib nəlbəkiyə tökdü.

Abbas səsini yenidən ucaltdı.

– Fəridə, bilirsən, mən indi dünyanın ən pis adamlarını da istəyirəm. Bu saat onları bağrıma basmaq istəyirəm. – Sonra arvadına tərəf dönərək: – Cəlil müəllimi tanıyırdın də? O, mənə nə qədər pislik eləyib, “Gənclik” nəşriyyatında kitabımı on il yubadıb, adımı ev növbəsindən çıxartdırıb, yadındadı? (Abbas nə deyirdisə, Fəridə başı ilə təsdiqləyirdi) Bax, həmin Cəlildən ötrü burnumun ucu göynəyir.

Sonra Abbas ritmlə ayaqlarını yerə vura-vura monoloquna davam elədi:

***Fəridə, mən qar istəyirəm,***
***Mən yağış istəyirəm,***
***Mən Cəlili istəyirəm.***

Fəridə Abbası qucaqlayıb yenidən kresloya oturtdu. Sakitləşdirici dərman verdi. Və özü də həyəcanlanmağını bu dəfə daha çox, qabarıq biruzə verdi ki, qoy Abbas da onun xəstələnməyindən qorxub, bir az sakitləşsin. Fəridə cəld ayağa durub şifonerdən qara yaylığını çıxarıb örtdü başına, əllərini qaldırdı göyə:

***Allah, bizə qar göndər,***
***Allah bizə bar göndər,***
***Allah, bizə yağış göndər,***
***Allah, bizə külək göndər.***

Abbas ağlamsına-ağlamsına böyürdən arvadının qulağına dedi ki, Günəşi də de. Fəridə bayaq dediyi bəndə bir misra da əlavə elədi:

Allah, bizə Günəş göndər.

Fəridənin səsi titrəyirdi. Abbas Fəridəni sakitləşdirməyə çalışırdı. Xahiş etdi ki, dilinin altına validol qoysun. Fəridə imtina etdi. Daha da həyəcanlandı ki, ərini sakitləşdirə bilsin. Fəridə cəld ayağa qalxıb pəncərənin önünə gəldi:

***Allah, bu fikirli dünyanı oyat,***
***Allah, dünyanın sükutunu poz,***
***Allah, dünyamızı hərəkətə gətir.***

Bilək ki, sən bizi unutmamısan. Bilək ki, bizi yaddan çıxarmamısan. Bilək ki, bizi hələ də sevirsən...

Fəridənin Allaha xitabını dinləyən Abbas daha da kövrəldi. Dizlərini yerə qoyub üzünü qibləyə tutaraq minacat dedi, nə dedi:

– Ey yeri, göyü işıqlandıran, ey Padşahlar Padşahı, ey Hökmdarlar Hökmdarı, bu hökm sənin hökmündü, bu fərman sənin fərmanındı. Yaratdığın bu gözəl Yeri, bu gözəl göyü məhv eləmə. Əziyyət çəkmisən, bizi yaratmısan. Okeanlar, dənizlər, meşələr xəlq eləmisən. Düzlər, səhralar yazmısan yer kürəsinə. Dəvələrin boynunu əyri, beli gümbəzli, quşu qanadlı, balıqları qəlsəməli, pullu yaratmısan. Gözəllərin yanağına xal yazmısan. Uçurma dünyanı, ey Xaliqlər Xaliqi, hayıfdı, əməyini zay eləmə, canımızı torpaq bil, ayaqlarının altına sürt... Ayağının tozunu qəbrimizə bəzək elə.

* * *

Təranə Tibb universitetini bitirəndən sonra, yəni ötən əsin 90-cı illərində akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasında bir müddət baş infeksionist işlədi. Elçi düşənlər olsa da, ailə qurmadı. Elmi yaradıcılıq, xaricdə elmi konfranslar başını elə qatdı ki, bir də baxıb gördü düz əlli üç yaşın astanasındadı. İndi o, xüsusi rejimli xəstəxanada işləyir. Birinci gündən koronavirusa yoluxmuş xəstələrin müayinəsindən sonra müşahidə gündəliyinin ilk səhifəsinə yazdığı aşağıdakı cümlələr pandemiya problemini çox dəqiq analiz edirdi. “Məncə, koronavirus xüsusi xəstəlik deyil, o, həyatla

ölüm arasında ruhun qanadının bir anlıq iflicindən yaranan və heç bir dava-dərmanla sağalmayan, ancaq ruhun özünün hərəkətə keçməsi ilə məğlub olan bir ruh xəstəliyidi. Burda əsas xilas yolu tənəffüs sistemini (xüsüsən dərindən nəfəs alıb, sonra həmin nəfəsi buraxıb, əllə burnu tutub 40-50 saniyəyə qədər nəfəs almadan dayana bilmək) məşq etdirməklə aritmik tənəffüsü tənzimləməkdir."

On gün keçəndən sonra gündəliyin başqa bir səhifəsində çox dəqiq müşahidə elədiyi məqamlar öz əksini tapırdı: "Koronavirus insanla oynayır, o, tez-tez oyun üslubunu dəyişir, əsas məqsədi ruhu, ruhun qapısı olan tənəffüs sistemini işğal etməkdir. İnsanın bu virusla peşəkar oynaması, xüsusi bədən və ruh hərəkətləri ilə rəqibi aldada bilməsi əsas şərtdir."

Təranə get-gedə hiss edirdi ki, artıq bu xəstəliyin müalicəsində mövcud dərmanlar yetərincə deyil. Yəni dərmanla xəstəlik orqanizmdə bir-birini görə bilmir, tanımır, ayrı-ayrı meydançalarda at səyridirlər. Müalicədə ən ümdə məsələ dərmanın virusu görə bilməsidir.

Təranə Anarın 27 avqust 1967-ci ildə (məhz doğum günündə) Moskvada atasına bağışlanmış Alber Kamyunun "Taun" kitabını hələ səkkizinci sinifdə oxumuşdu. Həmin romandan dəftərçəsinə qeyd etdiyi aşağıdakı cümlə heç vaxt onu tərk etmirdi: "Hamı eyni tale ilə yaşayır və eyni hissləri keçirirdi. Ən böyük hiss isə ayrılıq və əsir düşmə hissi idi, qorxu və etirazı yaradan da elə o idi".

Bəli, əsir düşmək! Əsas məsələ də elə budur. Təranə müşahidə gündəliyində qeyd edirdi ki, korona ilk anda sinir sistemini zədələyir, ruhu əsir götürür. Burda əsas dəstək, ipucu xəstələrin psixologiyasıdır. Necə deyərlər, immunitetdən əlavə, orqanizmin yatmış müdafiə qüvvələrini ayağa qaldırıb, səfərbər etmək əsas müalicə üsuludur.

Təranə dərman müalicəsi ilə yanaşı, xəstələrlə həm ümumilikdə, həm də fərdilikdə söhbətlər aparırdı: "Dərindən nəfəs alın, saxlayın. Nə qədər çox saxlasanız, bir o qədər yaxşıdır. Əvvəlcə otuz saniyə, sonra isə qırx-əlli saniyəyə qədər nəfəsi saxlayın. Nəfəs alın, nəfəs verin, nəfəs al, nəfəs ver. Bir, iki; bir, iki; bir, iki. Dərindən, lap dərindən, qarnınız belinizə yapışana qədər nəfəs alıb saxlayın. Aritmik tənəffüs var hamınızda. Tənəffüs aritmiyasını ancaq bu cür məşqlərlə düzəltmək olur".

Təranə ona ümidlə baxan gözlərindən bapbalaca bir ümid işığı parlayan, təxminən yetmiş yaşında olan bir xəstəyə yaxınlaşdı.

– Gəl səninlə belə danışaq. Təsəvvür et ki, yarışdı və sən mümkün qədər daha hündürlüyə tullanmalısan. Gözlərini yum və təsəvvür et. Bu instik hərəkəti sinir sisteminə yaza bilsən, yəni tez-tez hündürlüyə tullanmaq istəsən, bütün orqanlar o zaman güclü fəaliyyət göstərib, bədənin müqavimətini artıracaq.

– Sizi başa düşürəm həkim, mən buna cəhd edirəm, amma ağrılar dözülməzdi.

– Mən də səni başa düşürəm, ayrı bir çıxış yolu yoxdur. İndi gözünü yum görüm, başlayırıq.

– Hə, həkim, başladıq.

– Qarşıda səksən santimetr hündürlükdə maneə var. Onun üstündən tullanmalısan. Aydındı?

– Hə.

– Elə isə, getdik. Çalış addımlarını iri at. Hə, lap iri. Ayaqların irəli dartıldıqca, başın arxaya çəkiləcək. Hiss edəcəksən ki, külək saçlarını arxaya

darayır. Alnına soyuq külək vurur. Düzdürmü? Amma belə çox qalmaq olmaz. Başını da irəli apar. Qollarını geniş aç, tullanmaq üçün qollarını qanada çevirməyi bacarmalısan. Ağzını bərk yum, burnunla nəfəs al. Əvvəlki ürək döyüntülərin yoxa çıxacaq, yeni ürək döyüntüləri başlayacaq. Hə, sən qaçırsan, ürəyin döyünür. Bax, biz neçə gündü bu ürək döyüntülərini axtarırdıq. İndi onu üzə çıxartdıq. Aha, artıq maneəyə az qalır, lap az. Amma sən çox yavaş qaçırsan. Bir az sürəti artır. Belə sürət səni heç yarım metrə də qaldıra bilməyəcək. Haydı, dərindən nəfəs al, hə, dərindən. Di nəfəsini saxla, o nəfəs səni qaldıracaq. Bir, iki, üç. Ayaq pəncələrini yerə bərk vur, dişlərini qıca, qarın əzələlərini yığ...

– Hop...

– Hə, necə tullana bildin?

– Əlbəttə, bütün varlığım yerindən tərpəndi, elə bil ruhum məni yuxarı qaldırdı. Xeyli yüyürəndən sonra ayaq pəncələrimi yerə vurdum, vuran kimi yuxarı qalxdım, bir xeyli havada süzdüm, sonra yerə düşdüm.

– İndi özünü necə hiss eləyirsən?

– Elə bil bir az nəfəsim genişləndi. Gözlərim işıqlandı. Əvvəlki ağrılarım yoxa çıxdı. İndi onu ayrı bir xoş ağrı əvəz elədi.

– Lap yaxşı, sən bunu mənsiz də edə bilərsən, gözlərini yum, sürətlə qaç. İndi sabah sən bir metr hündürlüyə tullanacaqsan.

Təranə başqa çarpayıya yaxınlaşır.

– Hə, dünən sən nə qədər hündürlüyə tullanmışdın?

– Səksən santimetr.

– İlkin nəticə kimi pis deyil. İndi gözlərini yum, sürətlə qaç, maneəyə çatanda dərindən nəfəs al, saxla. Ta ki tullanmayana qədər nəfəsini vermə. Əgər sən səksən santimetrdən aşağı düşsən, qanda oksigenin miqdarı azalacaq.

– Hə, sən necəsən (başqa xəstədən soruşur)? Yenə təngnəfəssən?

– Yox, həkim, bir az azalıb.

– Məşqlərini davam etdirirsən?

– Hə, gündə üç-dörd dəfə. Getdikcə ciyərlərim açılır.

– Axırıncı dəfə nə qədər hündürlüyə tullandın?

– Səksən santimetr.

– Hər gün bu məşqləri davam etdir, ciyərlərin açılacaq. Bütün fiziki gərginlikləri düşüncəndə yarat. Ağciyər arteriyasında müqaviməti fiziki gərginlik aradan qaldıracaq. Qızdırmanın verdiyi ürək döyüntüləri yoxa çıxacaq, fiziki hərəkətin döyüntüləri hüceyrələrə oksigenli qan daşıyacaq. Damarların tonusunu artıracaq, qan təzyiqini normallaşdıracaq.

– Hə, sən necəsən, oğlum? (“Oğlum” sözü Təranənin dilində o qədər gözəl səsləndi ki, başqa xəstələr də başlarını qaldırıb həkimə baxdılar.)

Təranə öz müraciətinə özü də məəttəl qaldı. Hansı hissin təsirindənsə, ona “oğlum” dedi. Bir az qızardı. “Oğlum” dediyi adam Təranədən yaşlı olardı, bəlkə də 65 yaşı vardı.

Təranə yenə soruşdu:

– Oğlum, necəsən?

– Yaxşıyam, həkim, çox sağ olun.

– Dərmanlarını içirsən?

– Hamısını içirəm, əlavə bir dərman da veriblər. Onu da bu səhər qəbul elədim.

– Məşqlərin necə, qaçırsan xəyalında? Nə qədər hündürlüyə tullanırsan?

– Hə, qaçıram. Səksən santimetrə kimi tullanıram. Bu səhər qaçanda məndən qabaqda bir işıq gedirdi...

– Yaxşıdı, oğlum, bu, ən gözəl əlamətdir. Hündürlüyü hər gün artıra bilərsən. Hündürlüyə tullanma zamanı əsas məsələ doğrü, düzgün nəfəs alıb-verməkdir. Sən məşq zamanı nəfəsinin ritmini tənzimləməlisən. Ağ ciyərin qanla, oksigenlə təchizatı üçün bu, əsas şərtdir.

O axsam səhərə kimi Təranənin gözünə yuxu getmədi. Heç olmasa, başqa vaxtlar azacıq da olsa, stulda gözünə bir çimir yuxu gedirdi. Bəlkə, o da xəstələrin ruh halı ilə o qədər qaynayıb-qarışmışdı ki, burada zaman və məkan ölçüləri dəyişmişdi. Özünü inandırmağa çalışırdı ki, doğrudan da, 65 yaşlı kişi onun oğlu ola bilməz. Amma yenə inanırdı, inanırdı ki, o kişi nə vaxtsa onun bətinindən doğulmuşdu. Bəs bu hiss onun beyninə hardan girmişdi? Heç vaxt ərdə olmamışdı. Hiss edirdi ki, o kişi ondan qopan bədəninin bir hissəsidir. Bəli, bu, nə vaxtsa olmuşdur. Təranə dəqiqliyinə qədər xatırlayırdı ki, kişini həyata o gətirmişdi. Təranədən düz on iki yaş böyük olan 65 yaşlı kişi bütün cizgilərinə qədər ona doğma idi. Təranə onu da xatırlayırdı ki, kişinin əlindəki yanıq yeri ütüdən yadıgardır. Bu, o vaxt olmuşdu ki, Təranə həyat yoldaşının köynəyini ütüləyərkən, uşaq qəfil əlini ütüyə atmışdı. Bəlkə də kişinin yadına gəlməz, amma Təranə bunu dəqiq bilirdi. Təranə əvvəlcə yanıq yerini öpmüş, sonra isə qatıq sürtmüşdü. Bəli, bu, Təranənin dəqiq yadındaır.

Təranə hər dəfə palataya girəndə ona mehribanlıqla baxan kişinin baxışlarından yayınmağa çalışırdı. Amma necə oldusa, günlərin bir günü, müayinə vaxtı həmin kişi Təranəni “ana” deyə çağırdı. Heç kəs təəccüblənmədi, heç çevrilib baxan da olmadı. Elə bil hər şey qanuni idi, yəni həmin altmış beş yaşlı kişi əlli üç yaşlı Təranənin oğlu idi. Heç kəs təəccüblənməyəndən sonra Təranə bir daha inandı ki, həqiqətən, o kişi onun oğludur və sağalan kimi götürüb aparacaq evlərinə.

Bir ay on beş gündən sonra yurdumuza Günəş doğdu. Gözəl küləklər əsdi, narın buludları yığıb Bakımızın üstünə gətirdi. Süd kimi ağ yağış yağdı. Ağaclar, yollar, küçələr, fikir və düşüncələr əməlli-başlı yuyuldu. Metro, qatarlar, bazarlar işə düşdü. May günlərinin bir səhəri Təranə qoruyucu paltarını soyundu, atası Abbas qızını tanıya bilmədi. Təranənin saçları ağappaq idi... Abbas qızını qucaqlamaq istəyəndə Təranə qoymadı: – Ata, uzaq dur, sağalım, sonra, bir az qripləmişəm, – dedi.

O saat Abbas xatırladı ki, Anar Moskvada o kitabı ona qrip olanda bağışlamışdı.



*İsa SEVƏR*

## GEDİR XƏRƏKDƏ DÜNYAM...

*Poema*

### Proloq

XXI əsrdə,
20-ci ildə,
Yer kürəsində
Koronavirusa yoluxan
Yüz milyonu keçdi...
Bir milyon insan
Dünyadan köçdü...
Elmi təkliflər,
Təltiflər,
Siyasətçilər
Nobelə nitq seçdi,
Yaydı ekran-ekran...
Ancaq,
Gedir xərəkdə dünyam...

* * *

Ana, ay ana, bir layla çal,
Möhtəcam laylana,
Qayıdmaq istəyirəm
Sehirli uşaqlığıma,
Laylalı yuxularıma.
Bir layla çal, ay ana,
Yenə Məlikməmməd olum,
Simruq quşum
Mənimlə olsun, ana,
Sonra da, qayıdım qucağına ,
Raketim mənimlə olsun, ana.
Bir layla çal, ay ana,

* * *

Oğul doğ, anam, oğul doğ!
Ər eldən gələr,
El oğul diləyər,
Bacı qardaş istəyər.
Bərdədə Cavanşir,
Gəncədə Cavad Xan,
Naxçıvanda –
Heydəroğlu İlham oğuldu!
Oğul həmişə
Vətənçin doğuldu!
Çiçəyim düymə-düymə,
Çiçək də bir vətəndir
Oğulum var, dəymə-dəymə!
Oğul doğ, anam, oğul doğ,
Adımıza,
Odumuza kölgə düşməsin,
Yağlar döyüş yeri
Torpağımızı seçməsin,
Nadanlar
Bostanımıza daş atmasın,
Suyumuzu
Əjdahalar içməsin,
Soyumuzu gədə-güdə
Məşhər ayağına çəkməsin.

* * *

Dağlara qar yağır,
Aran üşüyür,
Atam qayğılıdır,
Anam üşüyür.
Qışın sazağında
Evin unu qurtarır,
İnəyin otu.
Adam
Təkcə soyuqdan yox,
Həm də ehtiyacdan üşüyür...

* * *

Arvadda kişilik var,
Anamda görmüşəm onu.
İş yorsa da
Özünü itirməzdi,
Ağır oturub, batman gələrdi,
Tanrı çox şey qismət etmişdi
Ona!
Əbədi hünər
Vaxtsız məzarlar –
Ata, ana, qardaş, ər!
Bunlara arvad dözər?
Ancaq, anam dözdü.

Yetimləri çəkdi kölgəsinə,
Heç kimdən umub-küsmədi,
Arvadlıq eləyib
Tanrıdan da incimədi...

* * *

Ağır-ağır yığnaqlara
Sözünü asta toxuyandı,
Yaxşını yerişindən,
Yamanı duruşundan oxuyandı
Anama qurban olum.

**– I –**

Öd kisəsi,
Zəhər düyünçəsi,
Dərdimizin anamdakı hissəsi
Kəsilib atılmalıdır...
Bu, cərraha asandı
Uğursuz bir iş günü kimi,
60 yaşlı cərrahın
Təcrübə ölümü kimi...
Əgər insafsa, təcrübə üçün
İnsan doğramaq,
Məgər bu olmazmı
Vicdandan məxfi
Həyat oğurlamaq?
Yox, yox,
Şübhələrim nahaqdır, nahaq
Vicdanlıdır cərrah,
Qəlbimdə ümid kimi boğur
Nahaqqı haqq.

**– II –**

"Az ağrı, asan ölüm".
Anamın dilindən qopupdu bu söz,
Bağrımın başına qonubdu bu köz
Qanıma qarışıb –
Ürəyimə hopubdu bu söz.
Anamın ağrıları inlədir məni,
Ağlaya bilmirəm için-için,
Qurumuş dodağına
Su da olmaz bir içim.

Necə yəni
"Az ağrı, asan ölüm",
Ağrılara məğlub olubmu dözüm?
Tanrım, kömək ol anama,
Anam dardadır.
Cərrah, götür bıçağı,
Kəs ağrıları,

Qurtar mənim anamı ağrıların əlindən,
Anamın ağrısına
Dözmürəm!
Dözə bilmirəm mən!

– ***III*** –

Biz tələsmirik, qardaş,
Bilirik əzizdir ana,
Dayaqdır zamana,
Şöhrətdir cahana
Gözün qarası kimi
Əzizdir, qardaş,
Əzizdir ana.
Həm də bizim sənətə
Yaddır tələsmək.
Arxayın ol, qardaş,
Cərrah əlinə yaraşmır əsmək!

– ***IV*** –

Sızlayır anam
Ağrı əlindən,
Qövr edir yaram.
Ömrümdə ilk dəfə istədim ki,
Kaş cərrah olam!
Ay pəncərədən baxır,
Yatıb körpə, yatıb cavan.
Anam yatmır,
Yatmır anam.
Qara geyinsin bu ağrını,
Qara geyinsin bu acını
Kəsib anamın əlacını.

– ***V*** –

Yenə sızlayır anam
Xəstələrdən utanıram
Mənmi günahkaram?
Yoxsa anam?
Yox, yox,
Nə mən günahkaram,
Nə də anam,

Xəstələr də incimir,
Bu hikkədən,
Hıcqırtıdan
Hələ toxtaqlıq da verir
Anama,
Anamın iniltisindən
Yatmayan qoca, cavan.
Necə böyükmüş insan,
Nə təmizmiş ürəklər
Bir gecəlik yuxusunu
          alsan da,
Bir dünya ümidlə üzə gülər
Bu böyük ürəklilər.

***– VI –***

Ana – bıçaq,
Ölüm – həyat,
Təzada bax!
Bu təzadda oğul ürəyi,
Qız ürəyi
Bu təzadda
Cərrah vüqarının
Əyilməyi, əyilməməyi...
Qohum, qonşu, tanış, yad da
Sənə olur ana, bacı
Bu şara bənzər kürəmizdə
İnsanlardır dərd əlacı!
Sözlər zərif olur
İncələnir sənə qarşı,
Qayğı izləyir səni
Hər addımbaşı
Hansı insafsız
Ürəyi bənzədib daşa?

Daş ürəkli insanmı var?
Od ürəkdən daşmı olar?
Bu qayğılar aləmindən
Kövrək bir baxış
Tavana zillənib
Anam nəsə demək istəyir
Vəsiyyətmidir, nəsihətmidir
Təki olsun nəsihət

Şeiri al yaz, oğlum,
Az yaz deyəcək fəqət!

*– VII –*

Kim deyir ki, can şirindir
Baladan da, baldan da?
Ağrılara sinə gərmək
Dözüm istəyir adamda.
Anam qorxmur ölümdən,
Anam qorxmur bıçaqdan,
Anam qorxur
İyirmi üç yaşlı uşaqdan...
Uşağam ona hələ,
Deyir ana daha vacibdir
Sənə bu gündən belə!
Axı,
Kim razı olar ki,
Nəvəsiz, nəticəsiz
Dünyadan köçə ana?

*– VIII –*

Məni qəmli-qəmli süzmə,
Ay ana,
Göz yaşını
Kirpiyə düzmə,
Ay ana,
Səhərədək Tanrıya yalvarmışam ki,
Əlini əlimdən üzmə,
Ay ana!
Gedir xərəkdə anam,
Gedir xərəkdə laylam,
Gedir xərəkdə dünyam!
O, necə qayıdacaq?

O, gecmi qayıdacaq?
Ağrı
Cərrah stolunda qalacaq,
Anam qayıdacaq,
Həyat qayıdacaq...

***– IX –***

Yuxusu gözündə qalan,
Mışıltımdan ilham alan
İndi bəs niyə yatmır
Məgər laylamı çatmır?
Əgər layla gərəksə
Sənə layla çalaram,
Şirin laylan olaram
Təki yatasan, ay anam!
Heyhat, laylaya möhtacmı
Mənim laylalı dünyam?

***– X –***

Anam gülür,
Bu gülüşdə ağrı yox,
Əzab yox,
Ümid var, həyat var.
Bu gülüşü
Qəlbim daima arzular.
Qaytardı mənə anamı,
Qaytardı laylalı dünyamı
Sadə cərrah, adi bıçaq
İnsan hardan bilsin ki,
Bıçaqdan həyat umacaq.
Bir şair yaxşı deyib ki,
"Bir caninin əlində
Ömrü gödəldən bıçaq
Bir cərrahın əlində
Ömür uzadır ancaq."
Anadır ömür eləyən
İynələrlə gülə-gülə,
O günəş odun qıymasa
İşığın əsirgəsə,
Ətirli təbəssümü
Kim bəxş edər biz gülək?

O anadır
Qayğısını paylayır gülə-gülə,
Payladığı işıqdan

Qaytarıb almaz bir gilə...
Biz nə qədər çalışsaq
Əziz qardaşım, cərrah,
Ona borcluyuq hələ.

O, elə müqəddəsdir,
O, elə əzizdir ki,
Ona baxmaq günahdır
Hər modalı eynəklə.
İnsanda min göz olsa,
Hərəyə bir cürə baxsa,
Anaya bir göz var ki,
O gözlə baxmalıyıq!
Ananı süzmək olmaz
Hər modalı eynəklə,
Ananın gileyini, ananın xiffətini
Sevməliyik ürəklə.

## EPİLOQ

Şairin ölsün, vətən!
Şair xalq otuz ilə
Heç nə aldıra bilmədi,
Düşməni sözlə qandıra bilmədi
BMT qətnamələri,
ATƏT görüşləri
Puç oldu
Düşməni dayandıra bilmədi.
Bu böyüklükdə dünyada
Erməni
Başını dolandıra bilmədi,
Günahını anlamadı,
Yığılıb xarabasına getmədi.
Qarabağ qan əkdi,
Evlərə,
Həyətlərə mərmi səpdi.
Yatdığı yerdə
Raket atəşinə tutuldu Gəncə,
Bərdə naharda,
Terror qurbanı oldu son an,
Uşaqlar beşikdə,

Yelləncəkdə susdu
Terror qurbanı oldu anam.
BMT-də susdu,
ATƏT-də susdu...
Səsimiz eşidilmədi
Karlara qaldı dünya,
Xaraba şəhərləri,
Kəndləri görmədi,
Korlara qaldı dünya,
Gedir xərəkdə dünyam...

* * *

Torpağın üzü soyuqdu,
Çox yarı yarsız qoyubdu,
Əzrayıl bizdən ayıqdı.
Dünya yatmayır döşümə
Üşümə, anam, üşümə.

Bu qış yaman sərt gəlibdi,
Batman-batman dərd gəlibdi,
Namərd qalıb, mərd gəlibdi.
Dünya yatmayır döşümə,
Üşümə, anam, üşümə.

Axır ki, sındı qanadım,
Axır ki, sındı inadım,
Mən də ölümə inandım.
Dünya yatmayır döşümə,
Üşümə, anam, üşümə.

Çay olub axsam da belə,
Nərləri yıxsam da belə,
Lap taxta çıxsam da belə.
Dünya yatmayır döşümə,
Üşümə, anam, üşümə.

Torpağa bata bilmirəm,
Yanında yata bilmirəm,
Mən sənə çata bilmirəm.
Dünya yatmayır döşümə,
Üşümə, anam, üşümə.

* * *

Gözünün yaşı qurumur,
Bəşərin anası yoxdu.
Axar qan damarda durmur,
Bəşərin anası yoxdu.

Yağan mərmi yağışıdı,
Sanki silah yarışıdı
Qalmaqdan getmək yaxşıdı,
Bəşərin anası yoxdu.

Sayı artıb köçkünlərin,
Sayı artıb qaçqınların,
Sayı artıb pis günlərin
Bəşərin anası yoxdu.

Təzə viruslar can alır,
Toy dayanır, yas başlayır.
Neçə beşiklər boş qalır,
Bəşərin anası yoxdu.

Ölkə-ölkə nağıl deyən,
Qitə-qitə nağıl deyən,
Övladına ağı deyən
Bəşərin anası yoxdu.

* * *

Koronavirusdan,
Müharibədən, terrordan
Xəstədir zaman,
Xəstədir məkan
Can, can, can, insan!
Gedir xərəkdə dünyam...

* * *

Bu gecə
Taxtında yatmışam,
Sanki göylərə qalxmışam.

Qalxmışam ki,
Yuxuma gələsən, ana.

* * *

Ana, yuxuma gəldin,
Yuxuma su gəldi,
Könlümə
Yaşıl söyüdlərin
Duyğusu gəldi,

Gəldi torpağın laylası,
Gəldi, torpağın röyası
Gəldi,
Su gəlmiş arxla, su...
Ana, yuxuma gəldin
Bir bəyaz yol
Məni aldı ağuşuna
Burnuma yovşan qoxusu gəldi,
Yorulan,
Yoran dünyanın
Bir şirin yuxusu gəldi...

## *Son söz əvəzi...*

Bəşəriyyətə vəsiyyət və ya özümə bir ağız ağı...

İnsanı çox sevdiyimdən, həmişə ona nəsə demək istəmişəm. Şeirlə deyilən söz ciddi qəbul edilmədiyindən M.Füzuli "şair sözü əlbəttə yalandır" deyib. Heç Avstriya yazıçısı F.Kafkanın "Akademiya üçün hesabat" novellasına da vaxt ayıran olmayıb. Yəqin mənə də eyni yanaşma olar... Mənə insanı sevdirən Tanrıya sadiq olduğumdan, bəşəriyyətə aşağıdakıları bildirməyi özümə borc hesab etdim... Mənim qənaətimə görə, dünyanı yaxşılığa ana və müəllim dəyişdirə bilər, bu şərtlə ki, təklif etdiyim layihəni ölkələr müdafiə etsin, parlamentlər qanunlaşdırsın. Ən azı 50-100 ilə bəşəriyyət yaxşı nəticə əldə edə bilər:

1. Fiziki və zehni cəhətdən sağlam, yüksək səviyyəli ali təhsili olmayan qadına dünyanın heç harasında dünyaya uşaq gətirməsinə icazə verilməsin.
2. Müəllim olmaq istəyən şagird 5-ci sinifdən seçilməli, xüsusi məktəblərdə hazırlanmalıdır.
3. Erməni kilsələri, məktəbləri BMT tərəfindən nəzarətdə saxlanmalıdır.
4. Hər türk ailəsindən bir zabit hazırlanmalıdır. Dünyada ədalətin bərqərar olmasını yalnız türklər təmin edə bilər.

*ŞAİR ŞAİR HAQQINDA*

# İsa Sevərin şeirində ana obrazı

İsa Sevərlə tanışlığımın qırx yaşı var. Bugünkü söz (həm də dostluq) yolunu Bərdənin "Kommunizm yolu" qəzetinin nəzdində "Addımlar" ədəbi dərnəyindən başlamışıq. Bir dəfə İsa Sevərin kəndindən gələn tanışlardan soruşdum: Sizdə bir şair var, İsa Sevər, onu tanıyırsınızmı? "Hə" cavabı alanda, Qocaman Xan Ərəb kəndi ürəyimdə, gözlərimdə bir qədər də urvatlanıb, işıqlanırdı. Axı orda bir şair yaşayır. Bu kənd onun sevgi və nisgil dolu şeirləriylə nəfəs alır həm də... İsa da öz növbəsində bu doğma yurdu yorulmadan tərənnüm eləyir, onu sevə-sevə hər yerə ürəyində daşıyır. İsanın bütün kitablarında, o cümlədən, söhbətlərində elə bir atəşin ana sevgisi var ki, bu sevginin işığında əriməmək, xəyalında bir qüdrətli Ana obrazı yaratmamaq mümkün deyil. Şair dostumun "Dağlar da ağlayırdı", "Yetim segahı", "Ananın duaları" və "Qarabağ simfoniyası" kitablarını son zamanlar təkrar-təkrar oxudum. Qərara gəldim ki, şairin ana sevgisi və yaratdığı Ana obrazı haqqındakı müəyyən təəssüratlarımı bölüşüm. Ana obrazı yaratmaq günəşin zərrələrindən ev qurmaq kimi bir şeydi. Sənət adamları (həmçinin ədəbiyyat adamları) bu məsuliyyəti yaxşı hiss eləyirlər. Ana obrazı yaratmaq, əbədiyyətin (bəlkə də cənnətin) real təsvirini verməkdir.

Ana sözünün, ana qayğısının, ana duyğusallığının ətri, rayihəsi heç bir güldə, çiçəkdə yoxdur. Qanımıza hopan comərdliyin, düşmən önündə əyilməzliyin, dosta sadiqliyin bir qütbü atadırsa, digər təkrarsız tərəfi anadır. Ana rahat və rəvan ömür yolumuzun əbədiyyət çağırışçısıdır.

Şair İsa Sevərin şeirində bu qanunauyğunluğu aksiom kimi qəbul edirəm:

***"Anama qurban olum,***
***düşmən önündə diz çökməyə qoymaz,***
***dost önündən düz keçməyə.***
***Ağır-ağır yığnaqlara sözünü usta toxuyandı,***
***yaxşını yerişindən, yamanı duruşundan***
***oxuyandı..."***

İsanın anası (və ya yaratdığı ana obrazı) müəyyən fərdiliyi ilə seçilir. Bu gün ana haqqında əsər yazmaq və bu axında seçilmək, məncə, bir hünərdir!

İsa Sevərin "Laylalı dünyam" poemasını oxuyarkən bir kəndin deyil, bir ağır yığınaqlı elin anası xəyalımda canlanır:

***"Oğul doğ, anam, oğul doğ,***
***Ərdəbildə şah Xətai,***
***Gəncədə Cavad xan oğuldu...***
***Oğul doğ, anam, oğul doğ,***
***adımıza, odumuza kölgə düşməsin,***
***yağılar döyüş yeri***
***torpağımızı seçməsin!"***

İsa Sevər bunu anladığına görə "Anamın Allahı qoruyur məni!" – deyir.

***“Qalxıram zirvəyə arxayın-arxayın,***
***enirəm dərəyə arxayın-arxayın.***
***Yoluma yüz qaya yıxmayın, məni aşağı dartmayın,***
***Yuxarıda anamın Allahı var...***
***çəkməyin ayağımdan, arxalılar, arxayınlar, a xainlər!..***
***Anamın Allahı qoruyur məni!”***

İsa Sevərin vəsf etdiyi ana öz ziyasıyla həm də qütbləri qaranlıq bir dünyanın işıq obrazı, nur obrazıdır. Onun bir əli süd sağırsa, o biri əli “yer kürəsinə işıq sağır”:

***“Barmaqları süd sağan, işıq sağan,***
***ağacların barı anam.***
***Əl qabarını qamarlayıb dananların sifətinə***
***öyən anam.***
***Yekə-yekə kişiləri arvaddan fərsiz görəndə***
***dizlərinə döyən anam!”***

Yaxud başqa bir yerdə bu Ana həm zəhmətin, həm də qürurun təcəssümüdür.

***“Sən tarlasan, sən zəmisən,***
***nə nadana əl çalmısan,***
***nə yatağa əyilmisən,***
***bizi qürurlu böyütmüsən.***
***Biz də sənin barlarınıq,***
***biz də***
***tarlayla boy atmışıq,***
***biz də***
***zəmiylə böyümüşük,***
***mənim anam!”***

Şairin “Laylalı dünyam” poeması orijinal və qeyri-adi təqdimatla başlanır:

***“Öd kisəsi,***
***zəhər düyünçəsi,***
***dərdimizin***
***anamdakı hissəsi***
***kəsilib atılmalıdır,***
***Bu, cərraha asandır,***
***uğursuz bir iş günü kimi,***
***60 yaşlı cərrahın***
***təcrübə ölümü kimi”.***

Poemada bir neçə obraz: cərrah, ağrı, oğul obrazları və ölümlə həyatın əlbəyaxa səhnəsi var. Nigaran oğul obrazını şair əsərin ikinci qəhrəmanı kimi təqdim edib. Oğul Ananın bütün ağrılarını öz ağrısı kimi yaşayır:

***“Anamın ağrıları***
***inlədir könlümü,***

***ağlaya bilmirəm için-için,***
***qurumuş dodağına***
***su da olmaz***
***bircə içim,***
***həkimlərin səbrinə dözdükcə,***
***yanır, qovrulur içim!”***

Poemanın finalı xoşbəxt sonluqla tamamlanır. Cərrahın əliylə şəfa tapan ana öz rəngarəng, acılı-şirinli dünyasına qovuşur. Oğlunu çarpayısının başında görür. İkinci qəhrəman – oğul, ananı yatırmaq üçün ona layla çalmaq istəyir. Həm də onu qeyri-adi bir duyğu yaxalayır. Laylasıyla böyüdüyü ana indi onun laylasına möhtacmı?!

***“Əgər layla gərəksə,***
***sənə layla çalaram.***
***Şirin laylan olaram –***
***təki yatasan, ay anam!***
***Heyhat,***
***laylaya möhtacmı***
***mənim laylalı dünyam?!***

İsa Sevərin, bəlkə də, bütün şeirlərindəki ananın dilində xeyir-dua var, ananın nisgili hiss olunur. Onlar İsanın özü boyda, öz mənəvi əzabları, dərdləri boydadır. Bunları hiss etmək, duymaq üçün təkcə yazıcı olmaq, filoloq olmaq yox, həm də fəhmli oxucu olmaq yetərlidir.

Bu məqamda – İsanın anasız dünyasından bir azca danışmazdan əvvəl, Hüseyn Arifin “Analar” şeirinin bir bəndi yadıma düşdü:

***“Özüm də bilmirəm, Hüseyn, niyə?***
***başımın tüstüsü çəkilir göyə.***
***torpaqmı anasız qalmasın deyə,***
***Torpağın qoynuna köçür analar?”***

İsa Sevərin analı, anasız şeirləri çoxdur. Onların hamısı böyük ağrı və böyük eşqlə yazılmışdır.

Göyçək ananın (müəllifin anasının) dəfnindən sonra yazdığı “Üşümə, anam, üşümə!” şeiri böyük ana sevgisinin, ana unudulmazlığının nümunəsidir – fikri, şairə, onun poeziyasına çox yaraşır:

***“Torpağa bata bilmirəm,***
***mən sənə çata bilmirəm,***
***yanında yata bilmirəm,***
***üşümə, anam, üşümə!”***



Göyçək ananın dünyasını dəyişdiyi il yadımda deyil. Onu bilirəm ki, bu xəbəri mənə günün şər vaxtı verdilər. Elə bildim öz anamı itirmişəm...

Şair İsa Sevərə bu ağrılı, nisgilli, bu həmişəyaşar ana şeirlərinə görə ürəkdolusu “Çox sağ ol!” düşür.

***Rizvan NƏSİBOĞLU***

*Vüsal NURU*



# Ağdam olmaq

***Bakı...***

Bir vaxtlar arzularımın şəhəri Bakı! Onda hələ belə gözəl deyildi. Hələ küçələri adamların gülüşünə boyanmamışdı. Hələ ürkək baxırdı eyvanları, pəncərələri. Dənizi də əhvalı kimi durulmurdu, küləyi qərənfil ləçəklərini sovururdu...

Xəyal qurmuşdum, bir yeniyetmə ağlıyla, şipşirin, bal kimi xəyal. O xəyallarımın həqiqətə çevrilən məkanı Bakı idi. Oynamaq istəyirdim, bütün yaşıd doğmalarım bura köçmüşdü. Ali təhsil almaq istəyirdim, ən yaxşı universitetlər paytaxtda idi. Yazıçı olmaq istəyirdim, redaksiyalar Bakıda, redaktorlar Bakıda. Efirdən görünmək istəyirdim, mavi ekranın qapısı burdan açılırdı. Sevmək istəyirdim, ən gözəl qızlar Bakıda yaşayırdı. Ağcabədinin balaca bir kəndindən, balaca bir yad evindən baxanda Bakı əlcatmaz arzuya dönmüşdü. Bu arzu metastaz verdi, məndə psixoloji travmaya çevrildi. Hər sözümün başı-ayağı Bakı oldu: "Ana, çay ver, Bakıya gedirəm." “Gedim yatım, səhər Bakıya gedəcəm”... Kim hara getdiyimi soruşsa, “Bakıya” deyirdim. Silsilə yuxular əl çəkmədi yaxamdan. Hər dəfə sonu eyni nəticələnən yuxular gördüm; kimsə, necəsə məni aparırdı, amma Bakıya çatanda geri qayıdırdım. Bir dəfə yük maşınına minmişdim. Ağdamdan qaçqın gedən belə maşınları tez-tez görürdüm axı. O maşın Bakıya çatmadı, lap az qalmış dönüb qayıtdı, mən də deyirdim niyə qayıdırsan? Qışqırıb oyandım. Bir dəfə Bakıya çatan avtobusdan atam düşürdüb, döydü məni. Ağladım yuxuda, gözümdən yaş aşkara süzüldü... Atamın maşınını da qaçırtmışdım Bakıya, yenə çatmadım. Yollarda azdım, sonra aşdı maşın...

Sonralar arzularımın şəhərinə cismən köçsəm də, qurduğum xəyalları yaşasam da, silsilə yuxularımda yenə Bakıya çatmırdım. Yaxın-uzaq səfərlərdən Bakıya qayıdanda elə bil ciyərim açılırdı, dərindən nəfəs dərirdim. Elə bilirdim havam burdadı. Elə bilirdim bir gün Bakıya gəlib çatmasam, ölərəm.

### *Bakı...*

İndi mənə həbsxana şəhərim. Sürgün olunduğum şəhər! Geniş küçələri əynimə dəli köynəyi kimidi. Boz, bomboz görünür rəngi-ruhu. Bir-birinin bəhsinə boylanmış binalar türmə gözətçiləri kimi məni izləyir. Hələ hasarlar... Çin səddinə çevrilib. Dənizi boğur məni, küləyindən zəhləm gedir. Nə efirində görünmək arzum qalıb, nə də redaksiyalarında tərifIənmək.




O qapı açıldı, 27 il bağlı qalmış qapı. İndi mənim günəşim dənizdən yox, o qapının arxasından doğur, şəfəqləri yol olur. O yol uşaqlığıma aparır məni; Aid olduğum torpağa – Ağdama. Əvvəl bu hiss, bu duyğu olmayıb məndə. Cücərən kimi tapdanıb, çarəsizliyin ayaqları altında əzilib. İnanmamışam əsir Ağdam azad olar. Deyirdim, o da Zəngəzurun, Dərələyəzin, İrəvanın cərgəsinə qoşuldu getdi. Üstündə xəyal qurulası bir ovuc ümid qalmamışdı, yandıqca külünü illər sovururdu. Xatirələr var idi; o da zaman kimi əksimə işləyirdi. Yaddaşımda bir yara qalmışdı, xatırladıqca qanayırdı. Hönkür-hönkür ağlaya bilmədiyim yerlərdə boğazıma yığılan qəhərin nəmi ürəyimə, ruhuma hopurdu. Bütün duyğularım revmatizm olmuşdu. Hər şeydən çox xəcalət var idi; arvadın da, uşağın da, dostun da, düşmənin də yanında utanırdım. Utanırdım deyə, unutmaq istəyirdim. Amma zəncirlər qırıldı, şəhid qanında əridi nəhəng qıfıl, açıldı o qapı. Üzümüzə açıldı! Hər şey dəyişdi.

### *Noyabr. 19-u, 20-sinə keçən gecə...*

Bakıdan qaçıb Ağdamın sərhədində, lap köhnə səngərlərdə dayanmışdım, gözləyirdim. Həmən gün Ağdam bizə qayıdırdı, biz ona yox. Əsirlikdən, sürgündən azad olurdu. Həmən gün, həmən gecə qoşunlarımız alqışların altında, duaların içində minaya düşmüş şəhəri qarşılamağa getdilər. Biz... Eh, biz yazıq! Yazıq biz!.. Ağlamaqdan başqa adamın çarəsi olmur bəzən. Elə gözlərindən axıb getmək istəyirsən... Amma budəfəki ağlamaq deyildi; hönkürtülər nalə deyildi, zənguləydi, göz yaşı duzlu deyildi, qara üzüm şirəsiydi.

Qəhərin illərdi ürəyimə çökən, ruhuma hopan nəmi çıxdı canımdan. Nə adamlar, nə məkan, nə yaş, nə də dost-tanış gözə görünürdü ki, deyəsən, yekə kişiyəm, ayıbdı.

Buraxmadılar bizi Ağdama. Nolar, canları sağ olsun! Dedilər, ayaq basmaq olmaz, yarası təzədi, hər addımda qanaya bilər. Gedin, dedilər, sağalsın, sonra gəlin. Getdik, dünyanın ən qürurlu, ən cəsur, ən xoşbəxt adamları kimi dağılışdıq. O gündən ümid Ay kimi doğdu içimin zülmətində. Atdığım hər addım Ağdama düşdü. Arzularım Ağdama uzandı. Sözümün başı da, ayağı da

Ağdamdı: "Ana, çay ver, ana, Ağdama gedirəm”. “Ağdama gedəndə eləyərəm”. “Ağdamda bundan yaxşısını alacam”. “Hə, qızım, Ağdam dünyada ən gözəl şəhərdi”... Kim hara getdiyimi soruşsa, qeyri-ixtiyari “Ağdama” deyirəm...

### *Bakıya qayıtmaq...*

Bu hal məndə ilk dəfə idi; Bakıya çatanda boğuldum, oksigenim kəsildi. Balasını əsgərlikdə, müharibədə, davanın-savaşın içində qoyub gələn ata kimi hiss elədim özümü. Canımın canı orda qaldı. İlk dəfə idi Bakıya çatmaq istəmirdim. Onda başa düşdüm ki, doğulduğun torpağa aid olmaq nədir, torpağı sevmək nədir?! Heç vaxt Ağdam haqqında səhifə-səhifə yazmamışam. Deyirəm də, utanmışam! Kürsülərdən “Ağdam! Ağdam!” deyib ağız dolusu danışmamışam. Utanmışam! Ağdam üçün vay-şivənlə hönkürüb ağlamamışam. Utanmışam! İçimə axıtmışam Ağdamı, gilə-gilə. Özümə pıçıldamışam Ağdamı, ruhumun qulağına. Yazdığım hər yazıda sözlərin arasındakı ağ boşluqlarda gizləmişəm Ağdamı. Bu gün qürurluyam.



Bu gün... Bu gün utanacaq bir qəbahətim yoxdur, şəhidlərin qanıyla yuyuldu alnımızdakı ləkə. Bu gün səsimin çatdığı qədər “Ağdam!” – deyib bağırmaq istəyirəm. Nə xəyalımda dünyanın şöhrəti var, nə “Fəxri Xiyaban” var arzumda, nə də Allahın cənnəti. Bütün arzularımın, xəyallarımın, planlarımın başında Ağdam var; bir qəbir olmaq, qarışıb Ağdam olmaq var. Sümüklərimlə o torpağa sancılmaq istəyirəm; Qəbir olmaq istəyirəm, bir də məni o torpaqlardan heç bir düşmən qova bilməsin. Yenidən Ağdamda doğulmaq istəyirəm; bir ot oldum, bəlkə... Bəlkə, bir kol, bir çiçək...

### *Bakı... Ağdam...*

Mənə isti qucağını açan şəhərim! Yetimi bağrına basan şəhərim! Məni arzularımla böyüdən, məni çoxaldan şəhərim! Bağışla məni, Bakı, mən Ağdama dönürəm.

*Fərid HÜSEYN*



# Belə demək mümkünsə...

### *Peşmanlıq pilləkəni*

– "Sirlər xəzinəsi"ndə şah bayquşların söhbətindən sonra həqiqətlərdən agah olur. Bu halda sanki insan həqiqəti anlamaq sarıdan heyvan yaradılmadığı üçün peşman olur.

– "Xosrov və Şirin"də Şirinin ağlını görən Xosrov əvvəlki meşşan həyatından utanaraq xaraktercə dəyişir. Sanki kişi, qadın müdrikliyi nəticəsində başqalaşır. Xosrov, Şirin kimi olmadığına, yəni bir kişi, qadın kimi yaradılmadığına görə peşman olur.

– "Leyli və Məcnun"da Məcnun Leylini sevəndən sonra həyata baxışı dəyişir. Yəni məcnunlaşan Qeys də özü olmaqdan peşman olur.

– "Yeddi gözəl"də Bəhram şah hər gecə bir gözəldən eşitdiyi əhvalatla başqalarının halını anlayır, dünyadakı insanların aqibətini başa düşür. Və özü də başqaları kimi olduğundan peşman olur.

– "İsgəndərnamə"də şah heç kəsin bu dünyada əldə edə bilmədiklərini qazanmaq istəyir. Bu yolda çalışır, fərqli durumlarla üzləşir. Axırda da hamıdan fərqli olduğu üçün peşman olur.

### *Əmanət*

Nizami Gəncəvinin, eləcə də digər klassiklərin əsərlərinin filoloji tərcümələrinin mütləq dəqiqliyinə iddia etmək olmaz. Çünki poetik təfəkkürdə yazılan əsər, bizim anlayacağımız sadə mənaya qədər çox böyük yol keçir və həmin yolda nələrisə itirir, yaxud əksinə. Yəni poetik sözün bizim anladığımız şəkli – mənası hələ o demək deyil ki, o, həqiqi məğzdir, məhz müəllifin demək istədiyidir. Çünki poeziyanın xəyalda canlandırdığını "məna elmi" real bir nəsnə kimi bizim üçün əyaniləşdirir. Unutmayaq ki, Nizaminin əsərləri poetik əsərlərdir. "Səma niqabını eylədi kənar" misrasını – "Gün çıxdı" kimi tərcümə etmək və mənaya dirsəklənib arxayınca mürgüləmək olmaz. Bu prinsip kütləvi aktuallaşıb deyə, indiki əksər şeirlərdə məna var, ruh yoxdur. Çünki indiki şeirlərin mahiyyətini müəllif əvvəlcədən özü üçün aydınlaşdırır – ona mənanı sanki əli ilə yükləyəndən sonra yazır. Nizami əsərlərində “məna elmi” ifadəsini işlədir. Klassiklər mənanı "elm" kimi qəbul edirdilər, elm isə poeziya demək deyil. Nizamini şair kimi sevməli olduğumuz məqamda, sadəcə, alim kimi qavramağımız bizimlə onun arasındakı uçurumu daha da dərinləşdirəcək.

Ortaq nöqtə isə var: Sadəcə, "maksimalizm cığırından" geniş yaradıcı yola adlamaq kifayətdir...

### *Kim olmalı?*

Cerom Devid Selincerin "Çovdarlıqda uçurumdan qoruyan" əsərinin ideyası Məhəmməd Füzulinin "Rindü Zahid" əsərinin mahiyyəti ilə oxşardır. Çox güman ki, Selincer dahi Füzulinin əsərlərini oxumamışdı. Selincerin qəhrəmanı Holden Kolfild cəmiyyətdə özünə yer tapa, məşğul olacağı sənət seçə bilmir. Bir-bir bütün sənətlərin, peşələrin mənfi tərəflərini tapır və sonda qərara gəlir ki, ən təmiz iş, təmənnasız məşğuliyyət çovdarlıqda yıxılmaq üzrə olan uşaqları qorumaqdır.

Zahid də Rində bir neçə peşəyə yiyələnməyi məsləhət verir, Rind həmin sənətlərin naqis cəhətlərini bir-bir vurğulayır. Hər iki əsərdə əsas ideyalardan biri budur ki, məşğul olduğumuz sənətlər, peşələr bizi günaha batmağa sövq edir. Biz hansısa işlər naminə çalışdıqca "günah peşəkarlarına" çevrilirik. Qazandığımız təcrübələr bizə günaha batmaq üçün əlavə imkanlar açır. Selincerin fikrincə, təmiz olan ancaq uşaqlardır, uçurum isə onların böyüyüb sahib olacaqları sənətlər, yiyələnəcəkləri peşələrdir. Rind də düşünür ki, həyatın verdiyi şansları, imkanları peşələrimizlə əldə edirik. Peşələr günaha açılan qapılardır. Hərə həmin qapılardan birindən keçib, hansısa sənətin yiyəsi olur. Yaşamaq istəyimiz, sonrasa daha yaxşı yaşamaq arzumuz hərəmizin kürəyindən itələyərək bir günah qapısından içəri salır. Və beləcə, hər dəfə bir uşaq yıxılır...

### *İkibaşlı yozum*

Orxan Pamuk "Yeni həyat" romanının süjetini Məhəmməd Füzulinin bu misralarını tərs yozaraq qurub:

***Ya Rəb, mənə cismi-can gərəkməz,***
***Canan yox isə cahan gərəkməz.***

Bu misraların dini yozumunda Canan sözü – Allah kimi yozulur. Amma dünyəvi yozumunda Cananın – sevdiyin birinin (daha doğrusu, sevdiyin bir şeyin) olmadığına görə dünyadakı hər şeydən imtina nəzərdə tutulur. Orxan Pamuk "Yeni həyat"da göstərir ki, baş qəhrəman bir kitab oxuyur və bütün həyatı dəyişir. Sanki başqa dünyanın adamına çevrilir – yəni Füzulinin dünyəvi şərhində olduğu kimi, "cahan gərəkməz" fikrinə gəlir, köhnə həyatı ilə əlaqəsini itirir. Pamukun nəzərincə, dini qruplaşmalara, terror təşkilatlarına üzv olan gəncləri Cananın – yəni arzuların dalınca gedib, Cahanlarını – yəni öz dünyalarını, ənənəvi həyat tərzlərini itirirlər. Ancaq Pamuk əsərin sonunda məhv olan insanları göstərməklə həmin qəzəlin irfani şərhinin doğru olduğunu göstərir. Yəni Cananı – Allahı itirən, Cahanı – yəni dünyasını da itirir. Pamuk romanın süjetini qəzəlin dünyəvi mənasında, mahiyyətini isə, irfani anlamda oxucuya çatdırır. Həmin qəzəlin adı çəkilən əsərdə yer alması isə, qətiyyən təsadüfü deyil.

### *Parçalanan "dəli"*

F.M.Dostoyevskinin "Gizlindən qeydlər" əsərinin qəhrəmanının yaşantıları, düşüncələri və xarakteri o qədər zəngindir ki, həmin qəhrəmanı müəllif "obrazlara parçalayaraq", onun yaşantılarını isə "süjetlərə bölərək" sonrakı 5 əsas

romanını yazıb: "Cinayət və cəza", "İdiot", “Şeytanlar", "Yeniyetmə" və "Karamazov qardaşları".

Dünya ədəbiyyatında özündən sonra bu qədər əsərin "yaranmasına", bunca obrazın "törəməsinə" səbəb olan bədii nümunə azdır. Müəllifin sonuncu romanı "Karamazov qardaşları" əsərinin yarımçıq qaldığını da nəzərə alsaq, Dostoyevski "Gizlindən qeydlər"in "qalıqlarını" sonrakı bütün yaradıcılığı boyu yazıb bitirə bilməyib...

### *Zaman axtarışı*

Frans Kafka və Marsel Prusta qədər naturalizm daha çox təbiətə aid edilirdi. Adı çəkilən iki müəllifin yaradıcılığı ilə naturalizm həm də zamana şamil olundu. Kafkada hadisəsizlik fonundakı "donmuş zaman", Prustda "gizli, yaxud şüuraltıda hərəkət edən vaxt"da bir sıra təsvirlər, "ətraf mühit" sıxışdı. Beləcə, modernizm özündən əvvəlki bir sıra ədəbi cərəyanların şərtiliyini sübut etmiş oldu.

### *Ən... Ən...*

Poeziyada “ən çox”, “hamıdan çox”, “hər kəsdən güclü” kimi ifadələri heç zaman sevməmiş və onların dürüst olmadıqlarını düşünmüşəm. Çünki “nə hamıdan güclü”nün kim olduğunu bilə bilərik, nə “ən çox”un qədərini dəqiq söyləmək mümkündür, nə də “hamıdan çox” barədə qəti fikir yürütmək asandır. Bütün bu cür ifadələr şeirdə subyektivizmi gücləndirən amillərdəndir, daha çox dünyaya dar çərçivədən baxanlar üçün məqbul miqyaslar, ölçülərdir. Amma Vaqif Bayatlı Odərin şeirlərində “hamıdan çox”, “ən aydın göy üzü”, “Allahın ən çox sevdiyi” kimi ifadələr maksimalizm kimi səslənmir, ifratavarma təsiri bağışlamır, ən əsası, ikrah doğurmur. Çünki onun dünyası bizim dünyamızdan fərqlənir və o, öz dünyasından çıxış edərək nəyin “ən çox” olduğunu, kimin “ən çox sevdiyini”, haranın “ən uca” olduğunu deyir, nəticədə ona məxsus olan aləmin bələdçisi rolunda çıxış edir. Və o, bizi rəngarəng poeziyası ilə növbəti dəfə fərqli düşünməyə vadar edir ki, poeziyada maksimalizm meyilləri ikrah doğurmaya, şərti mahiyyət daşımaya, əlavə təsbitlər tələb etməyə də bilər.

### *Oğurluq sənəti*

XXI əsrdə bir sıra sənət sahələrində sevilmək göstəricisi sanki oğurluqla ölçülür. Müğənninin mahnısı nə qədər oğurlanırsa, deməli, onun musiqisi o qədər sevilir. Yazıçının romanlarının pirat nüsxələrinin sayı onun yaradıcılığına olan rəğbətdən xəbər verir. Hətta ilin dəbini oğurluq rəng kombinasiyalarının hansı səviyyədə kütləviləşməsi müəyyən edir.

### *Absurd mələyi*

Absurd əsər tamaşaçıya, oxucuya ünvanlanmayıb. Absurd, sadəcə, düşüncənin formasıdır. Biz onu rasional düşüncə ilə anlamağa, mənalandırmağa çalışanda onun forması itir, dəyişir. Sanki tamaşaçı anlayaraq əsərin məzmununu başqalaşdırır, müəllif təqdiminə müdaxilə edir. Absurd barədə ən böyük absurd onun tədqiq və şərh etməkdir. Absurdun əsl məqsədi anlaşılmaz olanı “anlamayaraq” qəbul etməkdir. Absurd, əslində, ifrat romantikadan başqa bir şey deyil. Sadəcə, biz romantikanı qəlbimizdə əziz tuturuq, ona müqəddəs hisslərin bəyanı kimi baxırıq, romantikanın ifrata vardığını görən kimi ona "absurd" deyirik. Necə ki, bir insan arzularla

yaşayanda xəyalpərəst, romantik olur, amma qeyri-real arzulara inananda dəli təsiri bağışlayır. Absurd, dəlirmiş romantikadır.

### *Əsas fərq*

Detektivlə ciddi ədəbiyyatın əsas fərqi budur: detektivdə qatil şəxs, oğurluq hadisə, müəllifsə müstəntiqdir. Ciddi ədəbiyyatda isə qatil qəhrəman, oğurluq tale, müəllifsə elə müəllifdir.

### *Qəribə qayıdış*

XXI əsrdə ilk yazı növü olan şəkli yazıya kütləvi qayıdış oldu. Sosial şəbəkələrdə, yazışmalarda hər gün hiss və düşüncələri, duyğuları, emosiyaları ifadə edən yüzlərlə duyğu işarələri istifadə olunur. Əgər ilk şəkli yazı dilin mövcud olmamasından yaranmışdısa, bugünkü şəkli yazı dildən – sözdən imtina ilə aktuallıq qazandı. Dünya tərs metodlarla öz ilkinliyinə qayıdır...

### *Özünüqoruma qaydası*

Dillər nə qədər çox dialektə parçalanırsa, onun məhvolma təhlükəsi bir o qədər azalır. Dilləri sıradan çıxartmağın ən sınanmış yollarından biri də "vahid ədəbi dil" yaratmaq fikri ilə dialektləri həddən artıq sıxışdırmaqdır. Latınların, Cənubi Amerika xalqlarının bəzilərinin dilləri bu cür "ölüb..." Sanki ağacın bütün qol-budağını kəsib, yalnız gövdəsini saxlayırsan və bu halda onu kəsmək, yox etmək daha asan olur. Latın dili "öləndən" sonra İtaliya (Avropa) bu problemin fərqinə vardı, indi "ata" sözünü 12-13 formada (dialektdə) tələffüz edirlər. Qohum dillər dialektlərin sayəsində formalaşır.

### *Qloballaşmanın umacağı*

Disklər, kasetlər daha müğənnilərə pul gətirmir. Kataloqlar, rəsm albomları diqqət çəkmir, rəssamların ayrı-ayrı rəsm əsərləri müzakirə edilir. Akademik nəşrlərin, çoxcildliklərin ancaq ehtiyac duyulan sayları saxlanılır, qalanı əksərən atılır. Yəni XXI əsr insanı üçün rəsmləri bir damın altına toplayan albomlar, musiqiləri bir çətir altına cəmləyən disklər, əsərləri eyni ocaq başına yığan kitablar gərəkli deyil. Sanki XXI əsr insanı sənətkardan seçilmiş (sevilən) əsəri tələb edir, bütöv şeiri yox, şah beyti umur. Yəni XXI əsr insanı sənəti eyni damın yox, eyni qübbənin altında görmək istəyir. Bununla da qloballaşma dediyimiz şey sənət sahələrində öz missiyasını umduğu səviyyədə həyata keçirmiş oldu.

### *Əsrlər*

İnsan dünyanı əvvəlcə yeriyərək, sonra at belində, sonra avtomobildə, axırda da təyyarələrdə seyr etdi. Sürət artdıqca insan gördüklərinin yanından daha iti keçdi. Nəticədə, daha az şeyə əhəmiyyət verməyə başladı. Sürət də bir növ, biganəlikdir.

# YAŞAR RZAYEV



«Uçun, uçun, göyərçinlər! Uzaqlara, lap uzaqlara gedin. Səma necə də geniş, necə də sonsuzdur. Eh, əgər mən sizin yerinizdə olsaydım… bilirsiniz haralara uçardım? Ulduzlara. Bilirsiniz, ulduzlarda nə var? Bilmirsiniz. Mən də bilmirəm. Bilmək istəyirəm. Amma qanadım yoxdur. Siz isə qanadlısınız, göyərçinlər. Uçun, uçun!»

Onun «Gecə eşalonu» adlı ilk kitabındakı (1972) bu lirik ovqat, romantik duyğuların təsviri sonralar yaradıcılığında fərdi üslubunu müəyyənləşdirən əsas xüsusiyyətlərdən birinə çevrildi. İnsan ürəyinin təmiz və saf hisslərini, duyğuların gözəlliyini qələmə aldı və sonralar da yazdığı nəsr əsərlərində heç bir vaxt yalançı sentimentalizmə, bayağı, şirnikləndirici açıq-saçıqlığa aparmadı. O, sovet dövrü «romantikasının» zorla oxuculara sırınan süjetlərindən imtina etdi, heç bir əsərində «müsbət sovet adamı» obrazı yaratmadı, sadəcə olaraq, insanı köksü altında döyünən ürəyinin «ərazisində» təsvir elədi – sevgisini də, gün-güzəranını da, sevincini, kədərini də, həyati qayğılarını da …

Bu, yetmişinci illərin gənc yazıçısı Yaşar Rzayev idi.

1981-ci ildə Yaşar Rzayevin «Əks-səda» adlı ikinci nəsr kitabı işıq üzü gördü. Bu kitabda Yaşar Rzayev artıq püxtələşmiş – fərdi üslubu formalaşmış bir nasir kimi diqqəti cəlb edirdi. Xüsusilə, onun hekayələrində bitkin bir süjet, təqdim etdiyi obrazların özünəməxsus səciyyəsi və həmin lirik ovqat bu yazılarda da diqqəti cəlb edirdi. Məsələn, «Ana ömrü» hekayəsi çox təsirli idi. Məşhur professor Əbilov – bu şöhrətli alim və həkim indi öz gözəl günlərini yaşayır. Amma onu bu zirvəyə qaldıran, 47 yaşında dünyasını tərk edən anasıdır. Hər ay altmış manat maaşının düz yarısını oğluna göndərən ana… O ana ki, oğul qayğısına möhtac idi. «Əhmədağa Əbilov bir müddət yerindəcə donub qaldı. Birdən əzabla xatırladı ki, anasının şəklini indiyəcən hələ də böyütdürməyib. Yumruğunu düyünlədi. Pəncərəyə yaxınlaşdı. Əhmədağa düşündü ki, yoldan keçənlərin ən azı hər üç nəfərindən birinə onun adı tanışdır. Amma anasını – o yazıq qadını isə heç kim tanımır, özündən və bir neçə həmyerlisindən başqa heç kim xatırlamır… Heç kim...

Heç kim də bilmir ki, professoru bu mərtəbəyə həm də o yazıq qavdının boğazından kəsib göndərdiyi manatlar, qəpiklər ucaltmışdır». Bu hekayə Əli Kərimin «Qaytar ana borcunu» şeirini xatırladır.

«Əks-səda» povestini oxuyanda isə müharibədən sonrakı illərin gəncliyini xəyalıma gətirdim. Ağır sınaqlar dövrünü yaşayan gənclərin həyatın sərt realizmi ilə gələcəyə boylanan romantik duyğuları arasında təzadlı ömürlərinin şahidi oldum. Real həyat acı idi: ehtiyacla dolu bir ömür-gün, çıxış yolu tapmaqda acizlik... Romantik duyğular isə o qədər şirin və gözəl idi ki, o reallıqları unutdururdu. İnsan təmiz olurdu, paklaşırdı. Və təsadüfi deyildi ki, Yaşarın povestinin qəhrəmanı sonda da bu təmiz duyğularla gözümüzdə ucalır. Ümumiyyətlə, Yaşar Rzayevin bir povestindən də söz açmaq istəyirəm. «Dəryada gəmim qaldı» – bu povestdə müəllif bir rayon və bir kənd daxilində baş verən hadisələrdən söz açır. Müxtəlif talelər – müxtəlif, bir-birinə bənzəməyən insan xarakterləri. O, sübut etmək istəyir ki, əsl insan hansı şəraitdə, hansı zamanda olursa-olsun, onu heç bir qüvvə öz vicdanının əleyhinə getməyə məcbur edə bilməz. İnsan aldana bilər, səhv edə bilər, lap böhtana düşüb həbs oluna bilər, amma bütün bu məhrumiyyətlər onun insanlıq ləyaqətinə xələl gətirməz. Povestdəki Zeynəb və İmran obrazları bu fikrin əyani sübutudur.

Yaşar Rzayev sonrakı illərdə hekayə janrında uğurlarını davam etdirdi. Hətta deyərdim ki, onu bir nasir kimi tanıdan da hekayələri oldu. Elə hekayələr ki, onları bir kimsə yox, ancaq Yaşar Rzayev yaza bilərdi və yazdı. Məsələn, «Sözsüz mahnı» hekayəsini. Hekayənin qəhrəmanı Fərzulla uzun illər öz doğma kəndindən ayrı düşüb, şəhərdə elmlər namizədi olandan monra özü yabançı bir illüziyaya qapılıb. Amma bu illüziya onun kəndə gəlişindən sonra alt-üst olur. Fərzulla hiss edir ki, kənd də dəyişib, adamları da, adamların psixologiyası da. «Aylı gecə, sərin külək, göy çəmən..» ancaq mahnıda qalıb. Və Y.Rzayev həmin dəyişməni, mənəvi-psixoloji qarşılaşmanı ustalıqla canlandıra bilib...

Yaşar Rzayevin ən maraqlı, hətta digər hekayələrinə də nümunə ola biləcək «Vəlinin kupletləri»dir. Əlbəttə, bu hekayədə Anarın «Dantenin yubileyi» əsərinin də təsiri hiss edilir. Hər iki hekayədə uğursuz, həyatda bəxti gətirməyən adamın taleyi qələmə alınıb. Amma «Vəlinin kupletləri»ndə Feyzulla Kəbirlinski tipinə başqa rakursdan nəzər salınır. Feyzulla Kəbirlinski, əslində, istedadsız adamdır, lakin bu istedadsızlıq onun daxilindəki mənəvi gözəlliyin işığını azaltmamışdır. Səhnəyə böyük məhəbbət bəsləyən Kəbirlinski bu yolda hər cür təhqirə də dözür. Yaşar Rzayevin qəhrəmanı Xalıq isə istedaddan məhrum deyil, elə bircə «Arşın mal alan»dakı Vəli obrazı onu şöhrətləndirə bilərdi. Lakin Xalıq böyük aktyor olmaq əvəzinə, əyalət teatrının qarderobçusuna çevrilir. Beləliklə, böyük səhnə, əslində, onun şöhrətini qaldıra biləcək bir istedaddan məhrum olur. Lakin hekayədə əsas məqsəd Vəlinin tapleyinə heyifsilənmək deyil, bəlkə də bu adamın artıq sönüb getməkdə olan inamını özünə qaytarmaqdır. Xalıq son dəfə səhnəyə qalxır, öz sevimli rolunu oynayır. Ona hamı əl çalır, hamı onun oyunundan vəcdə gəlir, lakin… evlərinə getməyə (özü də yağışlı havada) ona maşın tapılmır...Mətləb aydındır.

Hekayənin bir məziyyəti də onun psixoloji effekt doğurmasıdır. Biz Xalıqın daxili monoloqları ilə tanışlıqda onun bilavasitə öz həyat prinsipi, insan-

lara münasibəti, səhnəyə, teatra məhəbbəti və şəxsi kədəri ilə üzləşirik. Bütün bunlar obrazların qarşılıqlı münasibətlərini tənzim edən hərəkət və dialoqlarda da verilə bilərdi, lakin müəllif artıq xatirəyə dönən hadisələri Xalıqın düşüncəsi fonunda reallaşdırır.

Yazıçı üçün ən böyük vəzifə elə yazıçılıqdır – qələm, kağız, sonra qələmin kağız üzərində dövr etməsi, sonra özünü yazıçı kimi də təqdim etməsi. Biz bunu Xalq yazıçısı Elçin Əfəndiyevin timsalında görmüşük, o, iyirmi ildən artıq böyük bir vəzifə səlahiyyəti daşıyırdı, amma sevdiyi ədəbiyyatdan ayrılmadı, yenə əvvəlki şövq ilə yazdı, yaratdı. Bəs Yaşar Rzayev necə? Çünki o, yetmişinci illərin əvvəllərində partiya işinə keçdi, sovet-partiya sisteminin pillələrini aram-aram qalxmağa başladı. Amma iyirmi il yazıçı müvazinətini saxladı. Lənkəran şəhər komitəsində təşkilat şöbəsinin müdiri, sonra ikinci katibi, sonra birinci katib, daha sonralar Lənkəran şəhər icra hakimiyyəti başçısının müavini, sonra icra hakimiyyətinin başçısı… Azərbaycan Respublikası Milli Məclisinin deputatı… Mən iki dəfə onun qəbulunda olmuşam, hörmətlə qarşılayıb, amma deyim ki, qarşımda icra başçısını yox, yazıçını görmüşəm. İcra başçısı olanda «Beş dəqiqəlik yol» hekayələr, povestlər kitabının əlyazmasını mənə təqdim etdi, o kitaba ön söz də yazdım... Öz hekayə və povestlərinin xeyirxah qəhrəmanlarına oxşayan Yaşar Rzayev Lənkəranda bir başçı kimi də nüfuz qazanıb. Amma yaradıcılığında doxsanıncı illərdən başlayan o «sükunət», təbii ki, onun yaradıcılığında daha irəli getməyinə öz təsirini göstərib. Bir də fikirləşirəm ki, əgər Yaşar Rzayev partiya-sovet hakimiyyəti, sonra müstəqillik illərində birinci katib və başçı kimi özünü doğrultmuşsa, bu da elə əsl yazıçılıq kimi xalqa xidmət nümunəsidir.

Təbii ki, rəhbər vəzifədə olanların heç də hamısı sona qədər ali kürsülərdə oturammaz. Yaşar Rzayev də elə. Amma o, iyirmi illik «sükunəti» çox tezliklə aradan qaldırdı, yenə qələm, yenə kağız, yenə özünü yaradıcı insan kimi təsdiq etmək. «Dünya mənim» kimi maraqlı bir roman meydana gəldi.

Və birdən Yaşar Rzayevin filologiya elmləri namizədi kürsüsünə qalxdığını eşitdim. O, Azərbaycan Pedaqoji Universitetində XIX əsr ədəbiyyatından mühazirələr oxudu, bir pedaqoq və alim kimi də özünü təsdiq etdi. Onun namizədlik işi Azərbaycan romanının sovet dövrü illərini əhatə edirdi və Yaşar Rzayev sovet ideologiyasının romanlarımıza təsirindən söz açdı, siyasət və ədəbiyyatın qovuşduğu və ayrıldığı məqamları təhlil hədəfinə çevirdi. Namizədlik dissertasiyasını kitab halında da çap etdirdi. «Dünənə necə baxmalı» kitabında isə vaxtilə ən gözəl romanlarımızın «tənqidinə» həsr olunmuş yazıların müəllifləri ilə polemikaya girişdi. Öyrəndim ki, Yaşar Rzayevin doktorluq dissertasiyası da hazırdır, amma… «səksən yaşım var, gecdir bu yaşda doktor olmaq» deyir.

Bəli, Yaşar Rzayev 80 yaşına gəlib çatdı. O, elmlər doktoru olacaqmı, eybi yox, olmasın, özü bilən məsləhətdir, amma çox istərdim ki, keçən əsrin yetmiş-səksəninci illərinin ən maraqlı hekayələrinin müəllifi kimi yenə gözəl hekayələr qələmə alsın...

***Vaqif YUSİFLİ***

# ♦Kitab rəfi




**AŞIQ ƏLƏSGƏR**
**“LİRİKA”**
**BAKI, “ZƏRDABİ NƏŞR” MMC, 2021**

Aşıq Ələsgərin (1821-1926) anadan olmasının 200 illik yubileyi münasibətilə Azərbaycan Aşıqlar Birliyi tərəfindən aşığın “Lirika” kitabı nəşr olunub.

Kitab Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan şifahi xalq ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Məhərrəm Qasımlının “Ələsgərəm, hər elmidən halıyam...” başlıqlı əhatəli ön sözü ilə işıq üzü görüb.

Kitabı nəşrə hazırlayanlar Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi Məhərrəm Qasımlı və Azərbaycan Aşıqlar Birliyinin katibi, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğludur.

Dörd bölmədən ibarət kitabda “Gəraylılar”, “Qoşmalar”, “Təcnislər” və “Müxəmməslər” yer alıb. Həmçinin aşığın şeirlərində işlədilmiş arxaizmlərin və ərəb-fars mənşəli sözlərin lüğəti verilib. İlk dəfə olaraq bu topluda aşığın şeirlərinin hansı aşıq havası üstə oxuna bilməsi barədə örnəklər göstərilib.




**“AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİ”**
**10 - III CİLDİ**
**BAKI, “ELM” NƏŞRİYYATI, 2021**

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən “Azərbaycan ədəbiyyatı tarixi” oncildliyinin üçüncü cildi nəşr edilib. “Orta əsrlər Azərbaycan ədəbiyyatı (XIII-XVI əsrlər)” bölməsini əhatə edir. Kitabın birinci fəsli “XIII-XIV əsrlər Azərbaycan ədəbiyyatı”, ikinci fəsli “XV əsr Azərbaycan ədəbiyyatı”, üçüncü fəsli “XVI əsr Azərbaycan ədəbiyyatı”nı əhatə edir.

“Azərbaycan ədəbiyyatı tarixi” kitabının üçüncü – “Orta əsrlər Azərbaycan ədəbiyyatı (XIII-XVI əsrlər)” cildində anadilli bədii yaradıcılığın ilk nümunələrinin araşdırılması zamanı bu ədəbiyyatın həm ümumtürk qaynaqları, həm də Yaxın və Orta Şərq ədəbiyyatı ənənələri nəzərə alınıb. Orta əsrlər türkdilli və farsdilli Azərbaycan şairlərinin yaradıcılığı hərtərəfli tədqiq edilməklə bərabər, Məhəmməd Füzulinin təkraredilməz sənət incilərinin çağdaş ədəbiyyatşünaslıq elminin nailiyyətləri səviyyəsində interpretasiyasına xüsusi önəm verilib.




**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU**
**“MUXTAR AUEZOV HƏYATI VƏ YARADICILIĞI”**
**BAKI, “ELM VƏ TƏHSİL” NƏŞRİYYATI, 2021**

Monoqrafiyada qazax ədəbiyyatının görkəmli nümayəndəsi Muxtar Auezovun (1897-1961) həyatı və yaradıcılığı elmi cəhətdən dəyərləndirilir. Ədibin ömür yolu, ictimai fəaliyyəti və yaradıcılığının əsas sahələri tədqiqat obyektinə çevrilmişdir.

Türk xalqları ədəbiyyatı şöbəsində hazırlanmış kitab “Sənətkarın elmi pasportu” seriyasında işıq üzü görən on səkkizinci nəşrdir. Monoqrafiya akademik İsa Həbibbəylinin “Böyük vətəndaş yazıçı və görkəmli ictimai xadim” başlıqlı ön sözü ilə çap olunub.




**TƏYYAR SALAMOĞLU**
**XIX ƏSRİN SONU, XX ƏSRİN ƏVVƏLLƏRİ AZƏRBAYCAN ƏDƏBİYYATININ AKTUAL PROBLEMLƏRİ**
**BAKI, “ELM VƏ TƏHSİL” NƏŞRİYYATI, 2021**

Dərs vəsaiti müəllifin XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatına dair tədqiqatlarını əhatə edir. Kitabda milli tənqidi realizmin C.Məmmədquluzadə, M.S.Sabir, marifçi realizmin Ə.Haqqverdiyev, N.Nərimanov, İ.Musabəyov, S.M.Qənizadə, romantizmin A.Şaiq, C.Cabbarlı, Ə.Cavad, U.Sadıqzadə kimi nümayəndələrinin yaradıcılığı, ədəbi tənqidin aparıcı simalarından F.Köçərli, S.Hüseyn, Ə.Hüseynzadənin irsi yeni metodoloji konsepsiya əsasında araşdırılmışdır. Dərs vəsaitində milli tənqidi və marifçi realizimlərin, romantizmin yeni estetik prinsiplərinin müəyyənləşdirilməsi istiqamətində də əsaslı fikirlər irəli sürülmüşdür.




**SƏKİNƏ NAĞIZADƏ**
**ƏŞRƏF VEYSƏLLİNİN POETİK DÜNYASI**
**SUMQAYIT. “AZƏRİ POLİQRAFİYA”, 2021**

Monoqrafiyada şair-publisist, Prezidentin fərdi təqaüdcüsü Əşrəf Veysəllinin yaradıcılıq yolu, Sumqayıt ədəbi mühitində onun yeri və rolu, poeziyasının sənət keyfiyyətləri elmi-nəzəri səviyyədə araşdırılıb.




**CAVAD ZEYNAL**
**DAŞ ÇİÇƏK**
**BAKI, “ORXAN” NPM, 2021**

Kitabda şairin son illərdə yazdığı şeirləri və “Mələk dizi” adlı hekayəsi yer alıb. Şairin şeirlərində vətənpərvərlik duyğuları maraqlı poetik dillə ifadə olunub. Yurd sevgisi, yurd həsrəti şeirlərin əsas mövzusudur.

*Çəkilmək bilmədi yurd həsrətimiz,*
*Bağrımız bu həsrət közündə bişdi.*
*Öyrəşə bilmədik şəhərlərə biz,*
*Qırıldıq, qəbrimiz şəhərliləşdi.*